İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ İYİRMİNCİ KİTAB

## MAY 2022 - İYUL 2022

AZƏRNƏŞR
BAKI - 2022

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR • NİTQLƏR
## BƏYANATLAR • MÜSAHİBƏLƏR
## MƏKTUBLAR • MƏRUZƏLƏR
## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2022

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2022, 384 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri, bu səfər çərçivəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Türkiyə Prezidentinin Bakıda keçirilən «TEKNOFEST Azərbaycan» Aerokosmik və Texnologiya festivalında iştirakına dair materiallar verilmişdir.

Bu cilddə dövlət başçısının Özbəkistan Respublikasına rəsmi səfərinə, səfər zamanı imzalanan sosial infrastruktur, iqtisadi və ticari sənədlərə aid materiallar, o cümlədən Daşkənddə Heydər Əliyev Meydanının açılışı mərasimində geniş məzmunlu nitqi yer almışdır.

Həmçinin bu cilddə dövlət başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfərlərinə, Silahlı Qüvvələr Günündə Kəlbəcərdə komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirakına, Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlığına aid materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Ə $\frac{0801000000}{M – 651(07) – 2022}$** **BBK - 32**

© Azərnəşr, 2022

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Müstəqillik Günü münasibətilə ziyarət etmişdir.*

*Dövlət başçısı abidənin önünə gül dəstəsi qoydu.*

* * *

*104 il əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsindən – Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.*

*Yeni qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi*

*vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarif və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.*

*Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insan bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək, irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi, dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.*

*XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşmuş Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu. Ulu öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan döv-*

*lətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.*

*Ümummilli liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz bu siyasət nəticəsində bu gün müasir Azərbaycan 104 il əvvəl Xalq Cümhuriyyəti qurucularının arzuladığı, xəyal etdiyi qüdrətli dövlətə, dünyada söz və nüfuz sahibinə çevrilib. Fəxrlə qeyd edə bilərik ki, hazırda Azərbaycan dünyanın müstəqil siyasət yürüdən azsaylı ölkələrindən biridir. Bir sözlə, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik və qətiyyətli siyasət sayəsində müstəqilliyimiz əbədi, dönməz xarakter alıb.*

*Prezident İlham Əliyev müsəlman Şərqində ilk parlamentli respublika olan Cümhuriyyətin irsinin təbliğini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan olundu və Cümhuriyyətin 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul olunmuş «Müstəqillik Günü haqqında» Qanunla mayın 28-i Müstəqillik Günü elan edildi.*

*Azərbaycan xalqı ikinci ildir ki, 28 May – Müstəqillik Gününü qalib xalq kimi qarşılayır. Bu əziz bayram erməni işğalından azad edilmiş torpaqlarımızda da qeyd olunur. Üçrəngli bayrağımız işğaldan azad edilmiş ərazilərimizdə qürurla dalğalanır. Müzəffər Ali Baş Komandan İlham Əliyev ənənəsinə sadiq qalaraq, mayın 27-də – Müstəqillik Günü ərəfəsində Zəngilana səfər etdi. Rayonun Ağalı kəndində «Ağıllı kənd» layihəsinin birinci mərhələsinin*

*açılışı oldu. Bununla da «Böyük Qayıdış» adlanan prosesə start verildi. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri də məhz siyasi-iqtisadi müstəqilliyimizin nəticəsi, dövlətimizin gücünün göstəricisidir. Doğrudan da Azərbaycan tarixin heç bir dövründə indiki qədər güclü və qüdrətli olmayıb.*

*Bu gün Müstəqillik Günü xüsusi əhval-ruhiyyə, böyük sevinc və qürur hissi ilə qeyd olunur. Qardaş ölkənin – Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu əlamətdar gündə Azərbaycana gəlməsi və Müstəqillik Günündə xalqımızla bərabər olması milli bayramımıza xüsusi dəyər qatır, Azərbaycan–Türkiyə qardaşlığını bütün dünyaya bir daha nümayiş etdirir.*

*Müstəqil Azərbaycan hər birimizin qürur mənbəyidir. Müstəqillik ən böyük dəyərimiz və sərvətimizdir. Xalqımız qanı-canı bahasına əldə etdiyi bu sərvəti əzmlə qoruyur və əbədi qoruyacaqdır.*

## TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Hulusi Akarın səfərinin hərbi sahədə əməkdaşlığımızın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Türkiyənin Milli Müdafiə naziri 28 May – Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dövlət başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Qeyd edildi ki, bu bayram günündə də bir yerdə olmağımız qardaşlıq rəmzidir. Söhbət zamanı Bakıda keçirilən «TEKNOFEST Azərbaycan» festivalının önəminə toxunuldu və bu tədbir yüksək səviyyəli münasibətlərimizin bariz nümunəsi kimi qiymətləndirildi.*

*Görüşdə digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığımızın uğurla davam etdiyi qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÖLKƏMİZƏ SƏFƏRİ

*28 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Türkiyə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı 28 May – Müstəqillik Günündə Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə olması qardaşlığımızın rəmzi kimi qiymətləndirildi.*

*Dövlət başçıları Bakıda keçirilən «TEKNOFEST Azərbaycan» festivalının önəmini qeyd etdilər və bu tədbiri yüksək səviyyədə olan əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdilər. Görüşdə ikitərəfli münasibətlərin perspektivləri müzakirə edildi.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə nahar etdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ «TEKNOFEST AZƏRBAYCAN» AEROKOSMİK VƏ TEXNOLOGİYA FESTİVALINDA İŞTİRAK

*28 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Bakıda ilk dəfə keçirilmiş «TEKNOFEST Azərbaycan» Aerokosmik və Texnologiya festivalında iştirak etmişlər.*

*Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan «TEKNOFEST Azərbaycan» festivalının keçirildiyi məkana gəldilər.*

**Səlçuk Bayraktar** (*Türkiyənin «Baykar» şirkətinin texniki direktoru*): Hörmətli cənab Prezident! Hörmətli Prezidentim! Dəyərli qonaqlar!

«TEKNOFEST Azərbaycan»a xoş gəlmisiniz! Sizləri sevgi və hörmətlə salamlayıram.

TEKNOFEST müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir. Mənə dünən

ilk dəfə görmək nəsib olduğum işğaldan azad edilmiş qədim şəhərimiz Şuşada, Cıdır düzündə, o geniş düzdə azad şəkildə gəzərkən bu ruhu daha da dərindən hiss etdim. «TEKNOFEST-i niyə keçiririk?» – deyə soruşduğum universitet tələbəsi, gənc bir qız bu ruhu belə ifadə edərək dedi: «Dünya türkün gücünü görsün, yerini bilsin».

Biz də bu yola bu amalla çıxmışıq, TEKNOFEST-in şüarının artıq düşüncələrdə yer aldığını görürük. Bundan sonra üzərimizə düşən vəzifə türk nəsillərinin yolunu açmaq üçün dayanmadan çalışmaqdır. İnanıram ki, bu yarışlardan çıxacaq gənc qardaşlarım bu ruhdan aldıqları ilhamla irəliləyəcək, müstəqillik mübarizəsində ən öndə olacaqlar.

Hörmətli qonaqlar, «TEKNOFEST Azərbaycan»ın təşkilatçıları Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinə təşəkkür edir. Gecə-gündüz əməyi keçən Türkiyə Texnologiya Komandası Vəqfindəki heyətimiz və könüllülərimiz olmasaydı, bu qədər uğurlu bir TEKNOFEST sevincini yaşaya bilməzdik. Fəaliyyət göstərdiyi Amerikadan Bakıya gələrək, bizi və gənclərimizi şərəfləndirən Nobel mükafatı laureatı, görkəmli alimimiz Əziz Səncərə də ürəkdən təşəkkür edirik.

TEKNOFEST bayramında iştirak edən azərbaycanlı bacı və qardaşlarıma minnətdarlığımı bildirirəm. Qardaşlığımızı daha da gücləndirəcək TEKNOFEST-i himayə edən hörmətli cənab Prezident İlham Əliyev və hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan

başda olmaqla, dəstəyini əsirgəməyən bütün tərəfdaşlarımıza təşəkkürlərimi ifadə edirəm.

Can Azərbaycanın Müstəqillik Günü mübarək! Eşq olsun Azərbaycana! Eşq olsun Türkiyəyə!

**Ə z i z S ə n c ə r** (*Dünya şöhrətli türkiyəli alim, Nobel mükafatı laureatı, professor*): Hamınızı hörmət və məhəbbətlə salamlayıram. Bu gün Türk Dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 104-cü ildönümüdür. Bu münasibətlə bütün azərbaycanlı qardaşlarımızı, bütün Türk Dünyasını təbrik edirəm.

Əziz gənclər, Bakıda «TEKNOFEST Azərbaycan»da sizinlə bir yerdə olduğum üçün çox şadam. Sizin elm və texnologiya sahəsində çalışmaq istəyiniz məni çox xoşbəxt edir. Bir böyüyünüz olaraq, sizlərə əhəmiyyətli hesab etdiyim bir məsələ ilə bağlı tövsiyə vermək istəyirəm. Mən xərçəng xəstəliyi ilə bağlı çalışarkən Nobel mükafatı qazanım deyə işə başlamadım. Bu xəstəliyə qarşı bir dərman tapa bilərikmi deyə fəaliyyətə başladım. Həyatda və işlərinizdə yüksəlmək və ya mükafat almaq kimi məqsədlər üçün çalışmayın. Gördüyünüz hər işdə həmişə ən yaxşı olmağa çalışın. Ən önəmlisi insanlığa və Vətəninizə töhfə verməyə çalışın. Dürüst, əxlaqlı və ədalətli olun. Əgər bu şəkildə çalışsanız, mütləq mükafatınızı alacaqsınız. Bundan başqa, gördüyünüz işlərdən duyduğunuz coşqunun sönməsinə izin verməyin. Fateh Sultan Məhmət İstanbulu fəth edərkən «Ya mən səni alacağam, ya da sən məni» dediyi kimi coşqu və həvəslə çalışın.

Əziz gənclər, Vətənimizi sevməkdən əsla vaz keçməyin. Vətəninizə, insanlarınıza fayda verməyən işlərin davamlı olmayacağını bilin. Mənim üçün ən önəmli amillərdən biri Türk Dünyasının inkişafı və türk gənclərinin elmdə ən ön sıralarda yer almasıdır. Mardin vilayətinin Savur rayonundan çıxan və oxuma-yazma belə bilməyən bir ailənin uşağına bu şansı verən millətimizə güvənin. Vətənimizin – Vətənimiz dediyim zaman mən həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam, onu da açıqlayım – yüksəlməsi üçün daha çox çalışın. İşlər qaydasında getmədikdə belə, düzəltmək üçün mübarizə aparın, inadkar olun və məğlubiyyəti əsla qəbul etməyin.

Mən 40 yaşıma qədər gündə ən az 18 saat işlədim. Gəncliyimdə çox gecəni laboratoriyada keçirdim. İndi də 12 saatdan az işləmirəm. Unutmayın, işləmək və insanlığa faydalı olmaqla siz özünüzü həmişə daha yaxşı hiss edəcəksiniz. İnsanlığa, ölkənizə xeyirli bir iş görmənin verdiyi məmnunluq həmişə daha xoşbəxt olmağınızı təmin edəcək.

Siz gəncləri elmə yönəldən bu festivalları təşkil edən qardaş və bacılarınıza çox təşəkkür edirəm. Bu elm festivallarına dəstək verən prezidentlərimiz Rəcəb Tayyib Ərdoğana və İlham Əliyevə ürəkdən təşəkkürlərimi bildirirəm. Hamınızı sevgi ilə salamlayıram. Allah yardımçınız olsun! Tanrı Türkü qorusun!

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan!

Əziz dostlar, bacılar və qardaşlar!

Bildiyiniz kimi, bu gün Azərbaycanda bayram günüdür, Müstəqillik Günüdür, bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşımın bizimlə bərabər olmasıdır. Xahiş edirəm, bütün Azərbaycan xalqı adından Türkiyə Respublikasının Prezidentini və onunla bərabər Azərbaycana gəlmiş bütün bacı-qardaşlarımızı səmimiyyətlə salamlayaq.

104 il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk Xalq Cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və 30 ildir Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Biz 30 il ərzində bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik. Bu gün də Türkiyə və Azərbaycan yenə də bir yerdədir. Biz iki həftə bundan əvvəl Türkiyənin gözəl yerlərindən biri olan Rizədə əziz qardaşımla bərabər idik, iki həftədən sonra Bakıda yenə də bərabərik. Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və

edəcəyik ki, qarşıda ancaq yaxşı günlər olsun. Türkiyə–Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər ki, Türkiyə və Azərbaycan bir yerdə inamla addımlarsa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında «Azərbaycan tək deyil, Türkiyə onun yanındadır» deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Xatırlayıram, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2021-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaqdır.

Keçən il iyunun 15-də – Milli Qurtuluş Günündə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzalayaraq, Türkiyə və Azərbaycan rəsmən

müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqlik özünü hər yerdə göstərir – siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün TEKNOFEST bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. TEKNOFEST elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, TEKNOFEST-də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar.

Türk Dünyasının böyük oğlu, dünya şöhrətli alim, Nobel mükafatı laureatı hörmətli Əziz Səncər də TEKNOFEST-in hörmətli qonağı qismində təşrif buyurub. Əziz bəylə keçən görüşümü xatırlayıram, mənə dedi ki, onun böyük arzusu olub hər zaman – Şuşaya getmək. Mənimlə görüşdən sonra Şuşaya getmişdir və bildirmişdir ki, artıq həyatda nəyə nail olmaq istəmişəmsə, ona nail olmuşam – Şuşanı da gördüm. Bu bizi də çox xoşbəxt etdi. Əziz Səncər kimi insanlar gənclər üçün örnəkdir, nümunədir – həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insan. Siz gənclər Əziz bəyə oxşamağa çalışmalısınız. Bu gün Səlçuk Bayraktarı səmimiyyətlə salamlamaq istəyirəm. Səlçuk bəy nəinki TEKNOFEST-in təşkilatçısı və təşəbbüskarıdır, Səlçuk bəy və Bayraktarlar ailəsi dünyada çox məşhur bir ailədir. İkinci Qarabağ savaşında məşhur «Bayraktar» PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Səlçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir

daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdır. Səlçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Səlçuk bəy kimi olmağa çalışacaqlar.

Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var – o da mənim qardaşım və mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq, böyük dünya çapında bir güc mərkəzinə çevrildik.

Türkiyənin uğurlu inkişafı ilk növbədə, Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.

Mən bir daha əziz qardaşım, hörmətli Prezidentə və Türkiyədən gəlmiş bütün dostlarımıza, qardaşlarımıza, bacılarımıza bu bayram günündə bizimlə bərabər olduqları üçün öz təşəkkürümü bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək.

Yaşasın Türkiyə–Azərbaycan birliyi, qardaşlığı! Qarabağ Azərbaycandır!

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli Prezident, əziz qardaşım!

Xanımlar və bəylər, əziz gənclər, hörmətli qonaqlar! Sizi ən səmimi duyğularımla, məhəbbətlə salamlayıram.

Can Azərbaycanın Müstəqillik Günündə sizinlə bərabər olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər dəyərli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq, Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm. İstiqlal və gələcək yolunda apardığımız şanlı mübarizələri şəhidlikləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və hörmətlə yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını behişt etsin. Rəbbim bizləri də şəhidlərimizin müqəddəs və mübarək yolundan ayırmasın.

İki həftə əvvəl Rizə–Artvin Hava Limanının açılışını əziz qardaşım hörmətli İlham Əliyev ilə birlikdə gerçəkləşdirmişdik. Bu gün isə küləyi sərt, insanı mərd bu gözəl paytaxt Bakıda bir başqa tarixi görüşə yenə birlikdə imza atırıq. Əziz qardaşım İlham Əliyevin timsalında Can Azərbaycanın mümtaz xalqına səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Xəzərin incisi Bakıda «Bir millət – iki dövlət, tək festival» şüarı ilə dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı – TEKNOFEST-i keçiririk. Bu qürurlu günümüzdə sevincimizi bölüşdüyü üçün dəyərli alimimiz Əziz Səncərə şəxsən öz

adımdan və millətim adından təşəkkür edirəm. Badi-Kubədən, küləklər şəhəri gözəl Bakıdan Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə mübarizə apardığı torpaqların hər qarışına, Natəvanın qəzəlinin eşidildiyi ovalıqlara, şəhidimiz Xudayar qardaşımın mahnı oxuduğu diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm. Bu gün bir daha burada nümayiş etdirilən əzəli və əbədi qardaşlığımızı Rəbbim daimi etsin.

Əziz qardaşlarım, bu il diplomatik əlaqələrimizin yenidən qurulmasının 30-cu ildönümünü böyük bir qürurla qeyd edirik. Ortaq tariximizdən aldığımız ilhamla aramızdakı dostluq və məhəbbəti daha da sağlamlaşdırır, birlik və bərabərliyimizi daha da möhkəmləndiririk. Diplomatik münasibətlərimiz 30 il əvvəl qurulsa da, taleyimizin birliyi tarixin dərinliklərinə qədər uzanmaqdadır. 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində ürəklərimiz və biləklərimiz ortaq mübarizəmizdə yenidən bərabər olmuşdur. Aramızdakı məhəbbətin gücünü mərhum Bəxtiyar Vahabzadənin bu gözəl misraları ilə ifadə etmək istəyirəm:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan, Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan, Türkiyə.

Bəli, bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq. Göylərdə nazlı-nazlı dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq. Eynilə Anadolu kimi, bura da bizim torpağımızdır. Eynilə Türkiyə kimi, bura da bizim Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura da bizim öz yurdumuzdur. Eyni qaydada Türkiyənin hər bir qarışı da sizlərin Vətəniniz, yurdunuzdur. Türk millətinin qəlbindəki Azərbaycan sevgisini kim qoparıb ata bilər? Qardaşlar arasında kim məsafə qoya bilər? İki qardaşı hansı hüdud ayıra bilər? Könüllərimiz arasında kim sərhəd çəkə bilər?

Ellərin yurdunda çiçək açarkən
Bizim elə qar gəlir, qardaşım.
Bu hüdudu kimlər çəkib könlümə,
Dar gəlir, dar gəlir, qardaşım.

Bəli, biz könüllərimizə çəkilən hüdudları yıxaraq bu gün burada birlikdəyik. Qərbdən Şərqə qədər harada bir qardaşımız varsa, ora bizim evimiz, yurdumuz, könül coğrafiyamızın ayrılmaz bir parçasıdır. Türkiyə və Azərbaycan olaraq, bu anlayışla əlaqələrimizi, şükür olsun, əvvəlcə strateji tərəfdaşlıq, keçən il də Şuşa Bəyannaməsi ilə strateji müt-

təfiqlik səviyyəsinə çatdırdıq. Enerjidən mədəniyyətə, müdafiədən ticari, iqtisadi və bəşəri münasibətlərə qədər uzanan geniş bir sahədə güclü əməkdaşlıqlar qurduq. Burada Səlçuk qardaşıma, onun böyük qardaşına, Bayraktar ailəsinə təşəkkür edirəm. Xüsusi vurğulamaq istəyirəm ki, silahlı pilotsuz uçuş aparatlarının zirvə nöqtəsi olan «Akıncı» PUA-ları İstanbuldan buraya fasiləsiz uçuş həyata keçirməklə rekorda imza atdı. İnşallah, uğurlarımız daha çox olacaq və onları da görəcəyik.

İlham qardaşımın da misilsiz töhfələri ilə ikitərəfli əlaqələrimizi təkcə bölgəyə deyil, bütün dünyaya nümunə ola biləcək bir səviyyəyə çatdırdıq. Gələcəyimiz olan gənc nəsillərin ölkələrimiz arasında bütün sahələrdəki nümunəvi əməkdaşlığı daha da inkişaf etdirəcəklərinə inanıram. Səfərimin Azərbaycanın qədim şəhərinə həsr olunmuş «Şuşa ili»ndə gerçəkləşməsi də xüsusi məna daşıyır. Sizlərdən əziz şəhidlərimizin şanlı mirasına lazım gəldikdə canınız bahasına da olsa, sahib çıxmağınızı gözləyirəm. Əziz gənclər, bu gün buraya aramızdakı məhəbbətin göstəricisi olaraq, geniş heyətlə gəldik. Hər birinizə qəlbi sizinlə döyünən gənclərimizin salamını gətirdim. Sizlərə «Can Azərbaycan» deyəndə, «Qarabağ» deyəndə ürəyində fırtınalar qopan 85 milyonun salamını gətirdim. Sizlərə əllərini hər dəfə səmaya açanda Azərbaycanın firavanlığı və sabitliyi üçün dua edən Türkiyədəki qardaşlarınızın salamını gətirdim. Sizlərə Azərbaycan nəğmələri ilə sevinən, Azərbaycan ağıları ilə hüznlənən milyonlarla dostunuzun, qardaşınızın salamını gətirdim. Sizlərə bölgəsində sa-

bitlik abidəsi olaraq yüksələn Azərbaycan ilə həmrəyliyimizin xüsusi ifadəsi kimi, gələcəyə zəfər dolu həyəcanla, coşqu ilə birgə addımlamağın anlam və mənasını gətirdim. Qarşılaşdığı bu qədər haqsızlığa, ədalətsizliyə baxmayaraq, diplomatiyada, iqtisadiyyatda, mədəniyyətdə dastan yazan Azərbaycan ilə fəxr edirik. Qardaşım İlham Əliyevin qətiyyətli liderliyi ilə Can Azərbaycanın aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyini məmnuniyyətlə görürük. Sizlərə bu il anadan olmasının 130-cu ilində rəhmətlə andığım Azərbaycanın milli şairi Əhməd Cavadın bu sözləri ilə müraciət etmək istəyirəm:

Mən Türk övladıyam, dərin ağlım, zəkam var,
Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?
Nə qədər ki, hakimlik var, məhkumluq var,
mən varam.
Zülmə qarşı üsyankaram, əzilsəm də susmaram!

Bəli, biz haqsızlıq qarşısında susanlardan olmadıq və olmayacağıq. Fürsətdən istifadə edərək, Heydər babamızı da rəhmətlə yad edirəm. Məkanı cənnət olsun. Biz təzyiqlə, təhdidlə qorxudulanlardan olmadıq, əsla olmayacağıq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq. Bizim heç kimin torpağında, ərazi bütövlüyündə gözümüz olmadığı kimi, xəbis niyyətlilərə verəcək bir qarış torpağımız da yoxdur və olmayacaq. Çünki biz təsadüflərin bir araya gətirdiyi insanlar deyil, tarixi, mədəniyyəti və mədəni dəyərləri ilə se-

çilən böyük bir millətin övladlarıyıq. Harada zülm, haqsızlıq, ədalətsizlik varsa, səsini ucaldan, bütün gücü ilə mübarizəyə qalxan ürəkli bir millətin nümayəndələriyik. Qarabağ Zəfəri millətimizin qəhrəmanlıq dastanlarının ən son örnəyidir. Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab Əliyevin qətiyyətli mövqeyi sayəsində Qarabağ 30 il sonra əsarətdən qurtulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin igid mənsubları Qarabağda tarixdə bənzərinə az rast gəlinən böyük bir Zəfərə imza atmışlar. Bu məqam çox həssasdır, 44 günlük Vətən müharibəsi ağıl, texnologiya və cəsarət bir araya gəldikdə nələrin edilə biləcəyini bütün dünyaya göstərdi. Bu prosesdə Azərbaycan ilə paylaşdığımız müdafiə sənayesi məhsullarımızın uğuruna bütün dünya şahid oldu. Müdafiə sənayesi məhsullarında çatdığımız səviyyə önəmlidir. Amma qarşımızda qət ediləcək hələ çox məsafə vardır. Hər məsələdə olduğu kimi, müdafiə sənayesində də gənclərimizin biliklərinə, enerjisinə, əzminə, səylərinə güvənirik. TEKNOFEST məhz bu güvənin rəmzi olan bir tədbirdir.

Bu gün TEKNOFEST-i ölkə xaricində ilk dəfə Can Azərbaycanda təşkil etməyin həyəcanını və haqlı qürurunu sizinlə bölüşürük. Bura Azərbaycan gəncliyinin bacarığını, istedadını nümayiş və inkişaf etdirməsi üçün önəmli bir platformadır. TEKNOFEST yarışlarında öz işləri ilə fərqlənən siz gənclərimiz sabahın pilotsuz uçuş aparatlarını, süni zəkalarını, rəqəmsal texnologiyalarını istehsal edən və inkişaf etdirən alimləri olacaqsınız. Azərbaycan ilə birlikdə hələ neçə layihələrdə gənclərimizə yeni

üfüqlər açmağı və milli texnoloji həmləmizi birlikdə reallaşdırmağı davam edəcəyik.

«TEKNOFEST Azərbaycan»da Türk Dövlətləri Təşkilatını təmsil edən qonaqlarımızın da yer alması məmnunluğumu daha da artırır. Türk Dünyasının ən müasir texnologiyalar istehsal edəcək gənc nəsillərlə mühüm nailiyyətlər əldə edəcəyinə ürəkdən inanıram. TEKNOFEST-çilər bu günə qədər Türkiyədə son dərəcə gözəl layihələrə imza atıblar. Azərbaycanda da eyni uğuru əldə edəcəyimizə şübhə etmirəm. Türk Dövlətləri Təşkilatının da belə platformalarda təməlləri qoyulacaq yeni və daha böyük əməkdaşlıqlarla ortaq gələcəyimizdə daha güclü bir mövqeyə çatacağına inanıram.

Hörmətli Prezidentim, dəyərli qardaşım, sevgili gənclər, parlamentlərimizdə təsdiqlədiyimiz Şuşa Bəyannaməsində bildirdiyimiz kimi, müdafiə sənayesi sahəsində ortaq araşdırma və istehsal fəaliyyətlərinin reallaşdırılması istiqamətində səylərimiz qətiyyətlə davam edir. Hər sahədə olduğu kimi, kosmos və aviasiya sahələrində də Azərbaycan ilə sıx əməkdaşlıq edəcəyik. Türk Dövlətləri Təşkilatı çərçivəsində qardaş ölkələrimizdəki kosmos agentlikləri və müvafiq nazirliklər bir araya gəlirlər. Artıq bu torpaqlarda uğur, sülh və inkişaf hekayəsi yazmağın vaxtıdır. Keçmişdən və əvvəlki illərdə yaşadığımız acılardan dərs çıxaran bölgə xalqları olaraq, hamımız gələcəyi birlikdə inşa etməliyik.

Müharibədə olduğu kimi, sülh dönəmində də Azərbaycanın yanındayıq. Regionda sülh və sabitlik üçün əziz qardaşım Əliyevin Ermənistanla qur-

maq istədiyi dayanıqlı sülhü Türkiyə olaraq, fəal şəkildə dəstəkləyirik.

Azərbaycanın bütün sahələrdə inkişaf yolunda nümayiş etdirdiyi uğurlara şəxsən şahidlik edirəm. Qarabağda və Şərqi Zəngəzurda Türkiyənin də rol aldığı bərpa-quruculuq işləri ilə «Böyük Qayıdış» üçün daimi şərait yaradılır. Atalarımızın dediyi kimi, nə əkərik, onu biçərik.

Biz illərdir minalanmış bu torpaqlara artıq inkişafın, tərəqqinin, rifahın, sülhün toxumlarını əkirik. Qarabağın dünyaya açılan qapısı Füzuli Beynəlxalq Hava Limanını keçən il qardaşım İlham Əliyev ilə birlikdə açmışdıq. İndi sırada Zəngilan və Laçındakı hava limanları layihələri var. Ağdam Sənaye Parkı və «Araz Vadisi İqtisadi Zonası» Sənaye Parkı da işğaldan azad olunmuş torpaqlardakı potensialdan istifadə edilməsinə imkan verəcək. Bu bölgələrdə «ağıllı kənd»lərin qurulması ilə bağlı layihələrdə birlikdə çalışırıq, qarşıdakı dövrdə də çalışmaqda davam edəcəyik.

Əziz qardaşımın da dediyi kimi, bölgəmizdə yeni bir səhifə açmağın vaxtı çatıb. Hədəfimiz dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgəmizdə sabitliyin möhkəmləndirilməsidir. Bu hədəflərimizin həyata keçirilməsi üçün Azərbaycan ilə sıx həmrəylik, təmas və koordinasiyamızı davam etdirəcəyik.

Allah yolumuzu, bəxtimizi açıq etsin. Bu düşüncələrlə bu gözəl festivalın keçirilməsində əməyi olan bütün qurumlarımıza təşəkkür edirəm. «TEKNO-

FEST Azərbaycan»ın qardaş ölkələrimizə bir daha xeyirli olmasını Rəbbimdən arzu edirəm. Bu gözəl festivalın təşkilinə görə Azərbaycanın aidiyyəti qurumları ilə yanaşı, Sənaye və Texnologiya Nazirliyimizə və T3 Vəqfinin rəhbərliyinə, iştirakçı gənclərimizə və əməyi olan hər kəsə təşəkkürlərimi bildirirəm. Hamınızı hörmət və sevgi ilə salamlayıram. Salamat qalın.

* * *

*Çıxışlardan sonra festivalın müxtəlif müsabiqələr üzrə qaliblərinin mükafatlandırılma mərasimi oldu.*

*Mükafatları qaliblərə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və Nobel mükafatı laureatı professor Əziz Səncər təqdim etdilər.*

*Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və görkəmli alim Əziz Səncər xatirə fotosu çəkdirdilər. Dövlət başçılarına və Əziz Səncərə «TEKNOFEST Azərbaycan» festivalının xatirə hədiyyələri təqdim olundu.*

*Xanımlar – Mehriban Əliyeva və Əminə Ərdoğan, həmçinin Sümeyyə Bayraktar və Arzu Əliyeva xatirə fotoları çəkdirdilər.*

*Mərasimdən sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan sərgi zonasındakı pavilyonlarla tanış oldular. «TEKNOFEST Azərbaycan» Aerokosmik və Texnologiya festivalı çərçivəsində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə keçirilmiş aviaşou*

*bu mötəbər tədbirin ən yaddaqalan hadisələrindən biri oldu.*

*Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan, xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, qardaş ölkələrimizin rəsmi nümayəndə heyətləri və festival iştirakçıları aviaşou izlədilər.*

## «ASAN XİDMƏT» VƏ «BİLİM BAKI» MƏRKƏZLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Bakıda 7 saylı «ASAN xidmət» və «Bilim Bakı» mərkəzlərinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçılarına məlumat verildi ki, paytaxtda tikilmiş yeni «ASAN həyat» Kompleksi üç hissədən ibarətdir. Kompleksdə 7 saylı Bakı «ASAN xidmət» Mərkəzi və INNOLAND, «Bilim Bakı» Mərkəzi və ASAN İnnovativ İnkişaf Mərkəzi, həmçinin Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Aparatının yeni inzibati binası yerləşir.*

*Bildirildi ki, tikintisinə 2019-cu ildə başlanılmış kompleksin iki hissəsi – «ASAN xidmət» Mərkəzi və INNOLAND, «Bilim Bakı» və ASAN İnnovativ İnkişaf mərkəzlərinin inşası 2022-ci ilin mayında başa çatdırılıb. Üçüncü hissə isə cari ilin sonunadək hazır olacaqdır.*

*Kompleksdə yerləşən «ASAN xidmət» Mərkəzi Bakıda 7-ci, ümumilikdə ölkə üzrə 23-cü mərkəzdir. Mərkəz Bakıda xidmətlərə artan ciddi tələbat nəzərə*

*alınaraq inşa edilib və ərazi məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərəcək. Ümumilikdə 288 əməkdaşın və 50 könüllünün çalışacağı mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 325-dən çox xidmət həyata keçiriləcəkdir.*

*Mərkəzdə ABAD publik hüquqi şəxsin sayca 11-ci etnobutiki, habelə 2-ci INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti də nəzərdə tutulur. Fəaliyyətə 2018-ci ilin noyabrından başlayan INNOLAND tərəfindən bu günədək inkubasiya dövründə 50, akselerasiya dövründə isə 36 «startap» ilə iş həyata keçirilir. INNOLAND Türkiyə, Macarıstan, Makedoniya, Koreya Respublikası, ABŞ, Almaniya, Litva və Estoniya kimi ölkələrdən olan təşkilatlarla beynəlxalq əməkdaşlıq qurub.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan «ASAN xidmət» və «Bilim Bakı» mərkəzlərini işə saldılar.*

*Sonra dövlət başçıları «Bilim Bakı» Mərkəzi ilə tanış oldular. Məlumat verildi ki, bu mərkəz Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə təsisçisi Səlçuk Bayraktar olan Türkiyə Texnologiya Komandası Vəqfi arasında imzalanmış əməkdaşlıq barədə protokola əsasən yaradılıb. Mərkəzin fəaliyyəti ümumtəhsil mərkəzlərinin 6–14 yaş arası şagirdlərinin elmə, innovasiya və texnologiyaya marağını və biliklərini artırmağa yönəlib, elmi biliklərin təcrübədə necə tətbiq olunduğunu müşahidə etmək imkanı yaradır. Mərkəzdə hər biri 20 şagird-yerlik 6 laboratoriya fəaliyyət göstərəcək. Bunlar təbiət elmləri,*

*texnologiya, riyaziyyat, astronomiya, kosmos və aviasiya, dizayn və sahibkarlıq laboratoriyalarıdır.*

*Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan laboratoriyalarda təcrübə aparan şagirdlərlə söhbət etdilər. Bildirildi ki, «Bilim Bakı» Mərkəzində perspektiv ehtiyacları nəzərə alan, layihə əsaslı, gündəlik həyat problemlərinin həllinə yönələn və şagirdlərə XXI əsrin bacarıqlarına yiyələnmək imkanı verən «Dene-yap Texnologiya» proqramı həyata keçiriləcək. Burada 11 əməkdaş fəaliyyət göstərəcək və Türkiyə Texnologiya Komandası Vəqfinin təlim proqramı əsasında tədris aparılacaq. Müvafiq təlim proqramı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılıb.*

*Kompleksdə ASAN İnnovativ İnkişaf Mərkəzi də fəaliyyət göstərəcək. Bu mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında vətəndaşlara xidmət sahəsində kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə töhfə vermək, bilik və bacarıqların artırılması istiqamətində təlimlər həyata keçirməkdir.*

*Dövlət başçılarına məlumat verildi ki, Azərbaycanın intellektual brendi olan ASAN konsepsiyası həm də ixrac səbətində yer alır. Agentliyin ekspertləri tərəfindən müxtəlif ölkələrdə təlimlər keçirilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilir. İndiyədək Dövlət Agentliyi və tabeliyindəki qurumlar öz fəaliyyətləri çərçivəsində 15 ölkə və 2 beynəlxalq təşkilatla müqavilələr imzalayıblar.*

*Sonda Azərbaycan və Türkiyə prezidentlərinə xatirə hədiyyələri təqdim olundu.*

*Hazırda Azərbaycanda 22 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir, 5-nin isə inşası davam etdirilir. Bu günədək «ASAN xidmət» mərkəzlərinə 8 milyon 88 mindən çox vətəndaşın 52 milyondan çox müraciəti daxil olub. Regionlarda 10 səyyar «ASAN xidmət» avtobusu və səyyar «ASAN qatar» vasitəsilə də vətəndaşlara xidmətlər göstərilir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZORAN MİLANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Xorvatiyanı dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri birləşdirir. Xoş ənənələrə əsaslanan əlaqələrimizin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlığın möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əsasda səmərəli işbirliyimizin genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl surətdə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Xorvatiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2022-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SEYİD İBRAHİM RƏİSİYƏ**

Hörmətli cənab Prezident!

Abadan şəhərində onmərtəbəli binanın çökməsi nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2022-ci il*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ MAYA SANDU İLƏ TELEFONLA GÖRÜŞ

*30 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 30-da Moldova Respublikasının Prezidenti Maya Sandu telefonla zəng etmişdir.*

*Söhbət əsnasında Moldovanın dövlət başçısı Maya Sandu Prezident İlham Əliyevi və Azərbaycan xalqını 28 May – Müstəqillik Günü münasibətilə təbrik etdi və ən səmimi arzularını çatdırdı.*

*Dövlət başçımız təbriklərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı ikitərəfli əməkdaşlıq məsələlərinə toxunuldu, enerji, iqtisadi və ticari əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı. Həmçinin regional və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.*

## ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ LAURA LOXMAN İLƏ GÖRÜŞ

*31 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul etmişdir.*

*Söhbət zamanı «Cənub Qaz Dəhlizi»nin fəaliyyətinə toxunuldu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və qazla təmin olunmasının şaxələndirilməsində rolu vurğulandı. Ölkəmizdən Avropaya qaz ixracının artırılması ilə bağlı fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, Bakı–Tbilisi–Ceyhan layihəsinin reallaşdırılmasında ABŞ Hökumətinin Azərbaycana verdiyi daimi dəstək yüksək qiymətləndirildi. Azərbaycanda elektrik enerjisi və bərpa olunan enerji sahəsində həyata keçirilən genişmiqyaslı işlərdən danışıldı.*

*Söhbət zamanı Bakıda ənənəvi keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəmi qeyd edildi və bu tədbirin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi bildirildi.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*31 may 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Söhbət zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli razılaşmalarının regionda dinc həyatın nizamlanması və sabitliyin möhkəmləndirilməsi, iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı konkret məsələlərin həlli xüsusi qeyd olunmaqla icrasının gedişi nəzərdən keçirildi.*

*Prezident İlham Əliyev mayın 22-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü barədə məlumat verdi.*

*Söhbət zamanı iqtisadi-ticari sahədə ikitərəfli əməkdaşlığın bir sıra aktual aspektləri müzakirə edildi. Hər iki tərəfin Rusiya–Azərbaycan strateji tərəfdaşlığının, o cümlədən Azərbaycan Prezidentinin 2022-ci ilin fevralında Moskvaya rəsmi səfərinin yekunları nəzərə alınmaqla, bundan sonra da dərinləşdirilməsi əzmində olması təsdiq edildi.*

## SERBİYA RESPUBLİKASININ BAŞ NAZİR MÜAVİNİ, MƏDƏN VƏ ENERGETİKA NAZİRİ ZORANA MİXAYLOVİÇ İLƏ GÖRÜŞ

*1 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Serbiya Respublikasının Baş Nazir müavini, Mədən və Energetika naziri Zorana Mixayloviçi qəbul etmişdir.*

*Zorana Mixayloviç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

*Zorana Mixayloviç azad edilmiş torpaqlarımızdakı dağıntılar barədə məlumatlı olduğunu bildirərək, bununla əlaqədar ölkəmiz və xalqımız naminə görülən işlər, o cümlədən azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı yenidən qurulma layihələri ilə bağlı dövlət başçımızı təbrik etdi.*

*Qonaq Azərbaycan şirkətlərinin Serbiyada uğurla fəaliyyət göstərdiyini vurğuladı.*

*Dövlət başçısı işğal dövründə ermənilərin torpaqlarımızda törətdiyi böyük dağıntılardan danışdı.*

*Söhbət zamanı 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin regional və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirildi, Zorana Mixayloviçin sərgidə iştirakının önəmi qeyd edildi.*

*Görüşdə ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı, energetika, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Zorana Mixayloviç Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

## «BAKI ENERJİ HƏFTƏSİ»NİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi və forum iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi bir neçə enerji tədbirini özündə birləşdirən «Bakı Enerji Həftəsi»nin açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı və ölkələrinizin tərəqqisi naminə gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Xəzər regionunda neft-qaz sahəsinin və enerji sektorunun ən mötəbər tədbiri olan «Bakı Enerji Həftəsi» 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisini, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisini və Xəzər Neft və Qaz Konfransının xələfi olan Bakı Enerji Forumunu özündə birləşdirir.

«Bakı Enerji Həftəsi» Azərbaycan hökumətinin uğurla mübarizə apardığı pandemiyanın yaratdığı ikiillik fasilədən sonra yenidən təşkil olunur. Həm canlı görüşlər, həm də bölgənin sənaye liderləri ilə canlı dialoq sərgi və forumun əhəmiyyətini daha da artırır. Builki «Bakı Enerji Həftəsi» daha dayanıqlı və təhlükəsiz enerji güclərinin yaradılması sahəsində yeni əməkdaşlıq üçün qlobal enerji bazarının əsas oyunçularını, beynəlxalq şirkətləri bir araya gətirir. Təqdirəlayiqdir ki, qlobal çağırışa çevrilmiş

dekarbonlaşma, «yaşıl enerji» növlərinin artırılması, habelə əlverişli və təhlükəsiz enerji təchizatı kimi məsələlər builki «Enerji Həftəsi»ndə dialoqun əsas gündəliyini təşkil edir. Bakı Enerji Forumu enerji sektorunun əsas tədbiri statusu qazanmış Xəzər Neft və Qaz Konfransının ənənələrini davam etdirməklə yanaşı, gündəliyini yeni enerji seqmentləri ilə də genişləndirmişdir.

Dünya ölkələrinin üzləşdiyi çağırışlar və qlobal enerji balansında gözlənilən struktur dəyişikliyi region üçün də dayanıqlı və təmiz enerji güclərinin artırılması, yeni enerji marşrutlarının müəyyən edilməsi kimi vəzifələri gündəmə gətirmişdir. Bunu nəzərə alaraq, qlobal və regional enerji təhlükəsizliyinin təmin olunmasında önəmli oyunçulardan olan Azərbaycan xüsusilə bərpa olunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr həyata keçirir, qonşu ölkələrin enerji sistemləri ilə sıx inteqrasiyaya, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanılmasına dəstək verir.

Enerjinin transformasiyasında təbii qazın getdikcə daha çox əhəmiyyət kəsb etməsi fonunda «Cənub Qaz Dəhlizi» layihəsinin önəmi daha da artır. Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən bu layihə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və bu enerji dəhlizinin gələcəkdə genişləndirilməsi imkanları böyükdür. Azərbaycanda enerji təhlükəsizliyinə, xüsusilə «yaşıl enerji» siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edilmişdir. Enerji sahə-

sində açıq, şəffaf, biznes maraqlarına xidmət edən və nəticəyə hesablanmış əməkdaşlıq və qarşılıqlı dəstək bizim daimi prinsiplərimizdir. 2030-cu ilədək olan dövrdə biz «yaşıl artım» ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirmişik. Belə bir siyasət regionda enerji sahəsində uğurlu transformasiya üçün mükəmməl bünövrəni təmin edəcəkdir.

Ölkəmizdə mövcud olan sabitlik, iqtisadi inkişaf, müasir infrastruktur, əlverişli biznes mühiti və böyük enerji potensialı bərpa olunan enerji növlərinin istehsalı və ixracı sahəsində geniş perspektivlər yaratmışdır. Azərbaycan enerji sahəsində böyük təcrübəsi olan şirkətlərlə birlikdə bərpa olunan yeni enerji güclərinin yaradılmasına hədəflənmiş iri layihələrin icrasına başlayıb. Artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılması sahəsində mühüm nailiyyətə imza atılıb. Bu, beynəlxalq bazarlarda yeni enerji resurslarının etibarlı təchizatçısı kimi, Azərbaycanın mövqeyini daha da artırır və onu gücləndirir.

Bu prosesdə enerji resurslarının diversifikasiyası, dekarbonizasiya, eləcə də təbii qazdan aşağıkarbonlu enerji mənbəyi kimi istifadənin artırılması xüsusi əhəmiyyət daşıyır. İşğaldan azad edilmiş tarixi ərazilərimizin böyük enerji potensialı uğurlu «yaşıl enerji» layihələrinin həyata keçirilməsi və regionda enerji təhlükəsizliyi üçün geniş perspektivlər vəd edir. Məlumatlara görə, Qarabağ və Şərqi

Zəngəzurda Günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Bu məqsədlər üçün aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda «yaşıl enerji» zonası üçün konseptual layihələr hazırlanıb, müasir bərpa olunan enerji mənbələrindən ibarət unikal «yaşıl enerji zonası» konsepsiyasının yaradılması davam etdirilir. Nəhəng təbii qaz ehtiyatları ilə yanaşı, bərpa olunan enerji potensialımız «yaşıl artım» ölkəsinə çevrilmək üçün mühüm imkanlar vəd edir.

Dünya neft və enerji sənayesinin inkişafında xüsusi mövqeyi ilə seçilən Azərbaycan, həmçinin müxtəlif ölkələrdə genişmiqyaslı investisiya layihələri həyata keçirməkdədir. Bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan ölkəmizin mövqeyi daha da güclənir. Biz üzərimizə götürdüyümüz öhdəlikləri layiqincə yerinə yetirir və xarici sərmayədarlar üçün də əlverişli şərait yaradırıq.

Regionda enerji təhlükəsizliyi, diversifikasiyası və «yaşıl enerji»yə keçidin sürətləndirilməsi üçün əməkdaşlığımızı daha da genişləndirməliyik. Perspektivdə enerji təhlükəsizliyi sahəsində çağırışları uğurla qarşılamaq məqsədilə bu sahədə yeni texnologiyaların və rəqəmsal həllərin tətbiqi üstünlük təşkil etməlidir.

Hörmətli sərgi və forum iştirakçıları!

Azərbaycan uzun müddətdir belə qlobal əhəmiyyətli tədbirə ev sahibliyi edir. İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və forumunuz ak-

tual mövzulu dolğun məruzələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir.

«Bakı Enerji Həftəsi»ndə fəaliyyətinizdə Sizə bir daha uğurlar arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2022-ci il*

## «BAKI ENERJİ HƏFTƏSİ» ÇƏRÇİVƏSİNDƏ 27-ci BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*1 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Bakı Ekspo Mərkəzində «Bakı Enerji Həftəsi» çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılışı mərasimində iştirak etmişdir.*

**Rassel Teylor** (*Böyük Britaniyanın «ICA Group» şirkətinin İdarə Heyətinin məsləhətçisi*): Zati-aliləri Prezident Əliyev! Hörmətli qonaqlar, xanımlar və cənablar! Bu gün «Bakı Enerji Həftəsi»nin təşkilat komitəsinin nümayəndəsi kimi çıxış etmək mənim üçün şərəfdir. Xüsusilə də ona görə ki, ötən iki il ərzində koronavirus pandemiyası səbəbindən bu tədbiri keçirə bilməmişik. Bu tədbir bizə qeyri-rəsmi mühitdə təkbətək görüşlərin, beynəlxalq və regional sənaye liderləri ilə görüşlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etməsini göstərir. Azərbaycan koronavirusa qarşı mübarizədə çox ayıq-sayıq olmuşdur və nəticə etibarilə hazırda əhalinin peyvəndlənməsi baxımından aparıcı ölkələrdən biri kimi çıxış edir və məhz buna görə biz bu gün bu tədbiri keçirə bilirik.

Enerji sənayesində cari meyilləri nəzərə alaraq, «Bakı Enerji Həftəsi» tədbiri özündə üç ayrı layihəni ehtiva edir – 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji sərgilərini və əlbəttə ki, sabah keçiriləcək əvvəllər Xəzər Neft və Qaz Konfransı adı ilə tanınan Bakı Enerji Forumunu. Təbii ki, ənənələrə uyğun olaraq, bu tədbirlər davam edəcək. Bakı region üçün əhəmiyyəti artmaqda olan tədbirlərin keçirildiyi mərkəzdir. Bakı təkcə regionda ən böyük olan bu sənaye tədbirinə ev sahibliyi etmir. Eyni zamanda, gələn həftə baş tutacaq «Formula-1» kimi beynəlxalq yarışın keçirildiyi məkandır.

Bu gün biz sərgidə 30 müxtəlif ölkəni təmsil edən 249 şirkəti salamlamaqdan məmnunluq hissi keçiririk. Əlbəttə, bu tədbirə sadiq olaraq davamlı dəstək göstərdiyi üçün təşkilat komitəsinin adından Azərbaycan Respublikasının Energetika Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə dərin təşəkkürümü bildirmək istəyirəm.

Zati-aliləri, Bakıda keçirdiyimiz sərgilərə davamlı olaraq dəstək verdiyiniz və bu mühüm sənaye tədbirinin açılışında ənənəvi olaraq iştirak etdiyiniz üçün mən, həmçinin Sizə öz dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Bu hər kəsə həm bu sənaye sahəsinin region üçün əhəmiyyətini və eyni zamanda, həmin sənaye sahəsinin daxilində bu tədbirin əhəmiyyətini göstərir.

İndi isə auditoriya qarşısında çıxış etmək üçün zatialilərini dəvət etmək istəyirəm. Təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əvvəlcə mən pandemiya səbəbindən ikiillik fasilədən sonra Xəzər Neft və Qaz Sərgisinin yenidən başlanmasına görə təşkilatçılara təşəkkürümü bildirmək istərdim. Şadam ki, bu gün bütün dünyadan gəlmiş qonaqlarımız buraya toplaşıblar. Ümid edirəm ki, Neft və Qaz Sərgisində və «Bakı Enerji Həftəsi»ndə keçiriləcək müzakirələr enerji təhlükəsizliyi və enerji ehtiyatlarının şaxələndirilməsi kimi mühüm məsələlərlə bağlı dialoqu gücləndirəcək.

Azərbaycan müstəqillik illərində öz enerji təhlükəsizliyinə sərmayə yatırıb, daxili bazarda tələbatları tam təmin edib və sayı artan ölkələrin enerji təhlükəsizliyində get-gedə daha mühüm rol oynamağa çalışır. Müstəqilliyimizin ilk illərində vəziyyət belə olmayıb. Həmçinin bildirmək istərdim ki, artıq 27-ci dəfədir keçirilən Xəzər Neft və Qaz Sərgi və Konfransı qlobal enerji şirkətlərinin o vaxt müstəqilliyini yenicə qazanmış, bir çox çətinliklərlə üzləşmiş, ərazisinin əhəmiyyətli hissəsi işğal olunmuş Azərbaycana diqqətinin cəlb edilməsində əhəmiyyətli rol oynayıb.

Bu səbəbdən, Xəzər Neft və Qaz Sərgisi təşkilatçılarının rolu həqiqətən, çox vacib idi ki, diqqəti və sərmayələri cəlb etmək mümkün olsun. Bu konfransın keçirildiyi ilk ildən etibarən Azərbaycan özünün dünyaya açıq olduğunu elan etdi. Biz elan etdik ki, Xəzər dənizini əməkdaşlıq və sərmayələr məkanı kimi görmək istəyirik. Xəzərin neft və qaz

yataqlarına yatırılmış ilk xarici sərmayələr bizim və tərəfdaşlarımız tərəfindən təmin edilmişdir.

Lakin söylədiyim kimi, həmin vaxt enerji təhlükəsizliyi tam təmin edilməmişdi. Elektrik enerjisinin və qazın təchizatında fasilələr yaranırdı. Enerjinin verilməsi dayanırdı. Biz ürəkdən çalışmağa başladıq ki, öz enerji təhlükəsizliyimizi təmin edək. Bu iş icra olundu, paralel olaraq, biz neft hasilatını artırmaq və beynəlxalq bazarlara çatdırmaq məqsədilə beynəlxalq sərmayədarlarla, dünyanın aparıcı enerji şirkətləri ilə fəal işləyirdik.

Ötən əsrin sonunda, fikrimcə, mühüm hadisə baş verdi. Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin açılışı baş tutdu. Bunun sayəsində biz ixraca başlaya bildik və bir çox ölkələrin tələbatlarını təmin etdik. Eyni zamanda, biz tərəfdaşlarımızla birgə qaz yataqlarının, xüsusən də dünyada ən iri qaz yataqlarından biri sayılan «Şahdəniz» yatağının kəşfiyyatına başladıq. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri istismara verildi, Azərbaycan qazı ilk dəfə olaraq, Türkiyənin və Gürcüstanın regional bazarlarına nəql olunmağa başlandı.

Bir il əvvəl – 2006-cı ildə isə biz Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisinə müvəffəq olduq. Həmin vaxt, elə indi də, fikrimcə, o, əlamətdar hadisə idi. Bu, neftin beynəlxalq bazarlara çıxarılmasında yeni marşrut və mənbə idi. Həmin vaxtdan etibarən, Bakı–Tbilisi–Ceyhan və Azərbaycanın bütün digər enerjinin nəql olunması infrastrukturu hər hansı

fasilə olmadan istismar edilir. Bu, əlbəttə ki, proqnozlaşdırmanın, etibarlılığın və belə nəhəng, texniki və maliyyə baxımından çətin infrastruktur layihələrin icrasında bacarığımızın təzahürüdür. Həmçinin bu layihələr çox mürəkkəb siyasi mühitdə həyata keçirilmişdir.

Bu, regional enerji təhlükəsizliyi məsələlərinə aid olan mühüm tarixi hadisə idi. Azərbaycan ilə qonşuları – Türkiyə və Gürcüstan arasında regional əməkdaşlığı gücləndirdi. Planlarımız bundan da böyük idi. Təbii ki, biz Azərbaycanın nəhəng qaz ehtiyatlarından istifadə etmək istəyirdik və bu məqsədlə bizə yeni boru kəməri lazım idi. Mən deyərdim, XXI əsrin boru kəməri – «Cənub Qaz Dəhlizi»nə ehtiyac duyulurdu. «Cənub Qaz Dəhlizi»nin 2020-ci ilin sonuncu günündə uğurla tamamlanması ümumi irədəmizi, komanda daxilində işləmək və böyük uğurlar qazanmaq bacarığımızı nümayiş etdirir. Bir çox ölkələri keçən, dənizin dibindən tutmuş uca dağ zirvələrinə qədər gedən 3500 kilometrlik vahid boru kəmərləri sistemi qüdrətimizin və dostluğumuzun təzahürüdür. Beləliklə, Azərbaycanın ilkin mərhələdə başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaratdı və onlar hazırda qlobal enerji layihələrinə çevrilibdir.

«Cənub Qaz Dəhlizi» fərəhlənə biləcəyimiz layihədir. O bizə nəhəng «Şahdəniz» qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradır. Bu, artıq baş verdi. Cəmi bir il beş aydır ki, Azərbaycan həmin tamamilə yeni müasir infrastrukturdan öz qaz ehtiyatlarının nəqlində istifadə edir. Avropa qitə-

sində təbii sərvətlərimizlə bağlı fəaliyyətimizin genişləndirilməsi həm bizim, həm də tərəfdaşlarımız üçün zəruridir. Biz hasilatın və ixracımızın artırılmasına müvəffəq olduq. Ötən il Azərbaycan 22 milyard kubmetr təbii qaz ixrac edib. Bu il gözlənilir ki, bu rəqəm 24 milyard kubmetr olacaq. Gələn il daha da çox olacaq. Göstəricilər hasilat işlərindən və Azərbaycanın Xəzər sektorunda yerləşən digər yataqların istismarından asılı olaraq, fərqli ola bilər. Bizim qaz potensialımız yalnız «Şahdəniz»lə məhdudlaşmır. Digər yataqlar da çox perspektivlidir. Gələn il onların bəzilərində hasilat başlanacaq. Bu, enerji təhlükəsizliyinə mühüm töhfə olacaq. Xüsusən də indiki dövrə gəldikdə, Azərbaycanın karbohidrogenlərinə olan tələbat heç zaman görünmədiyi kimi böyükdür. Məsuliyyətli ölkə kimi, biz bunu nəzərə alırıq və müxtəlif səbəblərə görə çətinliklərlə üzləşən ölkələri dəstəkləməyə çalışırıq. Hazırda Azərbaycanın müvafiq strukturları sayı artan ölkələrlə daim təmasdadır.

«Cənub Qaz Dəhlizi»nin icrası ilə məşğul olduğumuz zaman biz boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri, aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq qurmuşuq. «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının hər ilin fevralında Bakıda keçirilən illik toplantısı həmin komanda işinin bariz nümunəsidir. Bu il fevralın 4-də «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının illik toplantısı keçirildiyi zaman biz anladıq ki, planlarımızın ən böyük hissəsi icra olunub və «Cə-

nub Qaz Dəhlizi» artıq işləyir. İndi isə bizə işləmək, yeni körpülər salmaq, yeni əlaqələr qurmaq, interkonnektorlar yaratmaq və Avropanın qaz bazarında fəaliyyətimizi genişləndirmək qalır.

Əlbəttə, hazırda – iyunun 1-də söhbət apardığımız zaman vəziyyət tamamilə fərqlidir və Azərbaycan qazına olan tələbat sürətlə artır. Təbii ki, biz bunu nəzərə almalıyıq. Lakin potensial istehlakçılar anlamalıdırlar ki, bir il ərzində qazı böyük həcmdə hasil etmək mümkün deyil. Bunun üçün bizə müqavilələr lazımdır. Biz danışıqlara başlamalı və onları sürətləndirməliyik. Biz ənənəvi tərəfdaşlar və sərmayədarlarla, eləcə də enerji şirkətləri ilə çalışmalıyıq ki, hasilat artsın. Həmçinin biz mövcud qurğuları genişləndirməliyik. Bu məsələləri biz gələn illərdə planlaşdırmırdıq, çünki «Cənub Qaz Dəhlizi», söylədiyim kimi, 3 boru kəmərindən ibarət vahid boru kəmərləri sistemidir. Onun sonuncu hissəsi – Trans-Adriatik boru kəmərinin buraxıcılıq qabiliyyəti 10 milyard kubmetrdir. İndi isə biz onun genişləndirilməsi haqqında düşünürük, çünki buna ehtiyac vardır. Əlbəttə, bu, vaxt və çoxlu maliyyə vəsaitini, o cümlədən sıx əlaqələndirməni, əməkdaşlığı və bütün iştirakçı ölkələrlə fəal dialoqu tələb edəcək. Biz buna hazırıq. Azərbaycanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti artıq bütün təlimatlarımı alıbdır və onlar fəal danışıqlar aparırlar. Yeri gəlmişkən, «Bakı Enerji Həftəsi» gözəl fürsət olacaq, çünki həmin mühüm məsələlərin müzakirəsi üçün qonaqlarımız arasında bir çox ölkələrdən yüksək səviyyəli rəsmilər vardır. Biz «Cənub Qaz Dəhlizi»nin komanda üzvləri, o cümlə-

dən hökumətləri ilə fəal dialoqu davam etdirməliyik. Mən «Cənub Qaz Dəhlizi»ndə iştirak edən ölkələrin – Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə fəal əməkdaşlıq etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hazırda yeni çağırışların və tələbatların olduğunu nəzərə alaraq, biz digər potensial istehlakçı ilə danışıqlar prosesindəyik. Lakin bunun üçün yalnız bizim səylər kifayət olmayacaq. Avropada infrastruktura, yeni interkonnektorların tikintisinə yatırımlar olmalıdır və yeni şərtlər üzərində razılıq əldə edilməlidir. Çünki hamımız bilirik ki, qaz biznesində birincisi, qazı satırsınız, müqaviləni imzalayırsınız, sonra isə sərmayə yatıraraq, hasilata başlayırsınız.

Lakin bütün söylədiklərimin məqsədi ümumi vəziyyəti öz nöqteyi-nəzərimizdən təqdim etməkdən ibarətdir. Bununla belə, prosesin sürətləndirilməsi üçün əlimizdən gələni edəcəyik və bu, artıq başlanıb.

Mən həmçinin Birləşmiş Ştatlar və Birləşmiş Krallığın hökumətlərinə təşəkkürümü bildirmək istərdim. Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bilmişik. Beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına, Asiyanın İnfrastruktur və İnvestisiya Bankına, yəni «Cənub Qaz Dəhlizi»ni maliyyələşdirmiş bütün banklara təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, onlar, həmçinin bizim yeni planlarımızın həyata keçirilməsinə, xüsusilə də Trans-Adriatik boru kəmə-

rinin genişləndirilməsinə də maliyyə dəstəyi verəcəklər. Həmçinin biz TANAP-ın genişləndirilməsi haqqında da düşünə bilərik. Çünki Azərbaycan qazına tələbat artır, bunun üçün potensial da, siyasi iradə də var. Beləliklə, biz təbii qazın nəqli ilə bağlı infrastruktur imkanlarımızın potensial tələbatın səviyyəsinə gətirilməsi üçün vaxt itirməməliyik. Burada yalnız TAP deyil, həm də «Cənubi Qafqaz» boru kəməri və TANAP sürətli qaydada genişləndirilməlidir və biz bunun üzərində çalışırıq.

Bundan əlavə, mən Azərbaycan və Avropa Komissiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istəyirəm. Bu da «Cənub Qaz Dəhlizi» layihəsinin icrasında vacib rol oynayıb və gələcək planlarımızın reallaşdırılmasında da mühüm rol oynayacaq. Biz bununla bağlı Avropa Komissiyası ilə daimi təmasdayıq və cari ilin fevral ayının əvvəllərində Bakıda Avropa İttifaqının enerji məsələləri üzrə komissarı və bizim Energetika naziri arasında aparılmış müzakirələr nəticəsində Avropa İttifaqı və Azərbaycan arasında enerji dialoqunu yaratdıq. Gündəlik olduqca genişdir, buraya neft və qaz kimi ənənəvi sahələr daxildir. Bununla yanaşı, elektrik enerjisi, bərpa olunan enerji, hidrogen və enerjinin səmərəliliyi məsələləri də gündəmdədir. Hesab edirəm, geniş spektrli mövzular və bu məsələlərdə fəal əməkdaşlıq bizə imkan verəcək ki, ixrac üçün daha çox qaz həcmlərimiz olsun.

Bizim gündəlikdə duran növbəti planımız yenilənən enerjidir və artıq bu sahədə işlər görülür, Azərbaycan çox gözəl nəticələr nümayiş etdirir. Biz artıq

özümüzü etibarlı, öz öhdəliklərinə hörmət edən ölkə olaraq təsdiq etmişik. Qeyd etmək istəyirəm ki, «Hasilatın Pay Bölgüsü»nə dair 1994-cü ildə xarici şirkətlərlə imzalanmış ilk sazişdən bu günə qədər müqavilələrdə bir söz belə, dəyişdirilməyib. Bu isə bizim mövqemizin təzahürüdür. Biz öz öhdəliklərimizə hörmət edirik və tərəfdaşlarımızdan öz öhdəliklərinə hörmət etməyi gözləyirik.

Beləliklə, etibarlılıq vacib amil idi. İkincisi isə Azərbaycanda olan siyasi və iqtisadi sabitlik, neft, qaz və elektrik enerjisi ilə bağlı infrastrukturun yaradılmasında gözəl nəticələrimizdir. Yeri gəlmişkən, Azərbaycan təkcə neft və qaz deyil, eyni zamanda, elektrik enerjisi ixrac edən ölkədir. Nəhəng potensial və təcrübə – bütün bu amillər mühüm enerji şirkətlərini cəlb etməyə və yenilənən enerjiyə investisiya yatırmağa imkan verib.

Bu il biz artıq dünyanın aparıcı enerji şirkətləri olan «ACWA Power» və «Masdar» şirkətləri ilə iki təməlqoyma mərasimi keçirmişik. Hazırda biri Günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur ki, onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcək və bu, yalnız başlanğıcdır. Çünki biz artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindəyik.

Xəzər dənizinin nəhəng potensialı var və artıq bu hesablama aparılıb. Mənə verilən məlumata görə, Xəzər dənizinin Azərbaycan sektorunun potensialı 150 min meqavat təşkil edir, bu, nəhəng həcmdir.

İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının potensialının 9-10 min meqavat olduğunu hesab edirik. Burada söhbət külək və Günəş enerjisindən gedir. Buraya hidroelektrik enerjini də əlavə etsək – hansı ki, onun da böyük potensialı var – buraya daha 1000 meqavat və ya artıq güc əlavə etmək olar. Bütün bunlar bizim hökumətimiz tərəfindən ciddi şəkildə nəzərdən keçirilir. Bərpa olunan enerjiyə nə qədər çox sərmayə qoyulacaq, bir o qədər qaza qənaət ediləcək və qaz ixrac olunacaq, bu təbiidir. Beləliklə, bütün bu amillərin vəhdəti, o cümlədən enerjinin səmərəliliyi və bizim şəbəkəmizdə itkilərin aradan qaldırılması Azərbaycandan qaz ixracının artırılması ilə nəticələnəcək. Bu bizim hədəfimizdir və əminəm ki, biz buna nail olacağıq. Çünki bu günədək planlaşdırdıqlarımızın hamısı reallaşıb. Yalnız neft və qaz sahəsində yox, hökumətimiz bütün planlarına nail olub. Bunlara maksimal dərəcədə səmərəliliklə nail olmuşuq.

Ənənəvi Xəzər Neft və Qaz Sərgi və Konfransı, həmçinin «Bakı Enerji Həftəsi» çərçivəsində bütün bu vacib məsələlər müzakirə ediləcəkdir. Neft təchizatı həcminin artırılması müzakirə olunacaq. Bu gün artıq Azərbaycan digər ölkələr üçün vacib tranzit imkanlarını təqdim edir. Bu potensialdan da maksimum dərəcədə istifadə oluna bilər. Təəssüf ki, bu günədək bu potensialdan tam istifadə edilməyib, Azərbaycanın mühüm tranzit ölkəsi qismində potensialı təchizatçılar tərəfindən düzgün qiymətləndirilməyibdir.

Hesab edirəm ki, bu gün artıq onlar fikirlərini dəyişiblər. Çünki hər kəs anlayır ki, şaxələndirmə enerji təhlükəsizliyinin başlıca amillərindəndir. Biz isə enerji strategiyamızın həyata keçirilməsinin ilk günündən etibarən şaxələndirmə üzərində çalışmışıq. Bunun nəticəsində bizim şaxələndirilmiş ixrac marşrutlarımız var – müxtəlif istiqamətə uzanan 3 neft boru kəməri və 4 qaz boru kəmərimiz mövcuddur. Elektrik enerjisi xətlərinə gəldikdə isə, biz 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edirik və Avropaya elektrik enerjisi ixrac etməyi planlaşdırırıq. Biz Zəngəzur dəhlizinin fəaliyyətinə start vermək istəyirik. Bu da yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün də mühüm ixrac marşrutu ola bilər. Biz işlərə başlamışıq və bu istiqamətdə investisiya ilə bağlı artıq praktiki addımlar atırıq. Beləliklə, hər bir məsələdə şaxələndirmə vacibdir.

Bu səbəbdən vaxtilə Azərbaycanın etibarlı tranzit ölkəsi kimi potensialını düzgün qiymətləndirməyənlər fikirlərini dəyişəcəklər. Biz artıq müəyyən eyhamlar görürük və biz buna hazırıq. Biz köməyə ehtiyacı olan hər kəsə yardım etməyə hazırıq. Bunun üçün bizdə siyasi iradə var. Hər zaman bizim siyasətimiz körpülər qurmaqdan və əməkdaşlığı gücləndirməkdən ibarət olub.

Bundan əlavə, biz zəruri infrastruktura malikik – yeni dəniz limanı, bütün istiqamətlərlə bizi birləşdirən dəmir yolu, avtomobil yolları və hava limanları. Azad olunmuş ərazilərdə 3 yeni hava limanımız olacaq. Onlardan biri artıq istifadəyə verilib. Beləliklə, Azərbaycan 9 beynəlxalq hava limanına sahib ola-

caq. Nəhayət, ölkəmizin coğrafi yerləşməsi, yəni neft və qaz sahəsində əməkdaşlıqla bağlı planlar qurarkən Azərbaycanın tranzit potensialı nəzərə alınmalıdır.

Burada söylədiklərim beynəlxalq tərəfdaşlarımız üçün də önəmlidir. Burada SOCAR və *bp* arasında strateji tərəfdaşlığı xüsusi vurğulamaq istərdim. Bizim üçün neft və qaz sahəsində *bp* strateji tərəfdaş və aparıcı investordur. Mən çox məmnunam ki, *bp* bərpa olunan enerji sahəsinə maraq göstərir. Hazırda SOCAR və *bp* azad olunmuş Cəbrayıl rayonunda 200 meqavatdan artıq gücə malik elektrik enerji stansiyasının inşasını müzakirə edir və ümidvaram ki, tezliklə yaxşı nəticələr olacaqdır.

Perspektiv planlarımıza gəldikdə, onların reallaşdırılması ənənəvi enerji tərəfdaşlarımızın iştirakı olmadan mümkün olmazdı. Biz bu mühüm dövrdə, dünyada geosiyasi vəziyyətin bir neçə ay bundan öncə ilə müqayisədə kəskin şəkildə fərqli olduğu bir vaxtda istənilən ölkədən olan hər bir şirkətlə əməkdaşlıq etməyə hazırıq.

Burada qeyd etdiklərimin hamısı daxili inkişafımız üçün də çox əhəmiyyətlidir. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin. Biz bunun nəticəsini görürük və diqqətinizə cari ilin bəzi göstəricilərini təqdim etmək istəyirəm. Bu il ümumi daxili məhsul 7,2 faiz artıb. Qeyri-neft sektorunda artım 11,5 faiz, qeyri-

neft sənayesində isə 15 faizdən artıq olub. Bütün bunlar islahatların və topladığımız gəlirlərin yönləndirilməsinin təzahürüdür.

Yəni şaxələndirmə yalnız enerji təchizatına aid deyil. Bu bizim iqtisadiyyatımızın şaxələndirilməsidir və biz buna nail oluruq. Hesab edirəm ki, bu gün Azərbaycanda biznes mühiti tamamilə lazımi səviyyədədir və Azərbaycan xarici investisiya üçün olduqca cəlbedici ölkələrdəndir. Dediyim kimi, birincisi, bizim neft-qaz sahəsində nəhəng təcrübəmiz var, biz ənənəvi şirkətlərlə tərəfdaşlığımıza böyük dəyər veririk. Biz heç vaxt imza atdığımız müqavilənin bir sözünü belə, dəyişməmişik. Biz sürətlə inkişaf edirik, Qarabağda və Zəngəzurda aparılan yenidən qurulma işləri iqtisadi potensialımızı artıracaqdır. Xarici borcumuzun aşağı səviyyədə olması – ümumi daxili məhsulun yalnız 12,5 faizini təşkil etməsi də münbit iqtisadi şərait yaradır. Biz əlavə kreditlər götürə bilərik, sadəcə, bunu etmirik, çünki buna ehtiyac yoxdur. Biz xarici borcumuzu ümumi daxili məhsulun 10 faizi səviyyəsinə salmaq istəyirik və bununla bağlı hökumətə göstəriş vermişəm.

Bununla yanaşı, görsək ki, Azərbaycan üçün vacib olan qlobal əhəmiyyətli layihələr var, biz ənənəvi tərəfdaşlarımıza, aparıcı maliyyə institutlarına müraciət edəcəyik ki, bizə dəstək olsunlar. Bizim bununla bağlı «Cənub Qaz Dəhlizi» və digər layihələrdə təcrübəmiz vardır.

Biz bu gözəl tədbir üçün darıxmışdıq və dediyim kimi, bu, regionun aparıcı beynəlxalq enerji tədbiridir. Mən bir daha qonaqlarımıza bizimlə olduqla-

rına görə təşəkkür edirəm və «Bakı Enerji Həftəsi»nin işinə uğurlar diləyirəm. Sağ olun.

* * *

**M o d e r a t o r**: Təşəkkür edirəm, zati-aliləri. İndi isə auditoriya qarşısında çıxış etmək üçün ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı dəvət edirəm.

**L a u r a  L o x m a n**: Sabahınız xeyir, Prezident Əliyev, nazirlər və qonaqlar!

Bu gün burada olmaq mənim üçün şərəfdir və «Bakı Enerji Həftəsi» çərçivəsində keçirilən 27-ci illik sərgidə sizə qoşulmaqdan məmnunluq hissi keçirirəm. Bu yaxınlarda Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illik ildönümünü qeyd etdik. Ölkələrimiz uzun müddətdir ki, yaxın tərəfdaşdır və Cənubi Qafqazda müstəqillik və demokratiyanı Amerika Birləşmiş Ştatlarından çox heç kim dəstəkləmir. Azərbaycan regionda enerji təhlükəsizliyinin irəliləməsində güclü tərəfdaş olmuşdur. Amerika Birləşmiş Ştatları həm də bizim mühüm iqlim məqsədlərinə dəstək olan etibarlı enerji mənbələrinin yaradılması strategiyaları üzərində Azərbaycanla işləməyə davam etmək əzmindədir. İndi isə ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti cənab İlham Əliyevə məktubunu sizin diqqətinizə çatdırmaq istəyirəm.

**«Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident, Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq.

Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə ev sahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir.

Bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm dönüş nöqtəsini yaşadığımız bir dövrdə biz həm də təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərimizi təmin etmək məqsədilə zəruri investisiya və dəyişikliklər edirik. Enerji təhlükəsizliyi ilə bağlı məqsədlərimizə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynayır. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından Trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Azərbaycan «Cənub Qaz Dəhlizi» vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır.

Mən Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təş-

viqi, bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində Sizin davamlı addımlarınızı alqışlayıram. Amerika Birləşmiş Ştatları bizim davamlı tərəfdaşlıq və əməkdaşlığımıza sadiqdir.

*Hörmətlə,*

**Cozef R.Bayden**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti»**

**Moderator**: Təşəkkür edirəm. İndi isə mən Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım Kristina Lobillo Borreronu təqdim etmək istərdim.

**Kristina Lobillo Borrero**: Sabahınız xeyir, zati-aliləri Prezident Əliyev! Hörmətli nazirlər və qonaqlar!

Mən çıxışıma öz adımdan və enerji məsələləri üzrə komissar Kadri Simsonun adından bizi Bakı Forumunda iştirak etmək üçün dəvət etdiyinizə görə sizə dərin minnətdarlığımı ifadə etməklə başlamaq istəyirəm.

«Bakı Enerji Həftəsi» qlobal enerji rəqabəti, eləcə də bizim ikitərəfli enerji əlaqələrimiz üçün aktual bir vaxtda keçirilir. Bunun üçün bundan daha yaxşı vaxt ola bilməzdi. Bizim enerji bazarımız bir sıra çağırışlarla üzləşib – COVID pandemiyası, eləcə də enerji qiymətlərinin kəskin şəkildə artması, geosiyasi gər-

ginliklər, iqtisadiyyatlarımızın karbonsuzlaşdırılması və böhranın mümkün qədər tez bir zamanda imkanlara çevrilməsinin zərurəti.

«Cənub Qaz Dəhlizi» Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın oynadığı rol bizim Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səylərimiz baxımından mühüm əhəmiyyət daşıyır. Bu, enerji qiymətlərinin sabitliyi, həmçinin təchizat təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir və biz bunu yüksək qiymətləndiririk. Bizim Azərbaycanla enerji sahəsində münasibətlərimiz uzunmüddətli müsbət enerji dialoqu üzərində qurulub ki, bunun da tarixi zati-aliləri Prezident Əliyev və ovaxtkı Prezident Barrozu tərəfindən 2006-cı ildə enerji sahəsində strateji tərəfdaşlıq təklif edən Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış ikitərəfli Anlaşma Memorandumuna təsadüf edir. Bizim siyasi, idarəçilik və texniki səviyyələrdə siyasət üzrə dialoqumuz enerji siyasətindəki fəaliyyətimizin sübutudur. Komissar Kadri Simson bu ilin fevralında «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının toplantısında iştirak edib və biz qaz, eləcə də bərpa olunan enerji, elektrik enerjisi, enerji səmərəliliyi və hidrogenlə bağlı yüksək səviyyədə dialoq kontekstində müzakirələri davam etdirmişik. Hazırda hər iki tərəf ümumi enerji keçidi və iqlim çağırışları ilə üzləşməklə yanaşı, eyni zamanda, bu prosesdə enerji üzrə bəzi ikitərəfli qarşılıqlı səylər və bir-birini tamamlayan addımlar da atır. Bu mühüm dönüş nöqtəsində geosiyasi səviyyədə gərginlik və enerjinin səbəb olduğu gərginliklər

kontekstində biz Avropa İttifaqının şaxələndirmə və təchizatın təhlükəsizliyinə töhfənin davam etdirilməsində, xüsusilə bizim «REPowerEU» prioritetləri ilə üst-üstə düşən enerji mənbələrində çox maraqlı olduğunu vurğulamaq istərdik. Burada biz 3 müxtəlif sahədə işləməyi planlaşdırırıq. Birincisi, yerli bərpa olunan enerji istehsalının daha da inkişaf etdirilməsi və enerjiyə qənaətin artırılması üçün Avropa İttifaqında qaz təchizatını şaxələndirməkdir. Avropa İttifaqı tərəfindən biz şaxələndirməni gücləndirməklə Avropanın qaza olan ehtiyacını qarşılamaq üçün adekvat qaz təchizatı təmin etməkdə çox maraqlıyıq. Biz həmçinin uzunmüddətli dayanıqlı enerji tərəfdaşlığı üçün təməl yaradırıq. Avropa İttifaqı qarşılıqlı mənfəət, o cümlədən bərpa olunan enerji mənbələrinin inkişafı və daxili inkişaf üçün hidrogen istehsalı, beynəlxalq ticarət baxımından öz enerji tərəfdaşlarını uzunmüddətli güclü əlaqələrlə təmin etmək əzmindədir.

Biz Azərbaycanla enerji sahəsində uzunmüddətli tərəfdaşlığımızı həm strateji enerji davamlılığı, həm də «yaşıl enerji» ambisiyalarımıza mühüm töhfə kimi görürük. Biz enerji sistemlərimizin struktur transformasiyasının sürətləndirilməsi, enerji səmərəliliyi istiqamətində səylərimizin, məhsuldarlığımızın, iqtisadi artımın və sənaye bazamızın gücləndirilməsi, həmçinin 2050-ci ilə qədər ölkələrimizin iqlim neytrallığı yoluna qədəm qoyması baxımından Azərbaycan və beynəlxalq tərəfdaşlarla işləməyi səbirsizliklə gözləyirik.

Təşəkkür edirəm, zati-aliləri. Enerji forumunda iştirakı səbirsizliklə gözləyirəm.

**M o d e r a t o r**: Təşəkkür edirəm. İndi isə Böyük Britaniyanın Biznes, Enerji və Təmiz İnkişaf üzrə Dövlət naziri Qreqori Uilyam Hendsin videomüraciətini təqdim edirik.

*Qreqori Uilyam Hends videomüraciətində dedi:*

«Cənab Prezident, zati-aliləri! «Bakı Enerji Həftəsi»nə müraciət etmək imkanı yaratdığınıza görə təşəkkür edirəm. Mən həmçinin Birləşmiş Krallıqla Azərbaycan arasında diplomatik əlaqələrin 30 illiyi münasibətilə hər iki ölkəni təbrik etmək istəyirəm. Bu tədbir Avropanın enerji təhlükəsizliyi və iqlimimiz üçün mühüm vaxta təsadüf edir. Biz Ukraynanın Rusiya tərəfindən işğalı səbəbindən qarşılaşdığımız qeyri-adi vəziyyəti dərk edirik. Bu yeni reallıq bizim enerji sahəsində qarşılaşdığımız mühüm seçimlərə diqqət çəkir. Biz təmiz enerji istehsalı və sıfır karbon tullantıları olan iqtisadiyyata keçidi sürətləndirmək üçün indi hər zaman olduğundan daha çox birlikdə çalışmalıyıq. Bu gün Azərbaycan Gürcüstan, Türkiyə və Avropadakı tərəfdaşları üçün etibarlı və sabit təbii qaz təchizatçısıdır. Azərbaycandan başlanan «Cənub Qaz Dəhlizi» mühüm nailiyyəti əks etdirir. «Cənub Qaz Dəhlizi»nin genişlənməsi Avropaya qaz təchizatının şaxələndirilməsini dəstəkləyəcək. Biz kömürdən imtina edərək, təmiz enerjiyə keçərkən təbii qaz həlledici rol oynamaqda davam edəcək. Ötən il Birləşmiş Krallığın sədrliyi ilə keçirilən COP26 İqlim Dəyişikliyi Konfransında biz ciddi öhdəliklərin şahidi olduq. Biz, Azərbaycan hökuməti də

daxil olmaqla, tərəfdaşlarımızın COP26-da üzərlərinə götürdükləri öhdəlikləri alqışlayır və iqlim dəyişikliyi ilə mübarizədə daha çox səylərin göstərilməsini səbirsizliklə gözləyirik.

Birləşmiş Krallıq, həmçinin təmiz enerjiyə keçidlə bağlı Azərbaycanın öhdəliyini alqışlayır. Sıfır karbon kursunun üstünlüklərindən biri onun enerji təhlükəsizliyi ilə uyğunluğudur. Sıfır karbon, həmçinin çiçəklənmə deməkdir. Neft və qazın qiymətlərinin qalxması təmiz enerjiyə investisiya yatırılmasını daha da əsaslandırır. Son 30 ildə Azərbaycanın yaxın tərəfdaşı olmuş Birləşmiş Krallığın *bp* kimi şirkətləri 2050-ci ilədək sıfır karbon tullantılarına nail olmaq üçün iddialı planlar qəbul edib. Azərbaycan kimi ölkələrin sıfır karbon tullantılarını təşviq edən ölkə olmaq üçün yüksək potensialı vardır. Qlobal istiləşməni 1,5 dərəcə səviyyəsində saxlamaq üçün bizim əlimizdə olan vaxt pəncərəsi sürətlə daralır. Ötən il imzalanmış Qlazqo İqlim Paktını reallaşdırmaq üçün bizim hərəkətə keçməyimiz vacibdir. Hər bir ölkə emissiyanın azaldılması üzrə öz hədəflərini yenidən nəzərdən keçirmək və gücləndirmək üçün çağırışa cavab verməlidir. Biz vədlərimizi yerinə yetirmək və öhdəliklərimizin reallığa çevrilməsini təmin etmək üçün öhdəliklərimizin necə həyata keçirilməsi yolları üzərində birlikdə işləməyə davam etməliyik.

Zati-aliləri cənab Prezident, Birləşmiş Krallıq enerji təhlükəsizliyini təmin edəcək və iqlim dəyişikliyi probleminin həllinə kömək göstərəcək qlobal miqyasda təmiz enerjiyə keçidi sürətləndirmək üçün

bütün tərəfdaşlarla işləməyə hazırdır. Təşəkkür edirəm».

* * *

**M o d e r a t o r**: Cənab Prezident, xanımlar və cənablar, bununla tədbirin rəsmi hissəsi sona çatır.

«Bakı Enerji Həftəsi» çərçivəsində sizə uğurlar arzulayıram. Ümid edirəm ki, sizin bir çoxunuzu sabah açılacaq Bakı Enerji Forumunda görəcəyik. İştirakınız və diqqətiniz üçün təşəkkür edirəm.

*Sonda dövlət başçısı sərginin Xatirə kitabını imzaladı.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram. Eyni zamanda, Platin Yubileyiniz – taxtda olmağınızın 70 illiyi ilə əlaqədar Sizə ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Son yeddi onillik boyu Birləşmiş Krallığın rifahı, hərtərəfli inkişafı naminə yorulmaz fəaliyyətiniz, şəxsi nümunə və fədakarlığınız Sizə dünyada böyük rəğbət, hörmət və nüfuz qazandırmışdır.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlərin bütün inkişaf mərhələlərində, hazırkı səviyyəyə yüksəlməsində, bu gün əməkdaşlığımızın bir sıra sahələrdə strateji xarakter kəsb etməsində Sizin töhfənizi xüsusi qeyd etmək istərdim.

Bu il dövlətlərarası əlaqələrimizin tarixində əlamətdar ildönümüdür – ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu dövr ərzində Azərbaycan ilə Birləşmiş Krallıq arasında təşəkkül tapmış dostluq əlaqələrinin mövcud vəziyyəti bizi sevindirir. Əminəm ki,

qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimiz, çoxşaxəli əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Ülyahəzrət!

Sizi bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, dost xalqınıza daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2022-ci il*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir və onlara böyük əhəmiyyət veririk. İkitərəfli əlaqələrimizin gündən-günə inkişafı, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımızın möhkəmlənməsi xüsusi məmnunluq doğurur.

İqtisadiyyat, ticarət və enerji sahələrindəki uğurlu işbirliyimiz və əldə etdiyimiz nailiyyətlər bizi sevindirir. İtaliya şirkətləri Azərbaycanda geniş fəaliyyət göstərir və münasibətlərimizdə vacib rol oynayır. Hazırda bu əməkdaşlıq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması işlərində də müvəffəqiyyətlə davam edir.

Azərbaycan dost İtaliya ilə çoxşaxəli tərəfdaşlığı xalqlarımızın rifahı naminə daha da genişləndirmək əzmindədir. Bu gün qarşılıqlı faydalı fəaliyyətimizin inkişaf etdirilməsi üçün yaxşı perspektivlər vardır. Şübhəsiz, iqtisadiyyat, enerji və digər sahələrdəki

mövcud potensialdan, xüsusilə qeyri-neft sektorundakı imkanlardan tam istifadə etməklə əməkdaşlığımızı yeni məzmunla zənginləşdirə bilərik. İnanıram ki, sağlam təməl üzərində qurulmuş ənənəvi dostluq əlaqələrimiz istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar, dost İtaliya xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2022-ci il*

## «ŞƏRQ BAZARI» KOMPLEKSİNİN BƏRPA VƏ YENİDƏN QURULMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*6 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 6-da Bakıda «Şərq Bazarı» kompleksinin bərpa və yenidən qurulmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı kompleksdə yaradılmış şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, «Şərq Bazarı» kompleksinin bərpa və yenidən qurulma işləri icra olunarkən bir sıra nüanslara xüsusi diqqət yetirilib. Bərpa zamanı layihə komandasının qarşısında duran əsas vəzifələr ilkin konsepsiyanın qorunması və xüsusi elementlərin saxlanılması olub. Kompleksdə yenidən qurulma zamanı yerli materiallardan maksimum istifadə edilib, həmçinin müasir texnologiya və avadanlıqların tətbiqinə xüsusi diqqət yetirilib.*

*«Şərq Bazarı»nın girişində kiril əlifbası ilə yazılmış orijinal yazı eyni kalliqrafiya inkişaf etdirilərək, latın əlifbasına dəyişdirilib, daxildəki işarə və başlıqlar bazarın üslubuna uyğun yenidən dizayn olunubdur.*

*Bildirilib ki, bazarda 78 icarədar fəaliyyət göstərəcək. Bu isə 300 yeni iş yerinin yaranması deməkdir.*

*Kompleksin əsas atributu olan günbəzlər müxtəlif iaşə obyektlərinin təyinatına görə dizayn edilib. Bazara gələcək alıcıların rahatlığını təmin etmək üçün zərgərlik, əl işləri yarmarkaları, «Sandıqça» incəsənət nümunələrinin satışı bölməsi, «Tamaşa», qəlyanaltılar, kafe və restoranlar, «Sehrli bazar», emalatxanalar və sair bölmələrin hər biri ayrıca günbəz və hissələrdə cəmləşdirilib.*

*«Şərq Bazarı»nın ilkin layihələndirilməsi ötən əsrin 80-ci illərinin məşhur memarları Uruzmaq Revazov, Pavel Yarinovski və Anatoli Bessonov tərəfindən icra olunub. Kompleks 3-ü böyük, 13-ü kiçik olmaqla, 16 günbəzdən ibarətdir.*

*Layihələndirilməsinə 1978-ci ildən başlanılmış kompleksin tikintisinə 1980-ci ildə start verilib və 1982-ci ildə bazarın rəsmi açılışı olub. İlkin olaraq kompleks bazar kimi fəaliyyət göstərib.*

*Nadir memarlıq üslubuna görə «Şərq Bazarı» 2001-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilsə də, 2017-ci ildə aparılmış əsaslı müayinə işləri nəticəsində aşkar edilmişdi ki, fərqli təyinatlı ticarət obyektlərinin fəaliyyəti, kortəbii formada həyata keçirilən davamlı istismar və baxımsızlıq binada ciddi zədələnmələrə, çatlara, aşınmalara, korroziyaya və deformasiyalara səbəb olubdur. Məhz bunları nəzərə alaraq, kompleksin istismar göstəricilərini yaxşılaşdırmaq, davamlılığını artırmaq,*

*normal işləmə qabiliyyətini təmin etmək məqsədilə mühəndis tədbirlərinin həyata keçirilməsi zərurəti yaranmışdır. Əsaslı müayinədən sonra dərhal detallı layihələndirmə prosesinə başlanılmış və 2020-ci ildə bərpa işlərinə start verilmişdir.*

*Onu da qeyd edək ki, «Şərq Bazarı» ötən əsrin 80-ci illərindən paytaxt sakinləri üçün doğma məkana çevrilmişdir. Yenidən qurulmuş «Şərq Bazarı» kompleksi şəhərimizin gözəlliyinə gözəllik qatıbdır.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız – Rusiya Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin. Xalqlarımızı bir-birinə bağlayan çoxəsrlik dostluq və mehriban qonşuluq telləri Azərbaycan–Rusiya strateji tərəfdaşlığının və çoxplanlı əməkdaşlığının davamlı inkişafının etibarlı əsasıdır. Ölkələrimizin ikitərəfli gündəlikdəki məsələlərin geniş spektri üzrə qarşılıqlı fəaliyyəti xüsusi məmnunluq doğurur. Cari ilin fevral ayında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamənin imzalanması son 30 il ərzində yaranmış dövlətlərarası əlaqələrimizin yüksək səviyyəsini təsbit edir.

Əminəm ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər xalqlarımızın və ölkələrimizin rifahı naminə birgə səylərimizlə bundan sonra da durmadan möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiyanın dost xalqına əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyun 2022-ci il*

## SƏBAİL RAYONUNDA YENİ SALINMIŞ ÇƏMBƏRƏKƏND PARKINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də paytaxtın Səbail rayonunda yeni salınmış Çəmbərəkənd parkında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısına parkda görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, paytaxtın Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıbdır. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilibdir. Ərazinin relyefinə uyğun olaraq, sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilibdir.*

*Prezident İlham Əliyev yeni parkdan paytaxtın mənzərəsini seyr etdi.*

*Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıbdır.*

*Dövlət başçısının təşəbbüsü ilə paytaxtın Səbail rayonunda salınmış Çəmbərəkənd parkı da onlardan biridir. Burada görülmüş işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla, paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD İBRAHİM RƏİSİYƏ**

Hörmətli cənab Prezident!

Məşhəd–Yəzd istiqamətində hərəkət edən sərnişin qatarının qəzaya uğraması nəticəsində insanların həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2022-ci il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
SƏRDAR BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Sərdar Qurbanqulıyeviç!

Bu il biz Azərbaycan Respublikası ilə Türkmənistan arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu xoş hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, Sizə və qardaş Türkmənistan xalqına ən səmimi arzularımı çatdırıram.

Azərbaycan ilə Türkmənistan arasındakı münasibətlər tarixən dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Ortaq tarixə, qardaşlığa və qarşılıqlı hörmətə əsaslanan əlaqələrimizin ötən dövr ərzində dinamik inkişaf edərək, keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi və bu gün strateji tərəfdaşlıq xarakteri daşıması xüsusi məmnunluq doğurur.

Qarşılıqlı səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanan sənədlər, həyata keçirilən birgə layihələr əməkdaşlığımızın genişlənməsində mühüm rol oynamışdır. Siyasi əlaqələrimizin yüksək səviyyəsi iqtisadiyyat, nəqliyyat-logistika, enerji, humanitar və digər sahələrdə səmərəli işbirliyimiz ilə müşayiət olunur. Beynəlxalq təşkilatlar çərçivəsində də münasibətlərimiz uğurla davam edir.

Hesab edirəm ki, Azərbaycan ilə Türkmənistan arasında bütün sahələrdə, xüsusilə nəqliyyat sahəsində əməkdaşlığımızın inkişafı üçün əlverişli şərait mövcuddur. Əminəm ki, bu imkanlardan istifadə edərək, birgə səylərimizlə ənənəvi dostluq əlaqələrimizin möhkəmlənməsinə və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin daha da genişlənməsinə nail olacağıq.

Sizi bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyun 2022-ci il*

## «AZƏRİŞIQ» ASC-nin 110/35/10 KİLOVOLTLUQ YENİ YARIMSTANSİYASI VƏ RƏQƏMSAL ŞƏBƏKƏLƏRİN BAŞ İDARƏETMƏ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*10 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Bakıda «Azərişıq» ASC-nin 110/35/10 kilovoltluq yeni yarımstansiyası və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*«Azərişıq» ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına yeni yarımstansiyada və İdarəetmə Mərkəzində yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, paytaxtın Yasamal rayonu ərazisində, Füzuli meydanının yaxınlığında tikilmiş yeni yarımstansiya Bakı şəhərinin sürətlə artan elektrik enerjisi tələbatını qarşılamaq, etibarlılığı və dayanıqlılığı təmin etmək məqsədilə inşa olunub. Həmçinin yarımstansiya şəhərin elektrik təchizatının etibarlılığının və dayanıqlılığının təmin edilməsi məqsədilə perspektivdə yaranacaq yüklərin 220 kilovoltluq «Müşviq» və «Xırdalan» yarımstansiyaları arasında paylanması və ötürülməsi üçün nəzərdə tutulub. Yeni yaradılacaq 110 kilovoltluq dairəvi sxemin tərkib hissəsinə aid olan yarımstansiyanın əlaqələndirilməsi «Yasamal-1», inşa*

*ediləcək «Təzə Bazar», «Zəfər» və mövcud «Dağlıq» yarımstansiyaları vasitəsilə həyata keçiriləcək. Yarımstansiyada müasirtipli eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika qurğuları quraşdırılıbdır.*

*Bu yarımstansiyanın mövcud və yeni qurulacaq 35 və 10 kilovoltluq şəbəkələrlə əlaqələndirilməsi digər 110 kilovoltluq yarımstansiyalar arasında yaradılacaq dairəvi sxemlərlə şəhərin mərkəzində artacaq yüklərin qarşılanmasını və idarə olunmasını, avtomatlaşdırılmış məsafədən dispetçer idarəetmə sistemi (SCADA) vasitəsilə yüklərin bir mənbədən digər mənbəyə köçürülməsi əməliyyatlarının operativliyini, elektrik təchizatının dayanıqlılığını təmin edəcək.*

*Dövlət başçısı «Azərişıq» ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzini işə saldı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, rəqəmsal idarəetmənin tətbiqi və ya paylayıcı şəbəkələrin intellektual-rəqəmsal idarə olunması elektrik enerjisinin ötürülməsi və paylanması proseslərinə fasiləsiz nəzarətin həyata keçirilməsini, həmçinin müasir kompüter proqram sistemləri insan amili təsirinin aradan qaldırılmasını təmin edir. Digər tərəfdən, rəqəmsallaşma elektrik şəbəkələri üzrə müəyyənləşdirilmiş beynəlxalq tələblər çərçivəsində iqtisadi səmərəliliyin yaxşılaşdırılması istiqamətində mühüm təyinedici texnoloji vasitədir.*

*«Azərişıq» ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzi Regional Avtomatik İdarəetmə mərkəzləri, 3D-mobil xəritə sistemi, SCADA sistemi, enerji keyfiyyəti göstəricilərinin analiz olunması,*

*ötürücü xətlərdə enerji kəsintiləri və itkilərin müəyyən edilməsi, məsafədən avtomatik sayğac oxuma sistemi, müasir Çağrı Mərkəzi, avadanlıqların texniki pasportlaşma sistemi, abonentlərin FİN-kodlaşma sistemi, avtomobillərin (qəza əleyhinə texnika, səyyar sınaq-diaqnostika laboratoriyaları) GPS-mövqe sistemi, alternativ və bərpa olunan enerji mənbələri, paylayıcı şəbəkələrdə zonalar üzrə səmərəli hesabat sistemindən (SAİDİ/SAİFİ) məlumatlar alaraq dərhal analizini aparır, elektrik enerjisi təminatında yaranan fasilələri aradan qaldırmağa, abonent məmnunluğunu təmin etməyə geniş imkanlar yaradır.*

## MİNİ-FUTBOL ÜZRƏ AVROPA ÇEMPİONATININ QALİBİ OLAN MİLLİ KOMANDAMIZIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*14 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Slovakiyada keçirilmiş mini-futbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul etmişdir.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Salam, ilk növbədə, sizi tarixi qələbə münasibətilə təbrik edirəm. Hesab edirəm ki, bu qələbə Azərbaycan idmanının tarixində qalacaq. Çünki ilk dəfədir ki, ölkəmiz komanda idman növündə Avropa çempionu olub və bu qələbəni siz qazanmısınız – mini-futbol üzrə milli komandamız.

Azərbaycanda idmanın inkişafı ilə bağlı çox işlər görülüb, ancaq bu günə qədər komanda idman növündə biz böyük uğurlara nail ola bilməmişik. Düzdür, bizim şahmatçılarımız iki dəfə Avropa çempionu olublar, amma şahmat fərdi idman növüdür, sadəcə olaraq, komanda şəklində çıxış etmiş şahmatçılarımız bu böyük nailiyyəti əldə etmişlər.

Ancaq oyun idman növlərində belə bir qələbə olmamışdır. Ona görə bu qələbənin çox böyük mənası var və əminəm ki, digər idman növləri üçün bu çox gözəl nümunədir.

Düzdür, bu tarixi uğuru təkrarlamaq heç kim üçün asan olmayacaq, amma hər halda, biz çalışmalıyıq ki, təkcə fərdi idman növlərində deyil, eyni zamanda, komanda idman növlərində də Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək nəticələr göstərsinlər. Bildiyiniz kimi, fərdi idman növlərində bizim çox böyük uğurlarımız var, olimpiya, dünya, Avropa çempionlarımızın sayı çoxdur və əminəm ki, artacaqdır. Beləliklə, komanda idman növlərinin inkişafı imkan verəcək ki, idmanın inkişafı hərtərəfli olsun.

Şadam ki, komandamızın tərkibi yerli idmançılardan ibarətdir – həm oyunçular, həm məşqçilər, mütəxəssislər. Bu məni xüsusilə sevindirir. Onu da bilirəm ki, mini-futbol üzrə bizim komandamız cəmi ikinci dəfə Avropa çempionatında iştirak edir və artıq çempion tituluna layiq görülüb. Mübarizə gərgin olub, istənilən idman növündə Avropa çempionatları çox gərgin keçir. Əlbəttə, Avropanın ən güclü komandaları orada təmsil olunur. Çempionat boyunca göstərdiyiniz həm peşəkarlıq, deyə bilərəm ki, həm də böyük fədakarlıq bu qələbəni mümkün etdi. Siz xalqımızı sevindirmisiniz və təsadüfi deyil ki, Azərbaycan vətəndaşları sizi hava limanında böyük məhəbbətlə qarşılayıblar. Mən sizi ürəkdən təbrik edirəm. Bu doğrudan da çox böyük qələbədir, tarixi qələbədir.

Hər dəfə beynəlxalq yarışlarda idmançılarımız qələbə qazananda əminəm ki, hər bir vətənpərvər insan qürur hissi keçirir, hər dəfə bayrağımız qaldırılanda hər birimiz sevinirik. Qələbələr xalqımıza yaraşır, həm döyüş meydanında, həm idman arenalarında. Əminəm ki, Azərbaycan idmançıları bundan sonra da beynəlxalq yarışlarda Vətənimizi ləyaqətlə təmsil edəcəklər.

Dövlət tərəfindən bütün şərait yaradılıb və idmanın inkişafı ilə bağlı heç bir maneə yoxdur, əksinə, dövlət dəstəyi daim göstərilir. Ancaq mini-futbol idman növünə gəldikdə, bizim üçün bu, nisbətən yeni idman növü olduğuna görə bu sahədəki nailiyyətləri siz özünüz qazanmısınız. Mən deyə bilmərəm ki, mini-futbolçular üçün hansısa xüsusi şərait yaradılıb, yaxud da ki, xaricdən tanınmış mütəxəssislər, məşqçilər, legionerlər dəvət edilib. Yox, bunların heç biri olmayıb. Ona görə sizin qələbəniz çox böyük qiymətə layiqdir. Bu qələbəni siz özünüz qazanmısınız, əlbəttə, federasiya və idman mütəxəssisləri, məşqçilər və oyunçular, idmançılar – komanda deyəndə mən bunu nəzərdə tuturam – siz bu qələbəni halal zəhmətinizlə qazanmısınız.

Azərbaycanda idmana da, idmançılara da diqqət göstərilir. İdmançılar dövlət tərəfindən hər zaman qayğı ilə əhatə olunurlar və bu təbiidir. Çünki idman, idmanda qələbələrimiz həm ölkəmizin beynəlxalq nüfuzunu qaldırır, həm də sağlam həyat tərzini təbliğ edir və bu, hesab edirəm ki, daha vacibdir. Çünki hamımız istəyirik ki, Azərbaycan xalqı sağlam olsun, gənclər kütləvi surətdə idmanla

məşğul olsunlar. İdmanın kütləviliyinin genişləndirilməsi və idmanda qələbələrin əldə edilməsi üçün dövlət idmançılara, klublara, federasiyalara həmişə böyük diqqət və qayğı göstərir. Əminəm ki, bundan sonra Mini-futbol Federasiyamız da dövlət tərəfindən eyni qayğı ilə əhatə olunacaq. Siz öz qələbənizlə göstərdiniz ki, əgər iradə və peşəkarlıq varsa, Vətən sevgisi varsa hətta bəziləri üçün əlçatmaz olan nailiyyətləri əldə etmək olar.

Əminəm ki, Azərbaycanda heç kim sizin qələbənizi gözləmirdi. Bilmirəm özünüz gözləyirdiniz, yoxsa yox, bəlkə də çempionat gedə-gedə bunu hiss etməyə başlamısınız ki, bu mümkündür. Amma əminəm ki, mən də daxil olmaqla, Azərbaycanda heç kim bu qələbəni gözləmirdi və bu qələbənin ikiqat sevinci məhz bununla bağlıdır. Bu göstərir ki, mümkündür, ən güclü rəqibləri məğlub etmək mümkündür – əgər komanda ruhu varsa, yenə də deyirəm, peşəkarlıq, vətənpərvərlik varsa.

Bilirəm ki, bir çoxlarınız ayrı-ayrı işlərlə məşğulsunuz, sözün əsl mənasında, həvəskar idmançılarsınız və əgər belə demək mümkündürsə, mini-futbol sizin üçün bir hobbidir. Sizin qarşınızda Avropanın ən güclü komandaları vardı. Əminəm ki, o komandaların maliyyə təminatı, dəstəyi və digər üstünlükləri sizinkindən qat-qat artıq idi. Amma buna baxmayaraq, qələbə qazanmısınız, hamımızı sevindirmisiniz və adlarınızı Azərbaycanın idman tarixinə yazdırmısınız.

Mən sizi bir daha təbrik edirəm və yeni uğurlar arzulayıram. Əlbəttə, bu uğuru təkrarlamaq çox

çətin olacaq. Amma əminəm ki, komandamızın perspektivləri də çox gözəldir. Əminəm, bu qələbədən sonra gənc nəsil – uşaqlar, yeniyetmələr bu idman növünü seçəcəklər ki, sizin kimi Avropa çempionu olsunlar. Bir daha təbrik edirəm, sizə yeni qələbələr arzulayıram və təşəkkürümü bildirirəm ki, Azərbaycan xalqını bu gözəl qələbə ilə sevindirmisiniz.

* * *

**Orxan Məmmədov** (*Azərbaycan Mini-futbol Federasiyasının fəxri prezidenti*): Möhtərəm cənab Prezident, icazə verin, federasiyamız, bütün futbolçularımız və məşqçi heyəti adından Sizə dərin təşəkkürümü bildirim. Bu gün bizim üçün çox şərəfli bir gündür. Çünki Siz də doğru qeyd etdiniz, futbolçularımız öz halal zəhməti ilə kuboku Sizin qarşınıza gətiriblər. Biz doğrudan da çox şadıq və Sizi əmin etmək istəyirik ki, bundan sonra da var gücümüzlə çalışacağıq bu qələbələr ardıcıl olsun.

Möhtərəm cənab Prezident, diqqətinizə çatdırım ki, mini-futbol qeyri-peşəkar idman növü olsa da, əhali arasında çox geniş yayılıb. Biz 2017-ci ildə qərara gəldik ki, federasiyanı yaradaq və 2018-ci ildə artıq həm Dünya Mini-futbol Federasiyasına, həm də Avropa Mini-futbol Federasiyasına üzv seçildik. 2018-ci ildə Ukraynada keçirilmiş Avropa çempionatına qatıldıq və orada iştirak etmək bizim üçün çox böyük təcrübə oldu. Bildiyiniz kimi, pandemiya dövründə qapanmalar oldu, amma biz məşqləri dayandırmadıq, xüsusilə bu çempionata hazırlaşır-

dıq. Bu çempionat başlayanda biz artıq tam hazır idik. Əlbəttə ki, bizim üçün iştirak əsas idi. Siz düzgün vurğuladınız, bu, futbolçularımız üçün böyük bir təcrübə idi. Amma hər oyunda qazandığımız qələbə bizim həvəsimizi artırırdı. Birinci oyunumuzu Avropa çempionlarına – Rumıniyaya qarşı uduzduq. Amma sonra İspaniyaya qarşı möhtəşəm qələbə qazandıq və biz başqa ölkələrin komandalarını üstələdik. Xüsusilə finalda yenə də rumınlarla üzləşdik. Burada məşqçinin super taktiki gedişlərinin bəhrəsini gördük. Orada bunu rəqiblərimiz də vurğuladılar. Biz, demək olar ki, səhv etmədən qələbə qazandıq.

Əlbəttə, cənab Prezident, bu gün danılmaz faktdır ki, Siz xüsusilə idmana və idmançılara böyük qayğı göstərirsiniz və onları həmişə qəbul edirsiniz. Hər oyunda qələbə qazandıqca inanırdıq və düşünürdük ki, bəlkə də cənab Prezident bizi qəbul edəcək. Biz Sizə çox minnətdarıq. Doğrudan da bizim üçün çox fəxredici bir gündür. Sizə çox təşəkkür edirik, cənab Prezident.

**İ l h a m Ə l i y e v**: Sağ ol.

**E l ş a d Q u l i y e v** (*mini-futbol üzrə milli komandanın baş məşqçisi*): Cənab Prezident, Sizə öz adımdan, komandamız adından dərin təşəkkür edirəm ki, Siz bu dəyərli vaxtınızı bizə ayırmısınız. Biz də əlimizdən gələni əsirgəmədik ki, bizə baxan xalqımız sevinsin. Çox sağ olun, təşəkkür edirəm.

**R a m i l H ə s ə n z a d ə** (*komandanın kapitanı, qapıçı*): Cənab Prezident, bu sıx iş qrafikinizdə bizə vaxt ayırdığınız üçün Sizə təşəkkürümüzü bildiririk. İdmançılara göstərdiyiniz diqqəti biz mini-futbol-

çular da hiss edirik. Bu Avropa çempionatı ərzində kimə desəydilər ki, Azərbaycan çempion olacaq, heç kim inanmazdı. Amma biz döyüşdəki «Dəmir yumruğu» futbol meydançasında da göstərdik. İnşallah, gələcəkdə də iştirak edəcəyimiz bütün yarışlarda Vətənimizi layiqincə təmsil edəcəyik.

Cənab Prezident, bizim Sizə hədiyyələrimiz var, icazə versəydiniz, təqdim edərdik.

**İ l h a m  Ə l i y e v:** Buyurun.

* * *

*Dövlət başçısına xatirə hədiyyələri təqdim olundu. Sonda xatirə şəkli çəkdirildi.*

## «AZƏRBAYCAN – TÜRKİYƏ STRATEJİ MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ QAFQAZ VƏ REGİON ÜÇÜN SÜLH VƏ SABİTLİK MƏNBƏYİDİR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – «Azərbaycan – Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir» mövzusunda Şuşada keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram. Bir il əvvəl – 2021-ci il iyunun 15-də «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi»nin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir.

Şuşa Bəyannaməsinin Azərbaycan xalqı və dövləti üçün əlamətdar tarix olan 15 İyun – Milli Qurtuluş Günündə imzalanmasının və bir il sonra bununla bağlı beynəlxalq konfransın təşkil olunmasının rəmzi xarakteri, mənəvi önəmi də vardır. İki qardaş ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi Türk Dünyasının parlaq şəxsiyyətləri – «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir» – deyən Mustafa Kamal Atatürkün və «Türkiyə və Azərbaycan

bir millət – iki dövlətdir» – deyən Heydər Əliyevin irsinə sadiqliyin ifadəsi gələcək nəsillər üçün örnəkdir. Şuşa Bəyannaməsi çoxşaxəli münasibətlərimizin ən yüksək zirvədə olduğunu göstərən mühüm sənəddir.

Qars müqaviləsindən 100 il sonra imzalanmış Şuşa Bəyannaməsi ortaq tariximizə əsaslanmaqla yanaşı, müasir reallıqları əks etdirir, eləcə də Azərbaycan ilə Türkiyə arasında mövcud və gələcək işbirliyinin strateji istiqamətlərini müəyyənləşdirir. Bəyannamədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşməsinə, regional inteqrasiyaya və təhlükəsizliyə xidmət edir, eyni zamanda, Azərbaycan və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.

Qürurverici haldır ki, Azərbaycan və Türkiyə dünya miqyasında mənəvi-siyasi cəhətdən bir-birinə ən yaxın ölkələrdir. Bizi birləşdirən bir çox amil vardır: tarix, mədəniyyət, etnik köklər, dil, din, milli dəyərlər, milli maraqlar və xalqlarımızın qardaşlığı. Bütün bunlar bizim sarsılmaz birliyimizi təmin edir. Bu gün Azərbaycan və Türkiyə ortaq siyasi iradə və birgə fəaliyyətlə gələcək hədəflərə çatmaq əzmində olan nadir müttəfiqlik nümunəsidir. Məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, iki ölkə arasındakı möhkəm həmrəylik Türk Dünyasında əlaqələrin inkişafı baxımından da önəmlidir. Bu, yeni dünya nizamının yarandığı şəraitdə türk dövlətlərinin dövrün çağırışlarına cavab verməklə

milli-strateji hədəflərə çatması üçün zəmin və fürsət yaradır, türkdilli ölkələrin qarşısında yeni perspektivlər açır.

Əminəm ki, xalqlarımızın sarsılmaz etimadını qazanmış Yeni Azərbaycan Partiyasının və Ədalət və İnkişaf Partiyasının təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda müttəfiqliyimizin daha da gücləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparılacaq, faydalı təkliflər irəli sürüləcəkdir. Həmçinin ümidvaram ki, konfrans Türk Dünyasında həmrəyliyin, dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi işinə də öz layiqli töhfəsini verəcəkdir.

Sizi bir daha ürəkdən salamlayır və fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyun 2022-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ KAREN DONFRİD İLƏ GÖRÜŞ

*15 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridi qəbul etmişdir.*

*Karen Donfrid ABŞ Dövlət katibi Entoni Blinkenin salamlarını Prezident İlham Əliyevə çatdırdı.*

*Dövlət başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Entoni Blinkenə çatdırmağı xahiş etdi. Görüşdə əlaqələrimizin gündəliyinin geniş olduğu, enerji sahəsində əməkdaşlıq, regionda təhlükəsizlik, postmünaqişə dövrü, Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılması və digər məsələləri əhatə etdiyi bildirildi.*

*Dövlət başçısı qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazı əməkdaşlıq regionu kimi görmək istəyir. Prezident İlham Əliyev ABŞ Prezidenti Cozef Baydenin Azərbaycanın Müstəqillik Günü münasibətilə və «Bakı Enerji Həftəsi» çərçivəsində ona ünvanladığı məktublarda, həmçinin özünün Cozef Baydenə məktubunda qeyd olunmuş məsələlərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini vurğuladı.*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ VAYRA VİKE-FREYBERQA, İSMAİL SERAGELDİN, SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI, MƏRKƏZİN İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*15 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı, İsmail Serageldini, sabiq dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.*

*Görüşdə Prezident İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstək yüksək qiymətləndirildi. Paytaxtımızda keçiriləcək IX Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etdiyi qeyd olundu və Forumun beynəlxalq əməkdaşlığı genişləndirmək işinə töhfə verəcəyinə əminlik ifadə edildi.*

*Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada nüfuzunun artdığı və aparıcı beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndiyi məmnunluqla qeyd olundu. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

# NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN TƏŞKİLATÇILIĞI İLƏ «QLOBAL DÜNYA NİZAMINA TƏHDİDLƏR» MÖVZUSUNDA IX QLOBAL BAKI FORUMUNDA İŞTİRAK

*16 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da «Qlobal dünya nizamına təhdidlər» mövzusunda IX Qlobal Bakı Forumu işə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışı mərasimində iştirak etmişdir.*

**İsmail Serageldin** (*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri*): Zati-aliləri Prezident İlham Əliyev! Xanımlar və cənablar!

IX Qlobal Bakı Forumunun açılışı sessiyasında sizi salamlamaqdan şərəf hissi keçirirəm. IX Qlobal Bakı Forumu çərçivəsində ilk sessiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə açılış nitqi üçün söz vermək mənim üçün böyük şərəfdir və bununla da Forum öz işinə başlayacaq. Buyurun, zati-aliləri.

*Dövlət başçısı Forumun açılışı mərasimində nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Sabahınız xeyir, hörmətli dostlar, xanımlar və cənablar!

Hörmətli prezidentlər, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri!

Sizin hamınızı salamlayıram. Bu gün bizimlə olduğunuza görə sizə təşəkkürümü ifadə etmək istəyirəm. Bu gün IX Qlobal Bakı Forumunun açılışıdır və əminəm ki, müzakirələr həmişəki kimi çox məhsuldar olacaqdır. Çünki bizim böyük auditoriyamız var. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri və Forumda iştirak edən qonaqlar əminəm ki, qlobal arenada ən vacib məsələlərlə bağlı çox açıq və səmimi müzakirəyə töhfə verəcəklər.

Əminəm ki, müzakirələr və fikir mübadiləsi qlobal gündəlikdə əsas yer alan məsələlərin həllində yeni yanaşmaların işlənib hazırlanmasına kömək edəcək. Öz fəaliyyəti ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal məsələləri müzakirə edən və geniş beynəlxalq birliyi öz sıralarına qata bilən aparıcı beynəlxalq institutlardan birinə çevrilmişdir. Biz İdarə Heyətinin üzvləri ilə dünən görüşdük və mənə məlumat verildi ki, IX Forumda, demək olar ki, 50 ölkədən yüksək səviyyəli nümayəndə iştirak edir və bu göstərici bir il bundan əvvəlki göstəricidən xeyli çoxdur. Bu bizim müzakirələrin cəlbedici olduğunu, bu platformaya ehtiyacın olduğunu nümayiş etdirir və çox faydalıdır, onun çox mühüm praktiki təsiri vardır. Mən əminəm ki, bu gün Bakıda və bazar günü Şuşada müzakirə olunan məsələlər qərar qəbul edən şəxslər üçün vacib

olacaq. Çünki bu gün heç vaxt olmadığı kimi, yeni yanaşmaların işlənib hazırlanmasına ehtiyac vardır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, xanım Vike-Freyberqaya və cənab Serageldinə mərkəzin və Qlobal Forumun – hesab edirəm ki, indi bu Forum beynəlxalq aparıcı forumlar sırasında yüksək yerdədir – transformasiyasına verdikləri böyük töhfələr üçün təşəkkürümü bildirmək istəyirəm. Həmçinin İdarə Heyətinin bütün üzvlərinə bu transformasiyada fəal rol oynadıqlarına görə təşəkkür edirəm.

Yeni yanaşmalar haqqında danışarkən görürük ki, ötən ilin noyabrına təsadüf edən, burada – Gülüstan sarayında keçirilən görüşümüzdən bəri dünyanın dəyişməsi aydındır. Dəyişiklik fundamentaldır. Hələ ki, proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur, lakin dünyanın fərqli olacağı aydındır və artıq fərqlidir. Buna görə də müzakirələr, fikir mübadilələri, bəzən fərqli fikirlərin ziddiyyətləri yeni yanaşmaların işlənib hazırlanması üçün lazımdır. Hər bir ölkə bu prosesə ilk növbədə, təhlükəsizlik tədbirləri ilə bağlı töhfə verməlidir. Çünki təhlükəsizlik məsələləri beynəlxalq arenada, beynəlxalq gündəlikdə duran əsas məsələlərdən birinə çevrilib. Əminəm ki, Avropadakı cari vəziyyət barədə açıq müzakirələrin aparılması tələb olunur. Qlobal Bakı Forumu bunun üçün mükəmməl platforma olaraq çıxış edir. Bu Forum müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv Forumdur və hesab edirəm ki, bu belə də olmalıdır. Çünki biz hamımız dünyanı daha da təhlükəsiz etmək üçün bir-birimizlə daha yaxından çalışmalıyıq.

Əminəm ki, gündəlikdə duran məsələlərdən biri aparıcı beynəlxalq institutların, aparıcı maliyyə institutlarının ərzaq böhranı ilə mübarizədə rolunun nədən ibarət olması məsələsi olacaqdır. Çünki bu məsələ labüddür, o, artıq bizə yaxınlaşır. Beynəlxalq təşkilatlar və aparıcı ölkələr, həmçinin miqrantların potensial artımı ilə bağlı vəziyyətin öhdəsindən gəlməlidir. Bu, ərzaq böhranı nəticəsində baş verəcəkdir. Enerji bazarlarındakı vəziyyəti buraya əlavə etsək, bu vəziyyəti proqnozlaşdırmaq çətindir. O, istehsalçılar və istehlakçılar arasında qeyri-bərabərsizliyə yol açır və bu həmçinin istehsalçılar üçün də riskdir. Əgər kimsə neft və qaz istehsal edən ölkələrin bu yüksək qiymətlərə görə çox sevindiyini düşünürsə, bu, düzgün dəyərləndirmə deyil. İstehsalçılar və istehlakçılar arasında maraqlar tarazlığı, sabit bazar – istehsalçılara həqiqətdə bu lazımdır. Azərbaycanın fəal iştirak etdiyi OPEC+ formatında səylər buna yönəlib. Bütün bunlar yeni çağırışlardır. Mənim indi dediklərim altı ay bundan əvvəl burada əyləşərək söylədiklərimdən tamamilə fərqlidir. Bu onu göstərir ki, hər şey dəyişə bilər, hər şey dəyişir və heç nə sabit deyil.

Azərbaycanın Prezidenti olaraq, mən ölkəmizin təhlükəsizliyi ilə bağlı məsələlər üzərində çalışıram və Qarabağ münaqişəsinin həlli, zənnimcə, regionda təhlükəsizlik üçün, sülh üçün bir fürsətdir. Keçən dəfə görüşəndə mən işğal, dağıntı və xalqımızın, demək olar ki, 30 il əziyyət çəkdiyi humanitar böhranla bağlı məsələyə geniş şəkildə toxundum. Bunları təkrarlamaq istəmirəm, bunlar artıq məlumdur. Çünki işğaldan azad edilmiş ərazilərdə o qədər

ziyarətçilər – siyasətçilər, ictimai xadimlər, jurnalistlər, vətəndaş cəmiyyətinin nümayəndələri olublar, onlar erməni işğalından sonra hansı dağıntıların qaldığını öz gözləri ilə görüblər.

Keçən il Nizami Gəncəvi Beynəlxalq Mərkəzi sessiyalardan birini Şuşada təşkil etmişdir. Mən buna görə mərkəzə minnətdaram və bizim orada görüşmək imkanımız oldu. Mən qonaqlarımız üçün sanki bir bələdçi olaraq, onlara vəziyyəti göstərirdim. Buna görə mən bizim müharibədən sonrakı vəziyyətlə, Qafqazda regional təhlükəsizliklə bağlı yanaşmalarımızı ifadə etmək istəyirəm. Azərbaycan müharibədə qalib gəldi, müharibə ədalətli idi, müharibə labüd idi və ədalətin, beynəlxalq hüququn və Azərbaycan xalqının milli ləyaqətinin bərqərar olunması ilə nəticələndi. İndi biz sülh haqqında danışırıq. Hesab edirəm ki, belə uzunmüddətli qarşıdurmadan sonra ədaləti bərqərar edən və təcavüzkarı məğlub edən ölkənin qısa müddət ərzində sülh təklif etməsi dünyada nadir hallardan biridir. Müharibələr tarixinə baxsanız, bir çox hallarda bu mənzərə müşahidə edilmir. Nə üçün biz sülhü seçdik? Çünki biz Cənubi Qafqazda sabit, dayanıqlı inkişafı görmək istəyirik. Bu, nadir fürsətdir. Cənubi Qafqaz üç Cənubi Qafqaz ölkəsinin müstəqillik illəri ərzində parçalanmışdır. Ermənistanın işğalı səbəbindən o, 30 il ərzində parçalanmışdır. İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır.

Ermənistanla münasibətlərin normallaşması prosesinə gəlincə, biz sülh razılaşması üzərində çalışmağa başlamağı təklif etdik. Ermənistan cavab vermədi.

Sonra biz daha bir addım atdıq. Biz hər iki ölkənin sərhədlərinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət etmək və tanımaq, indi və gələcəkdə hər hansı bir ərazı iddialarından qarşılıqlı şəkildə çəkinmək prinsipi də daxil olmaqla, beynəlxalq hüququn 5 əsas prinsipini və bizim təklifin əsasını təşkil edən başqa prinsipləri də irəli sürdük. Bu 5 prinsipin Ermənistan hökuməti tərəfindən qəbul edilməsi bizi məmnun etdi. Bu, müsbət dinamikadır. Lakin indi praktiki icraya keçməliyik. Çünki işğal vaxtının tarixindən bildiyimizə əsaslanaraq, danışıqlar apararkən bəzən Ermənistan rəsmiləri tərəfindən hətta yüksək səviyyədə ifadə edilmiş sözlərin o qədər də böyük məna daşımadığını bilirik. Bizə addımların atılması lazımdır. Azərbaycan öz tərəfindən sülh razılaşması üzrə komissiyasını yaradıb və biz eyni addımın Ermənistan tərəfindən atılmasını da gözləyirik. Bu addım atılan kimi və ya atılan təqdirdə danışıqlar başlanacaqdır.

Biz həmçinin sərhədimizin delimitasiyasına başlanılması ilə bağlı təklif irəli sürdük. Çünki sərhədimizin ən böyük hissəsi də işğal altında idi və orada heç vaxt delimitasiya aparılmamışdır. Buna görə bu proses də başlanılıb və Azərbaycan–Ermənistan sərhəd komissiyasının birinci birgə iclası keçən ay sərhəddə baş tutmuşdur. Hər iki tərəfin sərhəddə görüşməsi də rəmzi xarakter daşıyırdı. Bu həmçinin bu məsələdə irəliləyişin olacağına dair mühüm mesaj idi. Əlbəttə, biz bu yolun uzun olduğunu anlayırıq, lakin bu proses artıq başlanıb, biz kommunikasiyaların açılması ilə bağlı Ermənistanın 2020-ci il 10 noyabr

tarixli imzalanmış Üçtərəfli Bəyanata əməl edəcəyini gözləyirik ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi olsun. Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından il yarımdan çox vaxt keçib, əfsuslar olsun ki, indiyədək heç bir çıxış təmin olunmayıb. Bu qəbuledilməzdir. Birincisi, bu, Ermənistan tərəfindən Üçtərəfli Bəyanatın müddəalarının pozulmasıdır və bu, regionda sanki disbalans yaradır. Çünki eyni Bəyanata əsasən, Azərbaycan Ermənistandan Azərbaycanın erməni əhalisinin yaşadığı Qarabağ bölgəsinə maneəsiz çıxışın təmin olunması üçün üzərinə öhdəlik götürüb. Bir il yarımdır ki, ermənilər Laçın yolundan istifadə edirlər və maneəsiz əlaqəyə malikdirlər. Azərbaycanlılar isə Ermənistan ərazisindən keçən yoldan, bizi Naxçıvanla birləşdirən Zəngəzur dəhlizindən istifadə edə bilmirlər. Bu ədalətsizlikdir, biz bununla razılaşmayacağıq. Ermənistan tərəfindən bizə belə bir əlaqə yolunun verilməsi məsələsinin məqsədyönlü şəkildə gecikdirilməsi səmərəsizdir. Bu mənə əvvəlki danışıqlar dövrünü xatırladır ki, Ermənistan o zamanlar vaxt udmaq üçün davamlı olaraq bütün məsələləri gecikdirirdi. Bu nə ilə nəticələndi? Nəticə həm döyüş meydanında, həm də siyasi arenada tam məğlubiyyət oldu. Nəticə o oldu ki, Ermənistanın ideoloji bazası tamamilə darmadağın edildi. Otuzillik işğal dövrü erməni xalqını heç də xoşbəxt etmədi. Əksinə, onlar dünya ictimaiyyətinin gözündə işğalçı və təcavüzkar oldular. Müharibə başa çatdıqdan sonra hər kəs görür ki, onlar işğal dövründə oraları necə viran qoyublar.

Beləliklə, Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir. Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, vacib məsələdir, Azərbaycanın bunu tələb etməyə haqqı var. Birincisi, Ermənistan hökuməti müvafiq Bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkmiş ölkə olaraq, bizim bunu tələb etməyə mənəvi haqqımız var.

Diqqətinizi cəlb etmək istədiyim digər bir məsələ Azərbaycanda yaşayan ermənilərlə bağlıdır. Mənim, Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin və Ermənistanın baş naziri Paşinyanın Brüsseldə baş tutmuş üçtərəfli görüşümüzün nəticələrinə dair cənab Şarl Mişel tərəfindən yayılmış bəyanatda aydın şəkildə deyilir ki, Qarabağda yaşayan erməni əhalisinin də hüquqları və təhlükəsizliyi nəzərə alınacaq. Biz bunu tam şəkildə dəstəkləyirik. Azərbaycanın bütün əhalisinin hüquq və təhlükəsizliyi Konstitusiya ilə təmin edilir. Azərbaycan çoxmillətli ölkədir və erməni əhalisi Azərbaycanın heç də ən böyük milli azlığı deyil. Yəni bizim Konstitusiyamıza görə, bütün millətlərin nümayəndələri bərabər hüquqa malikdir, o cümlədən illər boyu Azərbaycanda yaşayan ermənilər. Bəli, hüquqlar və təhlükəsizlik məsələləri tərəfimizdən təmin ediləcək. Lakin təəssüflər olsun ki, biz Ermənistan hökuməti tərəfindən «Dağlıq Qarabağın»

statusu ilə bağlı fikirlərin səsləndirilməsinin şahidi oluruq. Bu tamamilə səmərəsizdir və Ermənistanın özü üçün təhlükəlidir. Dağlıq Qarabağ mövcud deyil. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib. Bizim ərazimizdə belə bir inzibati struktur yoxdur. Bu səbəbdən, «statusla» bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb. Status məsələsinin gündəmə gətirilməməsi ilə bağlı şifahi razılıq var idi. Təəssüflər olsun ki, bu, baş verir və bunun çox ciddi nəticələri ola bilər. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, Azərbaycan üçün Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa, çıxış yolu olmayacaq. Tarixi nöqteyi-nəzərdən bizim bunu etməyə hüququmuz var. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşdirilməsindən altı ay sonra sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsinlər? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub. Bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq və hesab edirəm ki, Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir.

Sizin bilməyinizi istədiyim digər bir məsələ ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə fərziyyələrlə bağlıdır. Minsk qrupu 1992-ci ildə təsis edilib və onun mandatı münaqişənin həllinə yardım etməkdən ibarət olub. Lakin faktiki olaraq, onun fəaliyyəti sıfırla nəticələnib. Təsəvvür edin ki, ATƏT-dən mandat almış bu qrup 28 il ərzində heç bir nəticə əldə etməyib. Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Hesab edirəm ki, hər kəs bunu anlayır. Xüsusilə Rusiya–Ukrayna müharibəsindən sonra aydındır ki, Minsk qrupunun üç həmsədr ölkəsi bir araya gələ bilməz və biz bununla bağlı artıq mesajlar almışıq – bu qrupun həmsədrlik institutu fəaliyyət göstərməyəcək. Yəni Minsk qrupu funksiyasını itirib. Bunu yenidən dirçəltmək cəhdləri də səmərəsizdir. Düşünürəm ki, bunun ən yaxşı yolu Minsk qrupuna «əlvida» deməkdir. Təşəkkür edirik və əlvida, 30 il kifayətdir, təqaüdə çıxmaq vaxtıdır.

Bizim mövqemiz ondan ibarətdir ki, Minsk qrupu ilə bağlı Ermənistanda və ya digər ölkədə hər hansı fərziyyə Azərbaycanda ancaq qıcıq doğurur. Biz münaqişəni həll etdik, Minsk qrupu tərəfindən hazırlanmış və Madrid prinsipləri adlandırılan prinsiplər öz həllini tapıb və artıq biz Ermənistanla münasibətləri normallaşdırmaq, sülh sazişi imzalamaq üzərində çalışmalıyıq. Hesab edirəm ki, hər iki tərəf xoş məramla çalışsa, biz sülh sazişini bir il ərzində imzalaya bilərik. Daha sonra Qafqaza sülh gələcək. Bizim Qafqazla bağlı baxışımız inteqrasiya və əməkdaşlıqdan ibarətdir və Azərbaycan bir neçə dəfə

buna start verməyi, ilkin addımları atmağı təklif edib. Biz bu məsələ ilə bağlı gürcüstanlı həmkarlarımızla məsləhətləşmə aparmışıq və Gürcüstan hökuməti də bu ideyanı dəstəkləyir – Gürcüstanda Azərbaycan, Gürcüstan və Ermənistan Xarici İşlər nazirləri səviyyəsində üçtərəfli görüşün keçirilməsi və dialoqun başlanılması. Təəssüflər olsun ki, Ermənistan bundan imtina edir. Bunun səbəbini bilmirəm və buna qaneedici izahat tapa bilmirəm. Bildiyimə görə buna bənzər təşəbbüslər bəzi Avropa təsisatları tərəfindən də irəli sürülüb. Lakin yenə də imtina edilib. Ermənistan Cənubi Qafqazda sülh istəmirsə, istədiyi nədir? Onlar növbəti müharibə istəyirlərsə, bu onlar üçün fəlakət olacaqdır və onlar bunu yaxşı anlayırlar. Hesab edirəm ki, Ermənistan hökuməti və oradakı revanşist qüvvələr aydın şəkildə dərk edirlər ki, bu onların dövlətçiliyinin sonu olacaq. Biz Ermənistandan aydın cavab almalıyıq ki, onlar Cənubi Qafqazı necə görürlər? Bizim mövqemiz aydındır, Gürcüstan hökumətinin də mövqeyi aydındır ki, biz dialoq və təmaslara start verməliyik. Ancaq Ermənistansız bu, mümkün olmayacaq. Xüsusilə cari vəziyyəti nəzərə aldıqda, regional əhəmiyyətli məsələlərin müzakirəsinə ehtiyac var – ətraf mühitin qorunması, Azərbaycan ərazisində təbiətin ciddi çirklənməsinə səbəb olan transsərhəd çaylar, nəqliyyat sahəsində əməkdaşlıq, tranzitlə bağlı yeni imkanlar. Nəzərə almaq lazımdır ki, Azərbaycan Zəngəzur dəhlizinin öz ərazisindən keçən hissəsinin yekunlaşdırılmasına yaxındır. Yeni marşrutlar və enerji təhlükəsizliyi də bu

sıradadır. Hesab edirəm ki, işə başlamağın vaxtıdır. Biz 30 il itirdik və erməni işğalı olmasa idi, düşünürəm ki, Cənubi Qafqaz bu gün daha müasir, dinamik və daha geniş iqtisadi potensiala malik region ola bilərdi.

Enerji təhlükəsizliyi ilə bağlı bir neçə kəlmə demək istərdim. Çünki bu da qlobal gündəliyin aktual məsələlərindəndir. Azərbaycanın enerji resurslarına ehtiyac artmaqdadır. Bu il fevral ayının 4-də Gülüstan sarayında «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının illik toplantısını keçirdik və gələcək addımlarımızı müzakirə etdik. Lakın Avropada vəziyyət kəskin şəkildə dəyişib və Azərbaycanın karbohidrogen ehtiyatlarına tələbat artır. Biz bir çox ölkənin artan tələbatını təmin etmək üçün əlimizdən gələni edirik. Son bir neçə ay ərzində bir çox Avropa ölkəsindən qaz təchizatı ilə bağlı bizə müraciətlər daxil olub. Bu, asan məsələ deyil. Çünki əvvəlcə həmin qaz hasil edilməlidir, biz isə qaz hasilatını artırmağı planlaşdırmırdıq. Hazırda bu məsələ ilə bağlı biz Avropa Komissiyası ilə çalışırıq. Biz Avropa Komissiyası ilə enerji dialoquna start vermişik. Buraya yalnız qaz deyil, neft, elektrik enerjisi və hidrogen daxildir. Bərpa olunan enerji ilə bağlı Azərbaycanda böyük potensial vardır. Biz dünən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri ilə bu məsələni ətraflı müzakirə etdik. Biz artıq bu işlərə başlamışıq, səylərimizi davam etdirməyi planlaşdırırıq və il yarımdan sonra 700 meqavatdan artıq külək və Günəş enerjisi həcmi istifadə oluna biləcəkdir. Bu, yalnız başlanğıcdır. Potensial daha böyükdür. Artıq biz 4 qeqavat

enerji həcmi ilə bağlı razılaşma imzalamışıq, ancaq təkcə Xəzər dənizinin potensialı 157 qeqavatdan ibarətdir. Bu, nəhəng həcmdir və şübhəsiz ki, Azərbaycan «yaşıl enerji» zonasına çevriləcək və bərpa olunan enerji sahəsində beynəlxalq enerji bazarında ciddi oyunçu olacaqdır.

Sizin vaxtınızı çox almaq istəmirəm. Çıxışımı burada yekunlaşdırıram. Bir daha xoş gəlmisiniz! Bizimlə bir yerdə olduğunuza görə sağ olun. Forumun işinə uğurlar arzulayıram və əminəm ki, bu həmişəki kimi belə də olacaqdır.

* * *

*Sonra Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış edərək, dünyada hazırkı geosiyasi vəziyyət haqqında danışdı, münaqişələrin aradan qaldırılması, müharibələrin baş verməməsi üçün beynəlxalq səviyyədə səyləri birləşdirməyin vacibliyini vurğuladı. Təhlükəsizlik, yeni dünya nizamı və sülhə nail olmanın yolları barədə qənaətini bölüşdü.*

**Vayra Vike-Freyberqa** (*Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri*): Biz Bakıda IX Qlobal Foruma ev sahibliyi edən ölkənin Prezidenti tərəfindən səmimi qarşılandıq. Bu auditoriya qarşısında çıxış etmək üçün vaxt ayırdığına və Azərbaycanın ərazilərini işğaldan azad etməyə müvəffəq olandan indiyədək baş verən mühüm tarixi hadisələrə aydınlıq gətirdiyinə görə cənab Prezidentə təşəkkür edirik. Onun

öz evini, yurd-yuvasını, doğma torpağını itirmiş insanlara verdiyi ümid sözsüz ki, ilhamvericidir.

*Latviyanın sabiq Prezidenti Azərbaycanla Ermənistan arasında sülhə nail olunması istiqamətində atılan addımları təqdirəlayiq hesab etdiyini bildirdi. Bu baxımdan Avropa İttifaqının da səylərini müsbət qiymətləndirən Vayra Vike-Freyberqa dedi:*

– Prezident Əliyevin vurğuladığı kimi, danışıqlarda iştirak etmək üçün onun ölkəsi tərəfindən xoş məram, zənnimcə, irəliləyiş üçün nəyin lazım olduğunun nümunəsidir. Düşünürəm ki, Prezident Əliyevdən eşitdiyimiz əsas məqamlar üzləşdiyimiz böhranlara baxış tərzini müəyyənləşdirir.

Müharibə və təhdidlərin beynəlxalq səviyyədə bir sıra ciddi problemlər doğurduğunu düşünürəm. Münaqişələrin həll yollarının tapılması baxımından Forumun işini yüksək qiymətləndirirəm.

**İsmail Serageldin:** Mən də fürsətdən istifadə edərək, bu illər ərzində həm Qlobal Bakı Forumunda, həm də Nizami Gəncəvi Mərkəzinin digər toplantılarında bizim üçün azad məkan yaratdığına görə Prezident Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan Prezidentinin himayəsi altında biz hər zaman fərqli fikirləri dinləmək, təcrübəli və xoşməramlı insanların ideyalarını irəli sürmələri üçün özümüzü azad hiss etmişik.

*Albaniya Prezidenti İlir Meta beynəlxalq səviyyədə problemlərin ədalətli həlli üçün Birləşmiş Millətlər Təşkilatının rolunun gücləndirilməsinin vacibliyini vurğuladı. O, müharibələrin baş verməməsi üçün dünya güclərini beynəlxalq səylərini artırmağa çağırdı. Belə*

*müzakirələr üçün yaratdığı şəraitə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirdi.*

**İlir Meta** (*Albaniya Prezidenti*): Mən fürsətdən istifadə edərək, göstərdiyi dəstəyə, Albaniya və regionumuzda Trans-Adriatik və İonik-Adriatik boru kəmərlərinin uğurlu icrasına görə Azərbaycana və Prezident Əliyevə bir daha minnətdarlığımı bildirirəm.

*Pandemiya ilə bağlı imkanları birləşdirməyin, beynəlxalq səviyyədə inteqrasiyanı gücləndirməyin və əməkdaşlığı genişləndirməyin vacibliyini vurğulayan İlir Meta Bakıda bu mühüm tədbirin təşkilatçılarına bir daha minnətdarlığını çatdırdı.*

**Şefik Caferoviç** (*Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri*): Möhtərəm Prezident Əliyev, mən Qarabağın bərpası işlərində Sizə uğurlar arzulayıram. İkinci Qarabağ müharibəsindən sonra əldə etdiyiniz razılaşmaların tam həyata keçirilməsində və Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq hüquq çərçivəsində qorunmasında Sizə uğurlar arzulayıram.

*Şefik Caferoviç gələcək dünyamızın münaqişəsiz və təhlükəsiz olması üçün beynəlxalq əməkdaşlığı gücləndirməyin vacibliyini vurğuladı. O, konkret faktlar əsasında BMT-də islahatların aparılmasının zəruriliyini diqqətə çatdırdı.*

*Daha sonra çıxış edən Gürcüstan Prezidenti Salome Zurabişvili sülh, təhlükəsizlik, funmental insan hüquqları, ərzaq və enerji çatışmazlığı problemi barədə qənaətini bölüşdü. O, Cənubi Qafqazda sülhün bər-*

*qərar edilməsinin günümüzün əsas məsələlərindən olduğunu vurğuladı.*

**Salome Zurabişvili** (*Gürcüstan Prezidenti*): Mən Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında sülh danışıqları və etimad yaratmaq prosesindəki iştirakını alqışlayıram.

*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus da müzakirələrdə iştirakından məmnunluğunu bildirdi. Dünyada peyvəndləmə ilə bağlı xeyli iş görülsə də, bunun hələ də yetərli olmadığını vurğulayan Tedros Qebreyesus beynəlxalq səhiyyə sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi zərurətini vurğuladı.*

**Tedros Qebreyesus** (*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru*): Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirir. Mən Azərbaycanda yoluxma və ölüm sayının pandemiyanın əvvəlindən bu yana ən aşağı həddə olduğunu görməyə çox şadam.

*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru müharibələrin ağır nəticələrinin dünya səhiyyəsinə də mənfi təsir göstərdiyini qeyd etdi. Bildirdi ki, bu baxımdan konkret tədbirlər həyata keçirilməlidir.*

**Binəli Yıldırım** (*Türkiyənin sabiq Baş Naziri*): Hörmətli sədr, çıxışımın əvvəlində bizə yüksək qonaqpərvərlik göstərən möhtərəm cənab Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ənənəyə çevirdiyi bu Forumda iştirak etməkdən məmnunluğumu bildirir və bu tədbirə dəvətə görə hörmətli

İsmail Serageldinə və xanım Vayra Vike-Freyberqaya minnətdarlığımı bildirirəm.

*Binəli Yıldırım Türkiyənin beynəlxalq ədalətin bərpası üçün ardıcıl və kompleks işlər gördüyünü konkret faktlar əsasında diqqətə çatdırdı. O, Cənubi Qafqazın sülh, dostluq və əməkdaşlıq meydanına çevrilməli olduğunu xüsusi vurğuladı:*

– Bunun bir çox nümunəsi var. Hörmətli Prezident İlham Əliyevin ifadə etdiyi kimi, Qarabağ münaqişəsinin həllinə 26 il ərzində BMT, ATƏT-in Minsk qrupu və digər beynəlxalq təşkilatlar tərəfindən cəhd göstərilsə də, heç bir nəticə əldə olunmadı. Lakin Azərbaycan 44 günlük Vətən müharibəsində işğal altındakı torpaqları öz imkanı və gücü ilə azad etdi.

*BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya dünyanı narahat edən məsələlərin müzakirəsinə xüsusi həssaslıqla yanaşdığı üçün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə və iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və digər bu kimi məsələlərin müzakirəsi üçün yaratdığı şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.*

**Tatyana Valovaya** (*BMT-nin Cenevrə ofisinin baş direktoru*): Mən səmimi qarşılanma və qonaqpərvərliyinə görə zati-aliləri Prezident Əliyevə və IX Qlobal Forumu təşkil etdiyinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Həmçinin dəfələrlə səfərdə olduğum, qədim tarixə malik müasir şəhər olan Bakıya yenidən gəldiyimə görə çox şadam və buradakı dəyişikliyi bir daha görməyi səbirsizliklə gözləyirəm.

*Pandemiyanın dünyadakı sosial bərabərsizliyi daha qabarıq üzə çıxardığını və bu problemin öhdəsindən uğurla gəlmək üçün beynəlxalq ictimaiyyətin səylərini gücləndirməsinin vacibliyini qeyd edən Tatyana Valovaya bu istiqamətdə BMT-nin üzərinə düşən vəzifələrin öhdəsindən gəlmək üçün görülən işlərdən danışdı. O, COVID-19-un planetdə yaratdığı fəsadların aradan qaldırılması istiqamətində görüləcək bir çox işlərin olduğunu bildirdi.*

**Əhməd Əbul Qeyt** (*Ərəb Liqasının səkkizinci baş katibi, Misirin sabiq Xarici İşlər naziri*): İcazənizlə, ilk növbədə, qısaca olaraq Prezident İlham Əliyevə müraciət edim. Cənab Prezident, mən ilk dəfədir ki, Bakı Forumunda iştirak edirəm. Misirin Xarici İşlər naziri qismində bu şəhərdə üç dəfə səfərdə olmuşam. Sonuncu dəfə 2009-cu ildə burada olmuşam. Cənab Prezident, bu şəhərdəki inkişafın məni nə qədər heyrətləndirdiyini Sizə bildirməliyəm. Siz onu böyük, müasir şəhərə çevirmisiniz və mən Sizin nailiyyətlərinizi alqışlayıram.

*Misirin sabiq Xarici İşlər naziri böhranların və qeyri-müəyyənliklərin yaşandığı dünyada sülhə nail olunması, daha təhlükəsiz dünyanın qurulması üçün vacib addımların atılmasının zəruri olduğunu vurğuladı.*

**İsmail Serageldin**: Cənab Prezident, bizim xəyal etməyə cəsarətimiz olmalıdır və biz xəyallarımızın gücünə inanmalıyıq, lakin biz indiki və gələcək zamanın reallıqlarına kök salmalıyıq. Biz daha böyük şaxələnmədə yaşamaq üçün hamımızın irəlilədiyi bir vaxtda münaqişədən sülhə doğru, qorxudan təhlükəsizliyə doğru və milli təhlükəsizlikdən

insan təhlükəsizliyinə doğru irəliləyə biləcəyimizi təmin etməliyik.

Cənab Prezident, Qlobal Bakı Forumunda Siz bizə bu məkanı və azadlığı vermisiniz və biz əcdadlarımızın müdrikliyinə layiq olmağa, ola bilsin, bizdən sonra gələn nəsillərimizə töhfə verməyə çalışaraq, şaxələnmə ilə bağlı müzakirələrin aparılacağını səbirsizliklə gözləyirik. Bununla da, cənab Prezident, bizə bu qədər çox vaxt ayırdığınız üçün Sizə təşəkkürümü bildirmək və Qlobal Bakı Forumunu rəsmi olaraq açıq elan etmək istəyirəm. Sizinlə birlikdə olmaq və Forumun sonunda Sizə məruzə etmək ümidi ilə. Təşəkkür edirəm.

* * *

*Forum işini panel iclaslarla davam etdirdi.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həll yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq mərkəzə çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.*

*Bu dəfə «Qlobal dünya nizamına təhdidlər» mövzusuna həsr olunmuş Qlobal Bakı Forumunda 50-dən çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak etdilər. Forumda qlobal dünya nizamını təhdid edən mühüm problemlər, o cümlədən dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlər, enerji təhlükəsizliyinə yaranan təhdidlərin həll yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq və*

*inteqrasiya, qloballaşan dünyada artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm mövzularda səmərəli müzakirələr aparılacaqdır.*

* * *

*İtaliya Respublikasının Prezidenti Sercio Mattarella «Qlobal dünya nizamına təhdidlər» mövzusunda IX Qlobal Bakı Forumu ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlamışdır.*

**«Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Zati-aliləri!

IX Qlobal Bakı Forumunda iştirak etməyim barədə Sizin dəvət məktubunuzu aldım.

Təəssüf hissi ilə Sizə bildirməliyəm ki, qrafikimdə olan institusional öhdəliklər səbəbindən bu tədbirdə iştirak edə bilməyəcəyəm.

Mən əminəm ki, builki Forum da faydalı fikir mübadiləsi üçün imkan yaradacaq. Seçdiyiniz mövzu – «Qlobal dünya nizamına təhdidlər» bu niyyətin ifadəsidir. Pandemiyanın iqtisadi və sosial təsirləri, həmçinin Rusiyanın Ukraynaya qarşı təcavüzünün dəhşətli nəticələri ilə hazırkı kontekst tələb edir ki, biz xalqlar arasında dialoq və əməkdaşlıq dəyərlərini daha böyük əzmlə təbliğ etmək məsuliyyətini öz üzərimizə götürək.

Beynəlxalq nizamın getdikcə pozulması riski ilə yanaşı, imperializm və militarizm təhlükəsinin yenidən meydana çıxması fonunda Bakıda keçirilən bu tədbir kimi təşəbbüslər daha da böyük əhəmiyyət kəsb edir. Bu təşəbbüslər müxtəlifliyə hörmət, digər mədəniyyətlərlə sistemli qarşılıqlı əlaqə və digərlərinin mühüm ləyaqətinin eyni dərəcədə tanınmasına əsaslanır ki, bunlar da dünyada sülh və sabitliyin təmin olunmasının əsas elementləridir.

Fəaliyyətinizə dərin ehtiramımı bildirməklə mən Qlobal Bakı Forumunun işinə səmimi-qəlbdən uğurlar diləyir və Sizə ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

**Sercio Mattarella**
**İtaliya Respublikasının Prezidenti»**

## GÜRCÜSTAN PREZİDENTİ XANIM SALOME ZURABİŞVİLİ İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşmüşdür.*

*Görüşdə Prezident Salome Zurabişvili IX Qlobal Bakı Forumunun uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Söhbət zamanı regional əməkdaşlıq və ikitərəfli gündəlikdə duran məsələlər barədə fikir mübadiləsi aparıldı. Həmçinin nəqliyyat, enerji məsələlərinə toxunuldu, tranzit sahəsində yeni imkanların yaradıldığı qeyd edildi.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ İLİR META İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşmüşdür.*

*Görüşdə Albaniya Prezidenti Bakı şəhərində inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi və son səfərindən keçən dövrdə Azərbaycan paytaxtının daha da gözəlləşdiyinin şahidi olduqlarını dedi. Prezident İlham Əliyevə və Azərbaycan xalqına yeni uğurlar arzulayan Albaniyanın dövlət başçısı TAP layihəsinin müvəffəqiyyətlə başa çatdırılması ilə əlaqədar Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi. Prezident İlir Meta işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərində Azərbaycana uğurlar arzuladı. Albaniya və Azərbaycan xalqlarının qardaş xalqlar olduğunu söyləyən İlir Meta gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd ediləcəyini məmnunluqla diqqətə çatdırdı.*

*Azərbaycan Prezidenti İlham Əliyev IX Qlobal Bakı Forumunda iştirakına görə Albaniya Prezidenti İlir Metaya təşəkkürünü bildirdi. Dövlət başçımız Albaniyanın həmişə olduğu kimi, İkinci Qarabağ müharibəsində də Azərbaycanın ərazi bütövlüyünə*

*verdiyi dəstəyi yüksək qiymətləndirdi və vurğuladı ki, bu, Albaniyanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu bir daha göstərir.*

*İşğaldan azad edilmiş ərazilərimizdə dağıntıların miqyasının çox böyük olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, xarici jurnalistlər, siyasətçilər və digər rəsmi şəxslər həmin ərazilərə səfər edərək, bunun şahidi olurlar. Azərbaycanın mina problemi ilə üzləşdiyini deyən dövlət başçısı indiyədək 220-dən çox şəxsin mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını vurğuladı.*

*Söhbət zamanı iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.*

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ ŞEFİK CAFEROVİÇ İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşmüşdür.*

*Görüşdə Prezident İlham Əliyev ölkəmizə səfər etdiyinə və IX Qlobal Bakı Forumunda iştirakına görə Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədrinə təşəkkürünü bildirdi, onunla əvvəlki görüşlərini xatırlatdı. Dövlət başçımız həmin görüşlərdə ikitərəfli və regional məsələlərə dair geniş fikir mübadilələrinin aparıldığını qeyd etdi.*

*Prezident İlham Əliyev torpaqlarımızın işğalı zamanı və İkinci Qarabağ müharibəsi dövründə Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünün bərpasına göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi. Azərbaycan Prezidenti COVID-19 pandemiyasından sonra formalaşmış şəraitdə əlaqələrin inkişafı üçün daha yaxşı imkanların yarandığını qeyd etdi.*

*Dövlət başçımız Bosniya və Herseqovina nümayəndələrinin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclaslarında iştirakını xatırlatdı və enerji sahə-*

*sində ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Şefik Caferoviç Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirdi, Forumun artıq dünyada nüfuzlu tədbirlərdən birinə çevrildiyini qeyd etdi.*

*Dövlət başçımızın nitqini diqqətlə izlədiyini deyən Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Prezident İlham Əliyevin vacib məqamlara toxunduğunu vurğuladı. Bildirdi ki, ədalət və beynəlxalq hüquq həmişə Azərbaycanın tərəfində olub. Azərbaycan ilə Bosniya və Herseqovinanı qardaşlıq əlaqələrinin birləşdirdiyini vurğulayan Şefik Caferoviç münasibətlərimizin xalqlarımızın iradəsindən irəli gələrək, inkişaf etdiyini məmnunluqla bildirdi. Pandemiya dövründə Azərbaycanın Bosniya və Herseqovinaya yardımına görə minnətdarlığını ifadə etdi.*

*Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Azərbaycanın və ölkəsinin mina təhlükəsi ilə üzləşdiyini qeyd etdi və bu sahədə də əməkdaşlığın vacibliyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə geniş yenidən qurulma və quruculuq işləri həyata keçirdiyini qeyd etdi. Azərbaycanın mina problemi ilə üzləşdiyini vurğulayan dövlət başçımız 2020-ci il noyabrın 10-dan etibarən 220-dən çox vətəndaşımızın mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını diqqətə çatdırdı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən iqtisadi, ticari əlaqələrlə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin açılması və bu ölkənin Bakıda səfirliyinin fəaliyyətə başlayacağı məmnunluqla qeyd edildi, bunun da əlaqələrimizin inkişafına əlavə təkan verəcəyi vurğulandı.*

## TÜRKİYƏ RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Türkiyə Respublikasının sabiq Baş Naziri Binəli Yıldırım ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Binəli Yıldırım Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirdi, Forumun dünya miqyasında ən mühüm tədbirlərdən biri olduğunu qeyd etdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Forum iştirakçılarına müraciətini çatdırdığını məmnunluqla nəzərə çatdırdı.*

*Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə ötən gün Şuşada beynəlxalq konfransın keçirilməsinin önəmini vurğulayan Binəli Yıldırım həmin tədbirdə də vacib müzakirələrin aparıldığını söylədi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Binəli Yıldırım dövlət başçımıza xatirə hədiyyəsini təqdim edərək bildirdi ki, bu, İstanbulu fəth edən Fateh Sultan Məhmətin qılıncının eynisidir və Qarabağın fatehi Prezident İlham Əliyevə hədiyyə olunur.*

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM QEBREYESUS İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşmüşdür.*

*Görüşdə dövlət başçısı Azərbaycana səfərinə və Qlobal Bakı Forumunda iştirak etdiyinə görə Ümumdünya Səhiyyə Təşkilatının baş direktoruna təşəkkürünü bildirdi. COVID-19-a qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana verdiyi tövsiyələrin və ölkəmizlə əməkdaşlığın yüksək qiymətləndirildiyini qeyd etdi.*

*Tedros Adhanom Qebreyesus Azərbaycana səfərindən məmnunluğunu bildirdi və COVID-19-a qarşı uğurlu mübarizənin aparılmasına, ölkəmizin bu sahədə milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi fəaliyyətə görə təbriklərini çatdırdı, pandemiya dövründə Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi könüllü maliyyə töhfələrinə və dəstəyinə görə təşəkkürünü bildirdi.*

*Qonaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Ümumdünya Səhiyyə Təşkilatının sıx əməkdaşlıq etdiyini və Anlaşma Memorandumunun imzalandığını vur-*

*ğuladı. Dövlət başçısı Azərbaycanda COVID-19 ilə bağlı vəziyyətin çox yaxşı olduğunu, yoluxma sayının ən aşağı səviyyəyə düşdüyünü, vəziyyətin tam nəzarətdə saxlanıldığını, əksər məhdudiyyətlərin aradan qaldırıldığını və normal həyata qayıdıldığını qeyd etdi. Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizə aparılmasına dair dövlətimizin siyasətinin vətəndaşlar tərəfindən böyük etimadla qarşılandığını və əhalinin pandemiya ilə mübarizə qaydalarına riayət etməsini məmnunluqla bildirdi. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərimizdə səhiyyə infrastrukturunun qurulması layihələri ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın vacibliyini qeyd etdi.*

*Tedros Adhanom Qebreyesus Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi uğurlara görə bir daha təbriklərini çatdırdı.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRAL FAYSALIN İSLAM ARAŞDIRMALARI MƏRKƏZİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ ŞAHZADƏ TÜRKİ AL FAYSAL AL SƏUD İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Səudiyyə Ərəbistanı Kral Faysalın İslam Araşdırmaları Mərkəzinin İdarə Heyətinin sədri şahzadə Türki Al Faysal Al Səudu qəbul etmişdir.*

*Söhbət zamanı Türki Al Faysal Al Səudun ötən il ölkəmizə səfəri və dövlət başçımız ilə görüşü məmnunluqla xatırlandı. IX Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirdə çox sayda nüfuzlu qonağın iştirak etməsi Foruma olan marağın göstəricisi kimi qiymətləndirildi. Bu Forumun beynəlxalq səviyyədə artıq qlobal məsələlərin müzakirə olunduğu bir platformaya çevrildiyi bildirildi.*

*Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı.*

## VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*17 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ölkəmizdə işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə videokonfrans formatında görüşmüşdür.*

*Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Venesuela nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.*

*Görüşdə Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun regional səfər çərçivəsində Azərbaycana səfər etməsinin önəminə toxunuldu və bu, siyasi münasibətlərimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirildi. Venesuela Prezidentinin bu səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Nikolas Maduro Azərbaycana üçüncü dəfə səfər etməsindən məmnunluğunu bildirdi və Venesuelanın ölkəmizlə əlaqələrə böyük önəm verdiyini vurğuladı. Qonaq ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinin zəruriliyini bildirdi, çoxtərəfli səviyyədə, o cümlədən «Qoşulmama Hərəkatı» çərçivəsində görülən işləri müsbət qiymətləndirdi.*

*Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən «Qoşulmama Hərəkatı»nda ölkələrimizin birgə uğurlu fəaliyyət göstərdiyi qeyd edildi. «Qoşulmama Hərəkatı»nda Azərbaycanın sədrliyinin bir il də uzadılması məsələsində Venesuelanın dəstəyi vurğulandı. Azərbaycanın «Qoşulmama Hərəkatı»nın təməl prinsipləri olan Bandunq prinsiplərinə sadiq olduğu bildirildi.*

*Dövlət başçımız vurğuladı ki, Venesuela hər zaman Ermənistan–Azərbaycan münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyib. Prezident İlham Əliyev qeyd etdi ki, münaqişə öz həllini tapıb, Azərbaycan ədaləti, beynəlxalq hüququ, ərazi bütövlüyünü özü bərpa edibdir.*

*Dövlət başçımız onu da bildirdi ki, ölkələrimiz hər zaman bir-birinin suverenliyini və müstəqilliyini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək.*

*Söhbət zamanı iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsi və biznes dairələri arasında birgə işbirliyinin zəruriliyi qeyd olundu. Bu baxımdan birgə investisiya layihələri, müştərək müəssisələrin yaradılması kimi məsələlərin müzakirəsinin böyük önəm daşıdığı bildirildi.*

*Görüşdə OPEC+ formatı çərçivəsində də ölkələrimizin uğurlu fəaliyyəti vurğulandı.*

*Dövlət başçıları ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.*

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ VƏ BMT-nin CENEVRƏDƏKİ BÖLMƏSİNİN BAŞ DİREKTORU TATYANA VALOVAYA İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.*

*Görüşdə dövlət başçımız bu il Azərbaycanın BMT-yə üzv olmasının 30 illiyinin qeyd edildiyini, mart ayında Şuşada bununla əlaqədar konfransın keçirildiyini və bunun xüsusi rəmzi məna daşıdığını bildirdi.*

*President İlham Əliyev Azərbaycanın BMT və onun ixtisaslaşmış təşkilatları ilə sıx əməkdaşlıq etdiyini vurğuladı, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində ölkəmizin əldə etdiyi nailiyyətlərdən danışdı. Dövlət başçısı Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyət göstərdiyini və ölkənin əsas inkişaf göstəricilərinin davamlı surətdə artdığını qeyd etdi.*

*Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpasının və yenidən qurulmasının hazırda ölkəmizin gündəmində prioritet vəzifələrdən biri olduğunu, Azərbaycanın böyük mina problemi ilə üzləşdiyini diqqətə çatdırdı, 2020-ci il noyabrın 10-undan*

*indiyədək 220-dən çox şəxsin mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını, bu gün daha bir analoji hadisənin baş verdiyini bildirdi.*

*Tatyana Valovaya Azərbaycana səfər etməkdən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi «Qlobal dünya nizamına təhdidlər» mövzusunda IX Qlobal Bakı Forumunda iştirakından, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə BMT-nin Cenevrədəki ofisi arasında əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə etdi.*

*Qonaq Azərbaycanda dövlət səviyyəsində Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına xüsusi diqqət yetirilməsinin önəmini bildirdi. O, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında qadınların rolunun artırılmasına dair konsepsiya ilə çıxış etdiyini və bu xüsusda işlərin aparıldığını söylədi.*

*Söhbət zamanı Azərbaycan ilə BMT-nin Cenevrədəki ofisi və ixtisaslaşmış təşkilatları arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## ƏRƏB DÖVLƏTLƏRİ LİQASININ BAŞ KATİBİ, MİSİRİN SABİQ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD ƏBUL QEYT İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Ərəb Dövlətləri Liqasının baş katibi, Misirin sabiq Xarici İşlər naziri Əhməd Əbul Qeyti qəbul etmişdir.*

*Əhməd Əbul Qeyt Azərbaycanda olmaqdan məmnunluğunu ifadə etdi, ölkəmizdə və paytaxt Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. Qonaq Azərbaycanın əldə etdiyi nailiyyətlərin məhz dövlət başçımızın tərəfindən həyata keçirilən uzaqgörən siyasətin nəticəsi olduğunu vurğuladı. Qlobal Bakı Forumunda iştirakdan məmnunluğunu bildirən Əhməd Əbul Qeyt Forumun aktual mövzuya həsr olunduğunu və tədbir çərçivəsində maraqlı müzakirələrin aparıldığını qeyd etdi. Qonaq Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlıq məsələlərinə toxundu.*

*Prezident İlham Əliyev tarixən Azərbaycanın ərəb dövlətləri ilə sıx əlaqələrə malik olduğunu, ölkələrimizin ortaq dini dəyərlər və tarix əsasında bir-birinə bağlı olduğunu bildirdi. Dövlət başçısı 2007-ci ildə Ərəb Dövlətləri Liqasının Baş Qərargahına səfərini və oradakı görüşlərini xatırlatdı.*

*Söhbət zamanı Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı.*

*Sonda Əhməd Əbul Qeyt Ərəb Dövlətləri Liqası adından dövlət başçımıza xatirə hədiyyəsi təqdim etdi.*

## İSRAİL DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də İsrail Dövlətinin sabiq Baş Naziri Ehud Barakı qəbul etmişdir.*

*Görüşdə paytaxtımızda keçirilən IX Qlobal Bakı Forumunun önəmi vurğulandı. Bu tədbirin beynəlxalq əhəmiyyətli mühüm məsələlərin müzakirə edilməsi üçün geniş imkanlar yaratdığı bildirildi.*

*Forumun çox yüksək səviyyədə təşkil olunduğu və burada iştirak etmək üçün dünyanın müxtəlif yerlərindən çox sayda qonağın ölkəmizə gəldiyi məmnunluqla qeyd olundu. Bildirildi ki, Forum beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verir.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Xorvatiya Respublikasının sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul etmişdir.*

*Görüşdə Qlobal Bakı Forumunun önəminə toxunuldu, burada iştirak edənlərin sayının hər il daha da artdığı vurğulandı. Tədbirin gündəliyinin çox geniş olduğu bildirildi. Forumun beynəlxalq əməkdaşlığın genişləndirilməsi, geosiyasi vəziyyət, enerji, səhiyyə, iqlim məsələləri, mədəniyyətlərin dialoqu kimi sahələrlə bağlı müzakirələrin aparılması və yeni ideyaların yaranması üçün yaxşı platforma olduğu qeyd edildi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Özbəkistanın Baş Naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.*

## «KUKSAROY» DÖVLƏT İQAMƏTGAHINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-də Daşkənddə «Kuksaroy» dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Özbəkistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndirildi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan əsgərlərini salamladı.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Özbəkistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Şavkat Mirziyoyevə təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

## «KUKSAROY» DÖVLƏT İQAMƏTGAHININ FƏXRİ QONAQLAR XİYABANINDA AĞACƏKMƏ MƏRASİMİ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 21-də «Kuksaroy» dövlət iqamətgahının Fəxri qonaqlar xiyabanında ağac əkdilər.*

## MÜSTƏQİLLİK ABİDƏSİNİ ZİYARƏT

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 21-də Daşkənddə Müstəqillik abidəsini ziyarət etmişlər.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Məlumat verildi ki, Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılmış abidə özbək xalqının 3000 illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunmuş «Yangi Uzbekiston» («Yeni Özbəkistan») kompleksinin mərkəzində yerləşir. 60 metr hündürlüyündəki abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir. Abidə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin tapşırığı ilə layihələndirilib. Bu abidədə Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş vermiş mühüm hadisələr təsvir edilib. Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülh, azadlıq, xeyirxahlıq və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.*

*Sonra prezidentlər xatirə şəkli çəkdirdilər.*

## HEYDƏR ƏLİYEV MEYDANININ AÇILIŞI MƏRASİMİ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 21-də Daşkənddə Heydər Əliyev Meydanının açılışı mərasimində iştirak etmişlər.*

*Meydan paytaxtın Mirabad rayonunda azərbaycanlıların yığcam yaşadıqları ərazidə yerləşir. Ətrafdakı binalar abadlaşdırılıb. Meydanın ərazisi tamamilə yenidən qurulub, burada yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıbdır.*

*Meydanın mərkəzi hissəsində ulu öndər Heydər Əliyevin böyük memorial kompleksi ucaldılıb.*

*Ümummilli lider Heydər Əliyevin adını daşıyan küçədə yerləşən meydan şəhər sakinləri və qonaqların istirahət üçün ən çox üz tutduqları yerlərdən biri olacaq. Özbəkistanın və Azərbaycanın dövlət başçıları mərasimdə çıxış etdilər.*

### Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı

Hörmətli İlham Heydər oğlu!
Hörmətli nümayəndə heyətinin üzvləri!

Xanımlar və cənablar!

Bu gün biz bərəkətli Özbəkistan torpağında əziz qonağımız, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi salamlayırıq. Dərin rəmzi məna daşıyır ki, Sizin dövlət səfəriniz Azərbaycan xalqının ümummilli lideri, Özbəkistanın böyük dostu, hörmətli Heydər Əlirza oğlu Əliyevin şərəfinə onun adını daşıyan küçənin və burada qoyulmuş barelyefin təntənəli açılışı mərasimi ilə başlayır.

Biz hamımız tarixə XX əsrin görkəmli siyasi və dövlət xadimi kimi daxil olmuş Heydər Əliyevi yaxşı tanıyırıq. O, bütün həyatını doğma Azərbaycana həsr edib. Ölkə üçün ən ağır illərdə çox böyük məsuliyyəti cəsarətlə öz üzərinə götürüb, müasir dövlətçiliyin əsaslarını yaradıb, Azərbaycanda bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib. O həqiqətən, müstəqil Azərbaycanın memarı idi. Onun qətiyyəti və siyasi iradəsi, zəngin rəhbərlik təcrübəsi və müstəsna liderlik keyfiyyətləri gənc, müstəqil dövləti xilas etdi. Dərin məna daşıyan faktdır ki, iyunun 15-i Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd edilir. Məhz həmin gün Heydər Əliyev ölkə rəhbərliyinə qayıtmış və Azərbaycan Ali Sovetinin Sədri seçilmişdir.

Fikrimcə, bizim ölkələrimizin müstəqilliyini bərpa etməsi ərəfəsində onların tarixinin çətin səhifələrini xatırlatmaq burada yerinə düşər. Xalqlarımız çətin, bəzən faciəli dövrlər yaşamalı olub. Bununla belə, həm özbək, həm də Azərbaycan xalqı öz mənəvi dəyərlərini, milli qürur və mənliyini qoruyub saxlayıb, öz gələcəyini özlərinin qurması hüququnu saxlayıbdır.

Çoxdan gözlənilən azadlığa doğru keçdiyimiz keşməkeşli yolu qiymətləndirərək, inamla demək olar ki, xalqlarımızın müstəqilliyi və suverenliyi bizə baha başa gəlib. Azadlığın qiyməti həmişə nəsillərin taleyi, həyatı, onların inamı və vicdanı olub. Əldə edilmiş milli müstəqilliyi bu gün də layiqincə qiymətləndirmək, onu hərtərəfli möhkəmləndirmək və sonrakı nəsillərə çatdırmaq bizim müqəddəs borcumuzdur. Bu gün biz tarixin dərslərini nəzərə almaqla, Heydər Əlirza oğlu Əliyevin nadir şəxsiyyətinə bir daha dərin ehtiramımızı bildiririk. Bir an və əbədiyyət öz aralarında ayrılmaz şəkildə bağlı olduğu kimi, Heydər Əliyevi də Azərbaycan xalqının tarixindən və onun həyatından ayırmaq olmaz.

Heydər Əliyev böyük Səməd Vurğunun ölməz misralarını tez-tez təkrarlayardı: «Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!». Buna görə də Heydər Əliyevin adı və obrazı bütün dünyada Azərbaycan xalqına xas olan xeyirxah və nəcib keyfiyyətlərin rəmzi kimi qəbul edilir.

Ölkə həyatının ən dramatik dövründə Prezident seçilmiş Heydər Əliyev sülhə və sabitliyə, vətəndaş həmrəyliyinə nail oldu, bir çox onillik öncədən müasir Azərbaycanın inkişaf vektorunun əsasını qoydu, iqtisadiyyatı, elmi, təhsili əsaslı şəkildə irəlilədə bildi, milli dəyərlərin dirçəldilməsinə, Azərbaycan xalqının tolerantlıq ənənələrinin möhkəmlənməsinə şərait yaratdı. Nisbətən qısa müddətdə ölkədə yeni sahələr yaradıldı, onlarca iri zavod və fabrik tikildi, yüzlərlə məktəb, kitabxana, mədəniyyət sarayı və muzeylər açıldı. Azərbaycan sürətlə inkişaf etməyə başladı,

demokratik hüquqi dövlət quruculuğu yoluna qədəm qoyaraq, beynəlxalq arenada layiqli yer tutdu, yüksək nüfuz və hörmət qazandı.

Heydər Əliyev əsl vətənpərvər idi. Onun adının özü rəmzi məna daşıyır. Məlum olduğu kimi, Heydər «bələdçi» deməkdir. O həqiqətən, öz xalqının bələdçisi, lideri idi. Öz fəaliyyətində böyük şair və mütəfəkkir Nizami Gəncəvinin müdrik sözlərinə istinad edərək, həmişə deyərdi: «Doğma torpağa sevgini özümə borc bilirəm». Bu onun həyatının mənası idi. Onun ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olması idi. Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlu Əliyev tarixi ədaləti bərpa edərək, bu arzunu uğurla həyata keçirdi.

Bu illər ərzində Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb. Biz mümkün olan hər yerdə bu barədə danışmışıq, həmişə bunu qətiyyətlə və sərt şəkildə dəstəkləmişik. Bu Qələbə münasibətilə qardaş Azərbaycan xalqını özbək xalqı adından və şəxsən öz adımdan bir daha səmimi-qəlbdən təbrik edirəm.

Heydər Əliyevin fəaliyyətini, onun sanballı şəxsiyyətini və böyük irsini dünyanın müxtəlif ölkələrinin görkəmli siyasətçiləri və ictimai xadimləri yüksək qiymətləndirirlər.

Hörmətli mərasim iştirakçıları, bizim ölkələrimiz arasında dostluq münasibətlərinin, iki xalqın tarixi əlaqələrinin inkişafına və möhkəmləndirilməsinə Heydər Əliyevin böyük töhfəsini xüsusi qeyd etmək

istərdim. Onunla Özbəkistanın rəhbərləri Şərəf Rəşidoviç Rəşidov, daha sonra İslam Abduqəniyeviç Kərimov arasında etimada əsaslanan səmimi münasibətlər yaranmışdı. Bizim liderlər arasındakı dostluq iki ölkənin və iki qardaş xalqın sıx qarşılıqlı əlaqə saxlamasına, fəal mübadilələri, o cümlədən humanitar mübadilələri inkişaf etdirməsinə imkan verib. Azərbaycan xalqının ümummilli lideri özbək xalqına həmişə böyük hörmətlə yanaşırdı. Hərtərəfli savadlı və əsl ziyalı insan olan Heydər Əliyev bizim tariximizə, mədəniyyətimizə və ənənələrimizə səmimi heyranlığını bildirirdi. Məsələn, 1996-cı ildə Daşkənddə olarkən Heydər Əliyev Teymurilər Tarixi Muzeyini ziyarət edərək, Fəxri qonaqlar kitabında yazdığı qeyddə xüsusi olaraq vurğulamışdı: «Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə Özbəkistan xalqı çox sağ olsun». Bu, yüksək mənəviyyat və müdriklik təzahürüdür.

Son illərdə bizim birgə səylərimiz sayəsində Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb, konkret məzmun kəsb edibdir. Hörmətli İlham Heydər oğlu, Sizə, xüsusən ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli möhkəmləndirilməsinə şəxsi diqqətinizə görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, Sizin dövlət səfəriniz qarşılıqlı faydalı əlaqələrimizin daha da inkişafına yeni güclü təkan verəcəkdir.

Əziz dostlar, bu gün Azərbaycanın ümummilli liderinin xoş adını xatırlayaraq, böyük özbək şairi Həmid Alimcanın sözlərini sitat gətirmək istəyirəm: «İnsanın xatirəsi yaşadıqca, o da yaşayır». Əminəm

ki, bu sözlər həm Özbəkistanda, həm də Azərbaycanda qəbul edilir. Əminəm ki, dahi insana və vətənpərvərə, qurucu şəxsiyyətə, bu gün həm Azərbaycanda, həm də Özbəkistanda gənclərin örnək hesab etdiyi Heydər Əlirza oğlu Əliyevə həsr edilmiş bu memorial kompleks ölkələrimizin və xalqlarımızın sarsılmaz dostluğunun parlaq simvolu olacaq, bizim doğma Özbəkistanın sakinləri və qonaqları üçün ziyarətgaha çevriləcəkdir. Bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Biz bu səfərə çoxdan hazırlaşırdıq. Obyektiv səbəblər olub, pandemiya olub. Demək istəyirəm ki, İlham Heydər oğlu pandemiyadan sonra ilk rəsmi səfərini məhz Özbəkistana edib. Bu çox rəmzi məna daşıyır. Bir daha demək istəyirəm: Özbəkistana xoş gəlmisiniz!

Bu gün Özbəkistanın bütün sakinləri, bütün xalq Sizi gözləyir. Fikrimcə, bu səfər həqiqətən, tarixi səfər olacaq. Əlbəttə, bu gün biz hər şey haqqında söhbət edəcəyik. Bu bizim qarşılıqlı münasibətlərimizə böyük təkan verəcək və gələcəkdə münasibətlərimizi tamamilə başqa səviyyəyə çatdıracağıq, çünki biz buna çoxdan hazırlaşırdıq. Cənab Prezident, Özbəkistana xoş gəlmisiniz!

İndi isə sözü məmnuniyyətlə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə verirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Şavkat Miromonoviç!

Əziz dostlar!

İlk növbədə, qardaş Özbəkistana səfərə dəvətə görə Şavkat Miromonoviçə dərin təşəkkürümü bildirmək istərdim. Şavkat Miromonoviçin qeyd etdiyi kimi, pandemiya ilə əlaqədar mən özümün bütün rəsmi səfərlərimi dayandırdım, iki ildən artıq müddətdə rəsmi səfərlər etmədim. Pandemiya ilə bağlı vəziyyət imkan verəndən sonra mən ilk rəsmi səfərimi qardaş Özbəkistana edirəm. Bu bizim münasibətlərimizin təzahürü, xalqlarımızın qardaşlıq və dostluğunun təzahürüdür.

Əziz qardaşım Şavkat Miromonoviçin bu təşəbbüsünə, Daşkəndin mərkəzində atam Heydər Əliyevin xatirəsinə həsr edilmiş belə gözəl guşə yaradılmasına görə ona çox təşəkkür edirəm. Küçə, meydan, barelyef, gözəl park – bunlar Azərbaycan xalqının böyük liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətidir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, çox təşəkkür edirik və bunu özbək qardaşlarımızın bizim ulu öndərə, ortaq tariximizə həqiqətən, qardaşcasına münasibəti hesab edirik. Bu həm də Heydər Əliyevin bütün həyatını həsr etdiyi Azərbaycan xalqına hörmətdir. Mən atam haqqında səmimi sözlərinə görə Şavkat Miromonoviçə çox təşəkkür edirəm. O bizim liderimizi çox sanballı və dəqiq səciyyələndirdi. Heydər Əliyev bütün həyatını Azərbaycana xidmətə həsr edib. Sovet dönəmində də, müstəqillik dövründə də

həmişə xalqın yanında olub. Ən ağır dövrdə, xalqımız təcavüzə, təqiblərə məruz qaldığı vaxtlarda o həmişə xalqın yanında olub. 1990-cı il yanvarın 20-də, Sovet İttifaqının parçalanmasından hələ iki il əvvəl o, sovet ordusunun Bakıya yeridilməsi, Azərbaycanın yüzlərlə günahsız vətəndaşının öldürülməsi və yaralanması ilə əlaqədar sovet rəhbərliyini açıq pisləmişdi. Bu, böyük siyasi əzmkarlıq tələb edirdi. Ona görə ki, o vaxt Sovet İttifaqının tarixə qovuşacağına hələ nə qədər qaldığı məlum deyildi. O bunu etdi. Ən çətin dövrdə, Naxçıvan Muxtar Respublikası təcavüzə məruz qalanda da o öz xalqının yanında idi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən əslində o, Azərbaycanın bu tarixi hissəsini, qədim torpağını təcavüzdən müdafiə etdi. Yenə onun təşəbbüsü ilə 1918–20-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı məhz Naxçıvanda, Sovet İttifaqı dağılandan və Azərbaycan öz müstəqilliyini bərpa edəndən xeyli əvvəl Dövlət bayrağı kimi rəsmən qəbul edildi.

Xalqın iradəsi ilə məhz Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsini dayandırdı və ölkəmizi inkişaf yoluna çıxartdı. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, islahatlar, inkişaf – bütün bunlar onun adı ilə bağlıdır və biz fəxr edirik ki, onun işini davam etdiririk. Vəfatından bir qədər əvvəl öz siyasi vəsiyyətində Azərbaycan xalqına müraciətlə demişdi: «Mənim edə bilmədiklərimi mənim davamçılarım edəcəklər». Biz, onun davamçıları fəxr edirik ki, onun bütün vəsiyyətlərini həyata keçirmişik və ilk növbə-

də, tarixi ədaləti – Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişik.

Şavkat Miromonoviçin düzgün olaraq qeyd etdiyi kimi, Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı. Onun oğlu kimi, canlı şahid kimi təsdiq edə bilərəm ki, keçən əsrin 70-ci illərində də Şərəf Rəşidoviç Rəşidov ilə dostluğu bütün sovet rəhbərliyinə məlum idi, ötən əsrin 90-cı illərində də onun İslam Abduqəniyeviç Kərimov ilə dostluğu xalqlarımıza məlum idi və bu bizim münasibətlərimizin bugünkü inkişafının təməlidir. Şavkat Miromonoviç ilə biz də bu şanlı estafeti davam etdirir, xalqlarımızı inkişaf və sıx qarşılıqlı fəaliyyət yolu ilə aparırıq.

Mənim bugünkü dövlət səfərim təkcə niyyətlərimizin təsdiqi deyil, həm də qardaşlıq, dostluq münasibətlərimizin möhkəm təməlinin təsdiqidir. Özbəkistanda Heydər Əliyevin özbək xalqına, Özbəkistana münasibətini çox yaxşı bilirlər. Bu gün biz qardaşım Şavkat Miromonoviçin rəhbərliyi ilə Özbəkistanı müstəqil xarici siyasət kursu yürüdən, öz resurslarına güvənən, sosial-iqtisadi inkişafda böyük uğurlar qazanmış qüdrətli müstəqil dövlət kimi görməyə çox şadıq. Şavkat Miromonoviçin rəhbərliyi ilə Özbəkistanın müstəqilliyinin, müdafiə qabiliyyətinin, iqtisadi potensialının möhkəmlənməsi, sosial məsələlərin həlli, şəhərsalma sahələrində necə böyük uğurlar qazandığını görmək üçün son 5-6 ilə aid statistik rəqəmlərə baxmaq kifayətdir. Biz bunları görürük və dostlar, qardaşlar kimi, bütün bunlara görə sevinirik.

Mən Heydər Əliyevin xatirəsinə belə yüksək münasibətə görə bütün Azərbaycan xalqı adından bir

daha ilk növbədə, Özbəkistan Prezidentinə, qardaş özbək xalqına təşəkkürümü bildirmək istərdim. Biz Azərbaycanda bunu yüksək qiymətləndiririk və heç vaxt unutmayacağıq. Bu, Özbəkistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə daha bir töhfədir. Yaşasın Özbəkistan və Azərbaycan birliyi, qardaşlığı!

* * *

**Akil Səlimov** (*Özbəkistanın İstedadlı gənclərə dəstək üzrə Uluqbəy adına Respublika Fondunun rəhbəri, akademik*): Hörmətli Azərbaycan Prezidenti İlham Heydər oğlu!

Hörmətli Özbəkistan Prezidenti Şavkat Miromonoviç!

Əziz qonaqlar, bu gün bu gözəl meydanda və bütün Özbəkistanda sevinc dolu yüksək əhval-ruhiyyə hökm sürür. Buraya toplaşanların hamısı tarixi hadisədə – paytaxtımızda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin şərəfinə yenilənmiş küçənin və abidənin təntənəli açılışında iştirak edirlər. Yaxşı yadımdadır, hələ ötən əsrin 70-ci illərində Azərbaycan və Özbəkistan, Heydər Əliyev və Şərəf Rəşidoviç birbaşa möhkəm əlaqələr yaratmağa çalışırdılar. İki respublika arasında dostluq körpüləri qurulurdu. Əlbəttə, bu nəcib işə bu böyük insanların qarşılıqlı anlaşması, səmimi dostluğu şərait yaradırdı. Onlar, heç şübhəsiz, xalqlarımızın çoxəsrlik, əsl qardaşlıq münasibətlərinə arxalanırdılar.

İlk dəfə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda «Özbəkistan günləri» keçirildi. Deməliyəm ki, bu həqiqə-

tən, cəsarətli addım idi, axı həmin dövrdə bütün qərarlar yalnız mərkəzdə qəbul edilirdi. Bakıda bizim respublikanın nümayəndə heyətini təntənəli şəkildə, böyük hörmət və ehtiramla qarşıladılar. «Özbəkistan günləri» keçirilən bütün həftə ərzində Heydər Əliyev çox məşğul olmasına baxmayaraq, daim bizimlə birlikdə idi. Ona görə ki, Heydər Əliyev özbək xalqını, özbək mədəniyyətini, özbək incəsənətini çox sevirdi.

*Sonrakı dövrdə respublikalarımız arasında mədəniyyət və incəsənət günlərinin keçirildiyini qeyd edən akademik Akil Səlimov bu tədbirlərin xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin daha da inkişafına mühüm töhfələr verdiyini vurğulayaraq bildirdi:*

– Bu forumların sayəsində xalqlarımız daha da yaxınlaşdı, bənzərsiz melodiyalar və mahnılar, bir-birimizin zəngin mədəni irsi daha çox sevildi. Daşkənddə xalqlar dostluğuna həsr edilmiş konsertdə Özbəkistanın Xalq artisti Batır Zakirov tamaşaçıların xahişi ilə Azərbaycan haqqında, Bakı və Azərbaycan insanları haqqında mahnını dörd dəfə ifa etdi. Bu, iki xalq arasında dostluğun hərtərəfli möhkəmlənməsində Heydər Əliyevin tarixi xidmətlərinin ən yüksək səviyyədə etiraf edilməsinin rəmzidir. Bu bizim sarsılmaz qardaşlıq əlaqələrimizin, inkişaf etməkdə olan strateji tərəfdaşlığımızın, ümumi gələcək nailiyyətlərimizin rəmzidir.

Hazırda xalqlarımızın böyük qurucu qüvvəsi yeni Azərbaycanda və yeni Özbəkistanda həyata keçirilən geniş, əsaslı dəyişiklərdə xüsusilə parlaq şəkildə təzahür edir. Bu gün iki dövlət başçısı – möhtərəm

İlham Heydər oğlu Əliyev və hörmətli Şavkat Miromonoviç Mirziyoyev bizim ikitərəfli əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə çatdırıblar və dostluğumuzu mühüm konkret işlərlə təsdiqləyirlər. Qoy bu sarsılmaz dostluq məşəli ölkələrimizin və xalqlarımızın rifahı naminə daim şölələnsin!

Yaşasın Azərbaycan və Özbəkistan!

**Mehriban Rəhimova** (*Mirabad rayonunun Temiryolçilar məhəllə komitəsinin sədri*): Əssalamunaleykum hörmətli Şavkat Miromonoviç!

Xoş gördük Sizi, hörmətli İlham Heydər oğlu!

Siz bizim gözəl vətənimiz Özbəkistana xoş gəlmisiniz! Mən Özbəkistanın azərbaycanlı övladı Mehriban Ziyadxan qızı Azərbaycanın Şəki rayonunda doğulmuşam. 19 yaşımda Özbəkistana gəldim, düz 41 ildir bu gözəl ölkədə yaşayıram. Mənə xalqım hörmət edib, bu məhəllədə sədr seçib və 15 ildir məhəllə komitəsinin sədriyəm.

*Mehriban Rəhimova təmsil etdiyi məhəllədə 3500-dən çox əhalinin yaşadığını, onların 70 faizinin azərbaycanlı olduğunu vurğuladı. Özbəkistanda doğma Vətəndəki kimi yaşadıqlarını vurğulayan Mehriban Rəhimova burada insana diqqət və qayğının, millətlərarası dostluğun dövlət siyasətinə çevrildiyini bildirdi, azərbaycanlıların bu gözəl diyarda özlərini xoşbəxt hiss etdiklərini söylədi:*

– Mən anayam. Analar həm öz övladlarının, həm də bütün dünya xalqlarının dincliyini, xoşbəxtliyini daim Allahdan arzu edirlər. Canım Özbəkistandır, ana canım Azərbaycandır, hər ikisini eyni dərəcədə sevirəm. Əziz Prezidentimiz Şavkat Miromonoviç, Siz

bizlərə bu gözəl bağı, babamız, atamız Heydər Əliyevin abidəsini bəxş etdiniz. Bu, Özbəkistanda yaşayan azərbaycanlılara böyük mükafatdır. Buna görə Sizə təşəkkür edirik.

Yaşasın Azərbaycan–Özbəkistan dostluğu! Bizim dostluğumuz əbədi olsun!

*Özbəkistan Yazıçılar Birliyinin üzvü, əslən Şuşadan olan Əli Nəzərli əməyinin yüksək qiymətləndirildiyini, Özbəkistanın «Dostluq» ordeni ilə təltif edildiyini vurğuladı.*

**Əli Nəzərli:** Özbəkistanda yaşayan 41 min azərbaycanlının 3000 nəfəri mənim yaşadığım Sırdərya vilayətində yaşayır. Yeni Özbəkistanın böyük gələcəyi üçün hamımız birlikdə səmimi-qəlbdən çalışırıq. Mən bir yaradıcı şəxs kimi, bildirmək istəyirəm ki, bizim dostluq və qardaşlıq ənənələrimizin tarixi kökləri çox qədimdir. Bunu klassik şairlərimizin, alimlərimizin əsərlərində, onların bir-biri ilə münasibətlərində aydın görmək olar. Uzağa getməyək, astronomiya elminin dahisi Mirzə Uluqbəyin ən sevimli şagirdi Əli Quşçu azərbaycanlı olub. Möhtərəm ümummilli lider Heydər Əliyevin yurddaşı, Azərbaycanın böyük dramaturqu Hüseyn Cavid 1925-ci ildə «Əmir Teymur» dramını yazıb.

Azərbaycan Prezidentinin bu səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açacağına hər birimiz əminik.

Hörmətli Şavkat Miromonoviç!

Hörməli İlham Heydər oğlu!

Bu gün Özbəkistan – Azərbaycan münasibətləri yeni bir mərhələyə qədəm qoydu. Əlaqələrimizə ye-

ni nəfəs, yeni ruh verildi. Bu ruhun adı yüksəliş ruhudur. Mən inanıram ki, bu yüksəliş ruhu bu iki dövləti çox yaxın zamanlarda dünyanın ən tərəqqi edən dövlətlərinin qatarına qoşacaq.

Hörmətli Şavkat Miromonoviç, bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin, bu parkın açılışı bizim üçün fəxrdir. Bu yer bizim üçün dostluq və qardaşlıq məkanıdır. Əminəm ki, burada dostluğa və qardaşlığa xidmət edən əsərlər yaranacaq. Mən Sizə bunun üçün dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan, Özbəkistan,
Bir ürəkdir, bir candır.
İkisi də bizim üçün
Əziz, doğma məkandır.

Yaşasın azərbaycanlıların və özbəklərin qardaşlığı, dostluğu!

* * *

*Dövlət başçıları memorial kompleksin açılışını etdilər.*

*Daha sonra Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev memorial kompleksin önünə gül dəstələri qoydular.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü olmuşdur.*

*Dövlət başçıları əvvəlcə birgə foto çəkdirdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Dövlət başçıları görüşdə çıxış etdilər.*

### Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Sizi və Azərbaycan nümayəndə heyətini bir daha ürəkdən salamlayıram. Vurğulayım ki, Sizin hazırkı səfəriniz ikitərəfli münasibətlərimizin tarixində vacib əlamətdar hadisədir. Özbəkistana xoş gəlmisiniz!

Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır. Ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir ki, bu barədə bu gün biz məhdud tərkibdə keçirilən görüşdə çox ətraflı danışdıq. Biz Azərbaycanın sanballı uğurlarına Özbəkistanda həmişə ürəkdən sevinirik. Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır.

Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir. Biz bu nəcib işə öz töhfəmizi verməyə şad olarıq, bu barədə də məhdud tərkibdə keçirilən görüşdə danışdıq.

Hörmətli görüş iştirakçıları, İlham Heydər oğlu ilə keçirilən məhdud tərkibdə, məhdud formatlı bugünkü görüşdə fikrimcə, biz ikitərəfli münasibətlərimizin bütün məsələləri barədə çox əyani, açıq, səmimi söhbət etdik, hətta hansı istiqamətlər üzrə real nəticə olması üçün nə etməli və necə etməli olmağımız barədə danışdıq. Əlbəttə, son illər biz etimada əsaslanan dialoqumuzu və praktiki əlaqələrimizi əhəmiyyətli dərəcədə fəallaşdırmışıq. Bu gün mühüm siyasi sənəd – strateji tərəfdaşlığın genişləndirilməsi və hərtərəfli əməkdaşlığın artırılması haqqında Bəyannamə qəbul olunacaq. Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digər beynəlxalq təşkilatlar çərçivəsində sıx əlaqələrimiz mövcuddur. Biz ticarətdə, sənayedə, kooperasiyada dinamik artım müşahidə edirik. Biz bu gün bu barədə tənqidi, ciddi danışdıq, qeyd etdik ki, əslində əmtəə dövriyyəsi 6 dəfə artıb, lakin bu barədə tənqidi fikirləşməyə dəyər və biz bu məsələləri çox ciddi təhlil etdik. Birgə müəssisələrin sayı 4 dəfə artıb.

Uğurlu əlamətdar layihələr arasında Hacıqabulda avtomobillərin birgə istehsalının təşkili və ipəkçilik sahəsində kooperasiyanı qeyd etmək olar. Lakin göstəricilər hələ çox cüzidir və iqtisadiyyatlarımızın bir-birini qarşılıqlı tamamlayan amillərinin mövcud böyük potensialından istifadə etməyin zəruri olduğunu göstərir.

Bizim görüşümüz ərəfəsində səmərəli biznes-forum keçirilib, yarım milyard dollardan yuxarı həcmdə investisiya sazişləri və ticarət müqavilələri paketi imzalanıb. Onların arasında neft-qaz, neft-kimya sahələrində, energetika, əczaçılıq, tikinti materialları istehsalı, şərabçılıq, yeyinti, toxuculuq məhsullarının və zərgərlik məmulatlarının istehsalı üzrə perspektiv layihələr mövcuddur. Ələt Azad İqtisadi Zonası bazasında sonradan Avropa İttifaqı bazarlarına çıxmaqla layihələrin icrası üçün imkan vardır. Həmçinin razılığa gəldik ki, layihələrin icrası üçün birgə investisiya fondu yaradılacaq, artıq növbəti ayda onların sürətli həlli üzrə proqram tədbirlərinin qəbul edilməsi üçün hökumətlərarası birgə Komissiyanın iclası təşkil olunacaqdır.

Hörmətli nümayəndə heyətinin üzvləri, nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığımız strateji xarakter daşıyır. Biz Azərbaycanın müasir nəqliyyat şəbəkəsindən, o cümlədən Bakı–Tbilisi–Qars dəmir yolundan istifadə edərək, yükdaşımaları artırmaq niyyətindəyik. Bu xüsusən, ərzaq və sənaye mallarının tranziti məsələlərinə aiddir. Eyni zamanda, indiki reallıqlar alternativ dəhlizlərin formalaşmasını tələb edir. Bu baxımdan Özbəkistan–Qırğızıstan–Çin

və Termez–Məzari-Şərif–Kabil–Pişəvər dəmir yollarının tikintisi gələcəkdə ölkələrimizin Asiya–Sakit okean regionu və Cənubi Asiya dövlətlərinin 3 milyarddan çox istehlakçısı olan bazarlarına ən qısa yolla çıxışı təmin etməyə imkan verəcəkdir. Biz bu istiqamətdə 1-ci dərəcəli məsələlərin həlli üçün nəqliyyat nazirlərinin rəhbərliyi ilə İşçi qrupu yaratmaq barədə razılaşdıq. Biz həm də Xarici İşlər nazirlərinin rəhbərliyi ilə İşçi qrupu yaratmaq barədə razılığa gəldik. Biz bu məsələləri uzatmırıq, ilk görüş gələn ay Daşkənddə olacaq. Əlbəttə, Nəqliyyat nazirləri, İnvestisiya və İqtisadiyyat nazirləri Xarici İşlər nazirlərinin himayədarlığı ilə işləyəcəklər. Bizim çox ciddi niyyətlərimiz vardır.

Kənd təsərrüfatında kooperasiyanın gücləndirilməsini çox vacib hesab edirəm. Söhbət ipək istehsalı üzrə klaster yaradılmasından, pambıqçılıq sahəsində layihələrdən, innovasiya araşdırmalarının tətbiqindən gedir. Bizim nazirlər bu günlərdə bütün perspektiv istiqamətlər üzrə «Yol xəritəsi»ni razılaşdırmalı, vaxt var ikən öz təkliflərini verməlidirlər. Çoxplanlı əməkdaşlığın genişləndirilməsində birbaşa regionlararası əlaqələrə mühüm rol ayrılır. Biz razılaşdıq ki, ən yaxın vaxtlarda paytaxtlarımız və iri şəhərlərimiz tərəfdaşlıq münasibətləri quracaqlar. Bu gün baza sazişi imzalanacaq. Bu il Daşkənddə regionların birinci forumunu və onların sənaye potensialı sərgisini keçirməyi təklif edirik.

Humanitar məsələlərdə mütəmadi olaraq qarşılıqlı Mədəniyyət və Kino Günləri keçirmək, ali məktəblər, elmi müəssisələr, idman və gənclər təşki-

latları arasında mübadilə və əlaqələri genişləndirmək lazımdır. İşgüzar və humanitar əlaqələrin möhkəmlənməsi turizm sahəsində əməkdaşlığın genişlənməsinə şərait yaradacaq. Azərbaycan Prezidentinin turizm üzrə ayrıca proqram qəbul edilməsinə xüsusi diqqətinə, bu təklifi dəstəkləməsinə görə ona minnətdaram. Bu il birgə Özbəkistan–Azərbaycan turizm yarmarkasının keçirilməsini təklif edirik. Çox zəngin mədəni irs abidələrimizin bərpası və qorunub saxlanılması sahəsində sıx qarşılıqlı faydalı əməkdaşlığı da inkişaf etdirməyə hazırıq.

Bu gün hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində mühüm sənəd qəbul ediləcək. Müdafiə nazirləri bu gün bu sazişlərin reallaşdırılması üzrə 1-ci dərəcəli addımları müəyyən etməlidirlər.

Hörmətli İlham Heydər oğlu, hörmətli nümayəndə heyətinin üzvləri! Bir daha vurğulamaq istərdim ki, ölkələrimiz çox böyük potensiala malikdir. Bu gün məhdud tərkibdə görüşdə bütün istiqamətlər üzrə potensiallarımızı bir daha çox ətraflı müzakirə etdik və hökumətlərarası birgə komissiyaların həmsədrlərinə və ya sədrlərinə tapşırıqlar verdik ki, ən yaxın vaxtda – bu ilin noyabrında Səmərqənddə keçiriləcək görüşə qədər real nəticə olsun. Ən başlıcası, biz qarşılıqlı münasibətlərimizin müsbət təcrübəsini qazanaq. Nümayəndə heyətinin bütün üzvlərinə demək istəyirəm ki, indiyə qədər bizim belə etimada əsaslanan açıq söhbətimiz olmayıb. Bu gün biz çox səmimi formada açıq etiraf etdik ki, çox böyük imkanlarımız var, lakin təəssüf ki, nəticələr azdır. Bu nəticələr onu göstərir ki, İlham Heydər

oğlunun tarixi səfəri özlüyündə bizim münasibətlərə yeni təkan verməlidir. Mən bizim bugünkü danışıqlardan tam razıyam, istəyirdim ki, bu görüş tarixi olsun – bu həqiqətən, tarixidir. Bu görüş bizim qarşılıqlı münasibətlərimizin potensialında böyük iz qoyacaq və bu, real nəticə olacaq.

İlham Heydər oğlu, Sizi Özbəkistanda bir daha salamlayıram və məmnuniyyətlə sözü Sizə verirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Çox sağ olun, hörmətli Şavkat Miromonoviç, hörmətli özbək qardaşlar! İlk növbədə, qonaqpərvərliyə və dəvətə görə bir daha təşəkkür etmək istərdim. Mən qardaş Özbəkistana səfər etməyimə və gələcək qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərini Sizinlə müzakirə etmək imkanına malik olduğuma görə çox şadam. Bu səfər həqiqətən, tarixi səfərdir. Mən Şavkat Miromonoviçin çıxışında qeyd etdiyi istiqamətlər üzrə onun fikirləri ilə tamamilə şərikəm. Biz münasibətlərimizin gələcək hərtərəfli inkişafının əsasını qoyuruq. Dünən və bu gün bizim həyat fəaliyyətimizin, demək olar ki, bütün mühüm sahələrini əhatə edən 20-yə yaxın sənəd imzalanıb və imzalanacaq. Bir də siyasi sənəd – bizim inkişafımızın istiqamətini çox illər əvvəlcədən müəyyən edən birgə Bəyannamə.

Qarşılıqlı iqtisadi fəaliyyət məsələlərinə gəldikdə, mən Şavkat Miromonoviçin dedikləri ilə həmrəyəm. Biz əlaqələrimizi intensivləşdirməliyik. Nazirlərə müvafiq tapşırıqlar verilib. Əminəm ki, hər bir istiqamət – iqtisadi qarşılıqlı fəaliyyət, əmtəə döv-

riyyəsinin artırılması, nəqliyyat-logistika sferası, energetika üzrə yaxşı nəticələr olacaq. Biz, iki Prezident qərara aldıq ki, tapşırıqlarımızın yerinə yetirilməsini özümüz nəzarətdə saxlayacağıq və müvafiq nazirliklər müntəzəm surətdə irəliləyiş barədə bizə məruzə edəcəklər. Bu yolla biz ticari-iqtisadi sahədə və təkcə bu sahədə deyil, digər sahələrdə də ciddi tərəqqiyə nail ola bilərik. Bu gün biz qarşılıqlı beynəlxalq fəaliyyətin mühüm məsələlərini müzakirə etdik və əlbəttə, bütün beynəlxalq strukturlarda daimi qarşılıqlı dəstəyi böyük məmnunluqla qeyd edirik. Şavkat Miromonoviç bizim əməkdaşlıq etdiyimiz təşkilatlar barədə danışdı. Biz həqiqətən, dost və qardaş kimi əməkdaşlıq edir, bir-birimizi dəstəkləyirik.

Mən həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəklədiyinizə görə ayrıca təşəkkürümü bildirmək istərdim. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi və mən Azərbaycan Prezidenti kimi, qardaşım Şavkat Miromonoviçin qardaşlıq dəstəyini həmişə hiss edirdim. Bu bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir.

Əlbəttə, dünyadakı vəziyyət nəzərə alınmaqla, hər bir ölkə müdafiə qabiliyyətini möhkəmlətməyə çalışmalıdır. Bu gün Şavkat Miromonoviç ilə dialoqumuzun bir hissəsi bu məsələyə həsr edildi. Müvafiq tapşırıqlar verildi. Düşünürəm ki, hərbi əməkdaşlıq, hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əməkdaşlıq istiqamətində əlavə addımlar atılacaq. Mənim fikrimcə, bu sahədə də qarşılıqlı

fəaliyyətimiz möhkəmlənəcək, çünki həm Özbəkistanda, həm də Azərbaycanda elə mövzular var ki, onları müzakirə etmək lazımdır, kənar təhdidlər var, ölkələrimiz və xalqlarımız onlarla üzləşməli olurlar. Buna görə də düşünürəm ki, bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət həmişəkindən daha vacib olacaqdır.

Azərbaycanda ipəkçiliyin inkişafı ilə bağlı məsələlərin operativ həllinə görə Şavkat Miromonoviçə təşəkkür edirəm. Mən dəstək üçün müraciət edəndə dərhal kömək göstərildi və bu həmin sahəni inkişaf yoluna çıxarmaq üçün addımlar atmağımıza imkan verdi. Biz bu gün həm də kənd təsərrüfatı fəaliyyətinin başqa istiqamətləri ilə bağlı məsələləri müzakirə etdik. Əminəm ki, bu istiqamətlər üzrə də mühüm uğurlar əldə ediləcək. Mən səfərdən əvvəl də, səfər çərçivəsində də Özbəkistanın bugünkü sənaye potensialı haqqında çox eşitmişəm. Bu gün sənaye potensialı, onun bir hissəsi ilə texnoparkda tanış olmaq imkanı olacaq. Əminəm ki, bu, müştərək layihələrin praktiki reallaşdırılması baxımından da bizim kooperasiyamız üçün çox vacibdir. Qarşılıqlı ünsiyyət çərçivəsində görürük ki, yaxşı elementlər var, konkret olaraq Hacıqabulda Avtomobil zavodu. Mənə bu gün deyildi ki, avtomobil istehsalı nomenklaturunu genişləndirmək və istehsal edilən avtomobillərin sayını artırmaq planlaşdırılır. Özbəkistan haqlı olaraq bu müəssisə ilə fəxr edə bilər. Bilirəm ki, Özbəkistanda belə müəssisələr az deyil.

Qarabağın bərpası işində qardaş köməyinə görə, Prezident Şavkat Miromonoviçin işğaldan azad

edilmiş Füzuli şəhərində hədiyyə kimi məktəb tikmək qərarına görə də ayrıca təşəkkürümü bildirmək istərdim. İşlər artıq başlanıb və növbəti tədris ilinə qədər məktəbin istifadəyə verilməsi planlaşdırılır. Biz bunu çox yüksək qiymətləndiririk. Bu bizə verilmiş ilk belə böyük hədiyyədir. Biz Qarabağı hələlik öz gücümüzlə bərpa edirik. Əlbəttə, qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir. Ona görə ki, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra biz Şavkat Miromonoviçlə görüşəndə o belə bir təşəbbüs irəli sürdü və bu təklif minnətdarlıqla qəbul edildi. Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq, yüzilliklər boyu Azərbaycan xalqının xatirində qalacaqdır.

Mən Şavkat Miromonoviçin apardığı islahatları – Özbəkistanın investisiya baxımından cəlbediciliyinin, sənaye potensialının artırılması, sosial məsələlərin həlli üzrə apardığı islahatları çox yüksək qiymətləndirirəm. Biz müxtəlif beynəlxalq tədbirlər çərçivəsində, o cümlədən Bakıda da dəfələrlə görüşmüşük, fikir mübadiləsi aparmışıq. Əlbəttə, Özbəkistan kimi müsbət demoqrafik dinamikaya malik olan ölkə bu təhdidlərin öhdəsindən gəlir. Sənaye istehsalı, iş yerləri, xalqın sosial rifahı – bütün bu mövzular daim Prezidentin diqqət mərkəzindədir və Azərbaycanda biz də, əminəm ki, Özbəkistan sakinləri də bu istiqamətlərdə böyük nailiyyətlər, böyük tərəqqi görürlər. Biz buna şadıq. Biz dostlar kimi, qardaşlar kimi, Sizin uğurlarınıza sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək. Biz də öz tərəfimizdən qarşılıqlı fəaliyyətimizi genişləndirmək

üçün səy göstərəcəyik. Biz bu gün çox mövzular barədə ətraflı söhbət etdik. Ən başlıcası odur ki, bütün tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik.

Qonaqpərvərliyə görə bir daha sağ olun. Ümidvaram ki, bu gün də, sabah da Sizinlə bu fəal, səmərəli dialoqu davam etdirəcəyik.

**Şavkat Mirziyoyev:** Bir daha sağ olun, İlham Heydər oğlu. Özbəkistanda son illərdə aparılmış islahatlara qiymət verildi. Əlbəttə, biz indi çox mürəkkəb dövrdə yaşayırıq və bu mürəkkəb dövrdə bir-birimizi tapmalıyıq.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə iyunun 21-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Özbəkistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzaladılar.*

*«Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Məşğulluq və Əmək Münasibətləri Nazirliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və Özbəkistanın Məşğulluq və Əmək Münasibətləri naziri Nozim Xusanov imzaladılar.*

*«Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Özbəkistan Respublikasının*

*İnnovativ İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın İnnovativ İnkişaf naziri İbrohim Abduraxmonov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov və Özbəkistanın Karantin və Bitkilərin Mühafizəsi Agentliyinin baş direktoru İbrahim İrqaşev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın Ədliyyə naziri Ruslanbek Davletov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş»i Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın Nəqliyyat naziri İlham Maxkamov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Müdafiə naziri Zakir Həsənov*

*və Özbəkistanın Müdafiə naziri Baxodir Kurbanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2022–2024-cü illər üzrə əməkdaşlıq Proqramı»nı Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Özbəkistanın Xarici İşlər naziri vəzifələrini icra edən Vladimir Norov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında regionlararası əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın Baş Nazir müavini, İnvestisiyalar və Xarici Ticarət naziri Sardor Umurzakov imzaladılar.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 21-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

*Əvvəlcə Özbəkistanın dövlət başçısı bəyanatla çıxış etdi.*

### Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər Özbəkistan torpağında bir daha səmimiyyətlə salamlamaq istəyirəm. Özbəkistana bir daha xoş gəlmisiniz!

Özbəkistanda Azərbaycan ilə ənənəvi dostluq, etimad və qarşılıqlı anlaşma münasibətlərinə xüsusi qiymət verirlər. Bu münasibətlərin əsasını ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyətlər və dil təşkil edir. Xalqlarımızı çoxəsrlik tarix bağlayır. Əhməd Fərqaninin və Əbu Reyhan Büruninin elmi əsərlərində Azərbaycanın bir çox şəhərləri xatırlanır, bu şəhərlərdə Şərq və Qərb sivilizasiyaları bir-birinə qarşılıqlı təsir göstərir. Bizim Şərqşünaslıq İnstitutunun fondlarında Nizami, Xaqani, Tusi, Füzuli, Xətai və bir çox başqa Azərbaycan şairlərinin və mütəfəkkirlərinin onlarca nadir əlyazmaları qayğı ilə qorunub saxlanılır. Füzulinin əlyazmalarından birini mən bu gün hörmətli İlham Heydər oğluna hədiyyə etdim. Fikrimcə, bu bizim sərvətimizdir. Özbəkistanda belə əlyazmalar çoxdur. Bu bir daha onu göstərir ki, özbək xalqı əsrlərboyu Azərbaycan mədəniyyətinə böyük hörmət və maraq bəsləyir. Xüsusi qeyd etmək istəyirəm ki, özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvai böyük Nizami Gəncəvinin əsərlərindən ilham alırdı, Nizamini «şairlərin şahı» adlandırırdı. O, Nizamiyə belə qiymət verirdi.

İki xalqın qarşılıqlı münasibətlərinin şanlı tarixi bizim günlərdə də çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək üçün möhkəm təməl yaradıb. Rəmzi haldır ki, budəfəki səfər Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin ölkəmizə birinci rəsmi səfərindən düz 25 il sonraya təsadüf edir. Bu gün bizim əziz qonağımız hörmətli Prezidentlə birlikdə Heydər Əliyevin adını daşıyan yenilənmiş küçəni və orada

qoyulmuş abidəni açmaq mənim üçün böyük şərəf oldu. Bu öz xalqının həqiqi liderinə və Özbəkistanın yaxın dostu olmuş dahi insanın xatirəsinə bizim ehtiramımızın əlamətidir.

Hörmətli jurnalistlər, məhdud tərkibdə və geniş formatda görüşlərdə biz ikitərəfli münasibətlərimizə aid məsələləri ətraflı müzakirə etdik. Sizə demək istəyirəm ki, biz bütün istiqamətlər üzrə çox səmimi, etimada əsaslanmaqla, çox diqqətlə, obrazlı desək, əlimizə qələm götürərək, münasibətlərimizi bundan sonra necə irəlilətməli olduğumuzu dedik ki, bu münasibətlər həqiqətən, strateji səviyyəyə çatsın və İlham Heydər oğlunun Özbəkistana bugünkü tarixi səfərindən real nəticə əldə edilsin. Fikrimcə, geniş tərkibdə görüşdə də bizim nümayəndə heyətlərinin hər bir üzvünə nə istədiyimiz, necə işləyəcəyimiz barədə ətraflı məlumat verildi və biz razılığa gəldik ki, iki Prezident hər ay işlərin gedişini yoxlayacaq. Ona görə ki, bizim hökumətlərarası birgə komissiyaların sədrləri, həmsədrləri hər ay fikir mübadiləsi aparacaqlar. Biz hətta razılığa gəldik ki, başlanğıc mərhələdə həmsədrlər ayda bir dəfə görüşəcək, real nəticə olması üçün vəziyyəti yoxlayacaqlar. Biz bunu nə üçün edirik? Ona görə ki, münasibətlərimizi tamamilə yeni səviyyəyə qaldırırıq. Bunu nə üçün edirik? İstəyirik ki, real nəticə olsun, iki ölkənin xalqı bunu hiss etsin.

Fikrimcə, bizim ümumi səylərimiz və daha yaxınlaşma istəyimiz sayəsində Özbəkistan ilə Azərbaycan arasında münasibətlər açıq, geniş əhatəli xarakter kəsb edib, ticari-iqtisadi, parlamentlərarası, mədəni-

humanitar və regionlararası əməkdaşlıq fəallaşıb. Bir daha demək istəyirəm, budəfəki danışıqlar göstərdi ki, biz xalqlarımızın mənafeyi naminə qarşılıqlı fəaliyyəti bundan sonra da hərtərəfli möhkəmləndirməyə hazırıq.

Siz indicə sanballı sənədlər paketinin imzalanmasının şahidi oldunuz. Onların arasında strateji tərəfdaşlığın dərinləşməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə Bəyannamə ikitərəfli münasibətlərdə yeni mərhələ açır. Biz həmçinin qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini müəyyən etdik. Bizim ən mühüm prioritetimiz ticarəti və sənaye kooperasiyasını genişləndirməkdir. Bu istiqamətdə ciddi irəliləyişlər müşahidə edirik.

Bu gün biz razılaşdıq ki, komandalarımızın və ya nümayəndə heyətlərimizin hazırladığı rəqəmlər üzərində dayanmayacağıq, çünki rəqəmlər heç nə demir. Əlbəttə, mən deyə bilərəm ki, onlar 6 dəfə artıb, lakin məcmu halda onlar bizim münasibətlərimizə, imkanlarımıza uyğun gəlmir. Deyirik sıfırdan başlayaq, çox real, bütün istiqamətlərdə, iqtisadiyyatımızın bütün sahələrində geniş əhatəli layihələri inkişaf etdirək. Bir daha demək istəyirəm, biz qarşılıqlı fəaliyyətimizi əsaslı şəkildə fəallaşdırmaq barədə razılığa gəldik. Bunun üçün bizim geniş imkanlarımız, hər şeydən əvvəl iqtisadiyyatlarımızın qarşılıqlı tamamlanması amili vardır. Bu ərəfədə keçirilmiş biznes-forumun yekunlarına əsasən, yarım milyard dollardan artıq məbləğdə sazişlər və kontraktlar imzalanıb. Yarım milyard rəqəm nəyəsə dəlalət edir, lakin bizim imkanlarımıza

müvafiq deyil. Kooperasiya layihələrinə xüsusi diqqət yetiriləcək. Bildiyiniz kimi, biz Hacıqabulda avtomobillərin birgə istehsalını uğurla nizamlamışıq. İpəkçilik sahəsində əməkdaşlığı inkişaf etdiririk. Avtomobilqayırma üzrə razılığa gəldik ki, yeni istiqamətlər üzrə buraxılışı genişləndirək, ona görə ki, artıq təcrübəmiz, tam qarşılıqlı anlaşma və tam etimad vardır. Biz dedik ki, bu sahəni hər iki tərəfdən dəstəkləyəcəyik. Hasilat, neft kimyası, əczaçılıq, tikinti materialları və hazır tekstil malları, qida məhsulları, zərgərlik məmulatları istehsalı və şərabçılıq sahələrində onlarca yeni layihə üzərində işləyirik. Bu məqsədlə artıq cari ildə birgə investisiya fondunu işə salmaq barədə razılığa gəldik. Biz həmçinin hökumətlərarası birgə Komissiyaya sənaye kooperasiyası proqramını qəbul etməyi tapşırdıq.

Digər strateji istiqamət nəqliyyat kommunikasiyalarının inkişafıdır. Bu gün o cümlədən Bakı–Tbilisi–Qars dəmir yolu ilə yükdaşımaların həcmi artır. Biz yeni dəhlizləri inkişaf etdirmək, multimodal daşımaları artırmaq, ölkələrimizin nəqliyyat müəssisələri üçün əlverişli şərait yaratmaq barədə razılığa gəldik. İqlimlə bağlı təhdidlərin və ərzaq təhlükəsizliyi problemlərinin artması fonunda biz kənd təsərrüfatı sahəsində daha sıx işləmək niyyətindəyik. Elmi və innovasiya araşdırmalarını fəal surətdə bölüşəcək, aqrosektorun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyəti nizamlayacaq, investisiya layihələrini həyata keçirəcəyik. Kənd təsərrüfatında konkret olaraq hansı sahələrdə işləmək və hansı sahələrin daha tez nəticə verməsi, hansı

istiqamətlərdə bir-birimizi tamamlamaq barədə də razılaşdıq. Azərbaycanda kənd təsərrüfatında rəqəmsallaşma çox inkişaf edib və biz dedik ki, kənd təsərrüfatında rəqəmsallaşmanın bu təcrübəsini öyrənmək bizim üçün çox faydalı olardı.

Danışıqlarda regionlararası əlaqələrin fəallaşdırılmasına xüsusi diqqət yetirilib. Bu gün bizim şəhərlər və regionlar arasında birbaşa əlaqələr üçün geniş imkanlar yaradan saziş imzalanıb. Regionların birinci forumunu keçirməyi, ilk növbədə, ticarət, innovasiyalar, mədəniyyət, turizm sahələrində sıx əlaqələr yaratmağı planlaşdırırıq. Mədəni-humanitar sahədə də bizi qədimdən bağlayan ümumi cəhətlər çoxdur. Özbəkistanda Azərbaycan muğamını, Azərbaycanda isə bizim mahnıları nəinki məmnuniyyətlə dinləyir, həm də ifa edirlər. Azərbaycan və özbək estradası hər iki ölkədə çox populyardır. Biz azərbaycanlı dostlarımıza təşəkkür edirik ki, bu yaxınlarda Bakıda Əlişir Nəvainin məşhur ədəbiyyatşünas Ramiz Əsgər tərəfindən tərcümə edilmiş onlarca kitabı nəşr edilib. Özbəkistanda da Azərbaycan klassiklərinin və müasir yazıçılarının əsərləri müntəzəm olaraq nəşr edilir. Bu günlərdə Daşkənddə Azərbaycanın Xalq yazıçısı Anarın yeni kitabının təqdimatı keçirilib. Hörmətli İlham Heydər oğlu ilə danışıqlar zamanı biz qarşılıqlı mədəniyyət və kino günlərinin keçirilməsi, humanitar və turizm mübadiləsi proqramının fəal inkişafı barədə razılığa gəldik.

Biz həmçinin beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi apardıq, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində planlar cızdıq. Bir-

ləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB, ATƏT, «Qoşulmama Hərəkatı» və digər beynəlxalq təşkilatlar çərçivəsində dialoqun konstruktiv xarakterini və qarşılıqlı dəstəyin vacibliyini qeyd etdik.

Əziz dostlar, Azərbaycan Prezidentinin tarixi dövlət səfərinin yekunları həqiqətən, sıçrayış xarakteri daşıyır. Bu gün mən qardaşım İlham Heydər oğlu ilə birlikdə bütün şərtləri formalaşdırdıq ki, gələcəkdə real nəticə alınsın, dediyim kimi, Sizin tarixi səfəriniz həqiqətən, bizim strateji tərəfdaşlığımıza uyğun olsun. Biz strateji tərəfdaşlığın dərinləşməsi haqqında danışırıq. Deyirik ki, bizim bütün komanda, bütün nazirliklərimiz işə tamam başqa cür yanaşsınlar. Səmimi demək istəyirəm ki, bugünkü danışıqlardan çox məmnunam. Biz məhdud və geniş tərkibdə görüşlərdə qaldırılan bütün məsələlər barədə çox ətraflı danışdıq. Qeyd etdik ki, həm beynəlxalq, həm də regionlararası siyasətdə ikitərəfli qarşılıqlı anlaşma və ümumi yanaşmalar mövcuddur. Biz ikitərəfli münasibətlərimizə xüsusilə böyük diqqət ayırdıq.

Beləliklə, bir daha demək istəyirəm, biz hər şeyi edirik ki, güclü Özbəkistan və güclü Azərbaycan olsun. Onlar güclü olanda məcbur edəcəyik ki, bizə hörmət etsinlər və bunun üçün bizim hər cür əsasımız vardır. Bu tarixi səfərin çox yaxşı əsası var və gələcəkdə biz bu əsası həyata keçirməliyik. Bir daha demək istəyirəm, biz razılığa gəldik ki, noyabr ayında İlham Heydər oğlu Səmərqəndə səfər edəcək. Səmərqənddə biz nazirlərimizi bugünkü razılaşmalar barədə dinləyəcəyik. Bunu nəyə görə deyi-

rəm? Ona görə ki, bilirsiniz, bizim çox böyük imkanlarımız var, lakin nəticə çox kiçikdir. Biz bu gün gələcək əməkdaşlığımızın ciddi perspektiv layihələri barədə razılığa gəldik. Fikrimcə, bu səfər tarixi səfərdir və danışıqlarımızdan tamamilə məmnunam. Diqqətinizə görə təşəkkür edirəm, indi isə sözü məmnuniyyətlə İlham Heydər oğluna verirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Şavkat Miromonoviç, icazə verin, dəvətə, mənə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirim. Qardaş Özbəkistan torpağında olmaq, ikitərəfli münasibətlərin geniş spektrini və xarici siyasət gündəliyində duran mühüm məsələləri Sizinlə müzakirə etmək fürsətinə malik olmaq mənə çox xoşdur.

Bu gün mənim səfərim çox əlamətdar hadisədən – Daşkəndin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsinin, onun adını daşıyan meydanın və gözəl parkın açılışından başlandı. Şavkat Miromonoviç, mən Sizə atamın xatirəsinə belə münasibətə görə Azərbaycan Prezidenti kimi, Heydər Əliyevin oğlu kimi, öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Biz bunu çox yüksək dəyərləndiririk. Biz gördük ki, Özbəkistanda Heydər Əliyevin xatirəsi necə sevgi ilə, necə hörmətlə yad edilir, bu bizə çox xoşdur. Bu gün biz abidənin və meydanın açılışında çıxış etdik, Heydər

Əliyev haqqında, onun Özbəkistana münasibəti haqqında danışdıq. Əminəm ki, bu gün bu münasibəti hər bir azərbaycanlı bölüşür. Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi, öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir. Səfər pandemiya ilə əlaqədar təxirə salınmışdı. Həmçinin onu diqqətlə hazırlamaq lazım idi ki, qardaşım Şavkat Miromonoviçin dediyi kimi, sıçrayış edək.

Fikrimcə, bu həqiqətən, sıçrayış xarakterli səfərdir. Çünki müzakirə olunan mövzuların həm mahiyyətinə, həm formasına, həm məzmununa, bizim gəldiyimiz qərarlara əsasən, bu səfər və razılaşmalar münasibətlərimizin gələcək inkişafı üçün əsas olacaqdır. Dünən biznes-forum çərçivəsində xeyli sənəd imzalanıb. Bu gün belə sənədlərin ümumi sayı 20-yə yaxındır. Şavkat Miromonoviçin dediyi kimi, strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə çox qlobal xarakter daşıyır. Bu, mahiyyətcə gələcək fəaliyyətimizin «Yol xəritəsi»dir. Orada xarici siyasətimizin prioritetləri əksini tapıb, dövlətlərimizin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub, eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilibdir. Bu gün burada artıq bir neçə saat bir yerdə keçirdikdən sonra işləyəcəyimiz istiqamətləri daha da konkretləşdirdik. Tapşırıqlar verilib. Şavkat Miromonoviç artıq bu barədə ətraflı danışdı, mən həyat

fəaliyyətinin müzakirə etdiyimiz istiqamətlərini təkrarlamaq istəmirəm. Əminəm ki, nəticələr olacaq. Çünki bu, prezidentlərin nəzarətindədir. Əminəm, müvafiq nazirlər, dövlət strukturlarının rəhbərləri yaxşı başa düşürlər ki, biz prezidentlər qarşıya qoyduğumuz məsələlərin yerinə yetirilməsinə nəzarət edəcək və onlardan cavab istəyəcəyik. Bu məsələlərin icrası isə ona gətirib çıxaracaq ki, ölkələrimiz arasında münasibətlər daha möhkəm olacaq, aramızda daha çox əməkdaşlıq və qarşılıqlı dəstək olacaq. Çünki bu gün Xəzər, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarının sülhə və sabitliyə ehtiyacı vardır. Bunun əsası, əlbəttə, liderlərin siyasi iradəsi, eləcə də iqtisadi zəminlərdir. Fikrimcə, bu gün əmtəə dövriyyəsinin artırılması, investisiya layihələri, nəqliyyat-logistika istiqamətləri, kənd təsərrüfatında əməkdaşlığın dərinləşməsi ilə bağlı layihələr barəsində əldə etdiyimiz razılaşmalar – bütün bunlar həm əmtəə dövriyyəsinin artırılması, həm də ölkələrimiz və xalqlarımız arasında daha artıq əməkdaşlıq üçün gözəl imkanlar yaradacaqdır.

Hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlığı xüsusi qeyd etmək istərdim. Bu sahə hər bir ölkə üçün, xüsusən bizim ölkələr üçün prioritet əhəmiyyət kəsb edir. Bizim yerləşdiyimiz regionlar təhlükəsizliyin və müdafiə qabiliyyətinin möhkəmlənməsi məsələlərinə gündəlik diqqət tələb edir. Buna görə də, düşünürəm ki, bu gün razılığa gəldiyimiz məsələlər yerinə yetiriləcək. Biz təcrübə mübadiləsi, hərbi-texniki sahədə, müdafiə istiqamətli təhsil sahəsində əməkdaşlıq üzrə fəal əlaqə saxla-

yacaq, həmçinin təhlükəsizliyimizi qarşılıqlı möhkəmlədəcək addımlarımızı planlaşdıracağıq.

Bu gün Bəyannamə imzalandı. Siyasi Bəyannamə mahiyyət etibarilə bizim münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdırır. Təbii ki, qarşılıqlı dəstək də olacaq – həm mövcud beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkələrimizin və xalqlarımızın təhlükəsizliyi ilə bağlı bütün başqa məsələlər daimi diqqət tələb edir. Bu da olacaq. Ona görə ki, bundan ötrü siyasi iradə vardır.

Bu gün mən  ərazi bütövlüyümüzü bərpa edərkən özbək xalqının və Özbəkistan Prezidentinin Azərbaycana göstərdiyi dəstəyi xüsusi qeyd etmək istərdim. Azərbaycanlılar bunu çox yaxşı bilir, qardaşlıq münasibətini xatırlayır və yüksək qiymətləndirirlər. Özbəkistan Prezidentinin sözləri, bizim Qələbəmiz münasibətilə təbrikləri – bütün bunlar, təbii ki, Azərbaycanda dost sözü, qardaş sözü kimi qəbul edilir. Biz bunu yüksək qiymətləndiririk və öz tərəfimizdən biz də bütün məsələlərdə Özbəkistanın, özbək xalqının yanındayıq. Bugünkü səfər buna daha bir sübutdur. Əslində biz bu gün iqtisadi qarşılıqlı fəaliyyət, biznes strukturlarının əlaqələri, təhlükəsizlik, müdafiə qabiliyyəti ilə bağlı məsələlər, xarici siyasətlə bağlı təşəbbüslər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, humanitar sahə ilə, mədəniyyətlə bağlı məsələlər barədə danışırıq, yəni sözün geniş mənasında, bu gün bizim gələcək aktiv qarşılıqlı fəaliyyətimizin əsası qoyulur və əminəm ki, nəzərdə tutduqlarımızın hamısı yerinə yetiriləcəkdir.

Çıxışımın sonunda qardaş özbək xalqını qazanılmış bütün nailiyyətlər münasibətilə bir daha təbrik etmək istərdim. Biz Özbəkistanda baş verənləri diqqətlə izləyirik. Sizin uğurlarınıza sevinirik. Sevinirik ki, Şavkat Miromonoviçin başladığı islahatlar artıq nəticə verir. Aydındır ki, belə fundamental islahatlar üçün vaxt lazımdır. Lakin qısa müddətdə əldə edilənlər, əvvəla, Prezidentin iradəsindən xəbər verir, göstərir ki, özbək xalqı bu təşəbbüsləri dəstəkləyir və həmin təşəbbüslər nəticə verir. Bu, təkcə statistikada görünmür, əminəm ki, Daşkəndi ziyarət edən hər kəs bunu görür. Mən Daşkənddə əvvəllər olmuşam və bugünkü dəyişiklikləri görəndə ürəkdən sevinirəm ki, qardaş ölkə uğurla inkişaf edir, burada sülh, asayiş, sabitlik, iqtidarla cəmiyyətin vəhdəti mövcuddur – bunlar hər bir dövlətin inkişafı üçün əsas amillərdir. Əlbəttə, Prezidenti təbrik etmək istərdim ki, onun nəzərdə tutduğu işlərin hamısı yerinə yetirilir və əminəm ki, tamamilə yerinə yetiriləcək. Bu nailiyyətlər münasibətilə qardaş özbək xalqını da təbrik edirəm. Həmçinin əminəm ki, bu gün iki Prezidentin öz nümayəndə heyətlərinə verdiyi bütün tapşırıqlar yerinə yetiriləcək. Əlbəttə, onlar bilirlər ki, tələb ciddi olacaq, biz ciddi nəzarətçilərik, səhvləri bağışlamayacağıq, amma yaxşı nəticələr olsa onları tərifləməyə şad olarıq.

Hörmətli Şavkat Miromonoviç, belə xoş münasibətə, qonaqpərvərliyə görə bir daha sağ olun, qardaş özbək xalqına firavanlıq, bundan sonra da inkişaf arzu edirəm. Sağ olun.

* * *

**Ş a v k a t  M i r z i y o y e v:** İlham Heydər oğlu, bizim islahatları dəstəklədiyinizə görə bir daha çox sağ olun. Əlbəttə, bizim bugünkü razılaşmalarımız onu göstərir ki, biz bugünkü nailiyyətlərimizi gələcəkdə real həyata tətbiq edəcəyik. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bu gün görülən bütün işlər iki xalqın rifahı naminədir. Biz çox gərgin dövrdə yaşayırıq. Əlbəttə, bu gün hər bir ölkə sabahkı gün barədə düşünür və Siz düzgün olaraq dediniz ki, bu gün xalq bizim Özbəkistanda həyata keçirdiyimiz islahatlara etibar edir və bu islahatların böyük perspektivi vardır. Bu qədər qısa müddətdə heç bir ölkədə belə nəticələrə nail olmaq mümkün deyil. Bununla əlaqədar biz öz dostlarımızla, o cümlədən Azərbaycanla elə münasibətlər qurmaq istəyirik ki, həqiqətən, strateji istiqamətləri ehtiva etsin. Azərbaycanda İlham Əliyevin rəhbərliyi ilə islahatlar sahəsində çox iş görülüb. Əlbəttə, biz də bunu görür və yaxın qonşular kimi, həmişə sevinirik. Biz də Siz başda olmaqla, Azərbaycan xalqına arzu edirik ki, hər şey reallaşsın və bizim dost ölkəmiz olan Azərbaycan firavanlaşsın.

Bir daha demək istəyirəm, biz öz komandamıza bunu həqiqətən, qəti şəkildə dedik ki, nəticələr çox ciddi olacaq. İlham Heydər oğlunun dediyi kimi, həm cəzalandıracaq, həm də həvəsləndirəcəyik. Bu gün biz, ümumiyyətlə, öz imkanlarımız və bugünkü əməkdaşlığımızın vəziyyəti barədə çox diqqətlə, etimadla, açıq danışdıq. Elə bir istiqamət yoxdur ki, o istiqamətdə biz əməkdaşlıq edə bilməyək və orada nəticə olmasın.

Sadəcə, bu gün iki Prezidentin möhkəm siyasi iradəsini bizim komandanın məsuliyyətinə əlavə etdik. Düşünürəm ki, komandanın üzvləri, həm Özbəkistan, həm də Azərbaycan tərəfinin nümayəndə heyətinin üzvləri düzgün nəticələr çıxaracaq və dediyim kimi, Səmərqənddə nəticəli görüş olacaq. Nəticə necə olacaq? Biz öz qarşılıqlı münasibətlərimizi genişləndirməli və yeni platforma, yeni istiqamətlər yaratmalıyıq. İlham Heydər oğlunun dediyi kimi, bu «Yol xəritəsi» real həyata keçirilməlidir. Biz həmin xəritəni tamamlayanda və bir-birimizi başa düşəndə bu bizim gələcək münasibətlərimizin rəhni olacaq. Əgər biz «Yol xəritəsi»ni tamamlasaq və düzgün «Yol xəritəsi» qəbul etsək, 2023-cü il nəticəli il olacaq. Düşünürəm ki, gələcək görüşlərimizdə bu nəticə göz qabağında olacaq.

İlham Heydər oğlunu və bütün Azərbaycan xalqını bir daha səmimi-qəlbdən salamlamaq və uğurlar arzu etmək istəyirəm.

## TEXNOPARK MMC-nin FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə iyunun 21-də TEXNOPARK MMC-nin fəaliyyəti ilə tanış olmuşlar.*

*Dövlət başçımıza TEXNOPARK barədə məlumat verildi. TEXNOPARK MMC 2019-cu ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə yaradılıb. TEXNOPARK yüksək texnologiyalı, rəqabətqabliyyətli, ixrac yönümlü və idxalı əvəz edən sənaye məhsullarının istehsalını təmin etmək məqsədilə yaradılıb. TEXNOPARK MMC-nin sahəsi 103 hektardan artıqdır.*

*Dövlət başçısı burada istehsal olunan sənaye, texniki, elektron, inşaat və məişət məhsullarına baxdı. Bildirildi ki, tərəfdaşları dünyanın aparıcı şirkətləri olan TEXNOPARK MMC-nin fəaliyyəti eyni zamanda, geniş çeşiddə məişət texnikası istehsalı üzrə müəssisələrin, həmçinin yeni iş yerlərinin yaradılmasına yönəlib. Hazırda burada 13 istehsal obyekti fəaliyyət göstərir. Bunların sırasına lift, eskalator, elektron qaz sayğacları, məişət soyuducuları, sənaye*

*kondisionerləri, soyutma sistemləri, paltaryuyan maşın və digərləri daxildir. 2022-ci ildə burada yeni sənaye avadanlıqlarının istehsalı, avtomatlaşdırılmış logistika mərkəzinin yaradılması nəzərdə tutulub.*

*TEXNOPARK MMC-də 16 sənaye istiqaməti birləşib. Burada, həmçinin logistik mərkəz də fəaliyyət göstərir, daxili və xarici bazarlara yönəlmiş geniş çeşiddə sənaye, texniki, elektron, tikinti və məişət məhsulları istehsal olunur.*

## «KUKSAROY» DÖVLƏT İQAMƏTGAHINDA AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*Daşkənd*

*21 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə iyunun 21-də «Kuksaroy» dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından rəsmi ziyafət verilmişdir.*

*Sonra konsert proqramı təqdim olundu.*

*Konsert proqramından sonra prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev incəsənət ustaları ilə söhbət etdilər.*

**Ş a v k a t M i r z i y o y e v:** Bu, ilk görüşdür. Biz Azərbaycana gedəcəyik. Mədəniyyət günləri əvvəl Azərbaycanda, sonra isə Özbəkistanda keçiriləcək. Biz razılaşdıq ki, Müstəqillik Günündə həm azərbaycanlı, həm də özbək artistlərini Azərbaycanın və Özbəkistanın Xalq artisti adları ilə təltif edək. Münsiflər heyəti belə qərara gəldi ki, birinci namizəd Nəsibə xanımdır.

**İ l h a m Ə l i y e v:** Mən bu gün qardaş Özbəkistanda olmağımdan çox məmnunam. Qardaşım Şavkat Miromonoviç ilə bu gün bütün günü bir yerdəyik və bu günün sonunda siz öz sənətinizlə, musiqiniz-

lə, Azərbaycan və özbək mahnılarının gözəl ifası ilə bizi sevindirdiniz.

Dinimiz də, dilimiz də, mədəniyyətimiz də, köklərimiz də birdir. Bu gün birlik hamımızın gözü qarşısındadır və bu birliyi biz əbədi etməliyik. Sağ olun, sizə təşəkkür edirəm. Sizin hər birinizi Azərbaycana dəvət edirəm. Azərbaycanda sizi qəbul etməyə hazırıq. Buna çox şad olarıq.

**İncəsənət ustaları:** Çox sağ olun. Xoş gəlmisiniz!

**Şavkat Mirziyoyev:** Mənim əziz qardaşım, bizim əziz qonağımız bu gün Özbəkistana səfərə gəlib. Ümumiyyətlə, mənim qardaşımın səfəri tarixi səfərdir. Bizim birinci tədbirimiz Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin adını daşıyan meydanın, küçənin və onun abidəsinin açılışı oldu. Bu bizim tariximizdir, bizim səmimi dostluğumuzun təcəssümüdür.

Bizim dostluğumuzun təcəssümü olan nailiyyətləri çox göstərmək olar. Ruhən, mənəviyyatca, baxışlarımıza görə daha yaxın olanda bu çox qiymətlidir. Bizim üçün Azərbaycanla Özbəkistanın heç bir fərqi yoxdur. Bizim böyük ortaq tariximiz vardır.

*Dövlət başçımızı salamlayan Özbəkistan Ali Məclis Senatının Sədri Tənzilə Narbayeva Mehriban xanım Əliyevaya salam söyləməyi xahiş etdi.*

## ÜRGƏNC ŞƏHƏRİNƏ SƏFƏR

*22 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Daşkənddən Ürgənc şəhərinə yola düşmüşdür.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ürgənc şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qarşıladı.*

## NURULLABOY SARAY KOMPLEKSİ İLƏ TANIŞLIQ

*Xivə*

*22 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 22-də Xivə şəhərində Nurullaboy saray kompleksi ilə tanış olmuşlar.*

*Saray kompleksi barədə dövlət başçılarına məlumat verildi. Bildirildi ki, əzəməti və gözəlliyi ilə məşhur olan Nurullaboy saray kompleksi Xivə xanı II Məhəmməd Rəhim xanın əmri ilə 1906–12-ci illərdə tikilib. Dörd hissədən ibarət saray kompleksinə ümumilikdə 100-dən çox zal və otaq, o cümlədən mərasim və məhkəmə zalları, yaşayış binaları və mədrəsə daxildir. Saray kompleksindəki bütün tikililər uzunluğu 650 metrdən çox olan güclü istehkamla əhatə edilib. Qala divarı üzərində yarımdairəvi qüllələr ucaldılıb. Rusiya imperatoru II Nikolay kompleksin tikintisi başa çatdıqdan sonra saraya iki çilçıraq və kiçik bir elektrik stansiyası bağışlayıb.*

*Nurullaboy sarayı milli və Avropa memarlıq üslublarının vəhdəti əsasında inşa olunub. Bu da həmin dövrdə şəhərsalma sahəsində üstünlük təşkil edən üslubla əlaqədardır. Qızılı və rəngli rəsmlərlə örtülmüş*

*məşhur Xivə oymaları sarayın cəlbediciliyini daha da artırır.*

*Saray kompleksində daimi rəsm sərgiləri fəaliyyət göstərir, tarixi sənədlər, milli geyim nümunələri nümayiş olunur.*

## İÇAN-QALA DÖVLƏT TARİXİ MEMARLIQ MUZEYİ İLƏ TANIŞLIQ

*Xivə*

*22 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 22-də Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olmuşlar.*

*İçan-Qala barədə dövlət başçımıza məlumat verildi. Bildirildi ki, İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi 1920-ci ildə yaradılıb. 1969-cu ildə tarixi İçan-Qala şəhəri Muzey-qoruq elan edilib. Xivə şəhəri qədim Xivə xanlığının paytaxtı olub. Xivə şəhərindəki nəhəng İçan-Qala kompleksini gil divarlar əhatə edir. İçan-Qala da daxil olmaqla, Xivə şəhəri 1990-cı ildə UNESCO-nun Maddi Mədəni İrs siyahısına daxil edilib. Sarayı gəzdikcə divarlarda diqqət çəkən mavi ornamentlər göz oxşayır, insan bir anlıq özünü orta əsrlər saray dövründə təsəvvür edir. Muzey fondunun əsasını xan dəftərxanasının sənədləri və sarayın müxtəlif əşyaları təşkil edir.*

*Ümumi sahəsi 26 hektar olan muzeydəki ekspozisiyalar Özbəkistanın qədim tarixini və müasir dövrünü əlaqələndirir. Burada Xivə xanlığının, qədim Xarəzmin tarixi, etnoqrafiyası, sənət nümunələri, müx-*

*təlif kolleksiyalar ilə bağlı 14 stasionar muzey və ekspozisiyalar vardır.*

*Muzeydə, həmçinin Xivə xanlığının tarixi barədə nəşrlər nümayiş etdirilir.*

*Muzeyin əsas işi eksponatların toplanılması, onların öyrənilməsi, nümayişi və abidələrin mühafizəsindən ibarətdir.*

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Xivə*

*22 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə iyunun 22-də Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən rəsmi qəbul təşkil edilmişdir.*

*Qəbulda konsert proqramı təqdim olundu.*

*Dövlət başçıları incəsənət ustalarının çıxışlarını dinlədikdən sonra onlarla söhbət etdilər.*

**Ş a v k a t M i r z i y o y e v:** Bu gün bizim sənətçilər dostum, qardaşım İlham Heydər oğluna gözəl Xivədə, Özbəkistanda bizim mədəniyyətimizi, sənətimizi və onların yaxınlığını göstərdilər. Mən Sizə olduqca minnətdaram və qurur hissi keçirdim ki, qardaşımla bir dildə danışdıq və aramızda tərcüməçi yox idi. Bu sənətçilər bizim mədəniyyətimizi, tariximizi, soykökümüzü, birliyimizi dərin sevgi, məhəbbət və ehtiramla tərənnüm etdilər, göstərdilər ki, bu iki böyük xalqın tarixi birliyi və gələcəyi həqiqətən də sarsılmazdır. Biz dünəndən dostluğumuz, əlaqələrimiz haqqında danışır və müzakirələr aparırıq. Lakin bu gün bizə bunu əməli olaraq sənətlə göstərdiniz.

Mən sizə minnətdaram. Son illər bizim mədəniyyətimizə, tariximizə, ümumiyyətlə, makomumuza və muğamımıza ehtiramla yanaşmağımız təqdirəlayiqdir. İllər ötəcək, əsrlər keçəcək və siz bu mədəniyyətin iştirakçıları olacaqsınız. Övladlarınız, qonşularınız, dostlarınız bu mədəniyyətlə təmasda olacaqlar. Mən qardaşım İlham Heydər oğluna məmnuniyyətlə demək istəyirəm ki, bu gün sənətçilər bizə yeni Özbəkistanda yeni mədəniyyəti göstərdilər.

**İ l h a m Ə l i y e v:** Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı. Mənim dövlət səfərim bu gün başa çatır. Dünən Daşkənddə, bu gün Xivədə, Ürgəncdə, Xarəzm vilayətində olmağımdan çox məmnunam. Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökü birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olundu. Heç bir ləhcə, şivə yoxdur. Bu nəyi göstərir? Xalqlarımızın birliyini. Siz, türk mədəniyyətimizi tərənnüm edən ifaçılar, sənətkarlar və mədəniyyət ustadları bizim fəxrimizsiniz.

Şavkat Miromonoviçlə bu masa arxasında söhbət əsnasında o hər bir ifaçının adını bilirdi. Bilirdi kim harada oxuyub. Bu onu göstərir ki, Prezident hər bir sənət adamının məsələləri ilə şəxsən məşğul olur. Onun sizə olan sevgisi özbək xalqına olan sevgisidir.

Bu gün yeni Özbəkistanı mən özüm üçün kəşf etdim. Yeni Özbəkistan qardaşımın simasında, sizin simanızda çiçəklənir. Yeni Özbəkistanın həyatı

uğurlu olsun, xeyirli olsun. İnşallah, hamımız – özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacağıq.

**Şavkat Mirziyoyev:** İnşallah.

**İlham Əliyev:** Bu papaqlardan bizdə də var, adına buxara papaq deyirik. Xarəzm şivəsi, ləhcəsi Azərbaycan dilinə çox oxşayır.

**Şavkat Mirziyoyev:** Biz ilk gündən qardaşım İlham Heydər oğlu ilə xeyli məsələləri reallaşdırmaq, birliyimiz, həmrəyliyimiz, ən əsası dinc yaşayışımız, firavanlığımızla bağlı çox fikir mübadiləsi apardıq və qərarlar qəbul etdik. Gələcək əməkdaşlığımızla bağlı böyük planları müzakirə etdik. Mən bir məsələni sizlərə bildirmək istəyirəm ki, iqtisadiyyat, siyasət vacibdir, lakin bizi birləşdirən əsas dəyər, möhkəm vasitə mədəniyyətdir. Biz razılaşdıq ki, heç olmasa üç aydan bir qarşılıqlı səfərlər reallaşdıraq, gediş-gəlişi artıraraq, mədəni birliyimizi yeni müstəviyə qaldıraq.

Cari ilin noyabrında Səmərqənd şəhərində keçiriləcək görüşümüz zamanı orkestrimizin iştirakı ilə muğam və makom sənətinə dair Füzuli, Nəvai şeirləri əsasında birgə konsert təşkil etmək necə də gözəl olar. Düşünürəm ki, siz buna bir ay hazırlaşsanız, nə qədər yüksək nəticə əldə edə bilərsiniz. Heç bir niyyətimiz, amalımız mədəniyyətsiz, mədəniyyətlə təmasda olmadan reallaşa bilməz.

Özbəkistanın paytaxtı Daşkənd öz yerində, Xivədə, Xarəzm vilayətində, uzaq bir diyarımızda qardaşım üçün bu konserti hazırlayan orkestrimizə minnətdarlığımı bildirirəm. Mədəniyyət nazirimiz bu or-

kestri təşkil etdi və mən onun xidmətini qiymətləndirirəm. Sağ olun.

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri iyunun 22-də başa çatdı.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ürgənc şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev yola saldı.*

## AZƏRBAYCAN–RUMINİYA HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏLAQƏLƏR VƏ ELMİ ƏMƏKDAŞLIQ ÜZRƏ MÜŞTƏRƏK KOMİSSİYANIN HƏMSƏDRİ VİRGİL-DANİEL POPESKU VƏ BİR QRUP NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın Energetika naziri Virgil-Daniel Popeskunu, Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Bir çox sahələrdə, xüsusilə enerji, kənd təsərrüfatı sferalarında hərtərəfli əməkdaşlıq, enerji təchizatı, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatında yeni texnologiyaların və elektron sistemlərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi, gələcəkdə bir çox iqtisadi layihələrin icrasına dair məsələlər müzakirə olundu.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*23 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli Sergey Viktoroviç, sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz! Elə sizin səfəriniz ərəfəsində həm sizinlə, həm də Rusiya Federasiyasının Prezidenti ilə əvvəlki görüşlərimizi xatırlamışam. Bu ilin əvvəlində Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması bizim münasibətlərə, münasibətlərimizin yeni mərhələsinə yaxşı start, müsbət ahəng, dinamika verdi. Hesab edirəm ki, bizim münasibətlərimizin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur. Bəyannamənin müddəalarının implementasiyası çərçivəsində artıq xeyli iş görülüb. Əminəm ki, səfəriniz çərçivəsində bu istiqamətdə yeni addımlar atılacaq. Əlamətdar haldır ki, diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində biz görülmüş bütün işlərə müəyyən mənada yekun vurduq və dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafının sonrakı istiqamətlərini müəyyən etdik. Bizim münasibətlər haq-

qında çox danışmaq olar. Sizinlə bu mövzuda dəfələrlə fikir mübadiləsi aparmışıq. Siyasi münasibətlərin, ali səviyyədə daimi dialoqun, bu il yaxşı dinamika nümayiş etdirən ticari-iqtisadi əlaqələrin, nəqliyyat, energetika sahələrində, təbii ki, humanitar sahədə əməkdaşlığın inkişafından məmnun olduğumu bir daha bildirmək istərdim. Yəni bizdə sıx qarşılıqlı fəaliyyətin olmadığı sahələri göstərmək daha asandır. Əlbəttə, Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə bizim ikitərəfli münasibətlərdə çox mühüm addımdır və artıq dediyim kimi, o bizim əlaqələrimizin inkişaf yollarını müəyyən edəcək.

Bu gün regionda vəziyyət, münaqişədən sonrakı vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə danışacağıq. Siz bizim mövqemizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq. Sülh müqaviləsi üzərində işə başlamaq barədə bizim təklifimiz hələlik cavabsız qalır, lakin biz hələ ümid edirik ki, bu təklif müsbət qəbul ediləcək.

Müsbət məqamlar arasında Rusiya, Azərbaycan və Ermənistanın Baş Nazir müavinlərinin sədrliyi ilə üçtərəfli İşçi qrupun işinin intensivləşməsini qeyd etmək istərdim. Lap yaxın vaxtlarda Sankt-Peterburqda yeni görüş keçirilib. Ümid edirik ki, 2020-ci il noyabr Bəyannaməsinin implementasiyası məqsədilə məhz kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçı-

van Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi kontekstində də praktiki addımlar atılacaq. Bu, Ermənistan tərəfinin hüquqi öhdəliyidir. Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından il yarımdan çox keçməsinə baxmayaraq, Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib. Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşdırılması üçün bizim konsepsiya çərçivəsində praktiki addımlar atmaq mümkün olacaq. Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik.

Bir daha xoş gəlmisiniz! Vaxtınızı xoş keçirməyi arzu edirəm.

**Sergey Lavrov:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Sizə Vladimir Putinin ən səmimi salamlarını və ən xoş arzularını çatdırmaq istəyirəm. O da Sizin səfərinizin yekunlarını və ikitərəfli münasibətlərimizin bütün aspektlərini, regional və beynəlxalq gündəliyə dair etimada əsaslanan söhbətlərimizi çox yüksək qiymətləndirir. Əlbəttə, səfərin əsas yekunu qəbul edilmiş sənəd – Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə oldu. Bütövlükdə, həmin sənəd münasibətlərimizin yeni keyfiyyətini, əvvəlki illər ərzində toplanmış müsbət təcrübəni təsbit etdi. Biz iki Prezidentin bu Bəyannaməni icra etmək, onu sektoral şəkildə həyata keçirmək, digər razılaşmaları artıq praktiki səviyyədə reallaşdırmaq barədə tapşırıqlarını yerinə yetirmək əzmindəyik.

Baş Nazir müavinləri səviyyəsində hökumətlərarası birgə Komissiya fəal işləyir. Sizin dediyiniz

kimi, keçən il əmtəə dövriyyəsi rekord səviyyədə – təqribən 3,5 milyard dollar olub. Bu da son hədd deyil, həm hökumətlərimiz, həm də regionlar səviyyəsində yeni planlar var. 70-dən çox region Azərbaycanla əməkdaşlıqda iştirak edir. Mənə dedilər ki, təkcə bu il ərzində Udmurtiya, Başqırdıstan, Perm diyarı, Azərbaycanla xüsusi münasibətləri olan Həştərxan vilayətinin nümayəndə heyətləri Sizin ölkəyə səfər ediblər.

Diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində də sanballı tədbirlər proqramı həyata keçirilir. İyirmidən çox müxtəlif tədbir planlaşdırılır, onların bir qismi təşkil edilib, qalanları ilin sonunadək keçiriləcək. Bu tədbirlər bizim vətəndaşlar tərəfindən yaxşı qarşılanır. Bu, xalqlarımızın qarşılıqlı olaraq bir-birinə can atmasını, mədəniyyətlərimizin, tarixi yaddaşımızın ümumiliyini vurğulayır. Biz Azərbaycanda rus dilinə göstərilən diqqəti qiymətləndiririk, Siz də Prezident Putin ilə bu barədə danışmısınız. Regional problemlərə gəldikdə, biz üç lider tərəfindən 2020-ci ilin noyabrında, 2021-ci ilin yanvarında və noyabrında imzalanmış üç sənədin reallaşmasına hər vasitə ilə kömək etməyə hazırıq.

Bizim dəyərləndirməmizə görə, kommunikasiyaların açılması üzrə üçtərəfli İşçi qrupunun fəaliyyətində müəyyən irəliləyiş vardır. Razılaşdırılmalı məsələləri biz Ermənistan tərəfi ilə müzakirə edirik. Mənə elə gəlir ki, avtomobillərin maksimum komfort şəkildə hərəkətinə heç bir süni maneə yaradılmaması üçün bu işin təşkili məsələsini necə həll etmək barədə ümumi fikir formalaşır. Rusiya nəticə

əldə olunana qədər bu işə kömək edəcək. Ümidvaram ki, bu, tezliklə olacaq. Başqa razılaşmalara uyğun olaraq, Azərbaycanda və Ermənistanda sərhədlərin delimitasiyası və demarkasiyası üçün yaradılmış iki Komissiyanın xətti üzrə işə məsləhət xidmətləri göstərməyə də hazırıq, konkret təkliflər də var, Sizinlə müzakirə etməyə şad olaram. Münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsini, gələcək müqavilənin sizin tərəfinizdən təqdim olunmuş müddəalarını xatırlatdınız. Biz eşitmişik, Ermənistan tərəfi, baş nazir Paşinyan bu mövzuda danışıqlar aparmağa hazırdır. Biz burada da Azərbaycanın və Ermənistanın razılığı ilə kömək göstərməyə hazırıq. Azərbaycanın və Rusiyanın iştirak etdiyi digər beynəlxalq forumlar – həm BMT, həm ATƏT, həm də «Xəzər beşliyi» – bütün bu məkanlar, necə deyərlər, xarici konturda bizim qarşılıqlı fəaliyyətimizi inkişaf etdirməyə imkan verir. Düz bir həftədən sonra Aşqabadda «Xəzər beşliyi»nin növbəti sammiti keçiriləcək. Biz də buna fəal hazırlaşırıq. Həmkarım və dostum Ceyhun Əziz oğlu ilə liderlərin bəyənməsi üçün təklif edə biləcəyimiz yekunları müzakirə etmişik.

Dəvətə və ənənəvi qonaqpərvərliyə görə bir daha çox sağ olun.

## *bp* QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU BERNARD LUNİ İLƏ GÖRÜŞ

*24 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də bp qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul etmişdir.*

*Görüşdə bp şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı. Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olundu.*

*bp-nin Azərbaycanda «yaşıl enerji» növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edildi. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq Günəş elektrik stansiyasının əhəmiyyətinə toxunuldu, bununla bağlı iyunun 4-də Şuşada bp ilə imzalanmış sənədin önəmi vurğulandı.*

*Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı.*

## GÖYGÖL, KƏLBƏCƏR VƏ LAÇIN RAYONLARINA SƏFƏR

*26 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər etmişdir.*

*Dövlət başçısı əvvəlcə Göygöl rayonunda Toğanalı–Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış oldu. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən inşaat işləri haqqında məlumat verdi.*

*Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolu 2–4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun inşa edilir. Belə ki, yolun keçdiyi ərazinin sərt dağlıq və qayalıq olması nəzərə alınaraq, onun əsas hissəsinin ikizolaqlı, yoxuşlarda isə əlavə zolaq artırılmaqla tikintisi aparılır. Bu yol tunel və körpü hissələrdə dörd hərəkət zolaqlı olacaq. Hazırda yolboyu torpaq yatağının, həmçinin zəruri yerlərdə suötürücülərin tikintisi davam edir. İki hissədə mövcud kanalların köçürülməsi, həmçinin bəzi ərazilərdə suötürücülərin inşası tamamlanıb, yeni su kanalının tikintisi davam etdirilir.*

*Bildirildi ki, layihənin 13,5-ci kilometrindən Murovdağ silsiləsi başlayır. Yüksəklik 1700 metrdən*

*Murovdağ zirvəsinədək 3250 metrədək artır. Bu hissədə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Artıq tuneldə gediş və gəliş istiqaməti üzrə 2,1 kilometr uzunluğunda qazma işləri tamamlanıb.*

*Tunel müvəqqəti havalandırma sistemi ilə təmin edilib. Piyadalar və avtomobillər üçün nəzərdə tutulmuş iki ehtiyat keçidin tikintisi yekunlaşıb.*

*Hazırda tuneldə partlatma və qırma prosesləri nəticəsində əmələ gələn qaya parçaları və süxurların daşınması, lay sularının kənarlaşdırılması və tuneldaxili hissənin üzlənməsi işləri davam etdirilir. Həmçinin məlumat verildi ki, Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha 3 tunelin inşası nəzərdə tutulur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işlərinə başlanılıb. Artıq birinci tuneldə üst qatda qazma işləri icra olunaraq, tuneldaxili hərəkət təmin edilib. İkinci tuneldə isə üst qatda qazma işləri tamamlanmaq üzrədir.*

*Tikintisi 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulmuş Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcəkdir.*

## Kəlbəcər şəhərinin baş planı ilə tanışlıq, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər şəhərinin baş planı ilə tanış olmuş, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoymuşdur.*

*Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov dövlət başçısına Kəlbəcər şəhərinin baş planı barədə məlumat verdi. Bildirildi ki, Kəlbəcər şəhərinin baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq, müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilibdir. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhəri ərazisinin 237 hektara, əhali sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.*

*Ağdam, Cəbrayıl, Füzuli və Zəngilan rayonlarından sonra Kəlbəcər rayonunda da Zəfər və İşğal muzeyləri yaradılacaqdır.*

*Prezident İlham Əliyev Kəlbəcər Zəfər və İşğal muzeylərini layihələndirən ACN şirkətinin nümayəndələri ilə görüşdü.*

**L a u r a  K o n t i** (*şirkətin icraçı direktoru*): Sizi görmək bizim üçün şərəfdir. Bizi dəvət etdiyiniz üçün minnətdarıq. Burada olmaqdan məmnunluq və şərəf hissi keçiririk. Xüsusilə bu möhtəşəm mühitdə, gözəl təbiətdə olmaq heyrətamizdir. Bura olduğumuz ən gözəl yerlərdən biridir.

**İ l h a m  Ə l i y e v:** Bəli, bütün bu ərazilər belədir, yaşıllıqdır.

**L a u r a  K o n t i:** Təbiət heyrətamizdir. Təbiət bizim layihənin ilham mənbəyidir.

*Dövlət başçısı İşğal və Zəfər muzeylərinin layihəsini əks etdirən videoçarxa baxdı.*

*Prezident İlham Əliyevə Kəlbəcər şəhərində inşa olunacaq İşğal və Zəfər muzeyləri kompleksi barədə məlumat verildi. Qeyd olundu ki, hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcək. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaq. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə Zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq.*

**Ş i r k ə t  n ü m a y ə n d ə s i:** Ermənilər buranı işğal ediblər, lakin burada yaşamayıblar.

**İ l h a m  Ə l i y e v:** Yaşamayıblar və hər şeyi dağıdıblar.

**Ş i r k ə t  n ü m a y ə n d ə s i:** Hər şeyi bir-bir dağıdıblar.

**İ l h a m  Ə l i y e v:** Bunu etmək üçün heç bir səbəb yox idi. Biz onlara qarşı heç bir pis iş görməmişik. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar bizim torpağımıza gəldilər, hər şeyi dağıtdılar və getmədilər.

Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su-elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

**Şirkət nümayəndəsi:** Mən su-elektrik stansiyalarının dağıdılmasını görmüşəm.

**Laura Konti:** Hər şey yandırılmışdır.

*Sonra dövlət başçısı İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydu.*

## SİLAHLI QÜVVƏLƏR GÜNÜNDƏ KƏLBƏCƏRDƏ KOMANDO HƏRBİ HİSSƏSİNƏ DÖYÜŞ BAYRAĞININ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*26 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da – Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonunda komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi və yeni inşa edilmiş hərbi şəhərciyin baş planı barədə məlumat verdi.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti salamladı və hərbçiləri 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.*

*Dövlət başçısı tədbirdə çıxış etdi.*

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı

Bu gün biz Silahlı Qüvvələr Gününü Kəlbəcərdə qeyd edirik, azad olunmuş Kəlbəcərdə. Eyni zamanda, bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsi açılır.

Altı ay bundan əvvəl, dekabrın 24-də birinci komando hərbi hissəsi azad edilmiş Hadrutda istifadəyə verilmişdir. Bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər, ölkə qarşısında duran vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir. Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. Bu gün biz müzəffər xalq kimi, qalib ölkə kimi, Ordu Gününü qeyd edirik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə – hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Biz Vətən müharibəsində xalqımızın böyüklüyünü göstərdik, yenilməz ruhumuzu göstərdik, güclü iradəni göstərdik və göstərdik ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Sadəcə olaraq,

biz istəyirdik ki, bu məsələ sülh yolu ilə həll olunsun və uzun illər apardığımız danışıqların məqsədi məhz bu idi. Biz istəmirdik ki, qan tökülsün. Ümid edirdik ki, beynəlxalq aləm Ermənistana sanksiyalar tətbiq etməklə işğalçını məcbur edib bizim torpağımızdan çıxaracaq. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik və Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirdi.

Biz müzəffər xalq kimi, qalib dövlət kimi, bundan sonra əbədi yaşayacağıq. Ancaq biz bu şanlı Qələbəni əldə etmək üçün gecə-gündüz çalışmalı idik, güc toplamalı idik. Çünki bu gün dünyada güc amili ön plandadır. Beynəlxalq hüququn norma və prinsipləri işləmir, beynəlxalq təşkilatlar faktiki olaraq, fəaliyyəti formal şəkildə davam etdirir. Haqq-ədalət bizim tərəfimizdə idi, beynəlxalq hüquq bizim tərəfimizdə idi, bizim torpaqlar işğal altında idi, ancaq işğalçıya heç kim «Azərbaycan torpaqlarından çıx!» deməmişdir. Ona görə biz güc toplamalı idik ki, özümüz bu vəzifəni icra edək və toplayırdıq. Siyasi güc topladıq, beynəlxalq aləmdə öz gücümüzü artırdıq. Dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır və Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaqdır. İqtisadi güc topladıq və iqtisadi müstəqillik əldə etdik. Əgər iqtisadi müstəqillik olmasaydı, imkanlarımız olmasaydı, biz müharibəni hansı vasitələrlə aparacaqdıq? İqtisadi müstəqillik və sürətli inkişaf bizim Qələbəmizi yaxınlaşdırırdı.

Vətənpərvərlik işinə çox böyük önəm verirdik. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün bir çox tədbirlər görülmüşdür və buna nail olduq. Bu

gün Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Vətənpərvərlik, nizam-intizam, iqtisadi güc, siyasi mövqelər və Silahlı Qüvvələrimizin müasir silahlarla təchiz edilməsi – bütün bu amillərin vəhdəti İkinci Qarabağ müharibəsinin nəticələrini şərtləndirdi. Cəmi 44 gün ərzində biz düşməni torpağımızdan qovduq, düşməni diz çökdürdük, onu məcbur etdik ki, ağ bayraq qaldırsın və Kəlbəcərdən məcbur olaraq çıxsın. Kəlbəcər bir güllə atılmadan azad edilmişdir. Biz onsuz da Kəlbəcəri azad edəcəkdik. Çünki artıq Ermənistan ordusunun beli qırılmışdı, ancaq itkilər çox olacaqdı. Ona görə 44 gün ərzində Ermənistan ordusunu elə vəziyyətə saldıq ki, onların başqa yolu qalmadı.

Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə

başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyamızı icra etdik. Bu tarixi Qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi Qələbə ilə fəxr edəcəyik.

Ermənistan ordusu 44 gün ərzində, demək olar ki, məhv edildi. Ermənistan ordusunda panika, təşviş vüsət almışdı. Özlərinin etirafına görə, 10 min fərari olmuşdu. Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmadı. Budur Azərbaycan övladının ruhu, Vətənə olan bağlılığı. Qarabağın tacı olan Şuşanı – bu alınmaz qalanı alaraq, biz Şuşada Azərbaycan bayrağını ucaltdıq. Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı və o vaxt işğal altında qalan ərazilərdən çıxmağa məcbur oldu.

Biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələr yaradılıbdır. Müharibədən keçən il yarım ərzində biz gecə-gündüz çalışmışıq ki, ordumuzu daha da gücləndirək, müasir silahlarla təchiz edək, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olaq, yerləşək və buna nail olduq. Altı ay bundan əvvəl Hadrutda birinci komando hərbi hissəsi açılmışdır. Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcəkdir. Bu bizim gücümüzü daha da artıracaq. Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür – həm təchizat nöqteyi-nəzərindən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərindən. Ona görə biz bundan sonra

da ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcəkdir.

Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: «Dəmir yumruq» yerindədir, bunu heç kim unutmasın».

Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələr yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq–iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim qarşımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırarsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Biz müharibə istəmirik, heç vaxt istəməmişik. Amma biz istəyirik ki, bizim maraqlarımız təmin olunsun. Biz istəyirik ki, müharibə nəticəsində yaradılmış reallıqlar hamı tərəfindən qəbul edilsin. Deyə bilərəm ki, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətlərini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Müharibədən cəmi bir il yarım keçibdir. Bu müharibəni unutmasınlar – nə onlar, nə də ki, sonrakı nəsillər. Bilsinlər ki, Azərbaycan güclü dövlətdir, güclü ordusu var, Azərbaycan əsgəri, zabiti dövlətimizi qorumaq üçün canını fəda etməyə hazırdır, necə ki, İkinci Qarabağ müharibəsində canlarını fəda etdilər.

Ordu quruculuğu ilə bağlı işlər planlı şəkildə davam edir. Kəlbəcər rayonunda, Laçın rayonunda və azad edilmiş digər rayonlarda bir çox hərbi hissələr yaradılır və xidmət şəraiti də yaxşıdır. Bütün şərait təmin edilir ki, hərbçilərimiz xidmət şəraitini nəzərə alaraq, daha yaxşı xidmət etsinlər.

Bu gün Ordu Gününü Kəlbəcərdə qeyd etməklə, biz hamımız qürur hissi keçiririk. Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşmüşdü. O vaxt hakimiyyətdə olan AXC–Müsavat xəyanətkar cütlüyü Kəlbəcəri nəinki müdafiə etmirdi, hətta Kəlbəcəri qurban verməyə hazır idi, bunu da etdi. Ondan əvvəl Laçın və Şuşa işğal altına düşmüşdü və Kəlbəcərin işğal altına düşməsi ermənilərin planlarında idi. AXC–Müsavat hakimiyyəti talançılıqla, soyğunçuluqla məşğul olurdu, orduya, ordu təchizatına fikir vermirdi, bu bölgədə yaşayan insanlara fikir vermir-

di, onlara biganə yanaşırdı və Kəlbəcər işğal altına düşdü. Beləliklə, Ermənistan öz arzularına, çoxəsrlik arzularına çatdı ki, Qarabağla – o zaman «Dağlıq Qarabağ» adlandırılırdı – bu bölgə ilə Ermənistan arasında canlı bağlantı olsun. Kəlbəcər, Laçın dağları bu bağlantının qabağını almışdı. Kəlbəcərin itirilməsi strateji nöqteyi-nəzərdən böyük faciə idi. Burada yaşayan insanların bir çoxu ermənilər tərəfindən öldürülüb, buradan çıxa bilən insanların bir çoxu Murov dağlarında donub və həyatlarını itiriblər. İndi buraya gələn hər bir insan Murov dağını aşaraq görür ki, nə qədər çətin yoldur, daim dumanlı yoldur və bu gün səhər mən oradan keçmişəm – yağış, duman. İnsanlar aprelin əvvəllərində o qarlı, şaxtalı havada oradan ayaqyalın keçməyə məcbur idilər. Onlara yolda da işgəncələr verildi, pusqular quruldu. Mənfur düşmən tərəfindən dinc əhali öldürüldü. Hərbi cinayətkarlar – Sarkisyan, Köçəryan bunu törətdilər. İkinci Qarabağ müharibəsi dövründə Xankəndiyə gəlmişdilər, guya orada müqavimət göstərəcəklər. Dovşan kimi, fərari kimi qaçdılar oradan. Kəlbəcərin itirilməsi müharibənin ondan sonrakı gedişatına da, əlbəttə ki, mənfi təsir göstərmişdi.

Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər vardır. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi – artıq buna start verilir. Əlbəttə, biz ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və

bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq – Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlanıb və ilk növbədə, bu bölgədə – Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə də bugünkü mərasim xüsusi, rəmzi məna daşıyır.

1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qürurla qeyd edirik. Onu da deməliyəm, işğal dövründə müxtəlif variantlar müzakirə olunurdu, vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilmərik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır, bu bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur.

Biz bütün dünyaya sübut etdik ki, böyük xalqıq. Qarabağ hər zaman Azərbaycan torpağı olub – işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də.

Qarabağ Azərbaycandır!

* * *

*Sonra Azərbaycan Respublikası Prezidentinin komando hərbi hissəsinə döyüş bayrağının verilməsi haqqında təqdimatı oxundu.*

*Polkovnik-leytenant Fəxrəddin Cavadov döyüş bayrağını Ali Baş Komandandan qəbul edərək, and içdi. Sonra komando hərbi hissəsinin şəxsi heyəti Müzəffər Ali Baş Komandan qarşısında «Komando andı»nı qəbul etdi.*

*Ali Baş Komandan «Komando andı»nı qəbul edən şəxsi heyəti təbrik etdi.*

*Şəxsi heyət təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçdi.*

*Daha sonra Prezident İlham Əliyev hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış oldu, yeni inşa edilmiş qərargah binasında yaradılmış şəraitlə maraqlandı.*

*Qərargah binasındakı akt zalında Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev əməliyyat şəraiti barədə Ali Baş Komandana məlumat verdi.*

*Sonra Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi, çinar ağacı əkdi, şəhidlərin xatirəsinə ucaldılmış abidə-kompleksini və «Dəmir yumruq» abidəsini ziyarət etdi.*

*Ali Baş Komandan Silahlı Qüvvələr Günü və yeni hərbi hissənin açılışı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyini və şəxsi heyəti bir daha təbrik etdi, onlara uğurlar arzuladı.*

## Yeni tikilmiş 4,4 MVt gücündə «Kəlbəcər-1» Kiçik Su-Elektrik Stansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə «Kəlbəcər-1» Kiçik Su-Elektrik Stansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına «Kəlbəcər-1» Kiçik Su-Elektrik Stansiyası haqqında məlumat verdi. Bildirildi ki, Lev çayı üzərində inşa olunmuş stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir. «Yaşıl enerji zonası» konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək «Kəlbəcər-1» KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıbdır. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilibdir.*

*«Kəlbəcər-1» KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər, demək olar, işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan*

*elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.*

*Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərin «yaşıl enerji zonası»na çevrilməsi ilə bağlı dövlət başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan «Güləbird», «Suqovuşan-1», «Suqovuşan-2» və «Kəlbəcər-1» Kiçik Su-Elektrik stansiyaları tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovat/saat elektrik enerjisi istehsal olunubdur.*

## Kəlbəcər–Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər–Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olmuşdur.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2–4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir.*

*Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır.*

*Qeyd olundu ki, layihə üzrə yol boyunca tikintisi nəzərdə tutulmuş avtomobil tunellərindən ikisində*

*qazma prosesi davam etdirilir, birinin isə giriş və çıxış hissələrində işlərə başlanılıb.*

## Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına məlumat verildi ki, Kəlbəcər rayonu ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər bu gün də davam etdirilir. İşlər çərçivəsində mənbə kimi Gəncə şəhərində yerləşən «Gəncə-2» yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti çəkilib. Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatında bu xətt müstəsna rol oynayacaq. Bu, Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksəkgərginlikli xətdir. Dağlarda texnikanın rahat hərəkət etməsi üçün əvvəlcə yol inşa edilibdir.*

*Diqqətə çatdırıldı ki, Kəlbəcərin yüksək dağlıq ərazidə yerləşməsinə və çətin şəraitə baxmayaraq, «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti tərəfindən işlər bu gün də sürətlə davam etdirilir. Sovet dövründə elektrik enerjisinin olmadığı ucqar ərazilərdə belə, müasir elektrik şəbəkələr qurulur. Rayonun Alagöllər və digər əraziləri ilk dəfə «Azərişıq» ASC tərəfindən elektrik enerjisi ilə təmin olunur, «Zod» qızıl yatağı ərazisinə 35 kV-luq mühafizəli, izolyasiyalı kabel xəttinin çəkilməsi işləri davam edir.*

*Görülmüş işlər nəticəsində Kəlbəcərdə iki istiqamət üzrə 110 kV-luq hava xətləri bərpa edilib, bir istiqamətdə 110 kv-luq, 4 müxtəlif əraziyə isə 35 kV-luq elektrik xətləri çəkilib. Ümumilikdə rayon ərazisində müxtəlif güclərdə 15 komplekt transformator məntəqəsi quraşdırılıb.*

*Bundan başqa, 6 müxtəlif istiqamətdə 35 kV-luq müasir izolyasiyalı kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. Həmçinin 110/35 kV-luq «İstisu» yarımstansiyasının, Kəlbəcər və Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxeminin yaradılması planlaşdırılıb.*

## «İstisu» Mineral Su zavodunun təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcərdə «İstisu» Mineral Su zavodunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına görüləcək işlər barədə məlumat verdi. Bildirildi ki, istifadəyə veriləcək zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60–65$^0$ C-yə bərabərdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcər «İstisu» Mineral Su zavodunun təməlini qoydu.*

*«İstisu» bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər gös-*

*tərib ki, minerallların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir. Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.*

## «Çıraq-1» Kiçik Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda «Çıraq-1» Kiçik Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlət başçısına stansiyada görülən işlər barədə məlumat verildi. Bildirildi ki, «yaşıl enerji» strategiyasına uyğun olaraq, hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su-elektrik stansiyası tikilir.*

*Kiçik su-elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Stansiyaların enerjisistemə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsi görülmüş bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək. Açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və*

*təhlil aparılması mümkün olan yeni stansiyaların idarə edilməsi Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək. Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.*

*«Azərenerji» ASC mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, dördüncü nəsil sənaye inqilabına uyğun süni intellektə adaptasiya edilmiş müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz «hidroyaşıl enerji» istehsal etmək mümkündür. Qeyd edildi ki, növbəti illərdə Kəlbəcər və Laçın rayonlarında yenidən qurulması təklif edilən digər kiçik su-elektrik stansiyalarının ümumi gücü 82,2 MVt təşkil etsə də, yeni hesabatlara əsasən, bu həcmi iki dəfə artırmaq mümkün olacaqdır.*

**«İstisu» sanatorisinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda «İstisu» sanatorisinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına sanatoridə görüləcək işlərlə bağlı məlumat verdi. Bildirildi ki, 34 hektar ərazidə salınması nə-*

*zərdə tutulmuş «İstisu» İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.*

*Diqqətə çatdırıldı ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan İstisu bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatori yaradılıb. İşğal dövründə yararsız hala salınmış sanatori yeni simada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq.*

*Prezident İlham Əliyev «İstisu» sanatorisinin təməlini qoydu. Sonra dövlət başçısı çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Kəlbəcər və Laçın rayonlarına səfərim başa çatır. Keçən il olduğu kimi, bu il də burada – İstisu qəsəbəsində başa çatır. İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə, yeni Su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu Su zavodunun təməlini qoydum. Vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, istehsal olunacaq, Azərbaycanda istehlak olunacaq və ixrac ediləcək. Eyni zamanda, arxada gördüyünüz «İstisu» sanatorisinin dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə – İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtilə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb.

Bu dağıntılar erməni faşizminin təzahürüdür. Onlar binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi dağıdıblar. Bu sanatorini də dağıdıblar. Amma bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu çox vacibdir. Çünki «İstisu» sanatorisi və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz – bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər və Laçın rayonlarında böyük quruculuq işləri gedir.

Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün – Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə – yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası vardır. Hərbi xidmət nöqteyi-nəzərindən bu bölgə – Kəlbəcər–Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, müzəffər ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi.

Bu fürsətdən istifadə edərək, son bir il ərzində burada görülmüş işlərlə də tanış oldum. Gördüm ki, mənim göstərişlərim necə yerinə yetirilir, ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarının inkişafı ilə bağlı hansı əlavə addımlar atılmalıdır. Çünki bu rayonların bərpası azad edilmiş digər rayonlara nisbətən daha çətindir. Ona görə ki, biz Murov aşırımın-

dan keçib gəlməliyik. Qış aylarında gediş-gəliş çətindir. Hava limanı hələ hazır deyil ki, yükləri hava yolu ilə göndərək. Bu bölgələrin, bu iki rayonun inkişafı ilə bağlı işlər gedir. Ancaq bu təbii şərait imkan vermir ki, bu işlər daha geniş vüsət alsın. Buna baxmayaraq, bütün infrastruktur layihələri uğurla icra edilir. Keçən il 4 su-elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su-elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücümüzü artırır, bərpa olunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir.

Yollar çəkilir. Kəlbəcər və Laçın rayonlarında 10-dan çox tunel inşa edilir. Təsəvvür edin, 10-dan çox tunel! Onların arasında ən böyük tunelin uzunluğu təxminən 12 kilometrdir. Biz bu tuneli Murov dağının altından çəkirik ki, buraya gediş-gəliş rahat olsun. Bu həm mülki əhali üçün, həm hərbçilər üçün, həm də müdafiə nöqteyi-nəzərindən lazımdır. Hazırda bütövlükdə 10-dan çox tunel tikilir və gələcəkdə bu tunellərin sayı daha çox ola bilər. Çünki burada hər tərəf dağlar, meşələrdir. Qarabağ bölgəsində indi 10-dan çox tunel, 9 viaduk, onlarla körpü inşa edilir. Görün həm Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan nə qədər genişmiqyaslı işlər görülür. Bunlar – elektrik enerjisi və yol əsasdır, bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz.

Bu gün mənə digər infrastruktur layihələrin icrası ilə bağlı da məlumat verildi. Hesab edirəm ki, qısa müddət ərzində – müharibədən cəmi il yarım keçib – bu genişmiqyaslı işlərin görülməsi gücümüzü, niyyə-

timizi, iradəmizi göstərir və bir daha xalqımızın böyüklüyünü göstərir. Biz bunu təkbaşına edirik və edəcəyik.

Bu gün Kəlbəcər şəhərinin baş planı mənə təqdim edildi. Bu baş planı hazırlayan şirkət Zəngilan şəhərinin baş planını da hazırlayıb. Mən o vaxt demişdim ki, Zəngilan şəhəri təbiətə sıx inteqrasiya olunmalıdır, park-şəhər olmalıdır, Kəlbəcər də həmçinin. Kəlbəcərin də özünəməxsus füsunkar təbiəti vardır. Kəlbəcər şəhərinin baş planının təsdiq olunması bu təbii gözəlliyi ehtiva edir. Artıq ilin sonuna qədər müfəssəl layihələndirmə gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcəkdir. Hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir. Göstəriş vermişəm ki, Kəlbəcərdə mütləq Aşıq Mərkəzi və lazım olan digər tikililər inşa edilsin. Bu ancaq Kəlbəcər şəhərinin baş planıdır. Kəlbəcər rayonunun inkişafı ilə bağlı isə bizdə konsepsiya artıq hazırdır. Kəndlərin yenidən qurulması konsepsiyamız hazırdır və biz bunu icra edəcəyik.

Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın və Kəlbəcər rayonlarında düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik – çaylar, bulaqlar, meşələr – biz

bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. 30 il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər – 60 min hektar ağac fondu, meşə fondu məhv edilib – çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Bu gün Kəlbəcər şəhərində İşğal və Zəfər muzeylərinin təməli qoyuldu. Azad edilmiş bütün şəhərlərdə mənim göstərişimlə İşğal və Zəfər muzeyləri inşa edilməlidir. Artıq bir neçə şəhərdə layihələr təsdiqlənib. Bu gün Kəlbəcər şəhərində də bu layihə təsdiqləndi və təməl daşı atıldı.

Yəni biz hərtərəfli iş görürük – infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülmüş bütün işləri sadalamaq mümkün deyil. Bu onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb – ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət görəsən haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar desinlər, çünki normal adam bu əməllərə əl atmaz. Biz isə qurub-

yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağıdılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Məsələn, mənə verilən məlumata görə, indi Şuşa şəhərində 1000-dən çox insan yerləşib və inşaat işləri ilə məşğuldur, xidmət sahəsində işləyir. Artıq Ağdamda sənaye parkı yaradılır. Zəngilanda, Ağalı kəndində birinci «Ağıllı kənd» layihəsi istismara verilibdir. Yəni bunu biz edirik, biz – bu torpaqların sahibləri. Ancaq hər kəs bilməlidir, bu çox genişmiqyaslı işdir. Bununla bərabər, Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır. Heç vaxt olmayan, Ermənistan sərhədinə gedən bir çox yollar salınır ki, biz mövqelərə daha rahat gələ bilək.

Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq.

Qarabağ Azərbaycandır!

## LAÇIN RAYONUNDA 110 kV-luq «QORÇU» ELEKTRİK YARIMSTANSİYASINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*26 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda 110 kV-luq «Qorçu» elektrik yarımstansiyasında görülmüş işlərlə tanış olmuşdur.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına yarımstansiyada görülmüş işlər barədə məlumat verdi. Bildirildi ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilmiş «Kəlbəcər» yarımstansiyasından Laçının Qorçu kəndinə 42 kilometr məsafədə ikidövrəli olmaqla, 110 kilovoltluq yüksəkgərginlikli ötürücü xətt çəkilir.*

*Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və yolsuzluq şəraitində çəkilən ötürücü xətt üzrə hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.*

*Yüksəkgərginlikli xəttin üzərindəki ildırımötürücü funksiyalı 24 damarlı fiber-optik kabellə internet xətti çəkilir ki, bu da enerji sisteminin idarə olunma-*

*sında siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcəkdir. Paralel olaraq, Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir.*

*Sistem əhəmiyyətli «Qorçu» yarımstansiyasında İdarəetmə Mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır. Yarımstansiyanın ərazisində işçi heyət üçün yataqxana binası tikilir, lazımi şərait yaradılır.*

*Qeyd edək ki, yarımstansiyanın yaxınlığında hava limanı tikilir və Qorçu kəndi mərkəz olmaqla, burada 7 kəndi birləşdirən yaşayış massivinin inşası planlaşdırılır.*

*Yeni yarımstansiya Laçın Beynəlxalq Hava Limanını, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə bölgədə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək. Perspektivdə Laçın dəhlizində 110 kV-luq «Laçın Şəhər» və «Zabux» yarımstansiyalarını tikməklə, Qorçudan Laçın şəhərinə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkiləcək və Laçın şəhərindən 110 kV-luq yeni xətt çəkilməklə «Şuşa» yarımstansiyası ilə əlaqələndiriləcək.*

*Ən əsası odur ki, Laçın şəhərindən Güləbird istiqamətində «Qubadlı» yarımstansiyasına ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilməklə enerji sistemi üçün mühüm əhəmiyyəti olan və regionun enerji dayanıqlılığını təmin edən dairəvi elektrik təchizat sxemi yaradılacaqdır.*

## «Həkəriçay» su anbarı layihəsi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda «Həkəriçay» su anbarı layihəsi ilə tanış olmuşdur.*

*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlət başçısına layihə barədə məlumat verdi.*

*Bildirildi ki, işğaldan azad olunmuş ərazilər həm təbii ehtiyatlar, biomüxtəliflik, meşə ərazilərinin bolluğu, həm də su ehtiyatları baxımından çox zəngindir. Azərbaycanda formalaşan su ehtiyatlarının təqribən 20 faizi məhz bu ərazilərin payına düşür. Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, ortaillik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür. Artıq bu sahədə müvafiq tədqiqatlar aparılıb. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir.*

*«Həkəriçay» su anbarı içməli suyun toplanılması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.*

## LAÇIN BEYNƏLXALQ HAVA LİMANINDA APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞLIQ

*26 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olmuşdur.*

*Dövlət başçısına hava limanında görülən işlər barədə məlumat verildi. Bildirildi ki, təməli 2021-ci ildə qoyulmuş Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaqdır.*

*Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilmiş terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcəkdir.*

*Qeyd olundu ki, aeroportun hava hərəkətini idarəetmə qülləsinin, transformator binalarının, nəzarət-buraxılış məntəqəsinin və digər yardımçı tikililərinin layihələndirilmə işləri də başa çatdırılıb.*

*Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək. Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji*

*təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.*

*Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ HİSSEYN BRAHİM TAHA İLƏ GÖRÜŞ

*27 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Hisseyn Brahim Tahanı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət prioritetlərində müsəlman ölkələri ilə əməkdaşlığın xüsusi yer tutduğunu qeyd edərək, bu əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla aparıldığını bildirdi. Dövlət başçımız ölkəmizin İƏT ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsi işində çox fəal çalışdığını qeyd etdi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan «Qoşulmama Hərəkatı»na üzv olan bir çox müsəlman ölkələri ilə də sıx əməkdaşlıq edir. Bununla əlaqədar dövlət başçısı bu günlərdə Bakıda «Qoşulmama Hərəkatı»nın Parlament Şəbəkəsinin təsis ediləcəyini məmnunluqla vurğuladı.*

*Prezident İlham Əliyev həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiy-*

*mətləndirdi. Dövlət başçısı işğal illərində ermənilər tərəfindən tarixi və mədəni abidələrimizin, o cümlədən məscidlərimizin vəhşicəsinə darmadağın edildiyini bildirərək, bunu xalqımıza qarşı mədəni soyqırımı, bütün müsəlman ölkələrinə qarşı təhqir kimi dəyərləndirdi.*

*Azərbaycan Prezidenti işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və yenidən qurulma layihələrindən, o cümlədən dini abidələrimizin bərpası istiqamətində görülən işlərdən danışdı.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini qeyd etdi. Hisseyn Brahim Taha Azərbaycanın İƏT üçün çox önəmli ölkə olduğunu bildirərək, dövlət başçımızın lider kimi fəaliyyətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, İƏT Prezident İlham Əliyevin üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətindəki mövqeyinin dünya miqyasında təşviq edilməsi üçün yorulmaz səylər göstərir.*

*Prezident İlham Əliyev BMT tərəfindən də təqdir edilən və İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurasının birgə əməkdaşlığının təzahürü olan «Bakı prosesi»nin mədəniyyətlərarası dialoqa verdiyi töhfəni xüsusi qeyd etdi.*

*Görüşdə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artdığı bildirildi və onun qarşısının alınması istiqamətində birgə fəaliyyətin aparılmasının vacibliyi vurğulandı.*

## ÜMUMDÜNYA ŞƏHƏR FORUMUNUN «DAHA YAXŞI GƏLƏCƏK NAMİNƏ ŞƏHƏRLƏRİMİZİ DƏYİŞDİRƏK» MÖVZUSUNDA 11-ci SESSİYASINDA VİDEOFORMATDA ÇIXIŞ

*27 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun «Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək» mövzusunda keçirilmiş 11-ci sessiyasında videoformatda çıxış etmişdir.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Hörmətli tədbir iştirakçıları!

Ümumdünya Şəhər Forumunda çıxış etməyimdən məmnunam. Bu il Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzvlüyünün 30 illiyi tamam olur. Bu mühüm hadisəni qeyd etmək məqsədilə cari ilin mart ayında Azərbaycanın mədəniyyət paytaxtı olan azad edilmiş Şuşa şəhərində BMT qurumlarının iştirakı ilə münaqişədən və pandemiyadan sonrakı dövrdə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına həsr edilmiş çox mühüm tədbir təşkil edilmişdir.

Tədbir iştirakçıları Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Azərbaycanın əldə etdiyi tərəqqi, eləcə də azad olunmuş ərazilərin dirçəldilməsi və oraya həyatın qaytarılması ətrafında müzakirələr aparmışlar.

«2030-cu ilə qədər Dayanıqlı İnkişaf Gündəliyi» və «Yeni Şəhər Gündəliyi» dayanıqlı urbanizasiyanı və şəhərlərimiz üçün daha yaxşı gələcəyi təmin etmək üzrə səylərimizi istiqamətləndirir. Paytaxt Bakının tarixi simasını qorumaqla bərabər, biz onun infrastrukturunun yenidən qurulmasına və müasirləşdirilməsinə nail olmuşuq. Qeyd etmək lazımdır ki, Bakının və Azərbaycanın digər şəhərlərinin müasirləşdirilməsi və yenidən qurulması zamanı biz şəhərlərin inkişafı baxımından yeni imkanlar və təcrübə əldə etmişik. Ən gözəl şəhərlərdən biri hesab olunan Bakı misilsiz memarlığı, park və bulvarları ilə tarixi irs və müasirliyin ahəngliyini özündə birləşdirir.

Azərbaycanın öz ərazilərini Ermənistanın 30 illik işğalından azad etməsi ilə nəticələnən 2020-ci il Vətən müharibəsindən sonra bizim üçün dayanıqlı şəhər inkişafı daha böyük dəyər kəsb edir. Ermənistan Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı şəhər və kəndləri qəsdən dağıdaraq, hər bir mədəni və dini abidəni talan edərək, həmin əraziləri urbisid və kultursidin bariz nümunəsinə çevirib. Bəlkə də İkinci dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi yer üzündən silinib. Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, əcnəbi mütəxəssislər onu «Qafqazın Hirosiması» adlandırıblar. Fü-

zuli şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan Ordusu orada bayrağımızı dalğalandırmağa bir dənə də olsun tikili tapa bilməyib.

Xarici diplomatlar, jurnalistlər və beynəlxalq QHT-lərin nümayəndələri azad edilmiş ərazilərə səfərləri zamanı bu vandalizmin şahidi olmuş və dağıntıların tam miqyasını sənədləşdirmişlər.

Ermənistanın 30 illik işğalına baxmayaraq, Azərbaycan müharibə səhifəsini çevirmək, münasibətləri normallaşdırmaq və bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi əsasında Ermənistanla sülh müqaviləsi imzalamaq istəyindədir. Azərbaycan sülh danışıqları üçün 5 əsas prinsip irəli sürüb və Ermənistan onları qəbul edib. İnanırıq ki, sülh müqaviləsi bölgəni sülh və əməkdaşlıq regionuna çevirə bilər.

Hazırda Azərbaycan müasir tarixin ən mürəkkəb və iddialı bərpa və yenidən qurulma işlərindən birini həyata keçirir. Yenidən qurulma prosesi minalardan təmizlənmə ilə başlanır. Kütləvi minalanma qarşımızda duran ən böyük çətinlikdir və bu, yenidən qurulma işlərini, məcburi köçkünlərin qayıdışını ləngidir. İlkin hesablamalara görə, işğal dövründə Ermənistan həmin ərazilərə 1 milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 220-dən artıq Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıbdır.

Azərbaycan azad edilmiş ərazilərdə müasir şəhər planlaşdırılmasını həyata keçirir, «yaşıl enerji» və «sıfır tullantı» konsepsiyalarını tətbiq edir.

Məcburi köçkünlərimiz 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkib və doğma yurdlarından məhrum ediliblər. Məcburi köçkünlərin qayıdışı üçün ilk pilot layihə Zəngilan rayonunun Ağalı kəndində reallaşdırılıb. Bu ilin may ayında Ağalı kəndinin ilk sakinləri doğma torpaqlarında məskunlaşmağa başlayıblar. Bu gün Ağalı «ağıllı kənd»i dünyanın ən müasir kəndlərindən biridir.

Azərbaycan işğaldan azad olunmuş Füzuli şəhərində 8 aydan az müddətdə hava limanı inşa edib. İşğaldan azad olunmuş Zəngilan və Laçın rayonlarında hazırda daha iki hava limanının tikintisi davam edir. Azad edilmiş bəzi şəhərlərin baş planları artıq hazırdır. Şuşa şəhərinin baş planı onun möhtəşəm tarixi irsinin qorunması üzərində qurulub. Qarabağ bölgəsinin sənaye mərkəzinə çevriləcək Ağdamda biz on minlərlə sakin üçün nəzərdə tutulmuş tamamilə yeni şəhər inşa edirik. Ərazisi 200 hektar təşkil edən Ağdam Sənaye Parkı artıq fəaliyyət göstərir, sərmayədarlara və sahibkarlara açıqdır.

Zəngilan şəhəri onun təbiətə inteqrasiyası və park şəhərinə çevrilməsi baxışı ilə inşa edilir. Ümumilikdə yenidən qurulma prosesində bizim hədəfimiz keyfiyyət və sürəti birləşdirməkdir. Bu prosesdə ətraf mühitin qorunması prioritetlərimiz sırasında olacaq. Məqsədimiz Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq inklüziv, təhlükəsiz, dözümlü və dayanıqlı şəhər və kəndlərin inşasıdır. Yeni şəhərlərdə, kəndlərdə yaşamaq və işləmək şəraiti vəhdət təşkil edəcək. Bütün bu işlər Azərbaycanın öz maliyyə resursları hesabına aparılır.

Hesab edirik ki, Azərbaycan tərəfindən belə iri miqyasda aparılan yenidən qurulma işləri azad edilmiş ərazilərimizi şəhər inkişafı sahəsində mükəmməllik laboratoriyasına çevirir. Azərbaycan bu sahədə nəhəng təcrübəsini beynəlxalq ictimaiyyətlə bölüşəcək. Bununla yanaşı, azad edilmiş ərazilərdə yenidən qurulma sahəsində ölkəmizlə həmrəylik və beynəlxalq dəstək bizim üçün mühüm əhəmiyyətə malikdir. Bu, Azərbaycanın öz nəcib fəaliyyətində tək olmadığı ilə bağlı inamımızı gücləndirəcək.

Biz artıq Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı və Avropa İttifaqı ilə birlikdə işğaldan azad olunmuş 3 rayonumuzda bərpa və yenidən qurulma ehtiyaclarının birgə dəyərləndirilməsini həyata keçirmişik. Bu ilin mart ayında Azərbaycana səfəri çərçivəsində BMT-nin Yaşayış Məskənləri Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə gələcək əməkdaşlığımızı müzakirə etmək imkanımız oldu. Xanım icraçı direktor azad olunmuş Ağdam şəhərinə səfər etdi və dağıntıların miqyasının şahidi oldu. Biz azad edilmiş ərazilərimizin yenidən qurulması sahəsində UN-HABITAT ilə daha sıx əməkdaşlıq etmək arzusundayıq və təşkilatın mütəxəssislərinin yenidən qurulma prosesinin iştirakçıları olmasını gözləyirik. Azərbaycan ilə UN-HABITAT arasında bu il Azərbaycanda, Ağdamda illik Milli Şəhər Forumunun təşkil olunması məsələsi də müzakirə edilir.

Çıxışımın sonunda böyük məmnuniyyətlə elan etmək istəyirəm ki, Azərbaycan Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə ev sahibliyi etmək arzusundadır və buna hazırdır. Əminəm

ki, yüksək səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübəyə malik ölkə olan Azərbaycanda Ümumdünya Şəhər Forumunun keçirilməsi uğurlu olacaqdır.

Forumun işinə uğurlar arzulayıram. Təşəkkür edirəm.

* * *

*BMT-nin Yaşayış Məskənləri Proqramı (UN-HABITAT) tərəfindən hər iki ildən bir sürətli urbanizasiyanın yaratdığı problemlərə həsr olunmuş Ümumdünya Şəhər Forumu keçirilir.*

*BMT-nin Yaşayış Məskənləri Proqramı 1976-cı ildə Kanadanın Vankuver şəhərində keçirilmiş «Yaşayış məskənləri və dayanıqlı şəhər inkişafı» üzrə birinci konfransın nəticəsi olaraq, 1978-ci ildə BMT qurumu kimi yaradılıb. Təşkilatın baş qərargahı Keniyanın paytaxtı Nayrobidə yerləşir. UN-HABITAT-ın icraçı direktoru malayziyalı xanım Maimuna Mohd Şərifdir. Xanım Maimuna Mohd Şərif 2022-ci ilin martında ölkəmizdə səfərdə olub, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilibdir. Səfər çərçivəsində icraçı direktor işğaldan azad edilmiş Ağdam şəhərində olubdur.*

*Xatırladaq ki, 1996-cı ildə İstanbulda keçirilmiş «Yaşayış məskənləri və dayanıqlı şəhər inkişafı»na dair II HABITAT konfransında «Məskunlaşma Gündəliyi» qəbul edilib. «Məskunlaşma Gündəliyi»nin əsas məqsədi hər kəs üçün adekvat sığınacaq və şəhərləşən dünyada dayanıqlı insan məskunlaşmasının inkişafından ibarət olubdur.*

*2016-cı ildə keçirilmiş III HABITAT konfransında «Yeni Şəhər Gündəliyi» adlı sənəd qəbul edilib. Gündəliyin əsas hədəfləri sırasında gecəqondularda yaşayan insanların həyat şəraitinin yaxşılaşdırılması, təmiz içməli su və sanitar şəraitin təmin edilməsi mühüm yer tutur.*

*UN-HABITAT 90-dan çox ölkədə müxtəlif sahələr üzrə layihələr həyata keçirir. Bu layihələr şəhər qanunvericiliyi, torpaq və idarəçilik, şəhər planlaşdırılması, şəhər iqtisadiyyatı, şəhərlərdə əsas xidmətlər, mənzil və gecəqondu şəraitinin yaxşılaşdırılması, risklərin azaldılması və reabilitasiya məsələlərini əhatə edir. UN-HABITAT donorların dəstəyi ilə dünyanın bir sıra ölkələrində münaqişələrdən sonrakı dövrdə bərpa-quruculuq işlərinə dəstək göstərir. 2009-cu ildə Şri-Lankadakı münaqişənin başa çatmasından sonra UN-HABITAT 31 min ailənin dağılmış evlərinin bərpasını və 420 min köçkünün həyat şəraitini yaxşılaşdıran infrastruktur layihələrini reallaşdırıb. Oxşar fəaliyyət 2019-cu ildə İraqda da həyata keçirilibdir.*

*Hazırda ölkəmizdə şəhərsalma mövzusunda illik əsasda konfransın keçirilməsi ilə bağlı Azərbaycan ilə UN-HABITAT arasında məsləhətləşmələr aparılır. İlk konfransın bu ilin payızında Ağdam şəhərində keçirilməsi nəzərdə tutulur.*

*Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə şəhərsalma prosesinə UN-HABITAT-ın ekspertinin cəlb olunması ilə bağlı danışıqlar aparılır.*

*Azərbaycan bu yaxınlarda təşkilata 1,5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi edibdir.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ TELEFONLA GÖRÜŞ

*28 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Gürcüstanın Baş Naziri İrakli Qaribaşviliyə telefonla zəng etmişdir.*

*Dövlət başçısı İrakli Qaribaşviliyə ad günü münasibətilə təbriklərini çatdırdı, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzuladı.*

*İrakli Qaribaşvili göstərilən diqqət və təbrikə görə dövlət başçımıza minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev və Baş Nazir İrakli Qaribaşvili ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKMƏNİSTANA SƏFƏR

*29 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Xəzəryanı dövlətlərin dövlət başçılarının VI Zirvə toplantısında iştirak etmək üçün Türkmənistana səfərə gəlmişdir.*

*Aşqabad Beynəlxalq Hava Limanında dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkmənistan Nazirlər Kabinetinin Sədr müavini və Xarici İşlər naziri Rəşid Meredov və digər rəsmi şəxslər qarşıladılar.*

## TÜRKMƏNİSTAN PARLAMENTİ XALQ MƏSLƏHƏTİNİN SƏDRİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*Aşqabad*

*29 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 29-da Aşqabadda Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədov ilə görüşü olmuşdur.*

*Xəzəryanı dövlətlərin dövlət başçılarının VI Zirvə toplantısına dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Qurbanqulu Berdıməhəmmədov 2002-ci ildə Aşqabadda keçirilmiş birinci sammitdə ulu öndər Heydər Əliyevin də iştirak etdiyini dərin ehtiramla yad etdi.*

*Xəzər dənizinin mehriban qonşuluq və sülh dənizi olduğunu qeyd edən Qurbanqulu Berdıməhəmmədov bu görüşün ümumi mənafelərimiz naminə Xəzərdə əməkdaşlığa yaxşı təkan verəcəyinə əminliyini bildirdi. Bakı sammitində mühüm məsələlərin müzakirə olunduğunu xatırladan Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın qəbul olunmasının əhəmiyyətini vurğuladı.*

*Bu il Azərbaycan ilə Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini deyən Qurbanqulu Berdıməhəmmədov ötən illər ərzində siyasi, iqtisadi-ticari və mədəni-humanitar sahələrdə böyük işlərin görüldüyünü vurğuladı. Türkmənistanın neytral statusunu daim dəstəklədiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Qurbanqulu Berdıməhəmmədov ölkəsinin Azərbaycan Prezidentinin beynəlxalq arenada qarşılıqlı hörmətə və etimada əsaslanan təşəbbüslərinə verdiyi daimi dəstəyi qeyd etdi, dövlətlərimizin birgə təşəbbüsləri ilə logistika və nəqliyyat-tranzit dəhlizlərinin qurulmasının önəmini, iqtisadi əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyini vurğuladı.*

*Türkmənistanın Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qəbul edilməsinə və fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən Qurbanqulu Berdıməhəmmədov parlamentlərarası əlaqələrin də uğurla inkişaf etdiyini, ölkəsinin «Qoşulmama Hərəkatı»nın Parlament Şəbəkəsinin Bakı konfransına geniş nümayəndə heyəti ilə qatıldığını diqqətə çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Qurbanqulu Berdıməhəmmədovu yubileyi münasibətilə təbrik etdi, qardaş Türkmənistanın inkişafı naminə bundan sonrakı fəaliyyətində də ona uğurlar arzuladı.*

*Dövlət başçımız Qurbanqulu Berdıməhəmmədovun rəhbərliyi illərində Türkmənistanın neytrallıq statusunu möhkəmləndirməklə yanaşı, müstəqil xarici siyasət yürüdərək, beynəlxalq arenada nüfuz qazandığını, sür-*

*ətlə inkişaf etdiyini, paytaxt Aşqabadın ildən-ilə gözəlləşdiyini bildirdi.*

*Ortaq söykökünə malik qardaş ölkəyə yenidən səfər etməkdən məmnunluğunu vurğulayan dövlət başçımız Türkmənistanın yeni Prezidenti Sərdar Berdıməhəmmədovun da ölkəni inkişaf və tərəqqi yolu ilə aparacağına əminliyini ifadə etdi.*

*İkitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev ölkələrimizin qarşılıqlı dəstəyini vurğuladı. Azərbaycan Prezidenti həm ikitərəfli, həm də çoxtərəfli formatda ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etdi, əsas məqsədin əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı siyasi fəaliyyəti daha da möhkəmləndirmək, mədəni əlaqələrin potensialını tam üzə çıxarmaq olduğunu söylədi.*

*Xəzər dənizindən keçməklə Türkmənistanla Azərbaycan arasında yük axınının artdığını vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bu həm ölkələrimizin, həm də qonşularımızın mənafelərinə uyğundur. Bu gün Xəzərdən keçən nəqliyyat marşrutu xüsusi əhəmiyyət kəsb edir. Həm Türkmənistanda, həm də Azərbaycanda müasir dəniz limanları inşa edilib, dəmir yolu infrastrukturuna böyük sərmayə qoyulubdur.*

*Zirvə toplantısının əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev ilk sammitin də 20 il əvvəl Türkmənistanın təşəbbüsü ilə keçirildiyini xatırlatdı. Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, VI Zirvə toplantısında qəbul ediləcək qərarlar Xəzərin potensialını tam reallaşdırmağa, onu sülh, təhlükəsizlik, əməkdaşlıq və ekoloji cəhətdən təmiz zona kimi qoruyub saxlamağa imkan verəcəkdir.*

## TÜRKMƏNİSTAN PREZİDENTİ SƏRDAR BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*Aşqabad*

*29 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 29-da Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədov ilə görüşü olmuşdur.*

*Dövlət başçımızı Aşqabadda salamlamaqdan məmnunluğunu bildirən Prezident Sərdar Berdıməhəmmədov Zirvə toplantısına dəvəti qəbul edib iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. İlk sammitin 2002-ci ildə Aşqabadda keçirildiyini xatırladan Türkmənistan Prezidenti həmin tədbirdə uzunmüddətli perspektiv üçün əməkdaşlığın əsasının qoyulduğunu vurğuladı. Sərdar Berdıməhəmmədov 2018-ci ildə Xəzərin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasına toxundu, Xəzər dənizində nəqliyyat, gəmiçilik, sülhün və ekoloji təhlükəsizliyin qorunması, balıqçılıq, fövqəladə hallar barədə xəbərdarlıq və onların qarşısının alınması sahələrində əməkdaşlıq barədə bir çox müqavilə üzrə işin aparıldığını qeyd etdi. Xəzər dənizinin ümumi sərvət olduğunu vurğulayan Türkmənistanın dövlət başçısı regionda səmərəli qarşılıqlı fəaliyyətin inkişafına verdiyi şəxsi*

*töhfəsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dəvətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev ilk növbədə, Sərdar Berdıməhəmmədovu Türkmənistan Prezidenti vəzifəsinə seçilməsi münasibətilə şəxsən təbrik etdi, fəaliyyətində uğurlar arzuladı. Azərbaycan Prezidenti bununla bağlı Sərdar Berdıməhəmmədova məktub ünvanladığını və telefonla təbrik etdiyini məmnunluqla xatırlatdı.*

*Dövlət başçımız son vaxtlar Türkmənistanda əldə olunmuş davamlı inkişafın Sərdar Berdıməhəmmədovun rəhbərliyi ilə də davam etdiriləcəyinə əminliyini bildirdi.*

*Zirvə toplantısının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev 20 il əvvəl Xəzəryanı dövlətlərin sammitinin keçirilməsi təşəbbüskarının Türkmənistan olduğunu qeyd etdi və həmin sammitin Xəzərdə geniş və çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu, Konvensiyanın imzalanmasının önəmini vurğuladı.*

*Türkmənistanın Xəzər dənizində və Xəzəryanı dövlətlər arasında əməkdaşlığa töhfəsini yüksək qiymətləndirən Azərbaycan Prezidenti bugünkü Zirvə toplantısının təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmləndirilməsi işində daha bir addım olacağına əminliyini bildirdi. Xəzərin əsrlərboyu qonşu kimi yaşamış xalqlarımızı birləşdirən dəniz olduğunu qeyd edən Prezident İlham Əliyev regionumuzda gələcək təhlükəsiz inkişafın təmin ediləcəyinə əminliyini bildirdi, bu işdə Xəzəryanı dövlətlərin böyük rolunu vurğuladı.*

*İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini söyləyən dövlət başçımız bildirdi ki, biz bu əlaqə-*

*ləri yüksək qiymətləndiririk. Prezident İlham Əliyev gələcəkdə dövlətlərarası əlaqələrimizin səviyyəsini daha yüksəyə qaldırmaq üçün Prezident Sərdar Berdıməhəmmədov ilə ikitərəfli formatda da fəal işin aparılacağına əminliyini ifadə etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİ İLƏ GÖRÜŞ

*Aşqabad*

*29 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşmüşdür.*

**İlham Əliyev:** Sizi görməyimə çox şadam. Keçən dəfə də burada – Türkmənistanda görüşmüşdük, bu dəfə də. Keçən görüşdən sonra münasibətlərimizə çox gözəl təkan verildi və əlaqələrimiz daha da sürətlə inkişaf etməyə başladı. Hökumət üzvlərinin qarşılıqlı səfərləri təşkil edildi. Bir sıra məsələlərlə bağlı çox yaxşı irəliləyiş var, xüsusilə nəqliyyat, energetika və digər sahələrdə. Əminəm ki, bugünkü görüşdən sonra da əlaqələrimizin inkişafına növbəti təkan veriləcək və qardaş xalqlarımızın birgə gələcəyi təmin ediləcək. Xalqlarımızın ortaq tarixi münasibətlərimiz üçün çox gözəl təməldir.

**Seyid İbrahim Rəisi:** Mehriban və bağışlayan Allahın adı ilə. Mən də Sizinlə görüşməkdən çox məmnunam. Düşünürəm, Xəzər dənizi ilə bağlı önəmli məsələlərdən biri də budur ki, Xəzəryanı öl-

kələrin dövlət başçıları mütəmadi olaraq görüşürlər. Əlbəttə, zati-alinizin Tehrana səfər etmək, mənim də Bakıya səfər etmək kimi planlarımız vardır. Lakin bizim belə platformalardan istifadə edib görüş keçirməyimiz də münasibətlərimizin inkişafına kömək edir. İki ölkə arasında münasibətlərin potensialı hazırda mövcud olandan daha çoxdur. Hesab edirəm ki, biz münasibətlərimizdə olan bir çox potensialdan tam istifadə edə bilməmişik. Düşünürəm ki, iki ölkə arasındakı siyasi, iqtisadi münasibətlər, ticarət, mədəniyyət əlaqələri mövcud olan vəziyyətdən daha çox inkişaf etdirilə bilər.

## XƏZƏRYANI DÖVLƏTLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Aşqabad*

*29 iyun 2022-ci il*

*Xəzəryanı dövlətlərin dövlət başçılarının VI Zirvə toplantısı iyunun 29-da Aşqabadda keçirilmişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədov qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Sonra dövlət başçılarının məhdud tərkibdə görüşü oldu.*

*Daha sonra Zirvə toplantısı çərçivəsində geniş tərkibdə görüş keçirildi.*

*Zirvə toplantısını açan Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədov çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Sərdar Qurbanquluyeviç!

Hörmətli dövlət başçıları!

Hörmətli sammit iştirakçıları!

İlk növbədə, bizə göstərilmiş qonaqpərvərliyə və VI Xəzər Sammitinin yüksək səviyyədə təşkilinə görə Sərdar Qurbanquluyeviç Berdıməhəmmədova təşəkkürümü bildirirəm.

Bizim görüşümüz Türkmənistanın sabiq Prezidenti, mənim əziz dostum və qardaşım, Türkmənistan Parlamentinin Xalq Məsləhətinin sədri Qurbanqulu Məlikqulıyeviç Berdıməhəmmədovun yubileyi ilə eyni vaxta düşür. Qardaş Türkmənistan onun rəhbərliyi ilə müstəqilliyin möhkəmləndirilməsində, beynəlxalq arenada nüfuzunun artmasında, xalqın rifahının yüksəlməsində və iqtisadi inkişafda sanballı uğurlar qazanıb. Qurbanqulu Məlikqulıyeviçi şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm, ona möhkəm cansağlığı, qardaş Türkmənistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Sərdar Qurbanquluyeviç, fürsətdən istifadə edib Sizi Türkmənistan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə bir daha təbrik edirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə Türkmənistan yeni uğurlar qazanacaq. Azərbaycan ölkələrimizin Xəzərdə qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verir. Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya tarixi əhəmiyyət kəsb edir. Çoxillik iş nəticəsində imzalanmış bu sənəd Xəzərin hüquqi statusunu müəyyən edib. Konvensiyanın tez-

liklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq. Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanılması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə sazişlər imzalanıb və qüvvəyə minib. Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində iş başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək. Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər də bağlanılıb. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

Qeyd etməyə şadam ki, bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Xəzər dənizi bizim region xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşı-

laşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetləri olaraq qalır. Nəqliyyat infrastrukturunun inkişafı, nəqliyyat xidmətlərinin və multimodal daşımaların keyfiyyətinin yaxşılaşdırılması əməkdaşlığın mühüm istiqamətidir. Nəqliyyat sahəsində Xəzəryanı dövlətlər arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələr Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaradır.

Bu gün Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biridir. Ölkəmiz Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır. Biz Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsinə səy göstəririk. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və nəqliyyat infrastrukturunun inkişafına dair yeni layihələrin həyata keçirilməsinə şərait yaradacaqdır.

Biz Şərq–Qərb və Şimal–Cənub marşrutları üzrə Azərbaycan ərazisindən keçməklə yükdaşımaların hər il artmasını müşahidə edirik. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gələn tranzit yüklərin həcmi artır. Bu limanın tikilməsi və istifadəyə verilməsi Xəzərdə nəqliyyat-logistika infrastrukturunun inkişafı işinə Azərbaycanın daha bir mühüm töhfəsi oldu. Bu il Azərbaycanda Şimal–Cənub beynəlxalq

nəqliyyat dəhlizinin koordinasiya Şurasının VIII görüşünün keçirilməsi də planlaşdırılır.

Azərbaycan Vətən müharibəsində Qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb. Zəngəzur dəhlizi artıq reallığa çevrilir.

Biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik. Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanılması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir. Bu ilin sonunda Bakıda «Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında» Çərçivə Konvensiyası tərəflərinin VI konfransının keçirilməsi nəzərdə tutulub. Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər.

Sonda icazə verin, sammitin səmərəli təşkilinə görə Türkmənistan tərəfinə bir daha təşəkkürümü bildirim. Əminəm ki, bu sammit Xəzəryanı dövlətlərin qarşısında duran mühüm ümumi məsələlərin həllinə yönəlmiş səylərin birləşdirilməsinə şərait yaradacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sərdar Berdıməhəmmədov:** İlham Heydər oğlu, dərin məzmunlu çıxışınıza və təbriklərinizə görə Sizə təşəkkür edirəm.

* * *

*Zirvə toplantısında çıxış edən İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sammitin əhəmiyyətini vurğuladılar.*

# XƏZƏRYANI DÖVLƏTLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Aşqabad*

*29 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Aşqabadda Xəzəryanı dövlətlərin dövlət başçılarının VI Zirvə toplantısı iştirakçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Aşqabad*

*29 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 29-da Aşqabadda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.*

*VI Xəzər Sammiti çərçivəsində Prezident İlham Əliyev ilə görüşməkdən məmnunluğunu ifadə edən Prezident Vladimir Putin dövlət başçımızın Rusiyaya səfərini xatırlatdı, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsinin önəmini bildirdi. Əlaqələrimizin genişləndiyini və hazırkı səviyyəsinin çox yaxşı olduğunu qeyd edən Rusiyanın dövlət başçısı razılaşdırılmış bütün məsələlərin icra edildiyini vurğuladı. Prezident Vladimir Putin diqqətə çatdırdı ki, ticarət dövriyyəsi artır. Bu artım keçən il 16 faizdən çox, bu ilin üç ayının nəticələrinə görə isə 5,5 faiz təşkil edib. Beləliklə, ticarət dövriyyəsinin inamlı artımı müşahidə olunur.*

*Siyasi əlaqələrimizə toxunan Prezident Vladimir Putin Rusiyanın Xarici İşlər nazirinin Bakıya səfərini xatırlatdı, Rusiya hökuməti Sədrinin və Dövlət*

*Duması Sədrinin də Bakıya səfərlərinin planlaşdırıldığını qeyd etdi. Rusiyanın dövlət başçısı bildirdi ki, ən əsas 2024-cü ilə qədər Rusiya–Azərbaycan birgə əməkdaşlıq planının reallaşdırılmasıdır. Beləliklə, bütün sahələrdə inkişaf vardır.*

*Prezident Vladimir Putin qeyd etdi ki, regional təhlükəsizlik, o cümlədən Qarabağ məsələsinin nizamlanması barədə də Azərbaycanın dövlət başçısı ilə müzakirə aparılıb və bu görüş də həmin mövzunun nəzərdən keçirilməsi üçün imkan yaradır.*

*Nahar vaxtı qeyri-rəsmi təmas zamanı Prezident İlham Əliyevin ifadə etdiyi fikirləri xatırladan Rusiyanın dövlət başçısı sammitin işgüzar keçdiyini, regional əməkdaşlığın inkişafına dair maraqlı təkliflərin irəli sürüldüyünü qeyd etdi. Dövlət başçımız ilə görüşün faydalı olduğunu bildirən Prezident Vladimir Putin aparılan müzakirələrin ikitərəfli münasibətlərimizin inkişafına əlavə təkan verəcəyini vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Rusiya Prezidenti ilə görüşdən məmnunluğunu ifadə etdi və bildirdi ki, Prezident Vladimir Putin ilə keçirilən görüşlər həmişə əlaqələrimiz üçün çox önəmli olub. Dövlət başçımız bu görüşün də ölkələrimiz arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.*

*Azərbaycan Prezidenti ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasından, eyni zamanda, sənaye kooperasiyası, nəqliyyat və energetika sahələrində əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu ifadə etdi. Dövlət başçımız bu görüşün regional məsə-*

*lələrin müzakirəsi üçün də yaxşı imkanlar yaratdığını nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev əlaqələrimizin inkişafı baxımından bu yaxınlarda Rusiyanın Xarici İşlər nazirinin Azərbaycana səfərinin önəmini qeyd etdi və ikitərəfli münasibətlərimizin ölkələrimiz və xalqlarımız naminə bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

*Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana səfəri iyunun 29-da başa çatdı.*

## «QOŞULMAMA HƏRƏKATI» PARLAMENT ŞƏBƏKƏSİNİN «DÜNYADA SÜLHÜN VƏ DAYANIQLI İNKİŞAFIN TƏŞVİQİNDƏ MİLLİ PARLAMENTLƏRİN ROLUNUN GÜCLƏNDİRİLMƏSİ» MÖVZUSUNA HƏSR OLUNMUŞ BAKI KONFRANSINDA İŞTİRAK

*30 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Heydər Əliyev Mərkəzində keçirilmiş «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin «Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi» mövzusuna həsr olunmuş konfransında iştirak etmişdir.*

*Dövlət başçısı konfransda çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Sizin hamınızı görməyə çox şadam. Ümidvaram ki, şəhərimizdə yaxşı vaxt keçirəcəksiniz.

Bu gün «Qoşulmama Hərəkatı»nın tarixində vacib bir tədbir keçirilir. Burada – Bakıda biz «Qoşulmama Hərəkatı»nın Parlament Şəbəkəsini yaradırıq. Həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu

təşəbbüsünü dəstəklədiyinə görə «Qoşulmama Hərəkatı»na üzv olan dövlətlərə minnətdarlığımı bildirirəm. Azərbaycan parlamentinin 8 il ərzində sabiq bir üzvü olaraq, sizin sabiq həmkarınız olaraq, mən parlament diplomatiyasının və parlamentlərarası münasibətlərin necə əhəmiyyət kəsb etdiyini yaxşı bilirəm. Əminəm ki, parlament şəbəkəmiz təkcə ölkələrimiz arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda, dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaqdır.

«Qoşulmama Hərəkatı» Birləşmiş Millətlər Təşkilatından sonra ikinci ən böyük beynəlxalq təsisatdır və biz hamımız səsimizin dünya miqyasında eşidilməsini istəyirik. Parlament şəbəkəsi bizim təkcə irəli sürdüyümüz və dəstəyinizi qazandığımız yeganə təşəbbüs deyil. Digər vacib bir təşəbbüs gənclər şəbəkəsidir. Növbəti ay burada, Bakıda başqa önəmli bir tədbir, «Qoşulmama Hərəkatı»nın Gənclər Sammiti keçiriləcəkdir. Onlar «Qoşulmama Hərəkatı»nın institusional inkişafı üçün atılmış addımlardır və hesab edirəm ki, bu istiqamətdə praktiki addımların atılması üçün vaxt yetişib. Azərbaycanın irəli sürdüyü və üzv dövlətlər tərəfindən dəstəklənmiş digər bir təşəbbüs Nyu Yorkda «Qoşulmama Hərəkatı»nın Dəstək Ofisinin yaradılmasıdır. Hesab edirəm ki, indi institusional inkişaf istiqamətində daha çox addımların atılması üçün düzgün vaxtdır və bu da öz növbəsində, bizə beynəlxalq arenada maraqlarımızı qorumağa və ölkələrimiz arasında həmrəyliyin gücləndirilməsinə kömək edəcəkdir.

Azərbaycan «Qoşulmama Hərəkatı»nın nisbətən yeni üzvüdür. Biz «Qoşulmama Hərəkatı» ailəsinə 2011-ci ildə qoşulmuşuq və fəaliyyətimizin ilk günlərindən bəri həmrəylik, qarşılıqlı dəstək və Bandunq prinsiplərinin təşviqinə töhfəmizi verməyə çalışmışıq. Biz Bandunq prinsipləri ilə tamamilə razıyıq və bu prinsipləri ölkələr arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün yeganə əsas kimi qəbul edirik. Ərazi bütövlüyü, suverenlik, müstəqillik, bir-birinin işlərinə müdaxilə etməmək – bu prinsiplər bütün ölkələr tərəfindən qorunub saxlanılsaydı, heç bir müharibə, münaqişə və ədalətsizlik olmazdı. Fəaliyyətimizin ilk günlərindən Azərbaycan «Qoşulmama Hərəkatı»nın bütün təşəbbüslərinə çox fəal cəlb olunub. Hesab edirəm ki, «Qoşulmama Hərəkatı»na sədrlik etmək üçün Azərbaycanın namizədliyinin yekdil şəkildə dəstəklənməsinin də əsas səbəbi bu idi. 120 ölkənin bu möhtəşəm yekdil dəstəyi 2016-cı ildə nümayiş etdirilmiş və 2019-cu ildə Bakıda biz «Qoşulmama Hərəkatı»nın Zirvə toplantısını təşkil edərək, müvəffəqiyyətlə keçirdik və 2019–2022-ci ilə qədər sədrliyi üzərimizə götürdük. «Qoşulmama Hərəkatı»na sədrliyimizin yenə də 120 ölkənin yekdil qərarı ilə 2023-cü ilin axırına kimi uzadılmasını ölkəmizə böyük bir hörmət və fəaliyyətimizin qiymətləndirilməsi əlaməti kimi qəbul edirik. Biz buna görə sizə çox minnətdarıq, sizin dəstəyinizi doğrultmaq və bunun düzgün seçim olduğunu nümayiş etdirmək üçün əlimizdən gələni edəcəyik.

«Qoşulmama Hərəkatı»nda sədrliyimiz COVID-19 ilə üst-üstə düşdü və Azərbaycan beynəlxalq arenada

bu xəstəliklə mübarizədə öz rolunu fəal oynayan ölkələrdən biri idi. Biz «Qoşulmama Hərəkatı»nın onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsü ilə çıxış etdik, onu 2020-ci ilin may ayında keçirdik və bu, pandemiyaya qarşı mübarizə ilə bağlı yaxşılaşmada səylərimizin «Qoşulmama Hərəkatı»na üzv dövlətlər tərəfindən səfərbər edilməsi üçün ilkin addımlardan biri idi. Bunun nəticəsində biz 2020-ci ilin dekabr ayında uğurla keçirilmiş, COVID-19 ilə mübarizəyə həsr edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı üzv dövlətlər tərəfindən dəstəklənmiş təşəbbüsü irəli sürdük. Bizim səylərimiz təkcə həmrəyliyin gücləndirilməsi və dəstəyin təmin edilməsinə yönəlməmişdir, eyni zamanda, ölkələrə dəstək, tibbi və humanitar yardımla bağlı bizim məlumat bazamızdan istifadə etməyə başlamış Ümumdünya Səhiyyə Təşkilatı üçün də faydalı oldu.

Beləliklə, üzv dövlətlərdə yaratdığımız məlumat bazası bu pandemiya ilə və gələcəkdə baş qaldıra biləcək istənilən digər xəstəliklə mübarizədə çox faydalı idi və faydalı olmağa davam edir. Biz 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı təmin etmişik. Həmçinin biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində ianə etmişik və bu vəsaitin yarısı «Qoşulmama Hərəkatı»nın üzv dövlətlərinə birbaşa ayrılıbdır. Beləliklə, COVID-19 ilə mübarizəyə yanaşmamızla bağlı səylərimiz zənnimcə çox mühüm qlobal təsirə malik olubdur. Çünki biz «peyvənd millətçiliyi»nə qarşı açıq şəkildə etirazını bildirən ölkələrdən biri idik. Hamımızın xatirindədir ki, pandemiyanın ilk aylarında bəzi zəngin ölkə-

lər onlara lazım olduğundan bəlkə də 3-4 dəfə çox peyvəndləri tədarük edir və bununla da digər ölkələri peyvəndlərə çıxışdan məhrum edirdi. Biz hamımız o ölkələrin çıxılmaz vəziyyətdə olduğu bir vaxtda zəngin ölkələrin peyvəndlərin mütləq əksəriyyətindən istifadə etdiyinin şahidi olduq. Buna görə də bizim «peyvənd millətçiliyi»nə qarşı mübarizəmiz Birləşmiş Millətlər Təşkilatı tərəfindən də dəstəkləndi. Hesab edirəm ki, bu da vaksinlərin ədalətli paylanılmasına mühüm təsir göstərdi. Başqa sözlə, Azərbaycan həmişə regional mövzular və qlobal məsələlərlə bağlı öz mövqeyini nümayiş etdirir və «Qoşulmama Hərəkatı»nın sədri olaraq, biz ədalətsizliyə, beynəlxalq hüququn pozulmasına, müxtəlif münaqişələrə qarşı sərgilənən selektiv yanaşmaya və ayrıseçkiliyə qarşı mübarizə aparmağa davam edəcəyik. Biz həmçinin «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin böyük dəstəyinin də şahidi olduq. Qeyd etdiyim kimi, «Qoşulmama Hərəkatı»na sədrliyin verilməsi və sonra da onun vaxtının uzadılması ilə bağlı yekdil qərar ölkələrin Azərbaycana olan münasibətini aydın nümayiş etdirirdi. Şahidi olduğumuz digər vacib bir həmrəylik əlaməti Ermənistan tərəfindən təqribən 30 illik işğaldan sonra torpaqlarımızın azad edilməsi zamanı ölkəmizin yaşadığı ən çətin dövrə təsadüf etdi. Biz öz torpağımızda savaşırdıq, biz ədaləti bərpa edirdik, beynəlxalq hüququ bərpa edirdik. Lakin əfsuslar olsun ki, bəzi ölkələr bizə qarşı kampaniyaya – qarayaxma, böhtan və şantaj kampaniyasına başladı.

Təəssüflər olsun ki, bu sadəcə, şifahi kampaniya və ya ictimai ittihamlar deyildi. Bəzi ölkələr bizim bu haqq işimizi BMT, onun Təhlükəsizlik Şurası səviyyəsinə çıxarmağa cəhd etdi. Lakin həmin vaxt Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan, «Qoşulmama Hərəkatı»nda təmsil olunan dostlarımız anti-Azərbaycan mahiyyətli bəyanatı blokladılar. Azərbaycana qarşı ittihamı blokladılar və bununla da ermənipərəst qlobal qüvvələrin Azərbaycana qarşı hücumuna mane oldular. Biz bu həmrəyliyə görə sizə minnətdarıq.

Bir daha qeyd etmək istəyirəm ki, biz ədaləti bərpa edirdik. Azərbaycan dünyada ən böyük ədalətsizliklə üzləşmiş ölkələrdən biri idi. Ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi etnik təmizləmə ilə nəticələndi. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Bizim tarixi və dini irsimiz erməni işğalçıları tərəfindən yer üzündən silinib. Bu gün azad olunmuş ərazilərə səfər edənlər bu barbarlığın və vandalizmin şahidi olurlar. Məscidlərimizin təhqiri, mədəni və dini abidələrimizin dağıdılması – bunlar faktlardır və bunu heç kəs görməzdən gələ bilməz. Ermənipərəst qüvvələr nə qədər bunu görməməyə çalışsalar da, buna müvəffəq ola bilmirlər. Çünki artıq minlərlə, bəlkə də on minlərlə insan, o cümlədən xarici qonaqlar, siyasətçilər, parlament sədrləri və üzvləri, jurnalistlər, ekspertlər və sıravi insanlar azad edilmiş ərazilərə səfər ediblər.

Biz bu münaqişəyə son qoyduq, ədalət və beynəlxalq hüququ bərpa etdik. 2019-cu ildə Bakıda

«Qoşulmama Hərəkatı»nın Zirvə toplantısındakı çıxışımda qeyd etmişdim ki, biz ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Biz bunları bərpa edə bilməməyin, başqalarından asılı olmağın nə olduğunu yaxşı bilirdik. Biz uzun illər, təqribən 30 il ərzində bunu gözləyirdik. Gözləyirdik ki, beynəlxalq ictimaiyyət ədalətsizliyə və işğala son qoyulmasına yardım edəcək. Bu məqsədlə ATƏT 1992-ci ildə Minsk qrupunu təsis etdi və o bu münaqişənin həll yolunu tapmalı idi. Yəni işğala son qoyulmalı idi. Əksinə, Minsk qrupu bu münaqişənin əbədi olmasını istəyənlərin əlində alətə çevrildi.

Bu gün Azərbaycanın münaqişəni həll etməsindən, işğala son qoymasından, özünün ərazi bütövlüyünü hərbi-siyasi yollarla bərpa etməsindən sonra Minsk qrupuna ehtiyac yoxdur. Biz Minsk qrupuna artıq əlvida demişik. Təəssüflər olsun ki, Ermənistan və digərləri onu həyata qaytarmağa çalışır. Lakin bu mümkünsüzdür. O, artıq ölüb. İşğaldan əziyyət çəkmiş ölkə kimi, biz bunu açıq şəkildə bəyan edirik. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, hətta regionda mümkün sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir.

2020-ci il noyabrın 10-da 44 gün sürən Vətən müharibəsi nəticəsində Ermənistan kapitulyasiya etməyə və məğlubiyyətini etiraf etməyə məcbur oldu. Daha sonra döyüş meydanında azad edilməmiş digər rayonlardan çıxmağa məcbur edildi. Bunu etməyə bizə sadəcə, 44 gün kifayət etdi. Ancaq biz bunu 30 ilə yaxın gözlədik. İşğal illəri dövründə, müxtəlif bey-

nəlxalq tədbirlərdə çıxış edərkən mən Ermənistana qarşı sanksiyaların tətbiqinə çağırırdım. Deyirdim ki, bu problemin dinc həllinin yeganə yolu Ermənistana qarşı sanksiyaların tətbiqidir. O sanksiyalar ki, səmərəli olacaq və onların iqtisadiyyatına sarsıdıcı təsir göstərəcək. Əfsuslar olsun ki, heç bir sanksiya tətbiq edilmədi və əksinə, Ermənistan Azərbaycanla müqayisədə bəzi ermənipərəst siyasətçilərdən getdikcə daha çox dəstək alırdı. Gördüyümüz kimi, Minsk qrupunun fəaliyyətinin yeganə məqsədi münaqişəni dondurmaq və torpaqlarımızı əbədi işğal altında saxlamaqdan ibarət idi. Biz həmin siyasətə son qoyduq, güc və siyasi müdriklik sayəsində torpaqlarımızı azad etdik. Deyə bilərəm ki, Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı vəziyyət təkcə regional deyil, qlobal məsələdir. Çünki bu, təkcə beynəlxalq hüququn təməl prinsiplərinin tam pozulması deyil, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kobud pozulması və onlara məhəl qoyulmaması halı idi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni qoşunlarının bizim ərazimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Sual olunur ki, niyə bu qətnamələr icra edilmədi? Buna cavab verə bilən yoxdur və ya cavab vermək istəmir. Növbəti sual ondan ibarətdir ki, niyə BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün içərisində icra olunur, bizə gəldikdə onlar 28 il ərzində kağız üzərində qalır? Əgər cəsur azərbaycanlı hərbçilər torpaqlarımızı azad etməsə idi həmin qətnamələr daha 28 il ərzində kağız üzərində qalacaqdı.

Bu, BMT və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirir. Çünki qətnamələr icra edilmirsə, onları qəbul etməyin nə mənası var?! Biz islahatların tərəfdarıyıq və hesab edirəm ki, bu, «Qoşulmama Hərəkatı»nın dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmalıdır.

Hər kəsə məlumdur ki, «Qoşulmama Hərəkatı» dünyada BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır. Hesab edirəm ki, biz səylərimizi səfərbər edərək, potensialı və həmrəyliyi gücləndirməli, vahid mövqedən çıxış etməliyik. Bilirəm ki, bəzi üzvlər arasında müəyyən problemlər vardır. Düşünürəm ki, «Qoşulmama Hərəkatı» həmin problemlərin həll yolunu tapmaq üçün platforma ola bilər. Həmçinin ölkələrimizin maraqlarının müdafiəsi üçün platforma rolunu oynaya bilər. Çünki «Qoşulmama Hərəkatı»nın bir çox üzvü oxşar tarix və problemlərə malikdir. Bir çox hallarda ədalətsizliklə üzləşib və öz milli maraqlarını müdafiə etməyə çalışır. Biz bunu birlikdə və daha səmərəli edə bilərik. Biz bunun tərəfdarıyıq. Beləliklə, Azərbaycanın «Qoşulmama Hərəkatı»nın sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də müəyyən mərhələdə onun təşkilata çevrilməsinə yönəlibdir. Bilirəm ki, «Qoşulmama Hərəkatı»nın tarixində bununla bağlı müzakirələr olub və bəlkə də bu müzakirələri yenidən başlamağın vaxtı çatıb. Çünki

bu gün biz dünyada qlobal qütbləşmənin, müharibənin, münaqişənin, proqnozlaşdırıla bilinməyən vəziyyətin, ərzaq, enerji və humanitar böhranların şahidi oluruq. Hesab edirəm ki, «Qoşulmama Hərəkatı» təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycan olaraq, biz bunu görmək arzusundayıq və ümid edirəm ki, bizim hörmətli qonaqlarımız, «Qoşulmama Hərəkatı»na üzv ölkələrin parlament nümayəndələri bu işə töhfə verəcək və əlbəttə ki, mən də «Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçıları ilə məsləhətləşmələrimi davam etdirəcəyəm.

Əziz dostlar, bizimlə olduğunuza görə sizə təşəkkür edirəm. Ənənəvi Azərbaycan qonaqpərvərliyini göstərmək üçün əlimizdən gələni edəcəyik. Ümid edirəm ki, bu konfrans təkcə çox məhsuldar deyil, həm də ünsiyyət və sıx təmasların qurulması baxımından da yaxşı fürsət olacaqdır. Nəticədə həmrəylik, qarşılıqlı dəstək və təsisatlarımızın gücləndirilməsində tərəqqinin şahidi olacağıq. Sağ olun.

* * *

**Sahibə Qafarova**(*Milli Məclisin Sədri*): Zati-aliləri cənab Prezident, icazənizlə, sessiyanı açıram.

Zati-aliləri cənab Prezident!

Möhtərəm parlamentarilər!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün sizin hamınızı «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin Bakı konfransında salamlamaqdan məmnunluq və şərəf duyuram.

Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu gün bizimlə birlikdə olması bizim üçün şərəfdir. Bütün iştirakçılar adından zati-aliləri cənab Prezidentə «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin yaradılması üçün nəcib təşəbbüsünə görə dərin minnətdarlığımı bildirmək istərdim.

Cənab Prezidentin bu gün Bakı konfransına ünvanladığı ilhamverici müraciəti onun «Qoşulmama Hərəkatı»nın sədri qismində üzvlər arasında çoxşaxəli əməkdaşlıq vasitəsilə Hərəkat daxilində birliyin gücləndirilməsinə möhkəm sadiqliyinin sübutudur.

Hörmətli iştirakçılar, «Qoşulmama Hərəkatı»nın Bakıda keçirilmiş 18-ci sammitində dövlət və hökumət başçıları «Qoşulmama Hərəkatı»nın parlamentariləri arasında qarşılıqlı fəaliyyəti, əməkdaşlığı genişləndirməyi və dərinləşdirməyi qərara aldılar. Ötən ilin noyabrında Madriddə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsünə uyğun olaraq biz Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində «Qoşulmama Hərəkatı»nın Parlament Şəbəkəsini təsis etdik. Bu gün Bakı konfransında «Qoşulmama Hərəkatı»nın üzvü olan 40-dan çox ölkənin parlamenti və 8 beynəlxalq parlament təşkilatı təmsil olunur. Biz bunu üzv dövlətlərin parlamentlərarası əməkdaşlığa verdiyi əhəmiyyətin əyani göstəricisi hesab edirik. Konfrans, həmçinin şəbəkənin qlobal par-

lament diplomatiyasında gələcək fəal iştirakına dair ümidlərimizi və inamımızı artırır.

Hörmətli iştirakçılar, Bakı konfransı həqiqətən də əlamətdar hadisə olacaq. Biz tədbirin gedişatında «Qoşulmama Hərəkatı»nın parlament şəbəkəsinin fəaliyyət metodlarına dair nizamnamə, eləcə də şəbəkənin rəsmi loqosu və bayrağını qəbul etməyə hazırlaşırıq. Biz həmçinin qarşıdakı 3 il müddətinə şəbəkənin sədrini və sədr müavinlərini seçməyə hazırlaşırıq. Bakı konfransının daha bir əlamətdar xüsusiyyəti ondan ibarətdir ki, o, Azərbaycan tərəfinin təşəbbüsü ilə iyunun 30-una – Beynəlxalq Parlamentarizm Gününə təsadüf edir.

Əziz dostlar, fürsətdən istifadə edərək, mən bu əlamətdar hadisə münasibətilə sizin hər birinizi təbrik edirəm. Mən həmçinin ümidvar olduğumu bildirirəm ki, «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin konfransı öz fəaliyyəti vasitəsilə qlobal miqyasda parlamentlərarası əməkdaşlığa töhfəsini verəcəkdir.

Xanımlar və cənablar, biz pandemiyanın mənfi təsirləri, eləcə də postpandemiya dövründə qlobal miqyasda dirçəliş istiqamətində «Qoşulmama Hərəkatı»nın və Azərbaycanın sədrliyinin təşəbbüslərindən xəbərdarıq. «Qoşulmama Hərəkatı» parlamentlərinin bu təşəbbüslərə kollektiv dəstəyi Madrid Bəyannaməsində öz əksini tapıb və bizim bu gün qəbul etməyə razılaşdığımız Bakı Bəyannaməsində bir daha təkrarlanacaqdır.

*Daha sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, davam edən pandemiya, silahlı münaqi-*

*şələr, iqlim dəyişikliyi və bir çox başqa çağırışları nəzərə alaraq, bu gün dünyamız elə bir nəhəng transformasiya dövrünü yaşayır ki, qlobal təhlükəsizlik və inkişaf strukturu çox güclü və çox ciddi dəyişikliklərə məruz qalır. Sülh, təhlükəsizlik və dayanıqlı inkişafın qorunub saxlanılmasında «Qoşulmama Hərəkatı»nın təməl ideallarının və rolunun davamlı əhəmiyyəti bir daha vurğulandı.*

*Parlament diplomatiyasından danışan Sahibə Qafarova hazırkı beynəlxalq mürəkkəbliklər kontekstində, çoxtərəflilik və beynəlxalq əməkdaşlığın indi hər zamankından daha vacib olduğu bir vaxtda bu diplomatiyanın böyük əhəmiyyət kəsb etdiyini bildirdi. «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin üzv ölkələrin əhalisi arasında Hərəkatın dəyərlərinin inkişafı ilə bağlı məlumatlılığın artırılmasına kömək edəcəyinə, həmçinin üzv ölkələri narahat edən məsələlərlə məşğul olmağa parlamentarilərə kömək göstərəcəyinə əminlik ifadə olundu. Vurğulandı ki, Azərbaycan tərəfi «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin bütün üzv dövlətlərin maraqlarına uyğun qurulmasını təmin etmək üçün mövcud mexanizm və resurslardan istifadə edib.*

*Sonda Bakı Bəyannaməsi və «Qoşulmama Hərəkatı»nın Parlament Şəbəkəsinin İş Qaydalarına dair Nizamnamə» qəbul edildi, təşkilatın rəsmi loqosu və bayrağı təsdiq olundu, qurumun sədri və sədr müavinləri seçildi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MUSTAFA ŞƏNTOP İLƏ GÖRÜŞ

*30 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopu qəbul etmişdir.*

*Görüşdə Mustafa Şəntop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçımıza çatdırdı.*

*Dövlət başçımız salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Türkiyə Parlamentinin Sədri «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin Bakı konfransının əhəmiyyətini vurğuladı, Azərbaycanın Hərəkata sədrliyi müvəffəqiyyətlə həyata keçirdiyini bildirdi.*

*Mustafa Şəntop Azərbaycan ilə Türkiyə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Türk Dövlətləri Təşkilatı, TÜRKPA çərçivəsində əməkdaşlığın vacibliyini qeyd edən Mustafa Şəntop İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının üçüncü ümumi konfransı ilə əlaqədar bir müddət əvvəl Azərbaycanda səfərdə olduğunu məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı 2019-cu ildə Azərbaycanda «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü keçirilərkən*

*Türkiyənin ölkəmizin xüsusi dəvəti ilə tədbirdə iştirakının əhəmiyyəti vurğulandı.*

*Dövlət başçısı Azərbaycanın «Qoşulmama Hərəkatı»nın fəaliyyətinin daha da inkişaf etdirilməsinə, onun təsisatlanmasına mühüm əhəmiyyət verdiyini və bu istiqamətdə bir sıra təşəbbüslərlə çıxış etdiyini bildirdi.*

*Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasında «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin Azərbaycana göstərdiyi dəstəyin əhəmiyyəti qeyd olundu.*

## PAKİSTAN İSLAM RESPUBLİKASI SENATININ SƏDRİ MƏHƏMMƏD SADİQ SANCRANİ İLƏ GÖRÜŞ

*30 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Pakistan İslam Respublikası Senatının Sədri Məhəmməd Sadiq Sancranini qəbul etmişdir.*

*Görüşdə Məhəmməd Sadiq Sancrani Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin salamlarını dövlət başçımıza çatdırdı.*

*Dövlət başçımız salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Arif Alviyə çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev Məhəmməd Sadiq Sancraninin ölkəmizə səfərinə toxunaraq, yüksək səviyyədə olan əlaqələrimizə dair məsələlər ətrafında fikir mübadiləsinin aparılması üçün bu səfərin yaxşı imkan yaratdığını bildirdi.*

*Dövlət başçısı qardaş Pakistanın hər zaman, xüsusilə də torpaqlarımızın işğalı illərində, İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə ölkəmizə göstərdiyi qardaşlıq dəstəyini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev o vaxt erməni işğalına görə Pakistanın Ermənistanla heç bir diplomatik əlaqə*

*qurmamasının xalqımız tərəfindən böyük rəğbətlə qarşılandığını bildirdi.*

*Ölkəsinin keçmiş Ermənistan–Azərbaycan münaqişəsində Azərbaycanın haqlı və ədalətli mövqeyini daim dəstəklədiyini bildirən Məhəmməd Sadiq Sancrani Pakistan xalqının Azərbaycanın Qələbəsini böyük sevinclə qeyd etdiyini vurğuladı.*

*Pakistan İslam Respublikası Senatının Sədri Vətən müharibəsində qazanılmış şanlı Qələbə və torpaqlarımızın işğaldan azad olunması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.*

*Qonaq «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin Bakı konfransının əhəmiyyətini vurğuladı.*

*Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı məmnunluqla qeyd edildi. Həmçinin müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadi-ticari sahələrdə əməkdaşlığımızın genişləndirilməsinin, birbaşa hava əlaqəsinin bərpasının önəmi bildirildi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ SENATININ SƏDRİ TƏNZİLƏ NARBAYEVA İLƏ GÖRÜŞ

*30 iyun 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanı qəbul etmişdir.*

*Tənzilə Narbayeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını Azərbaycan Prezidentinə çatdırdı.*

*Dövlət başçımız salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinin nəticələrindən çox məmnun olduğunu vurğuladı, göstərilmiş yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, səfərin çox məzmunlu olduğunu qeyd etdi. Səfər zamanı razılaşdırıldığı kimi, aidiyyəti dövlət qurumlarına tapşırıqların verildiyini, əldə edilmiş razılaşmaların həyata keçirilməsi üçün bu məsələlərin müntəzəm olaraq nəzarətdə saxlanılacağını nəzərə çatdırdı. Dövlət başçısı səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin nə dərəcədə güclü olduğunu bir daha nümayiş etdirdiyini bildirdi.*

*Bakıda keçirilən «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin konfransının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev BMT-dən sonra ikinci böyük təşkilat olan «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlığın vacibliyini vurğuladı, hazırda Hərəkatın təsisatlanması istiqamətində Azərbaycan tərəfindən bir sıra təşəbbüslərin həyata keçirildiyini qeyd etdi.*

*Tənzilə Narbayeva Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinin Prezident Şavkat Mirziyoyevə və Özbəkistan xalqına dərin təəssürat hissi bağışladığını xüsusi olaraq vurğuladı. Bu səfərin nəticəsi olaraq, Özbəkistan rəhbərliyi tərəfindən müvafiq qurumlara göstərişlərin verildiyini bildirdi.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edən Tənzilə Narbayeva ulu öndərin Özbəkistan ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafına böyük töhfə verdiyini qeyd etdi, Prezident İlham Əliyevin onun siyasətini uğurla davam etdirdiyini söylədi. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını qeyd edən Özbəkistan Senatının Sədri ölkəmizə səfəri çərçivəsində Şuşaya gedəcəklərini vurğuladı. Qonaq bu gün Azərbaycanın dünyada siyasi, iqtisadi və humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrildiyini qeyd etdi.*

*Tənzilə Narbayeva «Qoşulmama Hərəkatı» Parlament Şəbəkəsinin Bakı konfransının müvəffəqiyyətlə keçirildiyini deyərək, bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi. O bu tədbirin keçirilməsi ilə bağlı təşəbbüsün müəllifinin məhz Prezident İlham Əliyev*

*olduğunu xüsusi vurğuladı, Azərbaycanın çox səmərəli şəkildə Hərəkata sədrlik etdiyini söylədi.*

*Söhbət zamanı ölkələrimiz arasında parlamentlərarası əlaqələrin vacibliyi qeyd olundu. Parlamentlərin dövlət başçıları tərəfindən əldə olunmuş razılaşmaların həyata keçirilməsi prosesinə dəstək verəcəyi xüsusi vurğulandı.*

*Qonaq ölkəmizə hər səfərində Bakıda böyük inkişaf proseslərinin şahidi olduqlarını bildirdi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COZEF BAYDENƏ**

Hörmətli cənab Prezident!

4 İyul – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

30 ildir ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Biz ilk gündən ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə ABŞ-ın dəstəyini yüksək qiymətləndiririk. Ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq ikitərəfli və çoxtərəfli müstəvidə uğurla davam edir. Beynəlxalq təhlükəsizliyin təmin olunması və terrorizmə qarşı mübarizədə uzun müddətdən bəri davam edən birgə fəaliyyətimiz məmnunluq doğurur.

Enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx əməkdaşlığı, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrdə ABŞ-ın yaxından iştirakı və hərtərəfli dəstəyi müvəffəqiyyətimizin əsas amillərindəndir.

Bu gün Azərbaycan ilə ABŞ arasında bir sıra mühüm sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əməkdaşlığımız siyasi əlaqələrimizin də

genişləndirilməsinə şərait yaratmışdır. Ölkələrimizin enerji, təhlükəsizlik sahələrində və terrorizmə qarşı mübarizədə əməkdaşlığı nümunəvi xarakter daşıyır.

Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda ABŞ-ın Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlar arasında təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inanırıq. Tərəfimizdən təqdim olunmuş 5 prinsip əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindəyik.

İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidən qurulma işlərinə ən böyük əngəl olaraq qalmaqdadır. Biz minatəmizləmə işində ABŞ-ın ölkəmizə göstərdiyi yardımı təqdir edirik. Ermənistan–Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin dəstəyinə böyük ümidlər bəsləyirik.

Hörmətli cənab Prezident!

Əminəm ki, Azərbaycan ilə ABŞ-ı birləşdirən dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq, birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edərək, bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2022-ci il*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*4 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə iyulun 4-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel telefonla zəng etmişdir.*

*Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər müzakirə olundu.*

*Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini vurğuladı. O, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcəyini bildirdi.*

*Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edərək, ölkəmizin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıq-*

*ların real nəticələrə gətirib çıxaracağına ümidvar olduğunu ifadə etdi.*

*Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın üzləşdiyi genişmiqyaslı mina problemini qeyd etdi və Birinci Qarabağ müharibəsindən etibarən itkin düşmüş hesab olunan 4000 nəfərə yaxın azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin vacibliyini vurğuladı.*

## BAKININ RAMANA QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*6 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Bakının Ramana qəsəbəsində görülmüş abadlıq işləri ilə tanış olmuşdur.*

*«Bakı Abadlıq Xidməti» MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

**Bünyad Qasımov:** Cənab Prezident, bu, yeni işıqlandırma sistemidir. Azərbaycanda istehsal olunan divarüstü işıqlardır. Bütün kənd 100 faiz tam işıqlıdır.

**İlham Əliyev:** İş yerləri də yaradılıb?

**Bünyad Qasımov:** 300 iş yeri artıq mövcuddur. Planlaşdırmışıq, ilin sonuna qədər 450-yə qədər iş yeri açdıraq.

*Bildirildi ki, Ramana qəsəbəsində yenidən qurulma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilibdir. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhman bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələri tamamilə yenilənib. Həmçinin ərazi tullantılardan təmizlənib. Diqqətə çatdırıldı ki, Ramana qəsəbəsi Abşeron ərazi-*

*sində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII–XIV əsrlərə aid olduğu bildirilən Ramana qalası yüksək nöqtədə yerləşir. Ehtimal edilir ki, divarlarının hündürlüyü 15 metr olan qala müdafiə məqsədilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Məşhur «Koroğlu», «Nəsimi» və «Babək» filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib.*

*Dövlət başçısı qalada aparılan bərpa işləri ilə tanış oldu.*

*Ramananın qədim abidələrindən biri də Novruzqulu hamamıdır. Prezident İlham Əliyevə bu qədim hamam barədə də məlumat verildi. Bildirildi ki, keçmişdə hamamda 4 quyu fəaliyyət göstərsə də, indi onlardan 3-ü mövcuddur. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanılıb və təsdiqlənibdir. Hamamın binasında keyfiyyətli bərpa işləri görülübdür.*

*Ramanada yenidən qurulma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub.*

*Dövlət başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verildi. Qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılmış yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir. Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunubdur.*

*Məlumat verildi ki, Pirşağıda hazırlanan quru meyvələrin satışı da Ramanada həyata keçiriləcək. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, həmçinin yerli əhali və turistlərin ehtiyaclarını qarşılamaq mümkündür. Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir. Layihənin məqsədi özünüməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.*

*Dövlət başçısı Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət etdi.*

**İlham Əliyev:** Salam, necəsən?

**Sakin:** Sağ olun, yaxşıyam.

**İlham Əliyev:** Sənin evindir?

**Sakin:** Bəli. Yeni abadlaşdırılmış Ramana kəndimizə xoş gəlmisiniz!

**İlham Əliyev:** Çox sağ ol.

**Sakin:** Gördüyünüz bu evdə şəhid əmim Allahverdi Allahverdiyev yaşayıb.

**İlham Əliyev:** Birinci Qarabağ müharibəsi şəhidi?

**Sakin:** Bəli, Birinci Qarabağ müharibəsi veteranı Fərzəli Fərzəliyev babamdır, əmim də var – Namiq Allahverdiyev, o da müharibə veteranıdır.

**İlham Əliyev:** Sən bu işlə də məşğul olursan?

**Sakin:** Bəli, cənab Prezident.

**Bünyad Qasımov:** Damcı üsulu ilə suvarmadır.

**İlham Əliyev:** Çiyələkdir?

**Bünyad Qasımov:** Bəli, çiyələkdir. Yenidir, 10-15 gün olar. Bir-iki aydan sonra buralar hamısı yaşıl olacaq, cənab Prezident.

**İlham Əliyev:** Çox yaxşı.

**Bünyad Qasımov:** Qışda göyərti, yayda da çiyələk əkilir.

**İlham Əliyev:** Görürəm bu ev də, həyəti də təmir olunub.

**Bünyad Qasımov:** Ümumiyyətlə, Sizin tapşırığınıza və göstərişinizə əsasən, evlərin damları, qapıları, divarları, darvazaları əsaslı təmir edilib. Şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirilib.

**İlham Əliyev:** Çox yaxşı. Sağ olun.

*Ramana həm də ovdanları ilə məşhurdur. Qəsəbədə bərpa olunan tarixi abidələrdən biri də el arasında «40 pillə» adlanan su ovdanıdır. Azərbaycan ərazisində, Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir. Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI–XVIII əsrlərdə içmək üçün yararlı olan lay sularından istifadə edilməsi məsələsi aktuallaşıb və ovdanlar yaradılıb. Bu qurğuların tikintisi XX əsrə qədər davam edib.*

*Prezident İlham Əliyevə su ovdanında görülmüş təmir-bərpa işləri barədə məlumat verildi.*

*Ramana sakinlərinin həm sağlam həyat tərzi, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün qəsəbədə İdman Mərkəzi inşa olunub. Mərkəzdə qapalı idman zalı, mini-futbol meydançası yaradılıb.*

*Dövlət başçısı Ramana İdman Mərkəzində yaradılmış şəraitlə də tanış oldu.*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı islam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı islam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.

Azərbaycan xalqı əsrlərboyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə, öz milli və mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, etdiyiniz dua və niyyətlər Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevrilərək, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcəkdir.

Qoy müqəddəs Qurban bayramı ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2022-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABINDAN

*9 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Qurban bayramı münasibətilə sosial şəbəkə hesabından paylaşım etmişdir.*

*Dövlət başçısı paylaşımında «Qurban bayramınız mübarək!» yazmışdır.*

## ÇEX RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MİLAN SEDLAÇEK İLƏ GÖRÜŞ

*12 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Milan Sedlaçekin etimadnaməsini qəbul etmişdir.*

*Milan Sedlaçek etimadnaməsini dövlət başçısına təqdim etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını dövlət başçısına çatdırdı. Bildirdi ki, Çexiyanın dövlət başçısı ona Azərbaycanla əməkdaşlığın, xüsusilə iqtisadi əlaqələrin genişləndirilməsi ilə bağlı tapşırıqlar verib.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Çexiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında yüksək səviyyədə səfərlərin, o cümlədən nümayəndə heyətlərinin mütəmadi təmaslarının ikitərəfli münasibətlərin inkişafına töhfəsini qeyd edərək, iqtisadi əməkdaşlığın genişləndirilməsi, həmçinin qarşılıqlı ticarətin həcminin artırılması üçün yaxşı potensialın olduğunu bil-*

*dirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığa da toxundu.*

*Azərbaycan Prezidenti sənaye, kənd təsərrüfatı, müasir texnologiyalar sahələrində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi, nəqliyyat infrastrukturu ilə bağlı məsələlərin önəmini vurğuladı. Dövlət başçısı bildirdi ki, Azərbaycandan keçərək, şərqdən qərbə yükdaşımaların həcminin artmasını nəzərə alaraq, bu sahədə də əməkdaşlıq baxımından imkanlar mövcuddur. Prezident İlham Əliyev, həmçinin biznes dairələri arasında əlaqələrin genişlənməsi və qarşılıqlı investisiya qoyuluşu imkanlarının araşdırılmasının da əhəmiyyətini vurğuladı.*

*Səfir ölkəsinin Azərbaycanla energetika sahəsində əməkdaşlıqda maraqlı olduğunu qeyd edərək, digər layihələrə də toxundu, Çexiyanın Ələt Azad İqtisadi Zonasına və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və yenidən qurulma işlərinə böyük maraq göstərdiyini bildirdi.*

*Söhbət zamanı humanitar, elm, təhsil, turizm sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu il Azərbaycan–Fransa dövlətlərarası əlaqələrin tarixində əlamətdar ildönümüdür. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz cari ildə biz ötən dövr ərzində əldə etdiyimiz nailiyyətlərə nəzər salır, iqtisadiyyat, energetika, mədəniyyət, təhsil və digər sahələrdə formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi imkanlarını araşdırırıq. Hesab edirəm ki, müxtəlif istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi üçün perspektivlər vardır.

Cənubi Qafqazda bərqərar olmuş yeni geosiyasi reallıq davamlı sülh və regional iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaradıbdır. Torpaqlarının 30 illik işğalına son qoymuş Azərbaycan müharibə səhifəsini çevirmək, Ermənistanla münasibətləri normallaşdırmaq və sülh müqaviləsi imzalamaq istəyindədir. Beynəlxalq hüquqa söykənərək, tərəfimizdən təqdim olunmuş 5 prinsip əsasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazır-

lanması prosesinə Fransanın dəyərli töhfə verə biləcəyinə inanırıq.

İşğaldan azad edilmiş ərazilərdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidən qurulma işlərinə, bölgənin sosial-iqtisadi reinteqrasiyasına ən böyük əngəl olaraq qalmaqdadır. 2020-ci il noyabrın 10-dan indiyədək 220-dən çox şəxs mina hadisələri nəticəsində həlak olub və ya ağır xəsarət alıbdır. Biz ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi töhfəni təqdir edir, Ermənistan–Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin lazımi dəstək göstərəcəyinə ümidvarıq.

Dərin hörmət və ehtiramlarımı izhar edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2022-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Bu il Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin 6-cı ildönümü qeyd olunur. Biz dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Altı il əvvəl qardaş Türkiyə xalqı Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edərək, dövlətçiliyə və demokratiyaya sahib çıxaraq, əsl şücaət və qəhrəmanlıq nümunəsi göstərmiş, dünyaya bir daha qüdrətini və əzəmətini sübut etmişdir. 15 İyul hadisələri ilə əlaqədar təsis edilmiş Demokratiya və Milli Birlik Günü qəhrəman xalqınızın Vətəninə və dövlətinə bağlılığının, dövlətçiliyə və demokratik ənənələrinə sadiqliyinin təcəssümüdür.

Qardaş xalqınızın əsl lideri kimi, Sizin şəxsinizə olan sonsuz inam və etimadı, Sizin ətrafınızda sıx birləşməsi Türkiyə dövlətinə qarşı yönəlmiş xəyanətin qarşısını almaqda, ölkənizin bu çətin sınaqdan başıuca çıxmasında həlledici rol oynadı. Milli birliyin və həmrəyliyin, sarsılmaz iradənin və güclü liderliyin təntənəsi olan bu möhtəşəm zəfər Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olundu.

Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən qardaş Türkiyənin yanında olaraq və həmrəylik göstərərək, bu xəyanətkar dövlət çevrilişi cəhdini ən qəti şəkildə qınadı. «Bir millət – iki dövlət» prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək, qardaşlığını sübut edirlər. Biz bundan sonra da bütün məsələlərdə Türkiyənin yanında olacağıq.

Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əminəm ki, bir ay əvvəl imzalanmasının birinci ildönümünü qeyd etdiyimiz Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz müttəfiqlik hədəflərinə doğru bundan sonra da inamla addımlamağa davam edəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2022-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*15 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 İyul – Demokratiya və Milli Birlik Günü ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Dövlət başçımız 15 İyul hadisələri zamanı həlak olanlarla bağlı Türkiyə Prezidentinə başsağlığı verdi, həlak olanların ailə üzvlərinə və yaxınlarına da başsağlığını çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev Azərbaycan xalqının qardaş türk xalqına dəstəyini bir daha ifadə etdi, dövlət çevrilişinə cəhdin dəf olunmasında şəxsən Rəcəb Tayyib Ərdoğanın rolunu və liderliyini xüsusi vurğuladı.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zənginə və göstərilən diqqətə görə dövlət başçımıza təşəkkürünü bildirdi.*

*Söhbət zamanı Türkiyə–Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin hərtərəfli inkişaf etdiyi bir daha qeyd olunaraq, qarşılıqlı dəstək və həmrəylik ifadə edildi, gələcək təmaslar haqqında danışıldı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAAR İLƏ GÖRÜŞ

*15 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.*

*Toivo Klaar Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin salamlarını dövlət başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şarl Mişelə çatdırmağı xahiş etdi.*

*Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh sazişinin imzalanması, kommunikasiyaların açılması, Azərbaycanın üzləşdiyi mina problemi, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş soydaşlarımızla bağlı mövzular ətrafında geniş fikir mübadiləsi aparıldı.*

*Dövlət başçısı Brüsseldə keçirilmiş görüşlərin nəticəsi olaraq əldə edilmiş razılaşmaların həyata keçirilməsinin və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin vacibliyini vurğuladı.*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ ƏLİ ŞAMXANİ İLƏ GÖRÜŞ

*15 iyul 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də İran İslam Respublikasının Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxanini qəbul etmişdir.*

*Əli Şamxani İran Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlət başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı dövlət başçımız Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə toplantısı çərçivəsində İran Prezidenti ilə görüşünü məmnunluqla xatırlatdı, həmin görüşdə ikitərəfli əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsinin aparıldığını qeyd etdi.*

*Əli Şamxani Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi münasibətilə xalqımızı təbrik etdi. Qonaq İranın Azərbaycan ilə mehriban qonşuluq və dostluq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduğunu və ölkəmizlə əlaqələrin genişləndirilməsinə həmişə böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Görüşdə ikitərəfli gündəliyə aid olan məsələlər, o cümlədən İran ilə Azərbaycan arasında nəqliyyat-kommunikasiya xətlərinin inkişafı və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QEYDLƏR

**1. İstiqlal Bəyannaməsi** – 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası tərəfindən tərtib olunmuş və imzalanmış, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini rəsmən elan edən sənəd. – 5.

**2. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi

ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 5, 6, 7, 13, 15, 145.

**3. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının

inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çat-

ması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 7, 23, 91, 138–150, 153, 154, 157, 158, 162, 166–168, 171–173, 178, 179, 183, 189, 190, 196, 205.

**4. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 7, 26, 202, 224, 237.

**5. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət.

Sahəsi 783,5 min $km^2$, əhalisi 84,34 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 8–22, 26, 27, 29–32, 48, 49, 52, 64, 90, 91, 110, 111, 122, 274, 275, 297–299.

**6. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının liderid ir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 8, 10, 11, 12, 14–16, 18, 19, 27–31, 122, 274, 297, 299.

**7. Hulusi Akar** (d.1952) – ordu generalı. 2015–2018-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, 2018-ci ildən isə Türkiyə Respublikasının Müdafiə naziridir. – 9.

**8. TEKNOFEST** – Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı. Bayraktar –TB2 və Akıncı PUA-larının mühəndisi, «Baykar» şirkətinin

texniki direktoru, «Qarabağ» ordenli mühəndis Səlçuk Bayraktarın təşəbbüsü ilə Türkiyə Texnologiya Vəqfi ilə Türkiyə Respublikası Texnologiya və Sənaye Nazirliyi tərəfindən Türkiyənin milli texnologiyalarını inkişaf etdirmək məqsədi ilə təşkil edilən ilk və yeganə festivaldır. – 9–12, 17, 19, 24–27.

**9. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmiş-

dir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 10, 11, 27, 28, 71, 183.

**10. Səlçuk Bayraktar** (d.1979) – Türk iş adamı, mühəndis, Türkiyənin ilk yerli istehsalı olan S/İHA sistemli «Baykar Bayraktar TB2»nin memarı, «Baykar Savunma»nın texniki direktoru. Komandası ilə yaratdığı «Bayraktar TB2» pilotsuz uçuş aparatları Türkiyə Ordusunun PKK-ya qarşı hərbi əməliyyatlarında geniş şəkildə istifadə edilmişdir. Səlçuk Bayraktar Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil olan ilk pilotsuz uçuş aparatı «Bayraktar Mini PUA»nın yaradıcısı olmuşdur. Türkiyənin ilk pilotsuz

hücum uçuş aparatı «Bayraktar Akıncının» (PUA) yaradılmasında da xüsusi əməyi olmuşdur. İkinci Qarabağ müharibəsində istifadə olunan bu texnikalar qazanılan böyük Zəfərə öz töhfəsini vermiş, bu fəaliyyətlərinə görə Səlçuk Bayraktar Azərbaycan Respublikasının «Qarabağ» ordeni ilə təltif edilmişdir. – 11, 17, 18, 22, 30.

**11. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini

8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 12, 16, 17, 22, 90, 96, 99, 122, 199, 208, 209, 211, 213, 226, 230, 234.

**12. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 12, 30, 36, 52, 59, 60, 61, 93, 240, 264, 281–283.

**13. Nobel mükafatı** – Elm və insanlığa xidmət edənlərə təqdim edilən prestijli mükafat. İlk Nobel mükafatları 1901-ci il tarixindən verilməyə başlanmışdır. – 12, 13, 17, 27.

**14. Əziz Səncər** (d.1946) – Türk həkim-akademik, biokimyaçı, molekulyar bioloq və elm adamı. ABŞ Milli Elmlər Akademiyasına seçilən ilk türk alim olaraq tanınır. DNT təmiri sahəsindəki araşdırmalarına və bioloji saatın tənzimlənməsi sahəsində 6 vacib kəşfinə görə Kimya üzrə Nobel mükafatına layiq görülüb. – 12, 13, 17, 19, 27.

**15. II Məhmət,** Fateh Sultan Məhmət (1432–1481) – 7-ci Osmanlı Padişahı. II Məhmət

21 yaşında İstanbulu fəth edərək 1000 illik Bizans İmperiyasına son verdi və bu hadisə bir çox tarixçi tərəfindən Orta Dövrün sonu Yeni Dövrün başlanğıcı olaraq qəbul edildi. – 13, 122.

**16. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir Yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş

Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 16, 17, 55, 103, 109, 117, 119, 161, 196, 206, 208, 211, 212, 232, 276.

**17. Şuşa Bəyannaməsi** – 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa şəhərində imzalanmış bəyannamə. – 16, 21, 25, 91, 122, 298.

**18. Qarabağ** – Azərbaycan Respublikası ərazisində keçmiş muxtar vilayət. Öncə ərazisi 4161 kv.km olmuş, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 kv.km-dək genişləndirilmişdir. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdılar.

Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV

ərazilərində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi. Azərbaycan Ordusunun keçmiş DQMV ərazilərində irəliləməsi Ermənistanı sülhə məcbur etdi. – 18, 22, 24, 58, 98, 101, 161, 206, 207, 209, 212, 223, 259.

**19. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 20, 26, 55, 101, 200, 211, 213, 216, 218–224, 227–231.

**20. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 20, 26, 161, 202.

**21. Gəncə** – Azərbaycan Respublikasında əhalisinə görə Bakıdan sonra ikinci böyük şəhər. Gəncə

şəhəri Kiçik Qafqazın şimal-şərqində, Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 173 $km^2$, əhalisi 360,4 min nəfərdir. – 20, 217.

**22. Natəvan,** X u r ş i d b a n u x a n q ı z ı (1832–1897) – tanınmış Azərbaycan şairəsi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 20.

**23. Xudayar Yusifzadə,** X u d a y a r M ü s l ü m o ğ l u (1998–2020) – Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının kiçik giziri, Vətən müharibəsi şəhidi. Azərbaycan Ordusu Sərhəd Qoşunlarının kiçik giziri olan Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağ, Füzuli, Cəbrayıl və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı rayonun Ağbənd qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı və-

zifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Xudayar Yusifzadə ölümündən sonra «Vətən uğrunda» medalı ilə təltif edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan Xudayar Yusifzadə düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 20.

**24. Bəxtiyar Vahabzadə,** B ə x t i y a r M a h m u d o ğ l u (1925–2009) – Azərbaycan şairi, ədəbiyyatşünası, 1945-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, Azərbaycan SSR Xalq şairi (1984), filologiya elmləri doktoru (1964), professor (2000), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1976), SSRİ Dövlət mükafatı laureatı (1984), M.F.Axundov adına ədəbi mükafatın laureatı (1989), Azərbaycan Respublikası Ali Sovetinin üzvü (1990), millət vəkili (1995–2000). Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilir. «İkinci səs», «Vicdan», «Yağışdan sonra», «Yollara iz düşür», «Fəryad», «Hara gedir bu dünya», «Özümüzü kəsən qılınc», «Cəzasız günah», «Dar ağacı» və «Rəqabət» pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

O, 1958-ci ildə yazdığı «Gülüstan» poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyalarının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur.

Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 20.

**25. Nuru Paşa**, N u r i K i l i g i l (1889–1949) – Osmanlı Ordusunun generalı, Qafqaz İslam Ordusunun komandanı. Ənvər Paşanın qardaşı olan Nuri Kiligil Birinci dünya müharibəsinin sonlarında Azərbaycanda rus və erməni birliklərinin mart hadisələri adı ilə anılan müsəlman qətliamlarına başlamaları ilə Qafqaz İslam Ordusu adı altında Osmanlı, Azərbaycan və Dağıstan əsgərlərindən ibarət bir ordu ilə Azərbaycanı işğaldan qurtarma hərəkatını başlatdı. – 20.

**26. Çanaqqala müharibəsi** – Birinci dünya müharibəsi əsnasında 1915–16-cı illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri (İngiltərə, Fransa, Anzaklar) arasında baş verən dəniz və quru döyüşü. İttifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı qida və hərbi ticarət yolu açmaq məqsədi ilə ilk hədəf olaraq Çanaqqala boğazına girmişlər. Ancaq hücumları müvəffəqiyyətsiz olmuş və iki tərəfin də çox ağır itkilər verməsilə İttifaq dövlətləri geri çəkilmişlər. Bu döyüş məhv olma vəziyyətində olan bir öl-

kənin möhtəşəm qələbəsi kimi əfsanələşmiş, hər bir Türkün xatirəsində qalmışdır. Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərən bu döyüş Türk Qurtuluş savaşına da təsir etmişdir. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi gün, yəni 18 Mart Çanaqqala Şəhidlərinin Anma Günü olaraq elan edilmişdir. Müttəfiqlər üçün isə bu döyüş əsgəri bacarıqsızlıq və fəlakət simvolu olaraq sayılmışdır. – 20.

**27. Əhməd Cavad,** Cavad Məhəmmədəli oğlu (1893–1937) – azərbaycanlı şair, tərcüməçi, professor. Azərbaycan milli poeziyasının görkəmli nümayəndələrindən biri olan Əhməd Cavad yaradıcılığına 1910-cu ildən başlamışdır. Onun «Müəllim», «Dilimiz», «Yazım, gəl!», «Yuxuma gəlmişdin», «Sevgi candan ayrılmaz» kimi şeirləri, eləcə də aşıq şeirlərinə nəzirə kimi qoşduğu «Səhər-səhər», «Olmaz» bayatıları, oxşamaları dəyərli bədii nümunələrdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd Cavad Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 23.

**28. Türk Dövlətləri Təşkilatı,** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Tür-

kiyə arasında qurulmuş beynəlxalq təşkilatdır. – 25, 154, 172, 244, 253, 274.

**29. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları –** 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilib. – 26, 42, 43, 255.

**30. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 26, 202, 226, 235, 237, 240.

**31. Arzu Əliyeva,** Arzu İlham qızı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı. Film prodüseri. – 27.

**32. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 30.

**33. Estoniya,** Estoniya Respublikası – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallinn şəhəridir. – 30.

**34. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 30.

**35. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 30.

**36. Litva,** Litva Respublikası – Avropada, Baltik dənizinin şərq sahilində dövlət. Şimalda Latviya, cənub-şərqdə Belarus, cənub-qərbdə Polşa

və Rusiyanın Kalininqrad bölgəsilə həmsərhəddir. Ərazisi 65 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. Ölkəni Prezident idarə edir. Paytaxtı Vilnus şəhəridir. – 30.

**37. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 34, 77, 249, 256, 301, 302.

**38. İbrahim Rəisi** (d.1960) – siyasətçi və dövlət xadimi. 2021-ci ildən İran İslam Respublikasının Prezidentidir. – 34, 77, 249, 256, 301.

**39. Maya Sandu** (d.1972) – Moldovanın dövlət və siyasi xadimi. 2012–2015-ci illərdə Moldovanın Təhsil naziri, 2014–2019-cu illərdə Moldova Parlamentinin üzvü, 2019–2020-ci illərdə isə Baş Naziri olmuşdur. 2020-ci ildən Moldova Respublikasının Prezidentidir. – 35.

**40. Moldova,** Moldova Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 35.

**41. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1768 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 36, 48.

**42. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 36, 41, 49–53, 60, 62, 64, 106, 119.

**43. 10 noyabr Bəyanatı** – Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin keçmiş Dağlıq Qarabağın ətrafında Ermənistanın nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi haqqında bəyanat. – 37, 100, 101.

**44. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 37, 53, 62, 63, 70, 102, 108, 110, 155, 238, 284, 300.

**45. Şarl Mişel** (d.1975) – belçikalı siyasətçi. 2014–2019-cu illərdə Belçikanın Baş Naziri olmuşdur. 2019-cu ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 37, 102, 284, 300.

**46. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 37, 64, 74, 104, 114, 185, 194, 195, 197, 198, 256, 258–260.

**47. Vladimir Putin** (d.1952) –2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 37, 74, 196, 197, 256, 258, 259.

**48. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidentidir. – 38.

**49. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 38, 39.

**50. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür.

Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 45, 64, 67.

**51. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 46, 51, 57, 199.

**52. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 48, 49, 52, 64, 105, 109, 110, 116, 241.

**53. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə istifadəyə verilmişdir. Kə-

mərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 48.

**54. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 52.

**55. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 52.

**56. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. Bankın əsas məqsədi kasıb ölkələrə struktur islahatlarının həyata keçirilməsində və yoxsulluğun azaldılmasında yardım göstərməkdir. Ayrı-ayrı ölkələrdə sabit və davamlı in-

kişafa nail olmaq üçün Dünya Bankı öz maliyyə resurslarından, yüksək ixtisaslı kadrlardan və biliklər bazasından istifadə edir. – 52, 238.

**57. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Roma şəhəridir. – 52, 69, 70, 114, 115.

**58. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, həmçinin MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 52.

**59. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. Mənzil-qərargahı Manilada yerləşir. – 52.

**60. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Balkan yarımadasının cənub-qərbində yerləşən ölkə. Adriatik və İon dənizləri sahilində yerləşir və şimal-

qərbdən Monteneqro, şimal-şərqdən Kosovo, şərqdən Şimali Makedoniya və cənubdan Yunanıstan ilə həmsərhəddir. Ərazisi 28,7 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir.

Albaniya unitar parlamentar konsitutsional respublikadır. Paytaxtı Tirana şəhəridir. – 52, 117, 118.

**61. Asiya İnfrastruktur İnvestisiya Bankı** – Çin hökumətinin təşəbbüsü ilə yaradılmış beynəlxalq maliyyə institutu. Mənzil-qərargahı Çin Xalq Respublikasının Pekin şəhərində yerləşir. Bankın əsas təsis sənədi olan «Maddələr Sazişi»dir. 2015-ci ilin 27–28 aprel tarixlərində Pekin şəhərində və 20–22 may tarixlərində Sinqapurda gələcək təsisçi üzvlərin nümayəndələrinin müvafiq olaraq keçirilmiş 4-cü və 5-ci iclaslarında yekdilliklə razılaşdırılmış «Maddələr Sazişi»ni 29 iyun 2015-ci il tarixində Pekində təsisçi üzv statusuna malik olan 57 ölkədən 50-si tərəfindən imzalanmışdır. Fəaliyyəti Asiya ölkələrinin infrastruktur baxımdan inkişafına yönəlmişdir. Bank ilk mərhələdə fəaliyyətini Avropaya yeni ticarət marşrutu olacaq Yeni İpək yolunun yaradılmasına cəmləyəcək. Bankın maliyyələşdirməyi planlaşdırdığı layihələr sırasında Bağdad və Çin arasında birbaşa dəmir yol əlaqəsinin qurulması da yer alır. – 52.

**62. Avropa İnvestisiya Bankı** – maliyyə qurumu olaraq, 1958-ci ildə Roma Anlaşması ilə Birliyin hədəflərini həyata keçirməsinə kömək edərək investisiyanı məliyyələşdirmək məqsədilə qurulmuşdur. Avropa

İnvestisiya Bankı hüquqi və maliyyə muxtariyyətinə sahibdir.

Bankın üzvləri Avropa Birliyi üzvü olan dövlətlərdir. Bankın mərkəzi Lüksemburqdadır. AİB-in ən əsas hədəfi Avropa Birliyinin taraz inkişafına kömək etməkdir. Bununla yanaşı, Transavropa nəqliyyat və telekommunikasiya sahələrinin inkişafına, ətrafın qorunmasına, enerji mənbələrinin davamlılığının təmin olunmasına, sənaye və kiçik şirkətlərin rəqabət gücünün beynəlxalq aləmdə artırılmasına yönəlmiş layihələri maliyyə ilə təmin edir. Avropa İnvestisiya Bankı Avropa Birliyinin bankıdır və Avropa İttifaqının üzv dövlətlərinə məxsusdur. Onun rolu Avropa Birliyinin məqsədlərinə xidmət edən layihələri maliyyələşdirməkdir. – 52.

**63. TANAP** – Trans-Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard kubmetr qaz ötürülməsi nəzərdə tutulur. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql edilir. – 53.

**64. TAP** – Trans-Adriatik boru kəməri. Azərbaycan qazını Yunanıstandan Albaniyaya, oradan Adriatik dənizindən keçərək İtaliyaya, daha sonra qərbi Avropaya nəql edən boru kəməri. – 53, 117.

**65. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 km$^2$,

əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. – 55, 200–206, 208, 209, 211–225, 230.

**66. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 56, 58, 102, 103, 105, 213, 223.

**67. *bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 57, 65, 199.

**68. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 57, 199, 202.

**69. Cozef Bayden** (d.1942) – Amerika siyasətçisi və dövlət xadimi. ABŞ Demokrat Partiyasının üzvü, Amerika Birləşmiş Ştatlarının 46-cı Prezidenti. – 59, 61, 93, 281.

**70. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 44,13 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 60, 64, 87, 104, 114.

**71. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 62, 112, 119, 123, 126, 263, 264.

**72. II Elizabet** (d.1926) – Böyük Britaniya Kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 67.

**73. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 69, 114, 115.

**74. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhər Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, 2015–

2018-ci illərdə Bakı şəhər Səbail Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur. 2018-ci il noyabrın 15-dən isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 75.

**75. Sərdar Berdıməhəmmədov** (d.1981) – Türkmənistan dövlət xadimi və siyasətçisi. 19 mart 2022-ci ildən Türkmənistan Prezidentidir. – 78, 245–248, 251, 252, 256.

**76. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 78, 79, 242–247, 249, 251, 252, 256, 260.

**77. «Azərişıq» –** Bakı elektrik şəbəkəsinin operatoru. «Azərişıq» ASC-nin tarixi eyni zamanda Bakıda elektrikin tarixi ilə birgə formalaşıb. 1901-ci ilin iyul ayının əvvəlində Bibiheybət elektrik stansiyası sınaqdan keçirildi, bir həftə sonra isə stansiya daimi istifadəyə verildi. Bakı elektrik şəbəkəsi 1920-ci ildən etibarən müxtəlif qurumların tərkibində fəaliyyət göstərib. Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2006-cı il tarixli Sərəncamı ilə «Bakıelektrikşəbəkə» ASC-nin fəaliyyəti bərpa edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamına əsasən, «Bakıelektrikşəbəkə» Açıq

Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti adlandırıldı. – 80, 81.

**78. Slovakiya,** Slovak Respublikası – Mərkəzi Avropada dövlət. Şimalda Polşa, şərqdə Ukrayna, cənubda Macarıstan, cənub-qərbdə Avstriya, şimal-qərbdə Çexiya ilə həmsərhəddir. Paytaxtı Bratislava şəhəridir. Ümumi sahəsi 49 min $km^2$, əhalisinin sayı 5,4 milyon nəfərdir. Slovakiya parlament respublikasıdır. – 83.

**79. Rumıniya** – cənub-şərqi Mərkəzi Avropada dövlət. Konstitusiyasına əsasən, Rumıniya demokratik dövlətdir. Ölkə başçısı Prezident, qanunverici orqan isə ikipalatalı parlamentdir. Ərazisi 238,3 min $km^{2,}$ əhalisinin sayı 19,4 milyon nəfərdir. Paytaxtı Buxarest şəhəridir. – 88, 193.

**80. İspaniya,** İspaniya Krallığı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min $km^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı Korteslərdir. Paytaxtı Madrid şəhəridir. – 88.

**81. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) – Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–1938).

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə Türk Ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 90.

**82. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 92.

**83. Entoni Blinken** (d.1962) – siyasətçi və diplomat. 2021-ci ildən Amerika Birləşmiş Ştatlarının Dövlət katibidir. – 93.

**84. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 94, 97, 107, 108, 111.

**85. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 94–97, 99, 106, 108, 110, 111, 113, 129, 141, 167.

**86. «Gülüstan» sarayı** – ictimai bina. «Gülüstan» sarayı 1980-ci ildə inşa edilmişdir. Sarayın memarları olaraq N.M.Hacıbəyov və A.Y.Əmirxanov, inşaat işləri üzrə konstruktorlar isə N.İ.İsmayılov və K.A.Kərimov seçilmişdilər. Saray ümumşəhər, həm də respublika miqyaslı kütləvi tədbirlərin – məsələn, konsert, dövlət qəbulları və ya yeni il axşamlarının keçirilməsi üçün nəzərdə tutulmuşdur. – 97.

**87. OPEC+** (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 98, 127.

**88. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 101, 145, 196.

**89. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 $km^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmən-

çay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 101.

**90. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, həmçinin ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 104, 111, 154, 172, 198, 253, 267.

**91. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 107, 108.

**92. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 108, 109, 111, 112, 128, 129, 154, 172, 198, 233, 234, 237, 239, 253, 262, 265, 266, 269, 279.

**93. Salome Zurabişvili** (d.1952) – Gürcüstanın siyasi və dövlət xadimi. 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. 2018-ci ildən Gürcüstanın Prezidentidir. – 109, 110, 116.

**94. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli və dini zəmində yaranmış mübahisə qanlı hərbi qarşıdurmaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında Saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət

federativ respublika yaradıldı. Sahəsi 51,2 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəharidir. – 109, 119, 120, 121.

**95. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 110, 123, 124, 264.

**96. Tedros Adhanom Qebreyesus** (d.1965) – Efiopiyanın dövlət xadimi. 2012–2016-cı illərdə Efiopiyanın Xarici İşlər naziri, 2017-ci ildən isə Ümumdünya Səhiyyə Təşkilatının baş direktorudur. – 110, 123, 124.

**97. Binəli Yıldırım** (d.1955) – Türkiyə siyasətçisi və dövlət xadimi. 2015–2016-cı illərdə Türkiyə Respublikasının Nəqliyyat naziri, 2016–2018-ci illərdə Baş Naziri, 2018–2019-cu illərdə isə Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 110, 111, 122.

**98. Misir,** Misir Ərəb Respublikası – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon $km^2$, əhalisi 100 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 112, 130.

**99. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 34,2 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 125.

**100. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 126, 127, 154, 172, 232, 261–267, 269–275, 277, 279.

**101. Venesuela,** Venesuela-Bolivar Respublikası – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 30,7 milyon nəfərdir. Ərazisi 23 ştata bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Karakas şəhəridir. – 126, 127.

**102. İsrail,** İ s r a i l D ö v l ə t i – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 132.

**103. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 34 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 134–139, 142–144, 146–155, 157, 158, 160, 161, 163–168, 172–174, 176–178, 180, 182–185, 187, 189–192, 278, 279.

**104. İslam Kərimov,** İ s l a m Ə b d u q ə n i o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 134, 142, 146.

**105. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2003–2006-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 135–

138, 144, 147, 149–153, 158–163, 166, 173, 174, 177, 178, 180, 182–185, 187, 189–192, 278, 279.

**106. Səməd Vurğun,** S ə m ə d  Y u s i f  o ğ l u (1906–1956) – Azərbaycan şairi, dramaturq, tərcüməçi, ədəbiyyatşünas, tənqidçi, Azərbaycanın ilk Xalq şairi (1956), 2 dəfə «Stalin» mükafatı laureatı (1941, 1942) və 2 dəfə «Lenin» ordeni laureatı, Azərbaycan Yazıçılar İttifaqının sədri (1941–1948), Azərbaycan SSR Ali Sovetinin üzvü, Azərbaycanın Xarici Ölkələrlə Mədəni əlaqə Cəmiyyətinin sədri, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1945) və vitse-prezidenti (1954–1956). Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən biri.

1933-cü ildə yazılmış «Azərbaycan» şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu şeirdə şair öz vətəninin qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqın xeyirxahlığı, açıqürəkliyi və qonaqpərvərliyini tərənnüm etmişdir. 1937-ci ilin ikinci yarısında Səməd Vurğun özünün ölməz dram əsərini – «Vaqif»i yazır. – 140.

**107. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs

edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 145.

**108. Mirzə Uluqbəy**, Uluqbəy Məhəmməd Tarağay (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilmiş ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 147, 150.

**109. Hüseyn Cavid,** Hüseyn Abdulla oğlu (1882–1941) – Azərbaycan şairi, yazıçı və dramaturq. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndəsi olan Hüseyn Cavid milli romantik şeirin və mənzum faciənin banisidir. Azərbaycan ədəbiyyatında ilk mənzum facіə olan «Ana» pyesi H.Cavidin dramatik növdə yazdığı ilk əsəridir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Hüseyn Cavid Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflər siyahısına daxil edilmişdir. – 150.

**110. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 154, 172, 253.

**111. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 155, 169.

**112. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 155.

**113. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 155.

**114. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin Hüquq Departamentinin baş mütəxəssisi və müdiri vəzifələrində çalışmışdır. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin, 2011–2014-cü illərdə isə Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq şöbəsinin müdiri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə isə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir.

2018-ci ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 163.

**115. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-polkovnik. 2003–2013-cü illərdə Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların Komandanı vəzifəsində çalışmışdır. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı», «Rəşadət», «Şöhrət», «Zəfər» ordenləri ilə təltif edilmişdir. – 164, 205.

**116. Rəşad Nəbiyev,** R ə ş a d N ə b i o ğ l u (d.1977) – iqtisadçı. 2004–2011-ci illərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində şöbə müdiri işləmişdir. 2011–2021-ci illərdə «Azərkosmos» ASC-nin sədri olmuşdur. 2021-ci ildən Azərbaycan Respublikasının Rəqəmsal İkişaf və Nəqliyyat naziridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 164.

**117. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – hüquqşünas. 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 164.

**118. Mikayıl Cabbarov,** M i k a y ı l Ç i n g i z o ğ l u (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illər-

də Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 23 oktyabr 2019-cu ildən İqtisadiyyat naziridir. – 164, 165.

**119. Ceyhun Bayramov,** C e y h u n Ə z i z o ğ l u (d.1973) – iqtisadçı-hüquqşünas. 2018–2020-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. 16 iyul 2020-ci ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 165, 198.

**120. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 167.

**121. Nəsirəddin Tusi,** M ə h ə m m ə d i b n H ə s ə n (1201–1274) – Azərbaycanın görkəmli alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 167.

**122. Anar,** R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli publisist, dramaturq, ictimai xadim, Azər-

baycanın Xalq yazıçısı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin üzvü olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin üzvü və Mədəniyyət məsələləri Komitəsinin sədri, 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev mükafatı», «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 171.

**123. UNESCO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESCO-nun üzvüdür. UNESCO-nun əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək etməkdir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, irqi, cinsi, dil və ya dini mənsubiyyətindən asılı olmayaraq qanunvericilik və ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. – 187.

**124. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 194, 196.

**125. Saleh Məmmədov,** S a l e h Ə r ş a d o ğ l u (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı və «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 200, 216.

**126. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsəbə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 206, 209.

**127. Ramin Quluzadə,** R a m i n N a m i q o ğ l u (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini, 2016–2017-ci illərdə isə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar naziri vəzifələrində çalışıb. 2017–2021-ci illərdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri olmuşdur. 2021-ci ildən Azərbaycan Respublikası Prezidentinin İşlər müdiridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 220.

**128. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə

görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 232, 233, 253.

**129. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 234.

**130. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon $km^2$, əhalisi 37,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 239.

**131. İrakli Qaribaşvili** (d.1982) – Gürcüstan dövlət xadimi və siyasətçisi. 2013–2015-ci illərdə Gürcüstanın Baş Naziri olmuşdur. 2021-ci ildə yenidən Baş nazir seçilmişdir. – 241.

**132. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007–2022-ci illərdə Türkmənistanın Prezidenti olmuşdur. – 243, 244, 252.

**133. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 256.

**134. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 256.

**135. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya, Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 264.

**136. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 266, 268, 269, 275.

**137. Sahibə Qafarova,** S a h i b ə Ə l i q ı z ı (d.1955) – siyasi xadim. Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim. 2020-ci il martın 10-dan Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. – 270, 272, 273.

**138. Mustafa Şəntop** (d.1968) – Türkiyə siyasətçisi və dövlət xadimi. 2019-cu və 2020-ci ildə yenidən Türkiyə Böyük Millət Məclisinin Sədri seçilmişdir. – 274.

**139. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 276, 277.

**140. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 276.

**141. Birinci Qarabağ müharibəsi** – 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənis-

tanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 285, 288, 300.

**142. Həsən bəy Zərdabi,** Həsən bəy Səlim bəy oğlu Məlikov (1837–1907) – Azərbaycan publisisti, pedaqoq, maarifçi-demokrat, təbiətşünas. 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində «Əkinçi» qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. Əkinçi qəzeti Azərbaycan, həmçinin də bütün Rusiyada nəşr olunan ilk türk dilli qəzetdir. Həsən bəy Zərdabi Azərbaycan peşəkar teatrının yaradıcılarındandır. Onun rəhbərliyi

ilə, dramaturqlardan Nəcəf bəy Vəzirov və Əsgər ağa Adıgözəlovun fəal iştirakı ilə 1873-cü ildə M.F.Axundovun «Hacı Qara» və «Lənkəran xanının vəziri» komediyaları tamaşaya qoyulmuşdur. – 286.

**143. Mirzəağa Əliyev,** Mirzəağa Əli oğlu (1883–1954) – Azərbaycan teatr və kino aktyoru, SSRİ xalq artisti (1949), 2 dəfə «Stalin» mükafatı laureatı (1943, 1948). – 286.

**144. Əbdürrəhim bəy Haqverdiyev,** Əbdürrəhim bəy Əsəd bəy oğlu (1870–1933), Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi və teatr xadimi, pedaqoq, ədəbiyyatşünas, Azərbaycan SSR Əməkdar incəsənət xadimi. 1906-cı ildə «Həyat» qəzetində hekayələr və «Molla Nəsrəddin» jurnalında gizli imzalarla felyetonlar, məzhəkələr çap etdirib. «Marallarım», «Xortdanın cəhənnəm məktubları», «Şeyx Şaban», «Xəyalət», «Ac həriflər» və digər əsərlərin müəllifidir. – 286.

**145. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Zilhiccə ayının 10-cu günü başlanır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – Həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 290–292.

**146. Miloş Zeman** (d.1944) – Çexiyanın dövlət və siyasi xadimi. 2013-cü ildən Çex Respublikasının Prezidentidir. – 293.

**147. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 295, 296.

**148. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. «İrəli, Respublika» siyasi partiyasının yaradıcısı və lideridir. – 295.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abduraxmonov İbroxim** | – 164 |
| **Akar Hulusi** | – 9 |
| **Al Saud Türki** | – 125 |
| **Allahverdiyev Namiq** | – 288 |
| **Alvi Arif** | – 276 |
| **Aripov Abdulla** | – 134 |
| **Babayev Sahil** | – 163 |
| **Barak Ehud** | – 132 |
| **Bayden Cozef** | – 59, 61, 93, 281 |
| **Bayraktar Sümeyyə** | – 27 |
| **Bayraktar Səlçuk** | – 11, 17, 18, 22, 30 |
| **Bayramov Ceyhun** | – 165 |
| **Berdıməhəmmədov Qurbanqulu** | – 243, 244, 252 |
| **Berdıməhəmmədov Sərdar** | – 78, 245–248, 251, 252, 256 |
| **Bessonov Anatoli** | – 72 |
| **Birçal Ana** | – 193 |
| **Blinken Entoni** | – 93 |
| **Borrero Lobillo** | – 61 |
| **Cabbarov Mikayıl** | – 164, 165 |
| **Caferoviç Şefik** | – 109, 119, 120 |
| **Cavadov Fəxrəddin** | – 214 |

**Davletov Ruslanbek** – 164
**Donfrid Karen** – 93
**Əbu Reyhan Büruni** – 167
**Əfəndiyev Ənvər** – 214
**Əhməd Cavad** – 23
**Əhməd Fərqani** – 167
**Əhmədov Vüqar** – 80
**Əli Quşçu** – 150
**Əlişir Nəvai** – 167, 171
**Əliyev Heydər** – 6, 7, 23, 91, 138–150, 153, 154, 157, 158, 162, 166–168, 171–173, 178, 179, 183, 189, 190, 196, 205
**Əliyev Mirzəağa** – 286
**Əliyeva Arzu** – 27
**Əliyeva Mehriban** – 10, 11, 27, 28, 71, 183
**Ərdoğan Əminə** – 10, 11, 27, 28
**Ərdoğan Rəcəb Tayyib** – 8, 10, 11, 12, 14–16, 18, 19, 27–31, 122, 274, 297, 299
**Əzizov Eldar** – 75
**Fateh Sultan Məhmət** – 13, 122
**Fərzəliyev Fərzəli** – 288
**Freyberqa Vayra** – 94, 97, 107, 108, 111
**Haqverdiyev Əbdürrəhman** – 286

**Hends Uilyam** – 64
**Həsənov Zakir** – 164, 205
**Həsənzadə Ramil** – 88
**Hümmətov Namiq** – 202
**Hüseyn Cavid** – 150
**Xurşidbanu Natəvan** – 20
**Xusanov Nozim** – 163
**II Elizabet** – 67
**İrqaşev İbrahim** – 164
**Kesnoy Adrian-İonuts** – 193
**Kərimov İnam** – 164
**Kərimov İslam** – 134, 142, 146
**Klaar Toivo** – 300
**Konti Laura** – 203, 204
**Kurbanov Baxodir** – 165
**Qafarova Sahibə** – 270, 272, 273
**Qaribaşvili İrakli** – 241
**Qasımov Bünyad** – 286, 288, 289
**Qebreyesus Adhanom** – 110, 123, 124
**Qeyt Əhməd** – 112, 130, 131
**Qrabar Kolinda** – 133
**Quliyev Elşad** – 88
**Quluzadə Ramin** – 220
**Lavrov Sergey** – 194, 196
**Loxman Laura** – 36, 59
**Luni Bernard** – 199

**Maduro Nikolas** – 126
**Maxkamov İlham** – 164
**Makron Emmanuel** – 295
**Mattarella Sercio** – 69
**Meredov Rəşid** – 242
**Meta İlir** – 108, 109, 117
**Məhəmməd Füzuli** – 167
**Məmmədov Orxan** – 87
**Məmmədov Saleh** – 200, 216
**Mirziyoyev Şavkat** – 135–138, 144, 147, 149–174, 177, 178, 180, 182–185, 187, 189–192, 278, 279
**Mixayloviç Zorana** – 38, 39
**Mikayılov Zaur** – 229
**Milanoviç Zoran** – 33
**Mirzə Uluqbəy** – 147, 150
**Mişel Şarl** – 37, 102, 284, 300
**Mohd Şərif** – 238, 239
**Mustafa Kamal Atatürk** – 90
**Narbayeva Tənzilə** – 183, 278, 279
**Nəbiyev Rəşad** – 164
**Nəzərli Əli** – 150
**Nizami Gəncəvi** – 94–97, 99, 106, 108, 110, 111, 113, 129, 141, 167

**Norov Vladimir** – 165
**Nuru Paşa** – 20
**Popesku Virgil-Daniel** – 193
**Putin Vladimir** – 37, 74, 196, 197, 256, 258, 259
**Ramiz Əsgər** – 171
**Revazov Uruzmaq** – 72
**Rəhimova Mehriban** – 149
**Rəisi İbrahim** – 34, 77, 249, 256, 301
**Rəşidov Şərəf** – 142, 146, 147
**Rzayev Anar** – 171
**Rzayev Baba** – 215, 227
**Sancrani Sadiq** – 276
**Sandu Maya** – 35
**Sedlaçek Milan** – 293
**Serageldin İsmail** – 94, 95, 97, 108, 111, 112
**Seyidbəyli Həsən** – 75
**Səlimov Akil** – 147, 148
**Səməd Vurğun** – 140
**Səncər Əziz** – 12, 13, 17, 19, 27
**Simson Kadri** – 61, 62
**Şamxani Əli** – 301
**Şəntop Mustafa** – 274
**Taha Hisseyn** – 232, 233
**Teylor Rassel** – 45
**Tokayev Kasım-Jomart** – 256

**Tusi Nəsirəddin** – 167
**Umurzakov Sardor** – 165
**Vahabzadə Bəxtiyar** – 20
**Valovaya Tatyana** – 111, 112, 128, 129
**Vuçiç Aleksandr** – 38
**Yarinovski Pavel** – 72
**Yıldırım Binəli** – 110, 111, 122
**Yusifzadə Xudayar** – 20
**Zakirov Batır** – 148
**Zərdabi Həsən bəy** – 286
**Zeman Miloş** – 293
**Zurabişvili Salome** – 109, 110, 116

## Coğrafi adlar göstəricisi

**Abadan** – 34
**Abşeron** – 286, 287
**Ağalı** – 7, 226, 237
**Ağdam** – 26, 202, 226, 235, 237, 240
**Ağoğlan** (*Hadrut*) – 206, 209
**Aktau** – 252
**Alagöllər** – 217
**Albaniya** – 52, 117, 118
**Almaniya** – 30
**Amerika Birləşmiş Ştatları** – 12, 30, 36, 52, 59, 60, 61, 93, 240, 264, 281–283
**Anadolu** – 21
**Artvin** – 19
**Asiya** – 156, 175
**Aşqabad** – 242, 243, 246, 249, 251, 257, 258
**Avrasiya** – 93
**Avropa** – 36, 41, 49, 51, 52, 60, 63, 83, 84, 86–88, 93, 97, 106, 185

**Bolqarıstan** – 52
**Bosniya və Herseqovina** – 109, 119–121
**Böyük Britaniya** – 45, 64, 67
**Brüssel** – 102, 284, 300
**Cenevrə** – 111, 128, 129
**Cəbrayıl** – 57, 199, 202
**Çanaqqala** – 20
**Çex** – 293, 294
**Çin** – 155
**Daşkənd** – 134–138, 142, 152, 153, 156, 163, 166, 173, 177, 180, 182, 184, 190, 191
**Estoniya** – 30
**Ələt** – 155, 294
**Fransa** – 295, 296
**Füzuli** – 20, 26, 161, 202
**Gəncə** – 20, 217
**Göygöl** (*rayon*) – 200, 201
**Güləbird** – 228
**Gürcüstan** – 48, 49, 52, 64, 105, 109, 110, 116, 241
**Hacıqabul** – 155, 160, 170
**Hirosima** – 235
**Həştərxan** – 197
**Xankəndi** – 212
**Xarəzm** – 187, 190, 191

**Xivə** – 185–191
**Xorvatiya** – 33, 133
**İran** – 34, 77, 249, 256, 301, 302
**İspaniya** – 88
**İsrail** – 132
**İstanbul** – 122
**İstisu** – 201, 218, 220, 221, 222
**İtaliya** – 52, 69, 70, 114, 115
**Kabil** – 156
**Kanada** – 239
**Katovitse** – 234
**Keniya** – 239
**Kəlbəcər** – 55, 200–206, 208, 209, 211–225, 230
**Koreya** – 30
**Qafqaz** – 59, 90, 99, 105, 106, 110, 111, 141, 175, 282, 284, 295
**Qarabağ** – 18, 22, 24, 58, 98, 101, 161, 206, 207, 209, 212, 223, 259
**Qazaxıstan** – 256
**Qırğızıstan** – 155
**Qorçu** – 227
**Laçın** – 20, 26, 55, 101, 200,

211, 213, 216, 218–224, 227–231
**Latviya** – 107, 108
**Litva** – 30
**Lələtəpə** – 206
**Macarıstan** – 30
**Madrid** – 104, 271, 272
**Makedoniya** – 30
**Mardin** – 14
**Məşhəd** – 77
**Məzari** – 156
**Mirabad** – 149
**Misir** – 112, 130
**Moldova** – 35
**Moskva** – 194
**Murovdağ** – 200, 201, 212
**Naxçıvan** – 101
**Naxçıvan Muxtar Respublikası** – 101, 145, 196
**Nayrobi** – 239
**Nyu-York** – 262
**Özbəkistan** – 134–139, 142–144, 146–155, 157, 158, 160, 161, 163–168, 172–174, 176–178, 180, 182–185, 187, 189–192, 278, 279

**Pakistan** – 276, 277
**Pirşağı** – 288
**Pişəvər** – 156
**Perm** – 197
**Polşa** – 234
**Ramana** – 286–289
**Rizə** – 15, 19
**Rumıniya** – 88, 193
**Rusiya** – 37, 64, 74, 104, 114, 185, 194, 195, 197, 198, 256, 258–260
**Sabirabad** – 229
**Sankt-Peterburq** – 195
**Savur** – 14
**Serbiya** – 38, 39
**Səmərqənd** – 157, 172, 191
**Səudiyyə Ərəbistanı** – 125
**Slovakiya** – 83
**Şəki** – 149
**Şərif** – 156
**Şri-Lanka** – 240
**Şuşa** – 12, 16, 17, 22, 90, 96, 99, 122, 199, 208, 209, 211, 213, 226, 230, 234
**Tehran** – 250
**Termez** – 156

**Toğanalı** – 200, 201
**Türkiyə** – 8–22, 26, 27, 29–32, 48, 49, 52, 64, 90, 91, 110, 111, 122, 274, 275, 297–299
**Türkmənistan** – 78, 79, 242–247, 249, 251, 252, 256, 260
**Ukrayna** – 60, 64, 87, 104, 114
**Ürgənc** – 184, 192
**Vankuver** – 239
**Venesuela-Bolivar** – 126, 127
**Yəzd** – 77
**Yunanıstan** – 52
**Zəngəzur** – 56, 58, 102, 103, 105, 213, 223
**Zəngilan** – 7, 26, 202, 224, 237

# MÜNDƏRİCAT

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2022-ci il................................................................ 5*

TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 may 2022-ci il................................................................ 9*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÖLKƏMİZƏ SƏFƏRİ

*28 may 2022-ci il.............................................................. 10*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ «TEKNO-FEST AZƏRBAYCAN» AEROKOSMİK VƏ TEXNOLOGİYA FESTİVALINDA İŞTİRAK

*28 may 2022-ci il.............................................................. 11*

«ASAN XİDMƏT» VƏ «BİLİM BAKI» MƏRKƏZLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 may 2022-ci il.............................................................. 29*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZORAN MİLANOVİÇƏ

*29 may 2022-ci il*............................................................. *33*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD İBRAHİM RƏİSİYƏ

*30 may 2022-ci il*............................................................. *34*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ MAYA SANDU İLƏ TELEFONLA GÖRÜŞ

*30 may 2022-ci il*............................................................. *35*

ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ LAURA LOXMAN İLƏ GÖRÜŞ

*31 may 2022-ci il* ............................................................ *36*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*31 may 2022-ci il* ............................................................ *37*

SERBİYA RESPUBLİKASININ BAŞ NAZİR MÜAVİNİ, MƏDƏN VƏ ENERGETİKA NAZİRİ ZORANA MİXAYLOVİÇ İLƏ GÖRÜŞ

*1 iyun 2022-ci il* ............................................................. *38*

«BAKI ENERJİ HƏFTƏSİ»NİN
İŞTİRAKÇILARINA

*1 iyun 2022-ci il* ............................................................. *40*

«BAKI ENERJİ HƏFTƏSİ» ÇƏRÇİVƏSİNDƏ
27-ci BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ
SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ
İŞTİRAK

*1 iyun 2022-ci il* ............................................................. *45*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLAN-
DİYA KRALİÇASI ÜLYAHƏZRƏT
II ELİZABETƏ

*2 iyun 2022-ci il* ............................................................. *67*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SERCİO
MATTARELLAYA

*2 iyun 2022-ci il* ............................................................. *69*

«ŞƏRQ BAZARI» KOMPLEKSİNİN
BƏRPA VƏ YENİDƏN QURULMADAN
SONRA AÇILIŞI MƏRASİMİ

*6 iyun 2022-ci il* ............................................................. *71*

RUSİYA FEDERASİYASININ PREZİ-
DENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR
PUTİNƏ

*8 iyun 2022-ci il* ............................................................. *74*

SƏBAİL RAYONUNDA YENİ SALINMIŞ ÇƏMBƏRƏKƏND PARKINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2022-ci il* ........................................................................ *75*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD İBRAHİM RƏİSİYƏ

*9 iyun 2022-ci il* ........................................................................ *77*

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SƏRDAR BERDIMƏHƏMMƏDOVA

*10 iyun 2022-ci il*...................................................................... *78*

«AZƏRİŞIQ» ASC-nin 110/35/10 KİLOVOLTLUQ YENİ YARIMSTANSİYASI VƏ RƏQƏMSAL ŞƏBƏKƏLƏRİN BAŞ İDARƏETMƏ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*10 iyun 2022-ci il*...................................................................... *80*

MİNİ-FUTBOL ÜZRƏ AVROPA ÇEMPİONATININ QALİBİ OLAN MİLLİ KOMANDAMIZIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*14 iyun 2022-ci il*...................................................................... *83*

«AZƏRBAYCAN – TÜRKİYƏ STRATEJİ MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ QAFQAZ VƏ REGİON ÜÇÜN SÜLH VƏ SABİTLİK MƏNBƏYİDİR» MÖVZUSUNDA

BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*14 iyun 2022-ci il.............................................................. 90*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ KAREN DONFRİD İLƏ GÖRÜŞ

*15 iyun 2022-ci il.............................................................. 91*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ VAYRA VİKE-FREYBERQA, İSMAİL SERAGELDİN, SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI, MƏRKƏZİN İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*15 iyun 2022-ci il ............................................................. 94*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN TƏŞKİLATÇILIĞI İLƏ «QLOBAL DÜNYA NİZAMINA TƏHDİDLƏR» MÖVZUSUNDA IX QLOBAL BAKI FORUMUNDA İŞTİRAK

*16 iyun 2022-ci il ............................................................. 95*

GÜRCÜSTAN PREZİDENTİ XANIM SALOME ZURABİŞVİLİ İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il ........................................................... 116*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ İLİR META İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il ........................................................... 117*

BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ ŞEFİK CAFEROVİÇ İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il............................................................. 119*

TÜRKİYƏ RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il ............................................................ 122*

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM QEBREYESUS İLƏ GÖRÜŞ

*16 iyun 2022-ci il............................................................. 123*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRAL FAYSALIN İSLAM ARAŞDIRMALARI MƏRKƏZİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ ŞAHZADƏ TÜRKİ AL FAYSAL AL SƏUD İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il............................................................. 125*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*17 iyun 2022-ci il............................................................. 126*

BMT BAŞ KATİBİNİN MÜAVİNİ VƏ BMT-nin CENEVRƏDƏKİ BÖLMƏSİNİN BAŞ DİREKTORU TATYANA VALOVAYA İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il............................................................. 128*

ƏRƏB DÖVLƏTLƏRİ LİQASININ BAŞ KATİBİ, MİSİRİN SABİQ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD ƏBUL QEYT İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il............................................................ 130*

İSRAİL DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il............................................................ 132*

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*17 iyun 2022-ci il............................................................ 133*

ÖZBƏKİSTAN RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*21 iyun 2022-ci il............................................................ 134*

«KUKSAROY» DÖVLƏT İQAMƏTGAHINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*21 iyun 2022-ci il............................................................ 135*

«KUKSAROY» DÖVLƏT İQAMƏTGAHININ FƏXRİ QONAQLAR XİYABANINDA AĞACƏKMƏ MƏRASİMİ

*21 iyun 2022-ci il............................................................ 136*

MÜSTƏQİLLİK ABİDƏSİNİ ZİYARƏT

*21 iyun 2022-ci il............................................................ 137*

HEYDƏR ƏLİYEV MEYDANININ
AÇILIŞI MƏRASİMİ

*21 iyun 2022-ci il............................................................ 138*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİ-
DENTİ ŞAVKAT MİRZİYOYEV
İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*21 iyun 2022-ci il............................................................ 152*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*21 iyun 2022-ci il............................................................ 153*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*21 iyun 2022-ci il ........................................................... 163*

ÖZBƏKİSTAN RESPUBLİKASININ
PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV
İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*21 iyun 2022-ci il ........................................................... 166*

TEXNOPARK MMC-nin FƏALİYYƏTİ
İLƏ TANIŞLIQ

*21 iyun 2022-ci il............................................................ 180*

«KUKSAROY» DÖVLƏT İQAMƏTGAHINDA
AZƏRBAYCAN PREZİDENTİNİN
ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*21 iyun 2022-ci il............................................................ 182*

ÜRGƏNC ŞƏHƏRİNƏ SƏFƏR

*22 iyun 2022-ci il............................................................ 184*

NURULLABOY SARAY KOMPLEKSİ
İLƏ TANIŞLIQ

*22 iyun 2022-ci il............................................................ 185*

İÇAN-QALA DÖVLƏT TARİXİ-MEMARLIQ
MUZEYİ İLƏ TANIŞLIQ

*22 iyun 2022-ci il............................................................ 187*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏ-
FİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA
İŞTİRAK

*22 iyun 2022-ci il............................................................ 189*

AZƏRBAYCAN–RUMINİYA HÖKUMƏT-
LƏRARASI TİCARƏT-İQTİSADİ ƏLAQƏLƏR
VƏ ELMİ ƏMƏKDAŞLIQ ÜZRƏ MÜŞTƏRƏK
KOMİSSİYANIN HƏMSƏDRİ VİRGİL-
DANİEL POPESKU VƏ BİR QRUP NÜMA-
YƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyun 2022-ci il............................................................ 193*

RUSİYA FEDERASİYASININ XARİCİ
İŞLƏR NAZİRİ SERGEY LAVROV
İLƏ GÖRÜŞ

*23 iyun 2022-ci il............................................................ 194*

*bp* QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU BERNARD LUNİ İLƏ GÖRÜŞ

*24 iyun 2022-ci il.......................................................... 199*

GÖYGÖL, KƏLBƏCƏR VƏ LAÇIN RAYONLARINA SƏFƏR

*26 iyun 2022-ci il.......................................................... 200*

SİLAHLI QÜVVƏLƏR GÜNÜNDƏ KƏLBƏCƏRDƏ KOMANDO HƏRBİ HİSSƏSİNƏ DÖYÜŞ BAYRAĞININ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*26 iyun 2022-ci il.......................................................... 205*

LAÇIN RAYONUNDA 110 kV-luq «QORÇU» ELEKTRİK YARIMSTANSİYASINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*26 iyun 2022-ci il ........................................................ 227*

LAÇIN BEYNƏLXALQ HAVA LİMANINDA APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞLIQ

*26 iyun 2022-ci il.......................................................... 230*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ HİSSEYN BRAHİM TAHA İLƏ GÖRÜŞ

*27 iyun 2022-ci il.......................................................... 232*

ÜMUMDÜNYA ŞƏHƏR FORUMUNUN «DAHA YAXŞI GƏLƏCƏK NAMİNƏ ŞƏHƏRLƏRİMİZİ DƏYİŞDİRƏK»

MÖVZUSUNDA 11-ci SESSİYASINDA
VİDEOFORMATDA ÇIXIŞ

*27 iyun 2022-ci il*............................................................. *234*

GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ
QARİBAŞVİLİ İLƏ TELEFONLA GÖRÜŞ

*28 iyun 2022-ci il*............................................................. *241*

TÜRKMƏNİSTANA SƏFƏR

*29 iyun 2022-ci il*............................................................. *242*

TÜRKMƏNİSTAN PARLAMENTİ XALQ
MƏSLƏHƏTİNİN SƏDRİ QURBANQULU
BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*29 iyun 2022-ci il*............................................................. *243*

TÜRKMƏNİSTAN PREZİDENTİ
SƏRDAR BERDIMƏHƏMMƏDOV
İLƏ GÖRÜŞ

*29 iyun 2022-ci il*............................................................. *246*

İRAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİ
İLƏ GÖRÜŞ

*29 iyun 2022-ci il*............................................................. *249*

XƏZƏRYANI DÖVLƏTLƏRİN DÖVLƏT
BAŞÇILARININ VI ZİRVƏ TOPLANTISINDA
İŞTİRAK

*29 iyun 2022-ci il*............................................................. *251*
XƏZƏRYANI DÖVLƏTLƏRİN DÖVLƏT

BAŞÇILARININ VI ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*29 iyun 2022-ci il.............................................................. 257*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*29 iyun 2022-ci il.............................................................. 258*

«QOŞULMAMA HƏRƏKATI» PARLAMENT ŞƏBƏKƏSİNİN «DÜNYADA SÜLHÜN VƏ DAYANIQLI İNKİŞAFIN TƏŞVİQİNDƏ MİLLİ PARLAMENTLƏRİN ROLUNUN GÜCLƏNDİRİLMƏSİ» MÖVZUSUNA HƏSR OLUNMUŞ BAKI KONFRANSINDA İŞTİRAK

*30 iyun 2022-ci il.............................................................. 261*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MUSTAFA ŞƏNTOP İLƏ GÖRÜŞ

*30 iyun 2022-ci il.............................................................. 274*

PAKİSTAN İSLAM RESPUBLİKASI SENA-TININ SƏDRİ MƏHƏMMƏD SADİQ SANCRANİ İLƏ GÖRÜŞ

*30 iyun 2022-ci il.............................................................. 276*

ÖZBƏKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ SENATININ SƏDRİ TƏNZİLƏ NARBAYEVA İLƏ GÖRÜŞ

*30 iyun 2022-ci il ............................................................. 278*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COZEF BAYDENƏ

*4 iyul 2022-ci il ............................................................... 281*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*4 iyul 2022-ci il ............................................................... 284*

BAKININ RAMANA QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*6 iyul 2022-ci il ............................................................... 286*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*7 iyul 2022-ci il ............................................................... 290*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABINDAN

*9 iyul 2022-ci il ............................................................... 292*

ÇEX RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MİLAN SEDLAÇEK İLƏ GÖRÜŞ

*12 iyul  2022-ci il ............................................................ 293*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

*13 iyul 2022-ci il* ............................................................ *295*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*13 iyul 2022-ci il* ............................................................ *297*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*15 iyul 2022-ci il* ............................................................ *299*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAAR İLƏ GÖRÜŞ

*15 iyul 2022-ci il* ............................................................ *300*

İRAN İSLAM RESPUBLİKASININ ALİ MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ ƏLİ ŞAMXANİ İLƏ GÖRÜŞ

*15 iyul 2022-ci il* ............................................................ *301*

QEYDLƏR ............................................................ *303*

*Şəxsi adlar göstəricisi*............................................................ *357*

*Coğrafi adlar göstəricisi*............................................................ *363*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,0. Uçot nəşr vərəqi 24,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.